T.Ə.ƏLİRZAYEVA
Ə.Q.ƏLİRZAYEV

# ƏHALİNİN GƏLİRLƏRİ VƏ İSTEHLAKININ MALİYYƏ MEXANİZMLƏRİ

Bakı – «Elm» – 2007

*Elmi redaktorlar.* *iqtisad elmləri doktoru,*
*professor* **N.M.Allahverdiyev**
*iqtisad elmləri doktoru,*
*professor* **S.Yaqubov**

**ƏUrzayeva Təranə Əli qızı,** *iqtisad elmləri namizədi,* **Əlirzayev Əli Qənbərəli oğlu,** *əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor.* **Əhalinin gəlirləri və istehlakının maliyyə mexanizmləri. Bakı: «Elm», 2007. — 248 s.**

**ISBN 5-8066-1616-9**

Monoqrafiyada əhalinin gəlir ve istehlakının formalaşması və idarə edilməsinin maliyyə mexanizmləri tədqiq olunub, onun təkmilləşmə istiqamətləri verilib. Kitab həyat səviyyəsi ve əhalinin gəlir ve istehla- kınm əlaqəsini təşkil edən kompleks tədqiqatın nəticəsidir.

Monoqrafiya elmi işçilər, tələbələr və iqtisadi idarəetmə orqanları üçün əhəmiyyətlidir.

Onun yazılmasında müəlliflərin uzunmüddətli apardıqları tədqiqat və tədrisin nəticələri ümumiləsib.

0605010407
655(07)-2007

© «EIm» nəşriyyatı, 2007

# GIRIŞ

Əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yoxsulluğun ləğvi və iqtisadi təhlükəsizlik konseptual inkişaf istiqaməti olaraq Azərbaycan iqtisadiyyatının müasir problemlərini təşkil edir. Ölkə iqtisadiyyatının tarazlı və davamlı inkişafı və beynəlxalq iqtisadi inkişaf qanunauyğunluqların uyğun meyllər və dinamika formalaşdınnaq və inteqrasiyanın məzmun və dərinliyini daha intensiv təmİn etmək strategiyası bazar iqtisadiyyatı şəraitində Azərbaycanın iqtisadi transformasiyasının nəzəri və metodoloji xüsusiyyətlərini əks etdirir.

Bazar iqtisadiyyatı şəraitində həyat səviyyəsinin yüksəldilməsi, onun amilləri və resurslarının artınıması və bölgüsünün təşkili, idarəetmə və tənzimləmə obyekti olaraq, sosial-iqtisadi effekt kimi qiymətləndirilməlidir. Bazar iqtisadiyyatı qanunauyğunluqları, stimul, maraqlar və rəqabət dözümlü fəaliyyət və iqtisadi əlaqələr, çevİk texnoloji siyasət və davamlı inkişaf strategiyasına uyğun iqtisadi-təşkilati və idarəetmə mexanizmləri prizmasından həll edildiyi kimi sosial nəticələrin qabaqcadan proqnozu və onun səmərəli amil kimi qiymətləndirilməsi və nəzərə alınmaması kompleks tədqiqat obyekti olmaqla mürəkkəb sosial-iqtisadi, maliyyə və təşkilatı idarəetmə problemlərinin vəhdətli təhlilini və proqnozunu tələb edir.

Bu nəzəri problemlər baxımından əhalinin həyat səviyyəsinin əsas göstəricisi olan əhali gətirlərinin iqtisadi və maliyyə sistemində rolunu nəzərə alaraq bazar tİpli transformasiya modelini do nəzərə almaq elmi və praktiki əhəmiyyət kəsb edir. Əhali gəlirlərinin formalaşması, onun dinamikası hər bir ölkədə ümumi iqtisadi inkişaf dinamikası, onun iqtisadi artımı, bölgü vo sosial siyasətin nəticələri olaraq, ümumi meyllər və sosial-iqtisadi- ərazi qütbləşməsi əmələ gətİrİr. Mehz mövcud reallıqlar əhali gəlirlərinin və onun xərclərinin ümumi dinamikasında, ayrı-ayrı sosial-iqtisadi, peşə və məşğuliyyət strukturundan asılı otaraq alıcılıq qabiliyyətinin vo tələbatın ödənilmə dərəcəsinin müxtəlifliyi ilə xarakterizə olunur. Əhali gəlirləri bütövlükdə iqtisadi idarəetmənin nəticəsi və güzgüsü olduğu kimi, iqtisadi tarazlığı,

sosial ədaləti və stimul yaratmaq mexanizmi kimİ öyrənməsi və idarə olunması, elmİ cəhətdən yeni üsullar və yanaşma tərzi tələb edir.

Gəlirlərin tədqiqinin aktuallığı münasibətlər sistemində əsas subyektlər, mülkiyyətçilərin və əhali ilə dövlət, habelə ayrı təsərrüfat idarəetmə obyektlərin arasındakı münasibətləri formalaşdırır və inkişaf etdirir.

Əhali gəlirlərinin öyrənilməsi qoyulan məqsəddən, gözlənilən nəticələrin proqnozundan və elmi axtarışlar dövriyyəsinə cəlb edilən informasiya bazasından, habelə təkmilləşdirmə nöq- tcyi nəzərdən nominal yanaşma metodologiyasından asılı olaraq formalaşır və dərinləşir.

İqtisadiyyatda və iqtisadi fikİr tarixində əhali gəlirlərinə klassik yanaşma, bölgü münasibətlərinin təhlili və qiymətləndirilməsi üçün daha tətbiqi sahə kimi qəbul edilirdi. Müasir şəraitdə əhali gəlirlərinə, həyat səviyyəsi, bölgü mexanizmi və yox- sulluğun ləğvi kimi baxmaq daha geniş tədqiqat obyekti kimi genişlənir. Biz isə həyat səviyyəsinin yüksəldilməsi konsepsiyası baxımından əhali gəlirlərinin idarə etmə mexanizmi kimi onun formalaşması və dinamikasının müasir meyllərə uyğunluğu baxımından qiymətləndirib, maliyyə-kredit və dövlət idarəetmə mexanizmləri ilə əlaqəsini təkmilləşdirmək prizmasından baxmağı əsaslandınnq. Əhali gəlirləri iqtisadi və sosial siyasətin bölgü münasibətlərin və iqtisadi islahatlann səmərəli təşkili, stimullaşdırma mexanizmlərinin vəhdətinin səmərəsi kimi qəbul edirik. Bu yanaşma əhali gəlirlərinin formalaşma və dinamikasına təsir edən amillərin nəzəri və real həyatda təsirini qiymətləndinnək, əhali gəlirlərinə sosial siyasətin və həyat səviyyəsinin amili kimi baxmaq, son nəticədə əhali gəlirlərinə bazar iqtisadiyyatı şəraitində tənzimləmə mexanizmi, demokratik inkişaf amili, həmçinin dövlətin strateji inkişaf prioritetlərinin və alternativ inkişaf ste- riotİplərinin seçilməsi üçün meyarlar məcmuu kimi qəbul edirik. Ona görə de qoyulan problemlərin yeniliyinə görə tamamilə yeni aspekt kəsb edir. Gəlirlərin bütövlükdə mahiyyətini onun əsas amillərini və onun maliyyə əsaslannın tədqiqi və vəhdətdə proqnozu, əvvəlki tədqiqatlardan fərqli olaraq yeni yanaşma meto-

do] og iy asıdır.

Əhati gəlirləri və həyat səviyyəsi problemləri üzrə Azərbaycanda və digər ölkələrdə bazar iqtisadiyyatı şəraitində demək olar ki, çox az tədqiqatlat apanimışdır. Gəlirlər daha çox dövlət büdcəsi və əhalinin rifahının dəyişməsi kompleksdə tədqiq olunur. Sosializm dövründə əhalinin gəlirləri və real gəlirlər daha çox həyat səviyyəsinin, maddi rifahın göstəricisi kimi ümumiləşmiş formada, yaxud fəhlə və qulluqçuların, yaxud ayrı-ayrı sahələrin əmək haqqı gəlirləri səviyyəsində Öyrənilmişdir. Bu istiqamətdə akademik Z.Səmədzadənin, Ə.Mahmudovun, akademiyanın müxbir üzvü A.Əliyevin, professorlardan H.Allahverdiyevin, Ə.Əlirzayevin, Ə.Qasımovun, A.Qasımovun, A.Şə- kərəliyevin tədqiqatlarım göstərmək olar. Həyat səviyyəsinin emək və demoqrafik proseslərlə bağlı bəzi məsələləri akademiyanın müxbir üzvü Ş.Muradovun, T.Quliyevin, R.Quliyevin əsərlərində tətqiq olunmuşdur. Həyat səviyyəsinin makroiqtisadi və tarazlı inkişaf metodlan çərçivəsində balans tədqiqatı olaraq iqtisadçı alimlər V.Axundovun, Q.İmanovun, R.Həsənovun, N.Qənizadə, Ə.Əzizovanın tədqiqatlarını göstərmək olar.

Bütün bu tədqiqatlar bazar tipli inkişaf modeli çərçivəsində yeni aspektlər kəsb edir. Məhz əhali gəlirlərinin maliyyə mexanizmləri ilə kompleks və sistemli öyrənilməsi, əhali gəlirlərinin iqtisadi idarəetmə mexanizmini, digər mexanizmlərlə vəhdətini və qarşılıqlı əlaqələrinin nəzəri və praktiki problemlərinə baxmaq nəzərdə tutulur. Əvvəlki tədqiqatlardan fərqli olaraq gəlirlərin formalaşması və istifadəsi arasında, rəqabət mühiti və davamlı inkişaf məqsədi ilə idarəetmə və çevik stimullann tətbiqi və onun proqnozunun verilməsi tələb olunur. Bazar tipli inkişaf modelinə uy^n olaraq əhali gəlirlərinin differensiyasımn tədqiqi və dövlət idarəçiliyində tənzimləmə siyasətinə yanaşma metodologiyası olmalıdır.

Mövzunun aktuallığı onun tədqiqi məqsədlərini və əsas vəzifələrini formalaşdırır. Konseptual müddəalar və fəal təsir gücünün elmi əsaslannı vermək məqsədi ilə monoqrafiyanın əsas məqsədi: əhali gəlirlərinin formalaşması və idarə olunmasının nəzəri metodoloji və praktiki istiqamətlərinin bazar iqtisa-

**diyyab şəraitində səmərəli yollanmn, təşkili mexanizmlərinin və həmçinin təhlil və proqnozunun metodiki əsaslarını verməkdən ibarətdir. Qoyulan məqsədin heyata keçirilməsi məhz təhlil olunan və idarə etmənin təkmilləşdirilməsi sferasında bir sıra məsələlərin həllinə imkan yaradır. Bu məqsədlər üçün əsas aşağıdakı məsələlərin baxılması nəzərdə tutulur:**

1. **Əhali gəlirlərinin formalaşmasının menbeəieri, gəlirlərin idarə edilməsinin məqsədi ve onun sosial ictimai və iqtisadi əhəmiyyəti.**
2. **Əhali gəlirlərinin Azerbaycan iqtisadiyyatı ilə onun ayn- ayn bölmələri ve strukturlan ilə münasibət forması kimi əlaqələrinin metodoloji metodiki cəhətlərinin tədqiqi.**
3. **Əhali gəlirlərinin hər bir növünün maliyyə əsaslarını tədqiq edib, maliyyə mexanizmlərinin idarəetmə sisteminin təkmilləşdirilməsi.**
4. **Əhali gəlirlərinin Azərbaycan Respublikasında dinamikasım, onun artırilması mənbələrini ve ərazi sahə həmçinin sosial- iqtisadi qruplar üçün differensiyasımn tədqiqi ve transformasiya- sımn amillərin dəyişmə dinamikasına uyğun olaraq əsas meyllərini təhlil edib proqnoz İstiqamətlərini müəyyən etmək,**
5. **Əhali gəlirlərini dövlət büdcəsi və dövlət gəlirləri ilə əlaqəsini, qarşıhqlı təsir və ümumi təsnifat ve fərqli cəhətlərinin əlaqələndirilməsinin metodiki məsələlərini ve konkret formala- nnm sistemli və reallaşmaq müstəvisinə qədər sxematik və riyazi üsullarla tədqiqi və təhlili.**
6. **Əhali gəlirləri bazar gəlirləri kimi mülkiyyət münasibətləri, idarəetmə funksiyalan və təsərrüfat formalan ilə əlaqəsinin mexanizmlərinin açılması və sahibkarlıqdan gələn gəlirlərin mo- difıkasİyasım, onun təsnifatlaşdmlması ve əhali gəlirlərinin formalaşmasında rolu və əsas təsir qüvvəsini təhlil edib qiymətlə- dirməklə sahibkarlığm perspektiv inkişafı meyllərində əhali gətirlərin deyişmə dinamikasını və onun anatomiyasının açılması.**
7. **Əhali gəlirlərinin formalaşmasında transferi gəlirlərin rolunu, perspektivini, onun maliyyə mənbələrinin dinamikasım və perspektivini əsaslandırmaqla transfert gəlirlərin əhali rifahı baxımından əsas amillərini və təşkilati idarəetmə strukturunun**

təlcmilləşdirilməsi.

8. Əhali gəlirlərinin spesifik forması olan pensiya gəlirlərinin formalaşmasının əsas amillərini, respublikada onun differensiyasını, pensiya gəlirlərinin idarəedilməsi və maliyyə mənbələrinin, yeni metodlarının, stimullaşdırma qaydalannın və pensiya təminatında əmək və sosial müdafiə tədbirlərinin uzlaşması və tarazlı inkişafı təmin edən idarəetmə metodikasının təkmilləşdirilməsi.

9. Əhali gəlirlərinin əsas tərkibi olan və digər gəlirlərin formalaşması, inkişafı və dinamikasını tənzimləmək məqsədi ilə əmək haqqı gəlirlərinin iqtisadi artımla əlaqəsini, onun differensiyasını, əmək haqqı gəlirləri ilə minimum istehlak büdcəsinin müəyyən edilməsi və onlar arasında qarşılıqlı təsir və əlaqələrin ölçülməsi, qiymətləndirilməsi və idarə olunmasının metodiki əsaslarını və sosİal-iqtisadi nəticələrini vermək və stimullaşdırma mexanizmi, uçot və ədalətli bölgü sistemini müəyyənləşdirmək prinsiplərini hazırlamaq.

10.Əhali gəlirlərinin artınimasmda iqtisadi artımın və sosial-iqtisadi amillərin hər birinin təsir gücünü kompleks təhlil və iqtisadi-riyazi qiymətləndirməklə ən aparıcı amillərin və islahatlarla bağlı əldə olunan sosial təminat prinsiplərinin və konkret tədbirlərin elmi əsaslarını, dəyişmə meyllərini və parametrlərinin analitik və funksional deyişmə texnologiyası vermək.

11.Əhali gəlirlərinin təhlili, tədqiqi və proqnozunun bazar iqtisadiyyatına uyğun formalaşma və inkişaf xüsusiyyətlərini nəzərə alaraq, balans modelinin, paylanma qanunauyğunluqlarının və transformasiya modelinin real Azərbaycan timsalında və mövcud formalaşan qanunauyğunluqlan nəzərə almaqla təkmilləşdirmə istiqamətlərini vermək.

12.Əhali gəlirlərinin sosial müdafiə məqsədlərində rolunu nəzərə almaqla dövlət büdcəsinin tərtibi, təsdiqi və reallaşması üçün tövsiyyələr vermək, büdcə-vergİ və maliyyə kredit sisteminin yaxşılaşdıniması və aşkarlığı üçün konkret təkliflər vermək və həmçinin sosial ödəmələr, sosial sığorta formalan, hədləri və normativləri haqqında mülahizələr elmi əsaslara söykənmiş təşkilati idarəetmə forma və metodlan, qaydaları hazırlayıb

müvafiq icra və qanunvericilik orqanlarına təqdim etmək.

İşin metodologiyası respublikanın konseptual inkişaf istiqamətləri və dövlətin iqtisadi və sosial inkişaf strategiyası və proqramlanndan meydana çıxan müddəalardır. Metodoloji prinsiplər ölkə prezidentinin iqtisadi və sosial siyasətinin əsas istiqamətləri, nəzəri və praktiki reallaşmasını təmin edir.

Kitabın müddəaları tədqiqat məqsədi vo əsas vəzifələri Azərbaycan Respublikasının inkişaf İstiqamətlərindən meydana çıxan aktual problemlər təşkil edir.

Kitabın yazılmasında Azərbaycan Respublikasının Milli Məclisinin qəbul etdiyi qanunlardan, beynəlxalq konvensiyalar və sazişlərdən, həmçinin icra orqanlarının icra mexanizmlərindən və sərəncamlarından istifadə olunmuşdur. Həmçİnİn bazar iqtisadiyyatı şəraitində baş verən statistik və dinamik dəyişmələrin əsas istiqamətlərindən, ayrı-ayrı respublika və digər ölkələrin alimlərinin tədqiqatlannın nəticələrindən istifadə edilmişdir.

Tədqiqat obyekti. Əhalinin gəlirlərinin dinamikası, onun meylləri, formalaşma mənbələri və iqtisadi inkişaf istiqamətləri və əsas göstəriciləri ilə meydana çıxan həyat səviyyəsi problemləri, sosial müdafiə və gəlirlərin idarə edilməsinin təşkilati iqtisadi idarəetmə aspektləri təşkil edir. İdarəetmə obyekti olaraq əhali gəlirləri ilə dövlət büdcəsi, büdcədənkənar fondlar xüsusi vəsaitlər və onlann bölgüsü və yenidən bölgüsünün mövcud vəziyyəti qatılmış səviyyəsi və perspektiv dinamikası vo gözlənilən sosial-iqtisadi nəticələrinin tənzimlənmə aspektləri təşkil edir.

Tədqiqatın elmİ yeniliyi qoyulan məqsədlərin və əsos vəzifələrin elmi və praktiki əhəmiyyəti baxımından qiymətləndirilir. Elm yeniliyini aşağıdakı istiqamətlərdə şərh etmək olar.

**1.** Əhali gəlirlərinin formalaşma mənbələrinin dinamikası, xüsusiyyətləri və əsas istiqamətləri təhlil olunub mövcud reallıqlar qiymətləndirilir. Gəlirlərin idarəedilməsinin məqsədi və onun ictimai-siyasi, sosial-iqtisadi əhəmiyyəti müəyyən edilir, regional xüsusiyyətlər və respublika reallıqları qiymətləndirilir.

**2.** Əhali gəlirlərinin tədqiqinin respublika iqtisadiyyatı və onun ayrı-ayrı sahə və funksional bölmələri, formalaşan stnıktu-

rası ilə əlaqə formaları və münasibətlər sisteminin metodoloji və metodiki aspektləri aşkar olunur və onun təkmilləşdirmə istiqamətləri verilir.

**3.** Əhali gəlirlərinin hər bir növünün xarakteri, formalaşması və rolunun maliyyə mənbələri və onların bazar tiplİ təkmilləşdirmə istiqamətləri verilir.

**4.** Əhali gəlirlərinin dinamik təhlili, onun qiymətləndirilməsi metodikası gəlirlərin artımı və struktur dəyişmələrində hər bir sosial iqtisadi amilin qiymətləndirilməsi və analitik ifadə formasının seçilib əsaslandınıması, gəlirlərin proqnozunun yanaşma metodologiyasım, onun prinsiplərini və konkret formasını müəyyən edir.

**5.** Əhali gəlirlərinin dövlət gəlirləri və dövlət büdcəsi ile əlaqəsinin qarşılıqlı təsiri ümumi cəhətlərinin əlaqələndirilməsinin metodiki məsələləri və konkret forma və ifadəsinin sxematik və riyazi modellərlə tədqiqi və təhlili verilir.

**6.** Əhali gəlirlərinin bazar iqtisadiyyatının anatomiyası kİmi mülkiyyət münasibətlərinin, idarəetmə funksiyaları və təsərrüfat formaları ilə əlaqəsinin mexanizmləri açılır, sahibkarlıqdm gələn gəlirləri əhali gəlirləri baxırmndan modifıkasiya olunmasının mahiyyəti açılır, əhali gəlirləri baxımından sahibkarlıq gəlirlərinin təsnifatlaşdınıması metodikası verilir. Sahibkarlığın inkişafı ilə gəlirlərdə baş verən keyfiyyət və kəmiyyət dəyişməsi təhlil olunub qiymətləndirilir və onun idarə olunması üçün vacib olan şəraitin anatomiyasının mümkün variantlan verilir.

**7.** Əhali gəlirlərinin formalaşmasında transferi gəlirlərinin rolu, perspektivi və transfert gəlirlərinin perspektivini əsaslandırmaqla əhali rifahında baş verən dəyişmələri və transfert gəlirlərinin idarə edilməsinin təkmilləşdirilməsi verilir.

**8.** Əhali gəlirlərinin tərkib hissəsi və dövlət büdcəsindən maliyyələşdirilən xüsusi növ gəlirlər olan pensiya gəlirlərinin formalaşmasının əsas amilləri, onun dinamikası, pensiya gəlirlərinin orta illik səviyyəsinin və onun differensiyasının yaranma səbəbləri və pensiya təminatının sosial müdafiə və iqtisadi stimul yaratmaq funksiyasım tənzimləmək üçün onun təkmilləşdirilməsi metodları və əsas proqnoz istiqamətləri əsaslandırılır.

**Pensiya təminatında əmək və sosial müdafiə tədbirlərinin uzlaşmasının perspektiv istiqamətləri və həlli yollan verilir. Pensiya təminatında əməyin xarakteri, məzmunu və sosial pensiyaçıların ölkə iqtisadiyyatının inkişafı ilə sosial məsələlər kimi konseptual inkişaf metodologiyası açılır,**

**9. Əhali gəlirlərində dominant rolunun formalaşmasında əmək haqqı gəlirlərinin dinamikası, onun tənzimlənməsində iqtisadi artım və istehsal büdcəsinin təmin olunmasında rolu və tənzimləmə mexanizmi verilir. Əmək haqqı differensiyası, onun iqtisadi artımla əlaqəsində stimul yaratmaq mexanizminin bazar tipli inkişaf və müəssisələrin rəqabət mühitində davamlı inkişafım təmin etmək qaydaları verilir; əmək haqqının orta aylıq iqtisadi differensiyası ilə istehlak büdcəsi və onun minimal yaşayış üçün lazım olan minimum səviyyəsi arasında əlaqələrin və tənzimləmə qaydalannm metodiki əsaslan, ölçmə və qiymətləndirmə qaydalanm təkmilləşdirmək üçün prinsiplər və yaranma riantlan verilir,**

**10. Əhali gəlirlərinin iqtisadi artım, sahə və struktur islahatlarla makroiqtisadi əlaqəsi ve sosial təminatın ayn-ayn sahələri və əhali qruplan üzrə tədbirləri arasında baş verən tarazlı dinamika və meyllər sistem və kompleks yanaşma ilə makro və mik- rosəviyyedə baş verən və həyata keçirilən tədbirlərin analitik ölçülməsi və onun səmərəli təşkili haqqında təkliflər vermək.**

**U. Əhali gəlirlərinin təhlili, tədqiqi və proqnozunun bazar iqtisadiyyatı şəraitində xüsusiyyətlərini ümumiləşdirərək balans, funksional paylanma qanunlannın modifikasiyası, Azərbaycan timsalında mövcud formalaşma ve inkişaf xüsusiyyətlərini nəzərə almaqla təkmilləşdirmək variantlan verilir.**

**12. Əhali gəlirlərinin sosial müdafiə məqsədlərini, rolunu nəzərə almaqla büdcə sisteminin təkmilləşdirilməsi, proqnoz büdcələrin tərtibi, təsdiqi və reallaşdınlması üçün tövsiyyələr verilir, büdcə-vergi, maliyyə-kredit sisteminin yaxşılaşdınıması və aşkarlığı üçün konkter təkliflər verilir. Sosial ödəmələr, sosial sığorta formalan, hədləri və norraalan haqqında mülahizələr verilir. Elmi əsaslara söykənən və mövcud idarəetmə strukturunu təkmilləşdirməyə köklənən idarəetmə metodları təhlil və proq**

noz prinsipləri və üsullan hazırlanıb müvafiq icra orqanlarına təqdim olunub.

Tədqiqatın informasiya bazası. Sosial-iqtisadi inkişafın əsas göstəriciləri, ümumi iqtisadi və makroiqtisadi göstəricilər, ev təsərrüfatı haqqında məlumatlar, ailə büdcəsi və dövlət büdcəsinin sorğu və bütöv statistik materiallar, sosial müdafiə fondunun dinamikası, formalaşma mənbələri, maliyyə əsaslan və sahibkarlığın mövcud vəziyyəti, onların gəlirləri və əmək haqqı sistemi təşkil edir. İnformasiya bazasına həmçinin statistik və dinamik göstəricilər əsasında hesablanmış nisbi və müqayisəli parametrlər, funksional və korelyasiya əmsalları daxildir.

İnfonnasiyamn təhlili hesablanmış göstəriciləri, proqnozlar və araşdırmalann nəticələri, müqayisəli təhlili, məntiqi ümumiləşdirmə, sistemli təhlil metodlarının istifadəsi ilə tədqiq olunmuşdur.

Tədqiqatın nəticələrini almaq üçün beynəlxalq araşdırmalar bazar iqtisadiyyatı ölkələrinin təcrübəsi və Azərbaycan Respublikasının əməkdaş olduğu ölkələrin beynəlxalq standartlara uyğun inkişaf meyllərinin xüsusiyyətləri və standartlara uyğun inkişaf və islahatlar proqramı istifadə olunmuşdur.

Kitabın elmi və praktiki əhəmiyyəti onun nəticələrinin təşkilat və İdarəetmə və strateji planlaşma praktikasında islahatlar proqramının tərtibi və reallaşmasında, həmçinin hər hansı iqtisadi maliyyə tədbirlərinin əsaslandınıması və tətbiqinin nəticələrinin qiymətləndirilməsində istifadə olunur.

# FƏSİL I. ƏHALİ GƏLİRLƏRİNİN FORMALAŞMASI VƏ İDARƏ OLUNMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Əhali gəlirlərinin formalaşmasının nəzəri-metodoloji əsasları

Gəlirlər hər bir subyektin bazar fəaliyyətinin son məqsədi kimi formalaşır. Gəlirlər mənsubiyyətindən asılı olmayaraq, bütövlükdə makroiqtisadi səviyyədə cəmiyyətin inkişafının maliyyə əsasını, istehsalın genişlənməsi və xüsusi tələbatlann ödənilməsi, az təminatlı və işləyənlərin həyat səviyyəsinin saxlanılması funksiyasını reallaşdınr.

Bazar iqtisadiyyatında hər bir subyekt fəaliyyət qabiliyyətini formalaşdırmaqla gəlirlərin maksimumlaşdırılmasına can atır [106;s.215].

Gəlirlər müəyyən dövrdə bazar subyektinin fəaliyyəti nəticəsində əldə olunan, onun sərəncamı və dövlət mexanizmləri vasitəsilə yenidən bölgü obyekti olan pul vəsaiti ilə ölçülür.

Bazar subyektlərinin təsərrüfat əlaqələri və biri-birinə təsiri ümumi inteqral məqsəd ətrafında onlann gəlirlərinin təsir gücü ilə ölçülür. Təsir gücünün reallaşması və tənzimlənməsi məhz həmin subyektlərin imkanlan, səlahiyyətləri, iqtisadi idarəetmə mexanizmlərinin xarakteri və məzmunu ilə formalaşır.

Fikrimizcə, tələb və təklif qanunu gəlirlərin formalaşmasının obyektiv mexanizmi olaraq çıxış edir. Ancaq bu mexanizmin reallaşmasında maraqlar, sosial minimumlar və öhdəliklər dövlət tənzimlənməsi yolu ilə vəhdətdə həll edilməlidir. Gəlirlər məqsədyönlü fəaliyyətin bazar tipli meyan, dövlət, əhali, sosial qnıplar habelə ayn-ayn sahibkarların fəaliyyət məqsədi və əsas İstiqamətidir. Hər bir meyar qabaqcadan gözlənilən ehtiyaclar və tələbata nail olmaq üçün imkanlann səfərbər olunması, onlann istifadəsinin səmərəli variantlanmn seçilməsi məntiqinə əsaslanır. İstehlak və xərc meyarları gəlirlər üçün məqsəd funksiyasını təşkil edir. Fəaliyyət alternativi özündən asılı olmayan liberal bazar şəraitində mümkün gəlirlərin maksimumlaşdırıl-

masına can atan dinamik sistemə çevrilir.




***Sxeın U.* İstehlakın formalaşmasının monliqi sxemi.**

Məntiqi sxem kimi son nəticə istehlak qabiliyyətinin səmərəli təşkili üçün istehsal və gəlirlərin idarə edilməsinə kompleks və sistemli funksional idarəetmə mexanizmi kimi baxmağı tələb edir.

Gəlirlər stimul, davamlı inkişaf, tələbat və maliyyə mexanizmidir. Hər bir aspektdən gəlirlərin mahiyyətinə müxtəlif yanaşma mümkün ola bilər [86; 98; 99; 80; 81; 64; 77; 53; 51].

Bizim əsas məqsədimiz gəlirlərin sosial-iqtisadi və rifah göstəricisi kimi maliyyə funksiyasının tənzimlənməsinə baxmaqdır. Gəlirlərin stimul yaratmaq funksiyası iqtisadi artımın amili və təkrar istehsal strukturunu formalaşdırmaqdır. Belə ki, gəlirlər bazar tipli subyektlərin hər birinin marağına stimul yaradır. Gəlirlərin artması onun səmərəli istifadəsi vəzifələrini və istiqamətlərini doğurur. Belə ki, bazar subyektlərinin gəlirləri artdıqca onun daha çox səmərəli xərclənməsi meyarlan və istiqamətləri formalaşır.

Gəlirlərin paylanması əhali qruplarının daha faydalı və səmərəli fəaliyyətinə əsas yaradır. Fərdi gəlirlərin ədalətli, aşkar və emək məsrəflərinə, ictimai faydalı dəyərinə görə formalaşması və dinamikasının idarə edilməsi davamlı və dayanıqlı inkişaf meyllərini, gəlirlərin sosial-iqtisadi məzmununu təmin edir. Ona görə də dövlət gəlirləri dövlətin iqtisadi funksiyasını və rolunu tənzimləmək üçün əsas prioritetlərin maddi-maliyyə əsasım formalaşdırır. Dövlət gəlirləri investisiya, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yoxsulluğun ləğvi, az təminatlı ailələrin və gənc nəslin təhsil, elm, mədəni səviyyəsinin yüksəldilməsi tədbirlərini reallaşdırmaq funksiyasını formalaşdırır və inkişaf etdirir. Dövlət gəlirlərinin əsas mənbəyi dövlət və özəl sektorun hesabına əldə olunan ümumi daxili məhsulun xərclərini

çıxdıqda yerdə qalan hissəsidir. Dövlət gəlirləri mülkiyyət münasibətlərindən asılı olmayaraq fəaliyyət göstərən təsərrüfat formalannın və fərdi sahibkarlığın əldə etdiyi yeni dəyərin bir hissəsinin cəmiyyətin i'ımumi ehtiyaclarını və dövlətin iqtisadi funksiyalarını həyata keçirmək üçün formalaşan siyasət təzahürüdür. Təbii ki, gəlirlərin artırılması artıq çəkilən xərclərin artırılması və onun səmərəli istifadəsinin təşkili ilə yanaşı, ədalətli, differensial, sosial və bölgü mexanizmləri ilə də möhkəmlənir və artınlır. Gəlirlərin artınıması meyarı islahatların, sahibkarlığın və beynəlxalq iqtisadi əlaqələrin səmərəli təşkil edilməsi yolu və meyan ilə mümkündür.

Bazar subyektlərinin gəlirlərinin təsnifatı onların funksional strukturuna uyğun olaraq fonnalaşır və bölünür. Muzdlu əməkçilərin bazar sektorunda, dövlət qulluqçularının dövlət sektorunda, iri şirkətlərin mənfəətləri, torpaq sahiblərinin və iri ev sahiblərinin rentası, digər kiçik və orta sahibkarların gəlirləri funksional gəlirlər olub hər bir subyektin bazar tipli fəaliyyətinə uyğun formalaşır, tələb və təklif qanununauyğun inkişaf edir. Digər gəlirlər sosial qruplar üzrə bu subyektlər arasında əlaqə formasından və əlaqələrin ehtiyaclarından asılı olaraq formalaşan və paylanan gəlirlərdir.

Gəlirlərin xarakteri, formalaşma mənbələri və məqsədləri onun idarə edilməsinin əsas cəhətlərini və tədqiqinin metodologiyasını formalaşdınr.

Akademik S.S.ŞatalÍnin fikrincə gəlirlər «geniş istehlak» strukturu və onun ödənilməsi imkanlarına uyğun müəyyən edilir və proqnozlaşdırılır [122; 51].

İstehlakm forma və strukturu gəlirlərin forma və strukturu ilə tarazlaşır və natural istehlak dəyərləri həm gəlirdə, həm də istehlakda pul ifadəsin almadan məcmu gəlir ifadəsini və məzmununu kəsb edir. Məcmu gəlir geniş istehlak davranışım müəyyən edir və məcmu tələbatın ödənilməsinin maddi əsasını müəyyənləşdirir. Ona görə də biz gəlirlərə təkcə pul şəkilində ifadə olunmuş və bölgü məqsədi ilə məhdudlaşan xalis gəlirləri yox, həmçinin geniş təkrar istehlakı təmin edən, aralıq təkrar istehsal prosesində natural formada istehlak olunan maddi və mənəvi

dəyorlori də nəzərdə tuturuq. Məhz kəmiyyət baxımından gəlirlərə bu aspektdən yanaşma ümumi daxili məhsulun istehsal təyinatlı və istehlak üçün ayrılan hissəsinin gəlirlərdən çox olması hesabına baş verir. Metodiki baxımdan ümumi daxili məhsul əhali istehlakı və sosial müdafiəsi məqsədi ilə aynlan vəsaitlərinin mocmusu, kollektiv istehlak təyinatlı məqsədlər və büdcədən ayrılan xərclər hesabına pulsuz əhaliyə göstərilən xidmətlər məcmu gəlirlərin tərkib hissəsidir. Gəlirlər bazar İqtisadiyyatı şəraitində istehsal metodu, yaxud istehlak həcmİ ilə ölçülür. İstehlak baxımından gəlirlərin Ölçülməsi onun real səviyyəsinin yaradılan gəlirlərdən çox olmasını istisna etmir. Beynəlxalq iqtisadi əlaqələr, əhalinin yığımı, xarici ölkələrdən alınan kreditlər, borclar və maliyyə qrantları cəmiyyətin və respublikanın ərazisində istehsal təyinatlı məqsədlər üçün geniş məcmu gəlir funksiyasını oynayır.

Əhali gəlirləri əhalinin yığımı, dövlətin ehtiyat fondlan və büdcədənkənar fondların, habelə xüsusi vəsaitlərin cari ildə istifadəsi payını nəzərə almaqla ölçülür. Dövlətin xüsusi fondlan «ehtiyat valyuta fondu» aynca gəlir mənbəyi, yaxud xərclərin subyekti kimi formalaşa bilir, əhali gəlirlərinin dəyişməsi məhz bu fondlardan və xüsusi yığım vəsaitlərinin cari illərdə istifadəsi dərəcəsi ilə ölçülür. Məcmu tələbatın ödənilməsi üçün əhali gəlirləri onların yığımı ilə balanslaşdınlır [122; s. 150-250].

(I.D

Burada, ƏG (t) - əhali gəlirləri; Gjt(t) - c gəlirlərinin i əhalİ qrupları üzrə paylanması; Y,^(t) - əhali yığımının dəyişmə dinamikası; t - zamandır.

Əhali gəlirlərinin yaranma mənbəələri respublika iqtisadiyyatının və maliyyə kredit münasibətlərinin xarakteri və əsas istiqamətləri ilə bağlıdır. Ona görə də cari həyat səviyyəsi istehsal xarakterli gəlirlərlə deyil istehlaka yönəldilən məcmu gəlirlərlə ölçülür. Bu məcmu gəlir ölkənin ehtiyat fondları hesabına, cari xərclər və bilavasitə keçmiş borclann qaytarılması

üçün aynlan vəsaitləri, habeio gələcək inkişaf üçün verilən kredit resurslarını, onlann faizlərini çıxmaqla özündə əks etdirir. Sosial müdafiə və istehsalın genişlənməsi üçün sahibkarlığa kömək məqsədi ilə istifadə olunan gəlirlər, istehsal olunan gəlirlərdən çox ola bilir. Yaxud perspektiv tələbatı təmin etmək üçün istehsal olunan gəlirlərin bir hissəsi yığım, yaxud kredit resursu kimi istifadə olunur. Ona görə də istehlak səviyyəsinə və onun paylanmasına uyğun gəlirlərin tənzimlənməsi keçirilmiş, yaxud «avans olunmuş gəlir»lorin qiymətləndirilməsi metodikasını özündə birləşdirir.

Gəlirlər əhali üçün formaca və mənbəələr üzrə onun istehlak davranışını formalaşdırır. Ona görə də gəlirlərin məqsədinə uyğun toplanması və ünvanlığı yeni təsnifat metodikasını doğurur. Bazar iqtisadiyyatı şəraitində dövlət büdcəsi, yerli büdcələr, büdcədənkənar fondlar yaxud məqsədli fondlar öz təyinatına uyğun gəlir siyasətini, onun mexanizmini formalaşdırır.

Tədqiqat obyekti kimi gəlirlərin yaranması problemlərindən daha təsirli və digərləri ilə üzvi əlaqədə olan problem kİmi gəlirlərin paylanması və formalaşma qanunauyğunluqlan mühüm əhəmiyyət kəsb edir. Gəlirlərin, sahələr üzrə istifadəsi, sosial təminat və əhalinin rifahı ilə bağlı probemləri onun artıq paylanma qanunlannın parametrlərində öz əksini tapır. İqtisadi ədəbiyyatlarda Lorens əyrisi, Cinİ əmsalı, Pareto əmsalı və normal paylanma qanunları ilə gəlirlərin paylanmasının tədqiqi, qiymətləndirilməsi və proqnozu reallaşdınlır [98; 125, s.335-365].

Müasir qloballaşma, inteqrasiya, rəqabət hər bir ölkədə gəlirlərin və İstehlakın hədlərini və differensasiyasını doğurur. Qloballaşma kasıb və varlılann qütbloşməsini dərinləşdirir. Tədqiqat göstərir ki, ümumi daxili məhsulun 1% artımı ancaq yoxsul əhalinin 70%-nin gəlirini artırır [14; 86, s.l6].

Gəlirlərin bölüşdürülməsi xarici iqtisadi mühit, dünya ölkələrində qloballaşma, elmi-texniki tərəqqi və stabilləşmə proqramları üzrə apanlan maliyyə-kredit yardımları və kapital axınının nəticələri daxili gəlirlərin qütbləşməsinə təsir edir. Hər bir ölkədə dünyada baş verən qlobal siyasətin sosial nəticələri, daha çox yaşayış minimumu həddində yaşayan əhalinin nisbi

kasıblaşmasına təsir edir. Ona görə də gəlirlərin bölgüsü mərhələ-mərhələ qlobal səviyyədə təsir edən amilləri və regional siyasətlə yanaşı hər bir ölkədə onun ayn-ayrı sosial-iqtisadi qruplara təsir gücünün təsiri və elastikliyi ilə özünü əks etdirir.

Əhali gəlirlərinin kəmiyyət xarakteristikası ile yanaşı onun keyfiyyət göstəriciləri do mövcuddur. Belə ki, adam başına düşən gəlir, ailə gəlirləri, ayn-ayn sosial qruplar yaxud müxtəlif ərazi şəraitində, şəxsi əmək və peşə xarakteristikaları ile müəyyənləşən gəlir səviyyələri, onlann strukturu və reallaşma istiqamətləri keyfiyyət göstəriciləri olub, qarşılıqlı bir-birini tamamlayır.

Adam başına düşən gəlir səviyyəsi müqayisəli təhlil göstəricisi olub, ölkənin sosial iqtisadi ir^işaf göstəricisini, onun artımı isə apanlan islahatlann səmərəliliyini müəyyən edir. Adam başına düşən gəlir səviyyəsi, həmçinin alıcılıq qabiliyyətini səciyyələndirməklə ölkədə yoxsulluğun həddini və əhalinin yaşayış səviyyəsini ölçmək və onun meyllərini təhlil etmək mexanizmi kimi İstifadəsinə imkan verir. Əhali gəlirlərinin müəyyən sabit qiymətlərdə, yaxud əsaslandınimış qiymət dəyişmələrində real İstehlak səviyyəsini ölçmək əhalinin istehlak davranışını və onun istehlak strukturunda gəlirlərin artmasının təsirini qiymətləndirməyə və idarəetmə məqsədi ilə istehlak strukturunu ictimai faydalılıq baxımından tənzimləməyə, həmçinin onun optimal strukturu və respublikada istehsal, əmtəə, tələb və təklifin optimal strukturuna aparan istiqamətləri müəyyən etməyə imkan verir [55; 56; 78; 79].

Ailə gəlirləri demokratik və ailənin sosİal-iqtisadİ kompleks göstərieisi olub, onun büdcə tələbat sisteminin, həmçinin ödənilməsinin konkret formasını, ailənin sosial-iqtisadi xarakteristikasına uyğun formalaşmasını və istifadəsini müəyyən edir. Hər bir ailədə işləyənlərin sayı, onların əmək haqqı, ailə üçün gəlir gətirməyən üzvlər, onların normal yaşayışı üçün əsas vəsaitlərin mənbəyi və orta surəti bütövlükdə həmin ailənin məcmu gəlirini və uyğun istehlak tələbatını ödəmək üçün alıcılıq qabiliyyətini formalaşdırır.

Bazar iqtisadiyyatı formalaşdıqca rəqabət mühiti iş yer

lərindən ailə üzvlorinin asılılıq dərəcəsini, iş qüvvəsinin dəyəri olan əmək haqqı gəlirlərinin minimum səviyyəsini, nominal əmək haqqının aşağı düşməsini və əmək bazannda əmək haqqının real səviyyəsi ilə onun həqiqi dəyəri arasında olan fərqləri daha da artırır. İş qüvvəsinin iş yerlərindən çox olması, iş yerinin itirilməsi qorxusu, sahibkarlığın inkişafında əmək haqqı xərclərinin saat hesabında artmaqla iş saatının miqdarını artırmağa gətirib çıxanr. Verilən əmək haqqı nominal iş saatına uyğun müəyyən edilir. Bu da öz növbəsində gəlirlərin ilkin bölgüsündə əmək haqqı məsrəflərini azaldır, istehsalın səmərəli olması haqqında səhv hesabatlar yaradır. Həqiqətən yaradılan gəlirlərlə onun bölgüsü arasında nisbətlər pozulur, bölünməyən gəlirlərin əhalinin bir qnıpu arasında bölgüsünə, bu da nəticədə ailə gəlirlərinin tərkibində əmək haqqı gəlirlərinin azalmasına, amma istehlakın strukturunda, digər ailələr hesabına artımına səbəb olur. Ailə tərkibinin, onun sosial-iqtisadi vəziyyətinin gəlirlərin səviyyəsinə, onun xarakterinə təsiri respublikada əhalinin gəlirlər səviyyəsinə görə paylanmasım müəyyən edir. Artıq araşdırmalar göstərir ki, az təminatlı ailələrdə İşləyənlərin sayının az olması onlann əmək haqqı səviyyəsinin aşağı olması və az yaşlı uşaqlann sayının çox olması ilə səciyyələnir. Pensiya təminatında olan ailələrin əsas aparıcı gəlirləri pensiya İlə formalaşır. İşçilərin sayının artımı, onlann əmək gəlirlərini artınr. Ailə gəlirləri, həmçinin həmin ailənin məşğuliyyət qurluşundan, fəaliyyət və bizneslə məşğul olması səviyyəsindən asılı olaraq formalaşır [110, s.149].

Ailə gəlirləri və xərcləri əhalinin gəlir və xərclər balansının tərkib hissəsidir. Məhz tarazlı sosial-iqtisadi siyasət yeritmək üçün və gəlirlərə uyğun olaraq iqtisadi sahələrin, bazarın marketinq strukturunun planlaşdırılması məqsədi ilə gəlirlərin aynlıqda öyrənilməsi kifayət etmir, Ona görə biz gəlirləri istehlak, xərc və alıcılıq qabiliyyəti kimi ona təsir edən amillərdən ən prioriteti olan yaşayış səviyyəsi, onun minimum həddi, orta və yüksək təminat quruluşu ilə tarazlığını daha üstün hesab edirik.

Əhalinin yaşayış səviyyəsi, onun gəlirlərinin kifayət olması

vo tənzimlənməsi üçün bazar mühiti şəraitində yaşayış minimumunun istifadəsini əsas qəbul edirik.

Minimum yaşayış səviyyəsi hər bir ölkədə əhalinin tələbat dərəcəsi, onun strukturu və mövcud iqtisadi imkanlar ilə ölçülə bilər. Amma fikrimİzcə, fizioloji normativlər baxımından əhalinin yaşayış səviyyəsi müəyyən səviyyədən aşağı olmamalıdır. Bu minimum təbii ki, «istehlak səbətinə» daxil edilən minimum yaşayış şeyləri və onların əldə edilməsi üçün lazım olan gəlir səviyyəsi ilə ölçülür. Yaşayış minimumu mövcud tarazlı əmtəə və pul, tələb və təklif şəraitində müəyyən normativ yaşayış həddinin minimum səviyyəsini təmin etmək üçün lazım olan maddi və mənəvi nemətlərin çoxluğu İlə müəyyən olunur.

Yaşayış minimumu gəlirlərin zəruri olan hissəsini müəyyən edir. Bu həddən yuxarı olan gəlirlərin hesablanması onun əldə edilməsi üçün hesab nöqtəsi kimi qəbul olunur. Yaşayış minimumu hər bir ölkədə, onun iqtisadi inkişaf səviyyəsi əhalinin tələbat səviyyəsi, əmtəə və xidmət bazan da yaşayış dəyərindən asılı olaraq ölçülür, tənzimlənir. Yaşayış minimumu sosial siyasət və təminat səviyyəsi kimİ ilkin astana olaraq sosial-iqtisadi təbdirlərin həyata keçirilməsinə şərait yaradır. Yaşayış minimumu hər bir regionun əhalisinin həyat tərzi və həyat fəaliyyəti meyan olub, müqayisəli təhlil və inkişafın əsas istiqamətlərini əsaslandınr, bölgü siyasətini və yoxsulluğun ləğvi üçün lazım olan proqramların seçilməsini və onların maliyyə mənblərini ax- tanb tapmağa imkan verir.

Yaşayış minimumu gəlir göstəriciləri ilə ifadə olunur. Dinamik olaraq iqtisadiyyatın inkişafı əhalinin işçi kimi faydalı bazar fəaliyyəti nəticəsində kəmiyyət və keyfiyyətcə dəyişir. Eyni yaşayış minimumunun müxtəlif qiymətlərdə, keyfiyyətdə və çeşiddə olan məhsul və xidmətlərlə ödəmək qabiliyyətini, həmin kontingentin və yaxud ailənin istehlak davranışı və bazarın müxtəlif əmtəə və xidmət zənginliyinin, həmçinin ənənəvi istehlak xüsusiyyətləri ilə bağlıdır. Ona görə də yaşayış minimumunun nominal səviyyəsi regional istehlak büdcəsi, minimal və normal istehlak büdcələri arasında fərqlər və onlann yaxşılaşması yolu ilə müəyyən olunur. Məhz minimal istehlak

büdcəsino olan tələbatı ödəmək üçün lazım olan gəlirlərin təmin olunması üçün minimum əmək haqqı, minimum pensiya, minimum təqaüdlər və sosial müavinatlar planlaşdırılır. Minimal istehlak büdcəsinə uyğun gəlir səviyyəsi insanın fizioloji normalara uyğun əmtəə və xidmət istehlakını təmin edən gəlirlərin müəyyən edilməsi və həmin gəlirlərin verilməsi imkanlanm tapmağa yönəlir. İstehlak büdcəsinin analitik ifadə forması müəyyən qipotetik hesablamalarla müəyyənləşir. Təbii ki, hesablanma qaydası bazar iqtisadiyyatı şəraitində statistik göstəricilərdən daha çox dinamik dəyişən parametrlərlə müəyyən olunur. Sadə hallarda nominal istehlak büdcəsi gəlirlərin adam başına düşən orta illik səviyyəsi ilə ölçülə bilir.

Gəlirlərin orta illik səviyyəsi, makroiqtisadi göstəricilər, sosial qruplar və gəlirlərin səviyyəsinə görə qruplaşan əhalinin paylanması üzrə qəbul olunur. Minimal gəlir səviyyəsi ilə adanı başına düşən orta illik gəlir səviyyəsi arasında nisbətlər diffe- rensasiya və qübtləşmənin ilkin Ölçüsünü ifadə edir. Qütbləşmə dərəcəsi yoxsulluğun və orta təmirjat səviyyəsi arasında istehlakm konkret məhsullar və xidmətlər üzrə differensasiyasını ifadə edir.

$$^{\wedge}dif \sim \quad \frac{G T \{ t )}{G7(o'} \cdot \qquad (1.2)$$

Burada, K - differensasiya əmsalı; - gəlirlərin adam başına düşən minimal səviyyəsi; - orta illik gəlir səviyyəsi.

Rasional istehlak büdcəsinə uyğun gəlir səviyyəsi və onun tənzimləmnəsi standartlara uyğun istehlak davranışı, yüksək həyat tərzi təminatı üçün lazım olan ən səmərəli gəlir səviyyəsi kimi qəbul olunur. Rasional struktur diktə üçün deyil, müqayisəli təhlil aparmaq və müxtəlif variantlar hazırlamaq üçün şərait yaradır. Rasionun seçilməsi hər bir istehlakçı, ailə və sosial qruplar üçün fərdi yanaşmam tələb edir. Rasion struktur əhalinin yaşı, cinsi, məşğuliyyəti, davranışı, ictimai mühitlə müəyyənləşir. Bu amillərin ayrı-aynlıqda reqressiya təsirini qiymətləndirmək nə qədər çətin olsa da, həmin amillərə məxsus olan

əhalinin istehlak quruluşunda dəyişmə dinamikası və motivi variantlı gəlirlərin idarə edilməsinə imkan verir. Belə ki, gəlirlərin 1% dəyişməsi, ümumi istehlaka və aynhqda hər bir istehlak növünə necə təsir etməsi elastiklİk əmsalı kimi İstehlakın gəlirlərdən asılılığının strukturunu formalaşdınr və təsir güclərini qiymətləndirir.

***dG{t) dG{t) ^ dG{t) ^ dG{t)*** (1.3)
***ÖY{t) ÖY,[t) dY,ii) dYnO)***

bütövlükdə tr öY, (1,4)

Gəlirlərin minimum, orta və maksimal səviyyəsi ilə əhali arasında paylanma cəmiyyətdə iqtisadi bərabərsizliyin metodoloji əsasıdır. Ona görə də differensiallaşma mövcud reallığın səbəb və nəticələri ilə üzvü surətdə bağlandıqda, məhz idarəetmə metodologiyası formalaşır. Gəlirlərdən birbaşa istehsal və bölgü münasibətlərinin idarə edilməsinə keçilir.

Gəlirlər formaca, məzmunca və məqsədləri ilə özəlliklər kəsb etdiyinə baxmayaraq, onun əsas məqsədi istehlak, bölgü, yenidən bölgü, qütbləşmə və ictimai davamlı inkişafın iqtisadi əsasıdır. Gəlirlərin əhali qruplarının birindən digərinə keçməsi, kiminsə real gəlirlərinin nominal gəlirlərdən fərqli olması mövcud bazar strukturlannın reallığı ilə və aparılan islahatların səmərəliliyi ilə müəyyənləşir.

Əhali gəlirlərinin formalaşması və dinamikası onun paylanması, istifadəsi formasını və əsas istiqamətlərini müəyyən edir. Pul gəlirləri onun alıcılıq qabiliyyətini və yığım vəsaitini formalaşdınr. Alıcılıq qabiliyyəti əmtəə və xidmət bazanmn mal təklifini, onun marketinq quruluşunu və əsas istehlak xüsusiyyətləri olan əmtəə və xidmət bazanmn istehlak seqmentlərini müəyyən edir.

Pul gəlirləri və xərcləri ümumi iqtisadi balansın tərkib hissəsi olmaqla iqtisadi və maliyyə hesablarında öz əksini tapır. Gəlirlər alıcılıq qabiliyyəti və tediyyə vəsaiti olmaqla xarakteri və formasına görə məqsədli istiqamət daşıyır. Natural gəlirlər sahibkarlıq fəaliyyətində və xidmət İstehlakında ancaq ayn-ayrı

**kontingentlər üzrə bölünür.**

**Əhalinin demoqrafik tərkibi və onlann ayn-ayn sahələrdə istifadə dərəcəsi gəlirlərin həcmini və onun xarakterini müəyyən edir. Belə ki, əmək bazannın mövcud vəziyyəti əmək resurs- lanna tələbat və təklif, əmək gəlirlərinin miqyasım, onun diffe- rensasiyasım və dəyişmə dinamikasını müəyyən edir. Əmək gəlirləri həmçinin minimum yaşayış səviyyəsi və əmək fəaliyyətinin təkrar istehsalı üçün lazım olan vəsaitlərin, yaxud minimal istehlak büdcəsinin məzmunu ilə də dəyişir.**

**Əmək gəlirlərinin differensasiyası, respublika iqtisadiyyatının sahə quruluşu, məşğuliyyət səviyyəsi, həmçinin ayn-ayn əmtəə və xidmət bazannın genişlənməsi ilə tarazlaşır. Əmək gəlirləri ölkədə iqtisadi artım və dövlətin strateji məqsədləri ilə de formalaşır.**

**Azərbaycan iqtisadiyyatında 1996-2003-cü illərdə baş verən stabilləşmə və iqtisadi artım əmək gəlirlərinin və sosi^ trans- fertlərin artımı ilə nəticələnir. 1996-2003-cü illərdə ÜDM-un artım tempinin ildə 8-10% artımı əhali gəlirlərinih 10-11% artımına səbəb olmuşdur. Əhalinin əmək gəlirlərinin artımı əmək haqqı və sahibkarlıqdan gələn .gəlirlərin artımına səbəb olur. Əmək gəlirləri həmçinin sosial gəlirlərin əsas göstəricilərini əsaslandınr. Müəssisələrin mənfəət səviyyəsinin artması onlann quruluşunun təkmilləşməsində ayn-ayn sahələrin əmək haqqının differensiyasını yaradır. Əmək haqqının sahə quruluşu sa- hədaxili rəqabətin və normal əmək bazan şəraitində sahələrarası iş qüvvəsinin bölgüsünü formalaşdınr.**

**Əmək haqqı gəlirlərinin artması və onun məcmu gəlirlərə təsiri əmək haqqı sistemindən, onlann eməyin ödənilməsi vasitəsi kimi funksiyası və meyar ölçüsü kimi adekvat olmasından asılıdır. Ona görə də əmək haqqımn gəlirlərin əsas amili kimi işçilərin gəlirlərinin formalaşmasında rolu tənzimlənilməlidir. Bu meyar və stimul sosial müdafiə fondlarının, sosial təminat və pensiya təminatı üçün maliyyə resurslanmn səfərbər olmasına gətirib çıxanr. İşləyən müəssisələrin emək haqqı fondunun artması büdcə gəlirlərində gəlir vergilərinin artımına səbəb olur.**

*Cədvəl u.*

İqtisadiyyatın sahələri üzrə orta aylıq nominal
əmək haqqı (min manat)

| Sahələr | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|---|
| **İqtisadiyyat üzrə, cəmi** | **89,4** | **141,6** | **168,4** | **184,4** | **221,6** | **260,0** | **315.4** | **387** |
| **Sənaye** | **146,2** | **231,3** | **277,6** | **291,6** | **435,9** | **499,8** | **567,8** | **685.6** |
| **Kənd təsərrüfatı** | **37,8** | **49,6** | **44,0** | **65,1** | **69,1** | **73,7** | **89,9** | **115.7** |
| **Nəqliyyat** | **150,5** | **226,8** | **291,0** | **250** | **292,4** | **330,3** | **368,2** | **440** |
| **Rabitə** | **119,4** | **206,8** | **263,6** | **-** | **-** | **-** | **-** | **-** |
| **Tikinti** | **167,2** | **300,0** | **441,6** | **428,5** | **416.7** | **444,0** | **545,1** | **771** |
| **Ticarət və ictimai iaşə, maddi-texniki təchizat və satışı tədarük** | **50,6** | **67,4** | **75,6** | **117,9** | **119,3** | **138,2** | **460** | **487.7** |
| **Mənzil-kommunal təsərrüfatı və əhaiye məişət xidməti** | **75,1** | **113,6** | **120,9** | **98,7** | **114,0** | **128,5** | **150,1** | **179** |
| **Səhiyyə, bədən tərbiyəsi və sosial təminat** | **46,9** | **67,8** | **70,1** | **71,1** | **73,4** | **79,4** | **90,0** | **109.5** |
| **Təhsil** | **63,0** | **119,8** | **132,1** | **141,5** | **156,1** | **165,6** | **169,1** | **211.4** |
| **Mədəniyyət** | **41,6** | **68,6** | **76,0** | **77** | **77,5** | **78,0** | **80,1** | **-** |
| **İdarəetmə or-qanlarmın sığortası** | **69,3** | **109,5** | **165,1** | **181,7** | **194,5** | **223,4** | **260.7** | **314.9** |

**Mənbə [7; s. 108-113; s.480].**

**Qeyd: 1) Cədvəldə 1999-cu ildən nəqliyyat rabitə təsərrüfatı ilə birlikdə verilir. 2) Mənzil-kommunal təsərrüfat sahəsi 1999-cu ildən «Digər kommunal və sosial fərdi» xidmətlər kimi verilir. 3) Ticarət və ictimai iaşə cədvəldə 1999-cu ildən avtomobilləri, məişət mallannı və şəxsi əşyaların satışı sahəsini birləşdirir.**

Əmək haqqı fondunun və orta aylıq əmək haqqının səviyyəsi orta aylıq pensiyanı müəyyən edir, sosial pensiyanın artırılmasına və sosial pensiya ilə əmək haqqı arasında nisbətləri

tənzimləyir. Əmək haqqı gəlirlərinin stimul yaratmaq və sosial ədaləti təmin etmək üçün idarəetmə nçaqı olaraq, bazar iqtisadiyyatı şəraitində ölçü meyarı kimi qiymətləndirilir. Əmək haqqı gəlirlərinin maliyyə mənbəyini müəssisə və sahibkarlıq fəaliyyətindən gələn gəlirlərin bölgüsü qaydası və mexanizmləri təşkil edir. Əməyin xarakteri, məzmunu, onun yaratdığı məhsul və xidmətin bazar tələbatına uyğun alıcılıq qabiliyyətinin artımına səbəb olması, son nəticədə əmək gəlirlərinin artım mənbəyinə çevrilir. Əmək haqqı gəlirləri ilə sahibkarlıq, fərdi fəaliyyət arasında müvafiq tənzimlənən nisbətlər tələb və təklifə uyğun formalaşır. Hər növ əmək fəaliyyəti bazann istehlak seqmentinə uyğun kəmiyyət və keyfiyyətcə dəyişikliyə məruz qalır. Belə ki, əməyin istehsal və xidmət sferasında fəaliyyət forması, onun texnologiyası və faydalılığı məhsula olan tələbatla tarazlaşır. Əmək haqqı gəlir mənbəyi olmaqla alıcılıq qabiliyyətinin maliyyə mənbəyinə çevrilir, daha çox faydalı və məhsuldar xarakter alır, istehsal olunmuş məcmu təklifi artırır. Bu da son nəticədə əməyin spektrinin seqmentini dəyişir. Dqha çox məcmu tələbatın xarakterinə uyğun meyl etməsinə çevrilir. Əməyin fəaliyyət sturkturu və onun məzmunu məcmu təklif və tələb spektrinə meylli olaraq dəyişir.

Gəlir mənbəyi kimi fəaliyyət dairəsinin məzmunu, mülkiyyətin forması, fəaliyyətin təşkili foımaları fəal təsir edir. Bazar tipli inkişaf modelində gəlirlərin dəyişmə meyli və perspektiv İstiqamətləri məhz təşkilati formalann tənzimlənməsinə və daha geniş stimullar prizması üzərində qurulmasına gətirib çıxarır.

Maliyyə sistemindən gələn gəlirlər, sosial müdafiə və keçmiş əməyin kəmiyyət və keyfiyyətindən asılı olan pensiya təminatı, müavinatlar, dividentlər, faiz daxilolmaları və lotereya, uduşlar, sığorta ödənişləri və xüsusi vəsaitlərdən verilən yardımlarda hər birinin maliyyə əsaslan mövcuddur.

Əhali gəlirləri iqtisadi idarəetmə, bölgü və tənzimləmə proseslərinin makroiqtisadi və mikrosəviyyəli nəticələri kimi formalaşır və inkişaf etdirilir. Araşdırmalar göstərir ki, gəlir rifah problemi və iqtisadi artımın makrosəviyyəli tənzimlənməsi üçün seçilən istehlak meyarlan və davamlı inkişaf üçün aynlan vəsait

lərin həcmi və onların istifadə yollan ilə müəyyənləşir.

Gəlirlərin iqtisadi mexanizm kimi tədqiqi və proqnozu, ölkədə apanlan stabilləşmə və tənzimləmə siyasətinin, sosial idarəetmənin təkmilləşdirilməsi məqsədlərini güdür. Tənzimləmə mexanizmi olaraq gəlirlərin iqtisadi-sosial amil funksiyası onun səmərəsi İlə qiymətləndirilir. .Yenİ iş yerlərinin açılması, investi- siyalann artımı və maliyyə-kredit sisteminin tənzimlənməsində əhali, dövlət, bələdiyyə və ayn-^yn müəssisə və təşkilatların gəlirlərinin funksional təyinatına görə təsnifatlaşdınıması funksional idarəetməni təkmilləşdirir. Dövlət gəlirlərinin formalaşması üçün müəssisə-əhali fəaliyyətindən gələn gəlirlər, mənfəət, dəyər, amortizasiya-xərclər strukturunu formalaşdınr. Bu da öz növbəsində əhalinin gəlir vergisini, mənfəət və əlavə dəyər, əmlak vergisinin kütləsini və vergi dərəcəsini tənzimləməyə imkan verir. Əhalidən tutulan gəlir vergisi qanunvericiliklə gəlir səviyyəsinin adam başına düşən səviyyəsinə uyğun olaraq vergi dərəcəsi ilə müəyyən olunur. Məhz vergi dərəcələrinin sürüşkən differensial və fərqli olması, bilavasitə istehsala və sosial müda- fıəyəyə stimul yaratmaqdan ibarətdir.

*Cədvəl 1.2.*

Fiziki şəxslərdən tutulan gəlir vergisinin normaları

| Vergi tutulan aylıq gəlirlərin məbləği | Vergi dərəcəsi |
|---|---|
| 150000 manatadək | Vergi tutulmur |
| 150000 manatdan 300000 manatadək | 150000 manatdan çox olan məbləğin 14 faizi |
| 300000-dən çox olduqda | 399000 manat +3000000 manatdan çox olan məbləğin |

**Mənbə: [2, IV cüd, s.I6]**

Mənfəət müəssisə gəlirlərinin xalis forması olub istehsal xərcləri ilə müqayisədə əldə olan son məhsulun deyərindən sonra qalan hissəsidir. Bazar iqtisadiyyatı şəraitində mənfəət sahibkarın inkşafı və onun iqtisadi-təşkilatı fəaliyyətinin və bütöv-

**lükde bazar qiymətləri ve rəqabəti nəticəsində eldə etdiyi xalis gəlirdir ~ qazancdır. Həmin qazancın planlaşdırılması sabit, yaxud planlı qiymətlərlə deyil, rəqabət mühiti nəticəsində baş verən inflyasiya, yaxud tələb nəticəsində dinamik çevik dəyişən bir göstəricidir. Hər bir sahibkar və dövlət məhz mənfəəti artırmağa maraqlı olduğu kimi gəlirlər baxımından onun artımı, aşağı faiz dərəcələrində dövlət gəlirlərinin və uyğun olaraq əmək haqqı gəlirlərinin artmlması üçün mənbəə rolunu oynayır. Onun gizlədilməsi ve yaxud düzgün hesablanmaması dövlət gəlirləri ve əmək haqqmın artımında özünü tapmasa, ancaq mal dövriyyəsində isteblak sferasında geniş istehlak strukturunda Özünü ifadə edəcəkdir. Belə hallarda əmək haqqının artmlması ilə gəlirlərin artımı arasında birbaşa funksional asılılıq təmin olunmur, əhali gəlirləri ilə onun istehlakı, əməyin xarakteri ve əməyin ölçüsü ile uyğunlaşmır. Gəlir siyasəti bütövlükdə əmək haqqı siyasəti İle ölçü və metodiki formalaşma mənbələrinə görə adekvat bərabərlik almasa da (və bunu tələb etmək düzgün olmaz) müəyyən stimullar üçün təyin edici amil olaraq, əmək häqqısı yüksək olan əhalinin istehlak səviyyəsi, dövlət yardımından ve dövlət gəlirləri hesabına maliyyələşdirilən əhali gəlirlərinə nisbətən üstün olması zəruri şərt olmalıdır.**

**Dövlət gətirlərinin bölgüsündə əmək haqqı səviyyəsi və onun differensiyası sosial təminat və dövlətin sosial müdafiəsi funksiyası, aztəminatlı ailələrin həyat səviyyəsinin təmin olunması məqsədini güdsə də dövlət əmək haqqı siyasətində mütərəqqi stimul yaratmaqla sahibkarlığın, yaxın sahə və ərazi inkişafına təsir edir. Dövlət bazar iqtisadiyyatı şəraitində öz büdcəsinin müəyyən hissəsini zəruri tələbatlar ödənilməsi istiqamətlərində reallaşdırır. Digər hissəsini isə dövlətin ümumi mənafeyini və gəlirlərinin artınuna yönəldilən sahələrin inkişafına yönəldir. Ona görə de kommersiya menfiaətİ zəruri xərc strukturunu formalaşdırmaq və onun artımını təmin etmək üçün əldə olunan gəlirlərin yenidən bölgüsü ilə tənzimlənir. Belə funksiya həmçinin müəssisə ve təşkilatların sahibkarlıqla məşğul olan hüquqi və fiziki şəxslərin gəlir siyasətinin əsas məqsədi və onun biznes fəaliyyətinin səmərəli təşkilidir.**

Hər bir hüquqi vo fiziki şəxs cari gəlirlər, perspektiv və dövriyyə vəsaitləri, xərclər dinamikası ilə özünün gəlirlərini formalaşdınr və onu idarə edir. Gəlirlərin artımı, yaxud fəaliyyətinin səmərəlilik göstəricisi gəlirlərin artımına təsir edən amillərin seçilməsi və onların tənzimlənməsi ilə bağlıdır. Sahibkar gəlirləri cari maliyyə ile məhdudlaşmamalı, uyğun müddətli strateji xətt və meyarlara uyğun davamlı inkişaf kriteriyası ilə ölçülməlidir. Bu baxımdan perspektiv gəlirlər cari xərclərin multiplikasiya effekti kimi çıxış edir. Xərclərin gəlirlərlə bağlanması metodikası qalan metodları, yaxud maddi əşya və maliyyə qalıqları ilə istehsal həcmi və onun bölgüləri arasında səbəb və nəticə əlaqələrini qiymətləndirməklə xüsusi səmərələrin müəyyən edilməsi ilə mün^ün olur. Ona görə də gəlirlərin bölgüsü, onun istehlak yaxud yığım məqsədləri üçün istifadəsi sahələrin kapital qoyuluşunda prioritetlərinin seçilməsi, yaxud uzunmüddətli strateji məqsədlərin seçilməsi və xərclərin, ehtiyatların İstifadəsi dövlətin və hüquqi şəxslərin gəlir strategiyasının əsas konseptual istiqamətlərini müəyyən edir. Ona görə də gəlirlərin aşkarlığı, onla- nn hesabat formaları, bölgüsündə olan maraqların uzlaşması, mənafelərin təmin olunması, perspektiv və cari tələbatların həyat səviyyələrinin uzlaşmasında kompromiss həl! tapılması dünya ölkələri və qloballaşan sistem daxilində mühüm əhəmiyyət kəsb edir [69; 76; 66; 101; 129]. Hər bir ölkədə müxtəlif təbii iqlim, istehsal şəraiti, resurs potensialı, onun gəlirlərinin əldə edilməsi, bölgüsü və aşkarlığı mexanizmlərini doğurur. O cümlədən, hasilat sənayesi olan ölkələrdə gəlirlərin aşkar edilib, bu günkü, yaxud perspektiv nəslin maddi rifahı üçün istifadə edilməsi iqtisadiyyatın bütövlükdə dinamikası və inkişafı baxı- mmdan beynəlxalq iqtisadi problemlərin regional sahələri üzrə əsas istiqaməti kimi özünü büruzə verir.

Gəlirlərin iqtisadi mexanizm kimi düzgün müəyyən edilməsi, qiymətləndirilməsi dövlət büdcəsinin, ölkənin ümumi daxili məhsulunun, əhalinin rifahının və istehlak bazarının maliyyə imkanlarını qiyməti əndürnək, onun perspektivini müəyyən etmək üçün vacibdir. Gəlirlərin azaldılması özü də gizli iqtisadiyyat və korrupsiyaya çıxaran metoddur. Ona görə də gəlirlər

dünya iqtisadiyyatında və ölkə daxilində münasibətlərin inkişafına, formalaşmasına, ədalətli və sistemli dünya standartlanna uyğun dövlətçilik və demokratik prinsiplərin iqtisadi əsaslan kimi geniş ifadə forması alır.

Gəlirlər planlı təsərrüfat sistemindən fərqli olaraq daha çox rəqabət mühiti təsərrüfat sistemində təhlil, uçot və nəzarət formalanm, prinsiplərini doğurur. Onun yeni, daha geniş mənbəələ- ri meydana çıxır. Gəlirlər cari və perspektiv xaratkerili olub, xərclərin yeni dinamikasını və uyğun olaraq məsrəflərin spektrini formalaşdırır. Bu prinsiplər gəlirlərin sahə, erazi, regional, sosial qruplar və dövlətlərarası təsərrüfat əlaqələrində düzgün qiymətləndirilməsinin metodiki aspektlərinin işlənməsi və alternativ halların mümkünlüyünün nəticələrinin proqnozunu verməyə əsaslandırılır.

Əhali gəlirləri müəssisə və dövlət gəlirləri kimi məcmu kompleks tələbat və imkanlar ilə qarşılıqlı təsirdə öyrənilir. Prinsipial olaraq əhali gəlirlərini məhz istehsal və,bölgü sistemində aşağıdakı kimi İdarə etmək olar. (S.xem 1.2.)




***Sxem 1.2.* Gəlirlər və iqtisadi sistem arasında qarşılıqlı əlaqə.**

Əhali gəlirlərinin daxili strukturu onun əsas qanunauyğunlıqlan və dinamikasını göstərirsə də, onun hər bir struktur elementi xarici amil olan iqtisadi vəziyyət ilə bağlıdır. Ona görə də əhali gəlirləri forma və məzmunca ölkə iqtisadiyyatıma strukturu və islahatlar proqramı ilə tarazlaşır. Onun idarə edilməsi əks təsir edib inkişafı, onun xarakterini, nəticələrini və davamlılıq müddətini formalaşdınr. Sosial vo siyasi səmərə kimi aparılan islahatların effektini müəyyənləşdirir.

Gəlirlərin tənzimlənməsi, dövlət diktəsi yox bazar tələbinə uyğun olaraq təminat prinsipləri, sosial ədalət, aşkarlıq və davamlı inkişaf tələblərini nəzərə almaqla aparılan sistemli tədbirlərin, təhlil metodikasının və səmərəli qərar qəbulunun nəticəsi kimi başa düşülür.

## 1.2. Əhalinin həyat səviyyəsi və gəlirlərin tənzimlənməsi xüsusiyyətləri

Əhalinin həyat səviyyəsi Azərbaycan iqtisadiyyatının konsepma! inkişaf istiqamətinin aparıcı həlqəsi olub, həlli baxımından kompleks iqtisadi, maliyyə, bölgü və idarəetmə səmərəsindən asılı formalaşır. Əhalinin həyat səviyyəsi haqqında klassik Qərb nəzəriyyəsi və müasir Azərbaycan reallıqları birləşdirilir.

Müasir və qloballaşan bir dövrdə əhalinin həyat səviyyəsi anlayışı daha geniş məna kəsb edərək «insan inkişafı» konsepsiyası ilə eyniləşir. Bu konsepsiya çərçivəsində həyat səviyyəsi nəinki gəlirlərin və xərclərin adambaşına düşən orta həcmləri (rifah səviyyəsi), həm də sosial qruplar, cinslər, nəsillər arasındakı sosial bərabərlik səviyyəsi ilo, həmçinin insanlann həyat səviyyəsinə birbaşa aidiyyatı olan iqtisadi və siyasi qərarlann qəbulu prosesində iştirakı imkanları ilə müəyyən olunur.

Yeni nəzəriyyəyə əsasən əhalinin həyat səviyyəsi anlayışı bir qayda olaraq üç əsas aspekti əhatə edir:

- əhalinin rifahı;
- insan kapitalının formalaşması;
- insan inkişafınm səviyyəsi.

Cəmiyyətdə İnsanlann maddi və mənəvi nemətlərə təlobat-

lannin ödənilməsi səviyyəsi əhalinin rifahım müəyyən edir. Qərb nəzəriyyəsində rifahın iki keyfiyyət səviyyəsi müəyyənləşmişdir.

1) İnsanın (ailənin) normal həyat fəaliyyətinin təmin olunması üçün vacid olan ilkin nemətlərin - ərzaq, geyim, ev, sağlamlığın, şəxsi təhlükəsizliyin və s. təmin olunması.

2) İlkin tələbatın yüksək səviyyədə təmin olunması ailənin və onun hər bir üzvünün müxtəlif tələbatlarının optimal, fərdi formada ödənilməsinə imkan verir.

Əhalinin rifahını xarakterizə edəri əsas iqtisadi göstəricilər kimi ev təsərrüfatlarının adambaşına düşən gəlirləri, əsas nemətlərin istehlakı və təminat səviyyəsi, əhalinin gəlirlərə və xərclərə görə differensasiya dərəcəsi, yaşayış minimumu səviyyəsi, yoxsulluğun mütləq və nisbi səviyyəsi, yaşayış standartı müəyyən olunur.

Qərb nəzəriyyəsinə görə yaşayış minimumu müvafiq isteh- laka uyğun olaraq «normal həyat səviyyəsi»ni təmin edən gəlirləri xarakterizə edir. Azərbaycanda isə yaşayış minimumu minimal istehlakı ödəyən gəlirləri müəyyən edir,

- İnsan kapitalının formalaşması əhalinin sağlamlığının, təhsil, professional və mədəni səviyyəsinin artırılmasına yönələn fəaliyyəti nəzərdə tutur. Qərb nəzəriyyəsində insan kapitalının qiymətləndirilməsində üç yanaşmadan İstifadə olunur.

Birinci yanaşmada insanın prosessional bilik və bacarığının artınıması üçün investisiya qoyuluşu ilə bərabər insanın sosial bioloji varlıq kimi də inkişafına kapital qoyuluşunun vacib olduğu qeyd olunur. Burada, məsələn, uşaqlann əməkqabiliyyətli yaşına qədər maddİ təminatı və ya əhalinin tibbi xidmətinə vəsait qoyuluşu vo s. bu kimi tədbirlər nəzərdə tutulur.

İkinci yanaşmaya əsasən İnsan yalmz professional bilik və bacağımn inkişafı üçün investisiya tələb edən bir varlıqdır. Çünki bazar iqtisadiyyatında istehsal prosesi zamanı insan yalnız öz qabiliyyətini satır. Ona görə de ailənin istehsalına qoyulan vəsait kapitala çevrilmir.

Üçüncü yanaşmaya əsasən insan İntellektual və sosial-bioloji keyfiyyətlərə malik kapital olmaqla yanaşı həm də sosial key-

fıyyətlərə malikdir. Belə ki, bu özünü cəmiyyətin mənəvi vəziyyətində, sosial, həmçinin ailə münasibətlərinin möhkəmliymdə, sosial-psixoloji (optimist və ya pessimist əhval-ruhiyyə) mühitində özünü göstərir ki, bu da əmək məhsuldarlığına, əmək və sahibkarlıq aktivliyinin səviyyəsinə təsir edir.

İnsan inkişafının səviyyəsi deyildikdə insanın şəxsiyyət ve mövcud cəmiyyətin bir üzvü kimi inkişafı imkanları nəzərdə tutulur. Həyat səviyyəsinin bu aspektini iki element müəyyən edir:

1) İnsanın mövcudluğu və özünü reallaşdırması üçün lazım olan demoqrafik, tibbi, ekoloji və intellektual şəraitlə xarakterizə olunan insan həyatının keyfiyyəti.

2) Cəmiyyətdə gedən ictimai proseslərə (idarəetmədə və demokratik proseslərdə iştirak) təsir edə bilməklə sosial qrupların və ya ayn-ayrı fərdlərin cəmiyyətə inteqrasiyası.

Dünya təcrübəsində insanın inkişaf səviyyəsini qiymətləndirmək üçün aşağıdakı indekslər hesablanır:

- Həyatın keyfiyyət indeksi (HDİ) İnsanlann yaşama müddətini, ölüm və xəstəliklərin səviyyəsini, ekoloji şərtlər, təhsil və mədəni inkişafın səviyyəsini müəyyən edir;

- Cinslər və nəsillər arasında bərabərlik indeksi (GDI) gəlirlərdəkİ fərq, yaşlı əhalinin qadınlann və kişilərin sosial və siyasi nemətləri əldə edə bilməsi səviyyəsini müəyyənləşdirir;

- İdarəetmədə iştirak indeksi (GEM) müxtəlif sosial qrupların idarəetmə orqanlannda tutduğu yer və idarəetmədə iştirak bacarığını nəzərdə tutur.

Qərb nəzəriyyəsində əhalinin heyat səviyyəsini müəyyən edən əsas faktorlardan biri orta təbəqənin mövcudluğudur. Qərbin inkişaf etmiş ölkələrində bu təbəqə əhalinin ümumi sayının 60-70%-ə qədərini təşkil edir. Məhz bu təbəqə istehlakın əsas strukturunu və həcmini yaradır.

Cəmiyyətdə orta təbəqənin formalaşması və onun istehlakı- mn iqtisadiyyatın əsas elementi olması üçün bir çox iqtisadi mexanizmlər mövcud olmalıdır. Belə mexanizmi ərdən bir neçəsini sadalayaq:

- Orta təbəqənin istehlak standartlarına uyğun əmtəə və xidmətlərin istehsalı. Buna misal olaraq yaşayış binalannm tikin

tisi, avtomobil istehsalını göstərmək olar;

- Dövlətin orta təbəqənin İqtisadi maraqlarım təmin edən iqtisadi siyasəti (sabit inflyasiya səviyyəsi, yüksək ödənilşi iş yerlərinin açılması);
- Gəlirlərin tənzimlənməsinin milli və korporativ sistemlərinin yaradılması (vergilər, emək haqqı tarifləri və s.);
- Bank və maliyyə sistemlərinin əsasən «orta» təbəqə üçün istiqamətlənməsi (kiçik və orta ölçüsü depozit qoyuluşu, sığorta sistemi, istehlak kreditləri və s.).

Qərb ölkələrində əhalinin həyat səviyyəsini müəyyənləşdirən bir çox elementlər mövcuddur.

Birincisi, əhalinin ilkin tələbatının yüksək səviyyədə təmin olunması. Bu təminat səviyyəsi istehlak standartları sisteminin sosial xidmətlərə (istirahət, təhsil, səhiyyə və s.) daşınmaz əmlakın alınmasına yönəlməsinə şərait yaradır və bu prosesin surəti, keyfiyyət və kəmiyyət strukturu insanın cəmiyyətdə hansı sosial təbəqəyə aid olmasını müəyyənləşdirir.

İkincisi, istehlakın xüsusən sosial xidmətlər istehlakının böyük hissəsinin əhalinin özü tərəfindən maliyyələşməsi. Buna əsasən təhsil, səhiyyə, mədəniyyət, sosial təminat sahələri daxildir.

Üçüncüsü, insanın professional bilik və bacanğmın artınl- ması üçün müvafiq sahələrin xüsusən de təhsil sisteminin təkmilləşdirilməsi. Bu proses gələcəkdə fərdin cəmiyyətdə yerini müəyyənləşdirir. Qərbdə təhsil səviyyəsi və gəlirlər arasında çox sıx əlaqə mövcuddur.

Dördüncü, cəmiyyətdə müxtəlif sosial qruplar üçün yüksək səviyyəli İstehlakı təmin edən institutlann və mexanizmlərin yaradılması. Bu mexanizmlərin yaradılması nəticəsində cəmiyyətdə inkişaf etmiş sosial sığorta sistemi, əhalinin müxtəlif təbəqələri üçün sosial proqramlar, qeyri-dövlət sosial fondları, istehlakçılann maraqlarının müdafiəsi sistemi formalaşır. Qərbdə belə sistemlərin yaradılmasında 60-70-ci illərdə dövlət, sahibkarlar və həmkarlar ittifaqları iştirak edirdilər və 80-90-cı illərdə bu prosesə yerli, korporativ və fərdi səviyyələrdə də qoşulmalar oldu. Yuxarıda qeyd olunanları aşağıdakı sxemdə konkret olaraq

təsvir etmək olar. (Sxem 1.3.)




***Sxem 1.3.*** Həyat səviyyəsinin formalaşması və idarə olunmasının funksional modeli.

Qərbdə mövcud olan əhalinin həyat səviyyəsi nəzəriyyəsi ilə keçmiş sovetlər birliyindəki nəzəriyyə bir-birindən çox fərqlidir. Belə ki, ikinci əhalinin ilkin tələbat mallan (ərzaq, geyim) ilə təminatı ilə bərabər son istehlak malları ilə (avtomobil, ev) təminatın aşağı səviyyəsi, gəlirlərin və istehlakm zəif differensa- s iy ası və .s. ile xarakterizə olunur.

Bir neçə inkişaf etmiş ölkənin istehlak xərclərinin strukturunu təsvir edən aşağıdakı cədvələ baxaq (cədvəl I.3.).

Cədvəldən göründüyü kimi, Avropa Ölkələrində istehlak xərclərinin strukturunda ərzaq xərcləri ilə bərabər, kommunal xərclər, istirahot və mədəniyyət xərcləri, nəqliyyat xərcləri do yüksək çəkiyə malikdir. Bəziləri isə ərzaq xərclərindən də artıqdır.

Azərbaycanda istehlak xərclərinin strukturunda 2002-ci il üzrə isə tamam fərqli bir mənzərədir. Ərzaq məhsullanna çəkilən xərclər Avropada 13,4%-ə qarşı Azərbaycanda 54,7% və ya istiraliət vo mədəniyyət xərcləri 11,1%-e qarşı - 3,4% olması əhalinin pul gəlirlərindəki kəskin fərqlə izah olunur.

*Cədvəl L3.*

Bir neçə Avropa ölkəsində ev təsərrüfatlannın istehlak xərclərinin strukturu, 2003, %-lə

| | İsveç | Danimarka | Almaniya | İngiltərə | Yunanıstan | Finlandiya | Azərbaycan |
|---|---|---|---|---|---|---|---|
| **Ərzaq məhsullarına** | **15,4** | **13,1** | **11,1** | **10,5** | **16,6** | **14.2** | **54.7** |
| **Alkoqola va tütün melumatına** | **2,9** | **4,2** | **2,8** | **3** | | **3,5** | **2.6** |
| **Paltar və ayaqqabıya** | **5,2** | **5,5** | **5,7** | **5,5** | **8,6** | **4.6** | **6.8** |
| **Su, işıq, qaz və digər yanacaq növlərinə** | **26,8** | **28,4** | **31,2** | **28,3** | **21,9** | **28,1** | **5.7** |
| **Ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa** | **5** | **6.4** | **7,4** | **7.3** | **7.5** | **4.5** | **7.1** |
| **Səhiyyə xidmətlərinə** | **3** | **2,4** | **3,6** | **1.1** | **6,3** | **3.7** | **3.7** |
| **Nəqliyyat xərcləri** | **13,4** | **14,1** | **13,3** | **13,6** | **11,2** | **17** | **5.2** |
| **Rabitə xərcləri** | **2,6** | **2,1** | **2,5** | **2,3** | **3,3** | **2,8** | **1.5** |
| **İstirahət və mədəniyyət xərcləri** | **14,6** | **11,2** | **11,9** | **13.4** | **4,5** | **10,7** | **3.4** |
| **Təhsil xərcləri** | **0,1** | **0,4** | **0,5** | **1,3** | **2,4** | **0,2** | **1.2** |
| **Mehmanxana, kafe, restoran, yeməkxanaya** | **3,8** | **4,1** | **4,9** | **7,9** | **8,8** | **4,1** | **4.6** |
| **Digər mal və xid- 1 mətlərə** | **7,2** | **8,1** | **5** | **5,8** | **5,5** | **7.1** | **3.5** |

**Mənbə; İnlcmel. www.stat.fi**

Əhali gəlirlərinin səviyyəsi cəmiyyətin rifahını və əhalinin sosial imkanlannı (istirahətini, təhsil almasnı, sağlamlığını) müəyyən edən əsas indikatorlanndan biridir. Əhalİ gəlirlərinin artması istehlak xərclərinin strukturunun dəyişməsinə səbəb olur. Bu özünü onda göstərir kİ, ailələrin gəlirləri artdıqca ərzağa olan xərclərin xüsusi çəkisi azalır və bu pay nə qədər azdırsa, rifah səviyyəsi bir o qədər yüksəkdir.

Beləliklə, əhalinin həyat səviyyəsi birbaşa olaraq gəlirlərdən asılıdır və buna görə də iqtisadiyyatın stimullaşdırılmasının prioritet istiqamətlərindən biri də əhali gəlirlərinin artırılmasıdır. Bu birinci növbədə ohalinin daha kasıb və orta təbəqəsinə aid olmalıdır.

Əhalinin rifahı müstəvi yanaşması baxımından bütün sosial qrupların məşğuliyyətindən, təhsilindən və əmək qabiliyyətindən asılı olaraq stimullaşdırma prinsiplərindən və dövlətin imkanları çərçivəsində əldə olunan tətbiqi mexanizmlərinin əsaslı seçilməsindən asılıdır. İqtisadi inkişaf əhalinin gəlirləri, alıcılıq qabiliyyəti, aztəminatlı qrupların maddi təminatı və gənclərin hərtərəfli inkişafı üçün maddi əsas yaradır. Məhz rifaha Azərbaycanın iqtisadi inkişafının son nəticəsi kimi baxışlardan fərqli olaraq biz ona sosial amil kimi, məqsədyönlü iqtisadi fəaliyyətinin amili kimi baxırıq. Sosial amil təbii ki, maddi təminat, maliyyə mexanizmləri ilə müəyyənləşir. Bu mexanizmlərin hər birinin sosial inkişaf və rifah üçün təsir gücünü seçmək məqsədlər prioriteti ilə mümkündür.

Əhalinin rifahının elmi obyekt kimi dinamikasında qiymətləndirmə məhz bazar tipli xüsusiyyətlər və amillərin dəyişmə meyllərini nəzərə almaqla aparılmalıdır. Bazar tipli sosial model və həyat səviyyəsi daha çox orta həyat səviyyəsi yanaşmasından, minimum yaşayış səviyyəsində olan ohalinin təminatı ilə daha da aktuallaşır. Məhz kasıbçılıq həddi onun həddində yaşayanlann ümumi sayının aşağı salınması və əhalinin sosial müdafiə mənbəələri daha aktualdır. Praktiki cəhətdən əhalinin sosial müdafiəsi ilə yanaşı bərabərlik və ələbaxımlılıqdan uzaqlaşıb, stimul yaratmaq mexanizmlərinə üstünlük verilməsi daha böyük əhəmiyyət kəsb edir. Sosial güzəştlərin ləğvi, onların kompensasiya ilə əvəz edilməsi sosial müdafiə və həyat səviyyəsinin yüksəldilməsində ünvanlılığın təmin edilməsinə yönəlir. Sosial inkişafda sosial müdafiə mexanizmləri yeni iş yerləri, təminat sistemi və kredit vasitəsi ilə sahibkarlığın inkişafı istiqamətində həll olunur. Əmək haqqı, pensiya təminatı, müavinatlar, yardımlar və birbaşa ödəmələr rifahın maliyyə formasıdır. Hər bir daxil olmalar cari gəlirlərin mənbəyi və alıcılıq qabiliyyətinin əsasmı təşkil edir.

Azərbaycan Respublikasının makroiqtisadi göstəricilərinin dinamikası əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması tədbirlərinin maddi əsasını təmin edir. (Cədvəl 1.4.)

*Cədvəl 1.4.*

Makroiqtisadi və əhalinin maddi rifah göstəriciləri

| Göstəricilər | | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|
| **Ümumi Daxili Məhsul (ÜDM)** | **Mlrd, man** | **23590,5** | **26578,0** | **30312,3** | **35053,4** |
| **ÜDM-ın adambaşına həcmi** | **Min man.** | **2975,4** | **3325,9** | **3764,6** | **4320** |
| **Pərəkandə əmtəə dövriyyəsi** | **Mlrd, man** | **10599,4** | **11877, 4** | **13442,3** | **15310** |
| **Əhalinin pul gəlirləri** | **Mlrd, man** | **17557** | **19010** | **21220.3** | **24208** |
| **Əhalinin xərcləri** | **Mlrd.man** | **17347,** | **18616,** | **21015,4** | **23859,8** |
| **Orta aylıq əmək haqqı** | **Min man.** | **221,6** | **260,0** | **315.4** | **383,1** |
| **0 cümlədən** | | | | | |
| **Dövlət sektorunda** | **Min man.** | **192,4** | **211,5** | **215.2** | **255,5** |
| **Qeyri-dövlət** | **Min man.** | **418.0** | **586,5** | **610,8** | **692.2** |
| **Əhaliyə göstərilən pullu xidmətlərin həcmi** | **Mlrd, man** | **2386,0** | **2488,6** | **2659** | **2961,1** |
| **İstehlak qiymətlərinin indeksi (inflyasiya)** | **%-lə** | **101,8** | **101,5** | **102,8** | **102,2** |
| **Malların ixracı və idxalı, cəmi** | **Mln. dollar** | **2917,3** | **3745,3** | **3832,9** | **5218,1** |
| **Dövlət büdcəsinin resursları (gəlirləri)** | **Mtrd.man** | **3573.2** | **3924,0** | **4551.2** | **6104.5** |
| **Gəlirlərin yekunu** | **Mlrd, man** | **8743,0** | **9977,0** | **14355** | **20089.1** |

**Cədvəl İqtisadi İnkişaf Nazirliyinin məlumatları əsasında tərtib olunmuşdur.**

Gəlirlərin mənbələri, formaları, dövlət gəlirlərinin və müəssisə-təşkilat gəlirlərinin bölcüsü və yenidənbölgüsü yolu ilə baş verir. Sxematik olaraq gəlirlərin formalaşma dinamikasını aşağıdakı sxem üzrə təhlil edib və proqnozunu vermək mümkündür. (sxem 1,4.).




Sxem 1.4. Gəlirlərin formalaşması monbələri.

Əhalinin gəlirlərinin formalaşma mənbələrinə görə dinamikası bazar iqtisadiyyatı şəraitində köklü struktur dəyişmələrinə səbəb olur. Bazar tipli mexanizmlərin tətbiqi həm gəlirlərin, həm də xərclərin strukturunda öz təsirini göstərir.

Respublikanın gəlirlərinə, həyat səviyyəsinə sosial inkişaf baxımından yanaşmaq üçün, fikrimizcə, məcmu gəlir anlayışı daha düzgündür. Məcmu gəlirlər dövlət büdcəsinin gəlirlərini, müəssisə və təşkilatlarm gəlirlərini, həmçinin büdcədənkənar

sosial müdafiə fondunu vo dövlətin neft fondunu əhatə edir. Bugünkü xərc strukturunda cari ehtiyacları ödəmək üçün onların xərclənməsi istehlakda öz əksini tapır. Ona görə də xərclər dinamikasına dövlət büdcəsinin xərcləri, müəssisə və təşkilatlann mənfəəti və amortizasiyası hesabına İstiqamətlər müəyyən edilir. Təbii ki, digər gəlirlər də əhali üçün istifadə olunursa, onlar əhali gəlirləri kimi formalaşır. Əmtəə və xidmət bazarında isteh- lak tələbatını ödəmək üçün istifadə olunur. Məcmu gəlirlərin xərclənmə dinamikası əhali gəlirlərinin formalaşma mənbələrini müəyyən edir.

***Cədvəl 1.5.***

Məcmu xərclər dinamikası

***(mlrd.maiiatla)***

| Xərclər | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| **Dövlət büdcəsinin xərcləri** | **3820,0** | **4037,5** | **4658.8** | **6172.7** |
| **Müəssisə və təşkilatlann sərəncamında olan mənfəət və amortizasiya xərcləri** | **3102,0** | **4074,0** | **6564.5** | **8281.7** |
| **Digər xərclər** | **854,0** | **1039,0** | **2199.2** | **5062.5** |
| **0 cümlədən** | | | | |
| **a)qiymətli kağız, dividentlərdən və özəlləşdirmədən alınmış gəlirlərin xərci** | **38,0** | **200,0** | **107.8** | **97.9** |
| **b) sosial müdafiə fondunun xərcləri** | **816,0** | **835,0** | **1657.2** | **1808** |
| **v) neft fondu*** | | **4,0** | **434.2** | **1180.1** |
| **Məcmu xərclər** | **776,0** | **9150,5** | **13422.5** | **19516.9** |

**Mənbə; İqtisadi İnkişaf Nazirliyinin və 2005-ci il üçün Dövlət Büdcəsi zərfi materialları əsasında tərtib olunub.**

*** - ncfl fondunun xərcləri nəzərdə tutulub.**

Planlı təsərrüfat şəraitində əmək haqqı gəlirləri dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlarda özünün xüsusi çəkisinə görə üstün yer tuturdu. Əmək haqqı gəlirləri, təbii ki, əməyin kəmiyyət və keyfiyyətinə həm də işləyən müəssisələrin ümumi prinsiplərə görə bölünən mənfəətindən asılıdır. Bazar tipli inkişaf strukturu hər bir müəssisənin rəqabət mühiti şəraitində özünün stimullaşdırma prinsiplərini tətbiq etməyə imkan verir.

Əmək haqqı sistemi orta aylıq əmək haqqı, minimum əınok haqqı və əmək haqqının sahə və ərazi differensiyası ilə təhlil olunur. Bazar iqtisadiyyatı şəraitində orta aylıq əmək haqqı ümumi iqtisadi artımla, yəni ÜDM və onun sahə strukturu, mülkiyyət formalanna uyğun müəyyənləşir. Belə ki, sahənin bazar tələbatına uyğun məhsul potensialı, onun ixracat strukturunda rolu artdıqca, təbii ki, gəliri də artır və əmək haqqının dinamikası formalaşır.

*Cədvəl 1.6.*

Orta aylıq nominal əmək haqqı (min manat)

| Sahələr | 2000 | | 2001 | | 2002 | | 2003 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Dövlət | Qeyri-dövlət | Dövlət | Qeyri-dövlət | Dövlət | Qeyri-dövlət | Dövlət | Qeyri-dövlət |
| **İqtisadiyyat üzrə, cəmi** | **192,4** | **418,7** | **197,7** | **510,5** | **215,2** | **610,8** | **255.5** | **692.2** |
| **Kənd təsərrüfatı** | **72,3** | **64,9** | **77,5** | **68,0** | **88,8** | **91,9** | **99.7** | **145.2** |
| **Tikinti** | **362,9** | **647,9** | **368,4** | **703,8** | **378,5** | **995,2** | **401.6** | **1314.6** |
| **Təhsil** | **155,2** | **258,9** | **164,0** | **366,8** | **168,3** | **433,4** | **209.5** | **403.8** |
| **Səhiyyə və sosial müdafiə** | **71,2** | **371,8** | **76,1** | **22,2** | **77,8** | **460,1** | **95** | **882.3** |
| **Dövlət idarəetməsi və müdafiə, məcburi sosial təminat** | **194,5** | | **223,4 ■** | **“** | **317,6** | **133,0** | **399.5** | **136,0** |
| **Elektrik cncijisi və su təchizatı** | **269,5** | **110,9** | **316,9** | **455** | **300,6** | **438,4** | **327** | **745.3** |

**Cədvəl Azerbaycan Statistik Göstəriciləri əsasında tərtib olunmuşdur [6, s. 113-115; 7. S.132]**

Mülkiyyət münasibətindən asılı olaraq orta aylıq əmək haqqının yuxan olması, təbii ki, stimul yaradır ki, sahibkarlıq inkişaf etsin. Amma, rəqabət mühitinin düzgün şəraiti əmək haqqının əmək qabiliyyətli insanlarla əmək bazannda iş qüvvəsinə olan tələbat arasında nisbətlə ölçülməsinə əsas yaradır. Bu və ya digər problemlər olsa da, əmək haqqının gəlir kimi formalaşması dövlətin büdcəsi və müəssisənin gəlirləri arasında nisbətlə müəyyənləşir. Dövlət büdcəsinin dinamikası, müəssisə gəlirlərinin ümumi həcmindən və əhalinin yaşayışı üçün lazım olan maddi və mənəvi nemətlərin məcmu ilə müəyyən olunur. Dövlət büdcəsi əhali gəlirlərinin formalaşmasında birbaşa və dolayısı mənbəə rolunu oynayır. Dövlət büdcəsi hesabına büdcədən maliyyələşdirilən sahələrin əmək haqqı formalaşır. Həmçinin əhalinin transfert gəlirləri və büdcə vasitəsilə maliyyə-kredit sistemindən əldə olunan faizlər, dividentlər əldə olunur. Dövlət büdcəsinin sosial xərcləri əhalinin məşğulluğu, dövlət idarəetmə aparatının stmkturu, həmçinin əhalinin demoqrafik tərkibi ilə müəyyən olunur. Büdcənin əhali tələbatında rolu büdcədən gələn gəlirlərin əhalinin istehlakında rolu ile müəyyən olunur. Adambaşına düşən gəlir səviyyəsi, onun natural və pul gəlirləri qiymətin sabit saxlanması şəraitində alıcılıq qabiliyyətini müəyyən edir. Tənzimləmə və gəlirlərin idarə edilməsi dövlət gəlirləri ilə əhali gəlirləri arasındakı qarşılıqlı əlaqəni və təsirlərin immitasiya modelini təsvİr etməklə reallaşa bilİr. Dövlət gəlirlərinin formalaşmasında əhalinin rolu onun yaratdığı maddi və mənəvi nemətlərin dövlətin ümumi məqsədləri üçün ayrılan hissəsi ilə Ölçülür. Dövlət gəlirlərini ayrı-ayrı fiziki, hüquqi şəxslərin və təsərrüfat obyektlərinin gəlirlərinin idarə edilməsi ilə formalaşdırmaq məqsədilə mexanizmlər tətbiq edilir. Həmin mexanizmlər konseptual məqsədlərin təmin olunması və tələbat üçün dövlət büdcəsinin həcmi və onun forması ilə müəyyən olunur. Dövlətin maliyyə, kredit, vergi, faiz siyasəti formalaşır. Beləliklə, dövlət gəlirlərinin formalaşmasının metodoloji əsasını əhali gəlirlərinin proqnozu və istehlak səviyyəsi müəyyən edir. Sonradan həmin gəlirlərin bölgüsü metodlan, stimulları və normativləri müəyyən olunur. (Sxem 1.5)

Sxemdən göründüyü kimi, dövlət gəlirləri, əhali gəlirləri, hər bir ailə gəlirləri və İstehlak real geiİrlər sistemi kimi for- mal aşır. Təhlili proqnoz modeli metodlan funksional və immita- siya hesablamaları ilə qiymətləndirilə bilər.




*Sxem 1.5.* Dövlət gəlirlərinin formalaşması vo proqnozunun əsas istiqamətləri.

Gəlirlərin forması, onun mənbələri uyğun ünvanlı istehlak strukturu yaradır. Gəlirlərə istehlak yolu ilə təsir etmək idarəetmə metodologiyasında ünvanlığı və məqsədli istehsal bölgü və istehlak proqramları üçün əsas metodoloji baza və proqnozlaşdırma istiqaməti kimi formalaşır.




*S.xem 1.6.* ƏhalӀ istchlakınm maliyyə mənbələri.

**Əhali gəlirlərinin təhlili metodikası balanslarla təsvir oluna bilir və proqnozlaşır.**

**E*,**

**A** **(1.5)**

**Burada, Xj- gəlirlərin i - növü üzrə həcmi; - xərclərin c növü üzrə həcmi; G - gəlirlər, X - xərclər.**

**Balans şərti olaraq:**

**(1.6)**

**i-o ;=ı**

**Əhali gəlirlərinin balans təsviri hər bir gəlirin digərinə təsiri, bir-birinin əvəz edilməsində makroiqtisadi tənzimlənmə tədbirləri hazırlamaq üçün əsas verir. Transferi gəlirlərinin artması pensiya islahatı, müavinatlar və minimal yaşayış səviyyəsinin tənzimlənməsi üçün makroiqtisadi proqnozlara imkan verir. Əhali gəlirlərinin makroiqtisadi dinamikası iqtisadi artım və ÜDM-un istehsal və istehlak metodu ilə hesablanmasında sahələr V**o **ayn-ayn fəaliyyətlər, həmçinin istehlak növləri üzrə for- malaşdmlır. Sosial-iqtisadi qruplar üzrə gəlirlərlə istehlak arasında tarazlı təsvir sosial müdafiə, yaşayış minimumu və sosial müavinatlar almağa şərait yaradır.**

**Əhali gəlirlərinin Ukin mənbəyi və formalaşma dinamikası ev təsərrüfatında olan fəaliyyətlə bağlıdır (Cədvəl 1.7.)**

**Ev təsərrüfatının pul gəlirlərinin dinamikası bütövlükdə makroiqtisadi göstəricilərin dinamikasını tam əks etdirməsə də, əsas qanunauyğunluqlan təsvir edə bilir.**

**G^ək gəlirləri mülkiyyət münasibətlərindən asılı olaraq respublikada fəaliyyət göstərən bütün təsərrüfat formalanndari gələn gəlirləri əhatə edir. Xarici şirkətlərin müəssisələri, müştərək təsərrüfat formaları və həmçinin sahibkarlıq fəaliyyətindən olan**

gəlirlər əmək gəlirlərini əhatə edir. Əhali gəlirlərinin əsas mənbəyi il ərzində istehsal həcmi, kapital qoyuluşu və dövlət gəlir-

Cədvəl I. 7,

Ev təsərrüfatlarının pul gəlirlərinin tərkibi və ondan istifadə edilməsi (faizlə)

| | 1990 | 1996 | 1997 | 1998 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|---|
| **Gəlirlər** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** |
| **Əmək Kəlirlori** | **69.3** | **36.5** | **40,0** | **39,7** | **35,5** | **39,8** | **30.5** | **30.5** |
| **Sosial transfertlər** | **12,7** | **6,6** | **7.7** | **7,6** | **7,8** | **9,0** | **11.1** | **11.6** |
| **Kənd təsərrüfatı məhsullarının satışından gəlir** | **7.5** | **14,6** | **13,2** | **14,8** | **18,3** | **33,4** | **15.4** | **15.5** |
| **Digər gəlirlər** | **10,5** | **42,3** | **39,1** | **37,9** | **38,4** | **18,0** | **43** | **42.4** |
| **Pul xərcləri** | **100** | **100** | **100** | **100** | **100** | **i 00** | **100** | **100** |
| **Orzağa** | **46,1** | **68,5** | **70,0** | **69,2** | **64,3** | **67,8** | **53.6** | **54.7** |
| **Qeyri-ərzağa** | **10,8** | **5,8** | **5,4** | **6,1** | **7,8** | **7,1** | **16.9** | **15.8** |
| **Alkoqollu içkilərə** | **1,1** | **0,7** | **0,8** | **1,0** | **1.2** | **2.6** | **0.6** | **0.7** |
| **Xidmətlərin ödənilməsinə** | **28,2** | **15.1** | **14,2** | **16,1** | **20,5** | **18,9** | **28.9** | **28.8** |
| **Vergi, rüsöm və ödəmələr** | **5.9** | **2,8** | **2,9** | **2,5** | **3.1** | **1.0** | | |
| **Digər xərclər** | **7,9** | **7,1** | **6,9** | **5.1** | **3,1** | **2,1** | **-** | **-** |

**Cədvə! Azərbaycan Statistik Göstəriciləri əsasında tərtib olunmuşdur.** [6; S.129]

lorinin hesabına ayrılan transferi gəlirləri, habelə öz xüsusi təsərrüfatı hesabına istehlak olunan natural və pul gəlirlərini əhatə edir. Hər bir gəlirin özünün formalaşması amilləri və onun proqnozu ümumi iqtisadi artımdan, bölgü mexanizmlərindən və təkrar bölgüdən asılıdır. Gəlirlər həmçinin xərclərin xarakteri və istiqaməttləri üzrə tədqiq olunduqda uçot və tənzimlənmədən kənarda formalaşan gəlirlər nəzərə alına bilər. Ona görə də gəlirlərin dinamikasına makrosəviyyə göstəricilərdən yanaşmaqla mikrosəviyyədə gəlirlərin formalaşması dinamikasını təhlil etməklə və əksinə üsullarla makrosəviyyəli nəzərə alınmayan

gəlirləri uçota almaq olar. Gəlirlərlə istehlak arasında nisbətlərin öyrənilməsi, onların struktur dəyişmələri, məzmun baxımından təhlil üçün əhəmiyyət kəsb edir.

Gəlirlərin tədqiqi metodikasında differensial yanaşma və differensasiyaya təsir edən amillərin elastiklik əmsalının qiymətləndirilməsi, onun proqnozu üçün imkan verir. Gəlirlərin paylanması desil, kvantil və Cini əmsalları ilə ölçülür. Yəni əhali eyni məbləğdə gəlir əldə edə bilməz. Həm də buna çalışmaq lazım deyil. Amma gəlirlərin differensasiyasmda aztəminatlı və yüksək təminatlı ailələr, yaxud əhali arasında ciddi fərq ola bilər. Əgər bu fərq azdırsa, gəlirlərə görə paylanma eyni sıxlıqda baş verir. Gəlirlərin differensasiyası ilə adambaşına düşən gəlir səviyyəsi arasında tarazlı inkişaf baş verirsə onda cini əmsalının artımı hiss olunmur. Əksinə, orta adambaşına düşən gəlir səviyyəsi artırsa, onun əsas yükü maksimal təminat səviyyəsində olan əhalinin payına düşürsə, onda cini əmsalı artır. Beləliklə, bərabər paylanma nəzəriyyəsi iqtisadiyyatda iqtisadi tədbirlərin eyni ölçüdə təsir qüvvəsi ilə ölçülür. Nə qədər təsir qüvvəsi bütün gəlirli ailələrə təsir edərsə, onda ümumi meyllər daha çox xarakterik olur. Məhz gəlirlərin tənzimlənməsi ideyası bu konsepsiyaya əsaslanır.

Bazar iqtisadiyyatı şəraitində mübadilə sferası əmtəə, xidmət və pul bazan əhali gəlirlərinin formalaşmasına şərait yaradır və gəlirlərin reallaşmasım stimullaşdırır.

Əmtəənin bazarda qiyməti, ona olan tələbat hər bir əmtəə və xidmət üçün alıcılıq qabiliyyətini və tələbatı formalaşdırır. Nominal gəlirlər məhz istehsal olunmuş əmtəə və xidmət bazarı ilə və istehlak seqmenti ilə müəyyən olunur. İstehlak seqmenti gəlirlərin ümumi həcmi və hər bir istehsal olunan əmtəə və xidmətin təklifi ilə həmin sahədə işləyənlərin və yaxud sahibkarın gəlirinə təsir edir. Fərdi gəlirlər dinamikası fiziki vo hüquqi şəxslərin məhz əhali gəlirini formalaşdıran sahə, ərazi quruluşu formalaşdınr. Beləliklə, tədqiqatda istehlak seqmentinə uyğun istehsal seqmenti və uyğun olaraq gəlirlərin həcmi və formasına uyğun istehsal tipləri, yaxud fəaliyyətlər qrupu təşkil olunur.

Bu yanaşma bizim fikrimizcə, bazar iqtisadiyyatı şəraitində

kompleks yanaşaraq sistem halında istehlak, istehsal, gəlir arasında məntiqi əlaqənin və formalaşma dinamikasında təsir gücünü qiymətləndirməyə imkan verir.

Əhalinin həyat səviyyəsinin tənzimlənməsi daha çox onun minimum və orta təminat səviyyələrinin qiymətləndirilməsi metodikası və uyğun olaraq minimum səviyyə üçün dövlətin təminat meyarlanrun və konkret maliyyə mezanizmlərini əsaslandırmaq və orta istehlak səviyyəsi üçün gəlirlərin artmasına stimul yaradan tədbirlər tətbiq etməkdir.

Minimum yaşayış səviyyəsi əhalinin minimum istehlak səbətinə uyğun maddi nemətlərin və xidmətlərin dəyərinə uyğun və məcburi ödənişləri təmin edən gəlir səviyyəsinin tənzimlənməsi ilə bağlıdır. İqtisadiyyat inkişaf etdikcə, əmtəə və xidmət bazarında marketinq və keyfiyyət dəyişmələri baş verdikcə minimal yaşayış səviyyəsinin maddi forması uyğun istehlak bazarından digər istehlak seqmentinə keçir.

## 1,3. Əhali gəlirlərinin formalaşma mənbələri və sosial-iqtisadi nəticələri

Əhalinin heyat səviyyəsinin və kasıblıq göstəricisi kimi gəlirlərin nominal səviyyəsi, onun alıcılıq qabiliyyəti və yüksəldilməsinin mənbələri nəzəri və praktiki əhəmiyyət kəsb edir. Əhali gəlirlərinin formalaşması mənbələri, onun dinamikası adam başına düşən səviyyəsi iqtisadi və sosial İnkişafın əsas göstəricisi olub, iqtisadi siyasətin əsas istiqamətini təşkil edir.

Bazar iqtisadiyyatı şəraitində adam başına düşən Ümum İ Daxili Məhsul, onun dövlət gəlirləri və əhaliyə çatan hissəsi arasında makroiqtisadi təhlil və proqnozlann apanıması dövlət büdcəsinin və əhalinin gəlir və xərc balanslannın arasındakı əlaqələrin təkmilləşdİrilməsinə şərait yaradır. Əhalinin gəlirləri forma, mənbo vo xərc strukturuna görə bazar tipli təhlil metodikasına uyğun olaraq tədqiq olunur və proqnozlaşdırılması üçün, dövlət tədbirlərinin hazırlanması üçün meyar rolunu oynayır.

Dövlət sosial-iqtisadi proqramların tərtibi, onlann reallaşması, yoxsuliuğun ləğvi proqramı, əmək haqqı və transfert gə

lirlərinin səviyyəsinin və differensasiyasmın əsaslandırılmasının metodoloji bazası kimi əhali gəlirlərinin formalaşma mənbələri üzrə təhlil daha üstünlük kəsb edir.

Bazar iqtisadiyyatı inkişaf etdikcə, özəlləşdirmə vüsət aldıqca əhalinin əmək haqqı gəlirlərində sahibkarlıqdan gələn gəlirlər daha üstünlük təşkil edir. Dövlət büdcəsi gəlirlərin bölgüsü və yenidən bölgüsü yolu ilə əhali və müəssisələrinin maliyyə imkanlannı formalaşdınr. Əhalinin gəlirləri mülkiyyət münasibətlərinə görə özəl sektordan muzdlu əməyə görə alınan gəlirlərə, dövlət müəssisələrindən əməyin kəmiyyəti və keyfiyyətinə görə alınan emək haqqı gəlirlərinə, maliyyə sistemindən dövlət büdcəsi vasitəsilə əhaliyə sosial müdafiə məqsədilə verilən transfert gəlirlərinə və əhalinin fərdi fəaliyyətləri ilə öz xüsusi təsərrüfatlarından alman gəlirlərə, sosial sığorta ödəmələrinin müdafiə məqsədilə əhaliyə verilən gəlirlərindən, həmçinin ailə və fərdi maliyyə yardımları ile alman maliyyə gəlirlərindən ibarətdir.

Əmək haqqı gəlirləri bazar iqtisadiyyatı şəraitində muzdlu əməyə dövlət və özəl müəssisələrində əməyin kəmiyyətinə və keyfiyyətinə görə verilən və müəssisələrinin fəaliyyətinin son nəticəsi olan əmək haqqı və onun gəlirlərindən asılıdır. Əmək haqqı gəlirlərinin maliyyə mənbələrini dövlət gəlirləri və sahibkarların gəliri təşkil edir. Stimul yaratmaq məqsədilə və rəqabət mühiti şəraitində məhsuldarlığı artırmaq üçün əmək haqqının artırılması meyli obyektiv zəruriyyət amili kimi formalaşır. Digər tərəfdən iş yerlərinin əmək qabiliyyətli iş qüvvəsindən nisbətən az olması eməyin ödənilən dəyəri ilə onun yaratdığı dəyər arasındakı fərqi formalaşdınr. Əhalinin istehlak tələbatı, onun minimal yaşayış vəsaitləri ile təmin olunması ehtiyacları əmək haqqının minimal səviyyəsini formalaşdınr. Bu deyilən amillərin qarşılıqlı əlaqəsi və bir-birinə təsir gücü orta aylıq əmək haqqını, minimum istehlak büdcəsini təmin edən minimum yaşayış səviyyəsini və əmək haqqım formalaşdınr. Əmək haqqının maliyyə əsası olan ümumi daxili məhsul, onun istehlak üçün ayrılan hissəsi və sahibkann mənfəəti, əhalinin xüsusi vəsaitlərinin iqtisadi dövriyyəyə cəlb edilməsi hesabına olan

gəlirlərdir. Sahibkarlıq fəaliyyətindən olan gəlirlər bütün gəlirlərin apancı payını təşkil edir. Sahibkarlıq fəaliyyətindən gələn gəlirlər hər bir özəl müəssisənin eməyə görə verdiyi muzdlu haqdan və özəl sektorun sosial tədbirlər üçün ayırdığı vəsaitlərdən ibarətdir. Sahibkarlığın gəlirliri əhalinin gəlirlərinin artmasının əsas mənbəyi rolunu oynayır. Sahibkarlıqda orta aylıq əmək haqqının səviyyəsi, iqtisadiyyat üzrə orta aylıq əmək haqqının səviyyəsindən xeylİ yuxarıdır, Dövlət sektorunda orta aylıq əmək haqqının səviyyəsi 2005-ci ildə 410.5 min manat proqnozlaşdırıldığı halda özəl sektorda onun səviyyəsi 1002,8 min proqnozlaşdırılır. Özəl sektorun Azərbaycan iqtisadiyyatında rolu onun ayn-ayn sahələrinin ümumi məhsulunda və onların xalis gəlirlərində xüsusi çəkisi əhali gəlirlərinin mənbələr üzrə fomılaşması dinamikasını və qanunauyğunluqlarını müəyyən edir. Əhali gəlirləri həmçinin büdcə vasitəsilə yenidən bölgü yolu ilə formalaşır. Büdcədən əhaliyə sosial müdafiə məqsədləri üçün pensiyalar, müavinətlər, təqaüdlər və digər maddi köməklər, yardımlar verilir. Gəlir istehlak baxımından tələbatı nəzərə alaraq əhali və onun ayrı-ayrı qruplanmn sərəncamına düşən pul vasitəsinə deyilir.

Əhalinin gəlirləri həmçinin nominal, mobil və real gəlirlər kimi iqtisadi ədəbiyyatlarda öz tədqiqini tapır. Bazar iqtisadiyyatı şəraitində gəlir formaları öz daxili strukturu və formalaşma mənbələrinin xüsusi çəkisinə görə struktura özündə əks etdirir, İstehlak baxımından daha çox mobil gəlirlər öz əksini tapır. Əhali, onun ayn-ayn sosial-iqtisadi qrupları həmin gəlirin məbləğini və formalaşma mənbələrini idarə edərək, onun İstehlak strukturunu seçib reallaşdınr. Mobil gəlirlərinin dinamikası ilə İstehlak arasında tarazlı inkişafin proqnozlaşdırılması əmtəə və xidmət dövriyyəsində əhalinin alıcılıq qabiliyyətini region bazarında əmtəə vo xidmət təklifim, habelə vergi sistemini təkmilləşdirmək üçün tövsiyyələr vermək olur. Real gəlirlər bazar iqtisadiyyatı şəraitində dövlətin, yaxud inhisarçılann, həm də sahibkarların bazar strukturuna təsir gücü ilə əmtəə və xidmət bazannda tələb və təklifə təsir etmək ilə tənzimlənir. Digər tərəfdən iqtisadi idarəetmə mexanizmləri olan vergi, maliyyə

bank və kredit sistemi vasitəsilə real gəlirlərin formalaşmasına tənzimləmə xarakterli idarəetmə təsirləri və qərar qəbulu əsaslandınnaq olar. Vergi dərəcələrinin differensial xarakteri onun ayn-ayn fəaliyyətlər və sahələr, həmçinin regionlar üzrə fərdi və ayn-ayn sosial-iqtisadi qrupların real gəlirlərini formalaşdırır. Sadələşdirilmiş vergi formasına keçilməsi haqqında vergi məcəlləsində 2002-ci ilin büdcə layihəsində dəyişiklik edilməsi məhz regional, differensial vergi siyasətinin, həmçinin salıibkarhğın inkişafı üçün dövlətin gəlirlərinin tənzimlənməsində himayəçilik siyasətidir.

Rəqabət mühiti və minimal istehlak büdcəsinin təminatı üçün zəruri olan nominal gəlirlər arasında tarazlılıq əhali gəlirlərinin tənzimlənməsində dövlətin 'əsas vəzifələrini güzəştli kredit və vergi siyasətini fomıalaşdırır. Ucuz bank faizi ıızım- müddətli ünvanlı kredit əhalinin gəlirlərində hamarlama siyasətini formalaşdmr. Əhali gəlirləri ilə dövlət gəlirləri arasında nisbətlər yenidən bölgü mexanizmlərinin təkmilləşdirilməsi ilə tənzimlənir. Hüquqi şəxslər və sahibkarlıqla məşğul olan fiziki şəxslərin sahibkarlıqdan gələn gəlirləri muzdlu işçilərin gəlirlərinin artımının mənbəyidir. Lakin əmək bazarında iş qüvvəsinə olan tələbat onun ödənilən əməyinin dəyərinə təsir edir. Beləliklə əmək bazan, 'istehlak bazan və maliyyə bazan arasında qarşılıqlı əlaqə əhali gəlirlərinin formalaşmasının nəzəri və metodoloji əsasıdır.

Əhalinin gəlirləri adambaşına düşən vo ailə büdcəsi ilə təsvir olunur. Bu göstəricilər əmtəə bazan, qiymət və əhalinin demoqrafik tərkibi və təbii artımı ilə müəyyənləşir. Əhali gəlirləri, iş yerləri, sahibkarlıq və əmək haqqı sistemi ilə regional xüsusiyyətlər kəsb edir. Hər bir regionun məhsuldar qüvvələrinin inkişaf dinamikasından asılı olaraq gəlirlərin artımının maddi əsası formalaşır.

Göstərilən aspektlərin müxtəlifliyi və səbəb nəticə əlaqələri əhali gəlirlərinin tədqiqi və proqnozunun differensial cəhətlərini formalaşdmr. Belə ki, adam başına düşən gəlir səviyyəsinə görə bütöv əhalinin ayn-ayn sosial-iqtisadi qrupları və regiondakı əhalinin paylanmasını qanunauyğun bir proses kimi ifadə etmək

*Cədval 1.8.*

Əhalinin pul golirləri ve xərcləri balansının proqnozu

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| **Əhalinin pul gəlirləri** | **17557** | **19382** | **21700** | **24208** | **27100** |
| **Artım, %-lə 0 cümlədən** | **109** | **110** | **112** | **114.1** | **111,9** |
| **Sahibkarlıq fəaliyyətindən gəlirlər** | **11197** | **12707** | **13370** | **13370.2** | **17255.9** |
| **Əmək haqqı** | **3063** | **3276** | **4175** | **3826.4** | **4187** |
| **Əmək haqqından baqşa, fəhlə və qulluqçuların müəssisə və təşkilatlardan gəlirləri** | **171** | **214** | **300** | **243** | **270** |
| **Sosial transfertlər** | **1329** | **1311** | **1700** | **1813** | **2100** |
| **Mülkiyyətdən gələn gəlirlər** | **7** | **4** | **5** | **15** | **17** |
| **Xarici valyuta dəyişmələrindən gəlirlər** | **853** | **1217** | **1130** | **2976.7** | **3270,0** |
| **Sair gəlirlər** | **938** | **955** | **1030** | **1962,8** | **0** |
| **Əhalinin pul xərcləri** | **17347** | **18801** | **20700** | **23859,8** | **27200** |
| **Artım surəti,%-lə** | **109** | **108** | **109** | **M3.5** | **114** |
| **0 cümlədən** | | | | | |
| **Mal alınması və xidmətlərin Ödənilməsi** | **12923** | **14534** | **17843.6** | **17350** | **18400** |
| **Məcburi ödəmələr (vergilər) və könüllü üzvlük haqları** | **618** | **807** | **847** | **911.6** | **1000** |
| **Xarici valyutanın alınmasına çəkilən** | **3660** | **3256** | **4000** | **4713.8** | **4650** |
| **Əmanət qoyuluşuna və qiymətli kağızların alınmasına** | **144** | **183** | **200** | **390.8** | **650** |
| **Sair** | **3** | | **3** | **0** | **2500** |

**Cədvəl 2005-ci il Büdcə zərfi materiallan I cild əsasında tərtib edilmişdir.**

mümkündür. Klassik ədəbiyyatlarda Lorens əyrisi Cini əmsalı kimi nisbi keyfiyyət göstəricilərindən istifadə olunur. 1992-ci ilin noyabrında kasıbçılığın ləğvi haqqında dövlət proqramı

qəbul olundu. Məhz bu proqrama görə adam başına düşən gəlir səviyyəsinin 120 min manat səviyyəsinə qədər gəliri olan əhali kasıb əhali kimi qəbul olundu. Bu isə Azərbaycanda yaşayan əhalinin 49%-ni təşkil edir. Adam başına düşən gəlir səviyyəsi sabit qiymətlər şəraitində alıcılıq qabiliyyətini müəyyən edir. Alıcılıq qabiliyyətinin reallaşması əmtəə və xidmət bazarının həcmi və onun marketinq strukturu ilə müəyyənləşir.

Əhalinin pul gəlirləri və xərclərinin arasında tarazlılıq onun formalaşma mənbələrinin və istehlak arasında dinamikanın makroiqtisadi təhlili üçün ölkənin maliyyə-büdcə tarazlığının təminatı üçün istifadə olunur.

Cədvəldən göründüyü kimi əhalİ gəlirlərinin strukturunda 2003-cü ildə sahibkarlıqdan gələn gəlirlər bütün gəlirlərin 55%- ni, əmək haqqı gəlirləri 16%-ni və transfert gəlirləri 8%-ni təşkil edir. Xərclərin əsas istiqamətinin 75%-ni əmtəə və xidmət istehlakına xərclər təşkil edir.

Əhali gəlirlərinin formalaşmasında dövlət büdcəsi xərcləri vasitəsilə maliyyələşdirilən transfert gəlirləri birbaşa həmin gəlirləri mənimsəyən kontingentin tərkibindən asılıdır (qaçqınlar və məcburi köçkünlər, pensiyaçılar). Pulsuz təhsil, xidmət sahələri, mədəniyyət obyektləri büdcə xərclərində sosial xərclərin əsas obyektləridir. Bazar iqtisadiyyatı inkişaf etdikcə daha çox pul gəlirləri forması üstünlük təşkil edir. Sosial müdafiə fondu əhalinin gəlir və xərclərinin formalaşma mənbəyi kimi proqnozlaşdırır.

Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun 2005-ci ildə gəlirləri 2478.5 mlrd manat, xərcləri 2478.5 mlrd manat təşkil edir (Cədvəl 1.9).

Sosial müdafiə fondunun formalaşmasında maliyyə mənbəyi rolunu məcburi dövlət sığorta haqları və dövlət büdcəsindən yenidən bölgü vasitəsilə əhalinin pensiya xərcləri üçün aynlan vəsaitlər təşkil edir.

Dövlət büdcəsindən sosial müdafiə xərcləri üçün məcburi sığorta və transfert gəlirləri kimi iki istiqamətdə vəsait ayrılır ki, bu da bütün sosial müdafiə fondunun 60%-ni təşkil edir. Pensiya

*Cədvəl 1.9.*

Azərbaycan Respublikasının 2005-ci ildə Sosial Müdafiə Fondu

(mln. manat)

| | Gəlirlərin mənbələri | Gəlirlərin məbləği |
|---|---|---|
| 1. | Məcburi dövlət sosial sıj^orta haqlan | 1561000,0 |
| | O cümlədən; | |
| | Büdcədən maliyyeşən təşkilatlar üzrə | 483000 |
| 2. | Dövlət büdcəsindən ayırmalar (trasnfert) | 915000 |
| | 0 cümlədən: | |
| | Sosial pensiyaların və onlara bərabər tutulanlann pensiya lannın ödənilməsi üzrə | 85000 |
| | Müavinətlərin ödənilməsi üzrə | 621000 |
| | Kommunal, nəqliyyat və digər xidmət üzrə güzəştlərin müavinətlərlə əvəz edilməsi üçün | 209000 |
| | Xərclərin mənbələri | Xərclərin məbləği |
| | Əhaliyə ödənişlər | 2345500 |
| | 0 cümlədən: | |
| | Pensiyalann ödənilməsi | ♦ ♦♦♦ |
| | Sosial pensiyaların və onlara bərabər tutulanlann pensiyalarının ödənilməsi | 85000 |
| | Müavinətlərin ödənilməsi | 1016000,0 |
| | Sanatoriya və kurort müalicəsi üzrə xərclər | 24600 |
| | Pensiya və müavinətlərin əhaliyə çatdırılması, bank əməliyyatlanmn apaniması üzrə xidmət haqqı xərcləri | 23400 |
| 2, | Dövlət Sosial Müdafiə Fondunun mərkəzi aparatmın və onun yerli orqanlarınm saxlanması xərcləri | 34300 |
| 3. | Məşğulluq tədbirlərinin həyata keçirilməsi və onun yerli orqanlannm saxlanılması xərcləri | 16730 |
| 4. | Əlillərin sosial müdafiəsi tədbirlərinin həyata keçirilməsi və idarə aparatının saxlanması xərcləri | 259000 |
| 5. | Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz edilməsi xərcləri | 209000,0 |
| | 0 cümlədən. | |
| | Hərbi qulluqçulara ödənilən müavinətlər | 7000,0 |
| | Sığorta olunanların fərdi uçot sisteminin tətbiqi ilə bağlı xərclər | 5000,0 |

təminatı orta aylıq pensiya səviyyəsi, onun ayrı-ayrı kontingentlər üçün differensasiyası əhali gəlirlərinin strukturunda 10%- ə qədərini təşkil edir. Təbii ki, hər bir pensiyaçı ailənin gəlir səviyyəsində dominant rolunu pensiya gəlirləri təşkil edir. Pensiyanm differensasiyası əməyin xarakteri və pensiya fonduna ayrılan vəsaitin miqdarı ile formalaşır. Pensiyanın artırılması üçün sosial müdafiə fonduna, yaxud büdcəyə ayrılan vəsaitlərin artın İması vacibdir. Amma bu günə kimi sosial müdafiə fonduna ayırmalar bütövlükdə işləyən müəssisələrin əmək haqqı fondunun 29%-ni təşkil edirdi. 2005-ci il yanvarın 1 -dən büdcə layihəsində dəyişikliklərlə bağlı sosial müdafiə fonduna əmək haqqı fondundar ayırmalar 22%-ə endirildi. Təbii ki, bu işləyənlərin gəlirlərini artırır, amma pensiya məbləğinin artırılması üçün əlavə mənbələrin axtanimasını tələb edir. Bu isə öz növbəsində büdcədən xərclərin artırılması ilə kompensasiya olunmasına, yaxud sahibkarlığın və fiziki şəxslərin gəlirlərinin və əmək haqqı fondunun artması hesabına mümkün olur.

Əhali gəlirlərinin strukturu onun istehlakını formalaşdırır. Ona görə də gəlirlərin proqnozlaşdınimasında istehsal yanaşması metodologiyasına uyğun olaraq istehlak strukturu əsasında yanaşma tələb və təklifə uyğun tənzimləmə siyasətidir. İstehlak həm pul gəlirləri vasitəsilə, həm də natural istehlak vasitəsilə reallaşır. İstehlakın strukturu ailə və cəmiyyətin istehlak davranışı və istehlak bazannda əhalinin seçim qabiliyyəti ilə məhdudlaşır. Ona görə də cəmiyyətdə ideal istehlak strukturu təqdim etmək qeyri-mümkündür. Amma hər hansı şərtlər indikatorlar həcmində uyğun istehlak steriotipləri ayırmaq olar. Məhz həmin stereotiplərin davranış modeli qurulur və bu davranışa təsir edən amillərin proqnozu və onlann təsir gücü müəyyən edilir. Ona görə də gəlir dinamikasını öyrənmək üçün mikroiqtisadi yanaşma və mikrosəviyyəli tədqiqatlar vacibdir.

Makrosəviyyədə əhalinin gəlirləri ÜDM daxilində onun bölgüsü və yenidən bölgüsü çərçivəsində axtanlır. Mikrosəviy- yədə isə determinantlann təsirinin qiymətləndirilməsi ilə gözlənilən istehlak nəticələrini proqnozlaşdırmaqla həlli tapılır.

Əhalinin gəlirlərinin dinamikası regional və sosial struk

turlara malikdir. Hər bir regionun əhalisinin gəliri həmin regionun iqtisadi quruluşu, əhalisinin maddi rifahı və işi, həmçinin demoqrafik tərkibi ilə müəyyənləşir. Özəlləşdirmə, torpaq islahatı, sahibkarlığa kömək, maliyyə yardımlan istehsalın təminatı və ifadə olunmasında dövlətin himayəçilik siyasətini və sahibkar gəlirlərini artırır, onun bölgüsündə əhali tələbatına uyğun tənzimləmə imkanları yaradır. Sxematik olaraq bu əlaqəni aşağıdakı kimi İfadə etmək olar (Sxem 1.7).




Sxem 1.7. Dövlət və əhali gəlirləri arasında əlaqə.

Əhali gəlirlərinin formalaşması dinamikası və proqnozu, ona təsir edən amillərin qiymətləndirilməsi və proqnozu mümkündür.

Bu baxımdan gəlirlərin hər birinin tədqiqi və onlann balans ifadəsi analitik tədqiqatın metodologiyasıdar. Əhali gəlirləri və xərcləri balans formasında sistemli tesvir olunur. Mikrosəviyyə toplu maliyyə balansı, tədiyyə balansı, əhalinin gəlir və istehlak balansı tədqiqata tarazlı yanaşma formasıdır. Mikrosəviyyədə gəlirlərlə istehlak arasında amillərin təsirini nəzərə almaqla diferensial balansların tərtibi və onların formalaşma mənbələrinin maliyyə-büdcə mənbələri ilə imitasİya modelinin qurulması vacibdir.

**Əhati gelirlənnin mənbəə, forma və dəyişmə meyli üzrə raikrosəviyyəli təhlili onun makroiqtisadi səviyyədə formalaşma mənbəələri üzrə tarazlığı təmin etmək üçün istifadə olunur. Gəlir mənbəyinin dəyişməsi hər bir ailənin üzvlərinin iş qüvvəsi kimi məşğulluğu, onun yaş quruluşu ve iqtisadiyyatda baş verən struktur dəyişmələri ilə bağlıdır. İqtisadiyyat inkişaf etdikcə, onun bölgü mexanizmləri əmək və faydalılıq meyarlarına uyğun liberal xarakter aldıqca gəlirlərin mənbəyində struktur dəyişmələri baş verir.**

**Əhali gəlirləri sosial-iqtisadi inkişafın sintetik göstəriciləri olmaqla, bazar tipli iqtisadi modellərin tələb və təklif konsepsiyasına uyğun tərtibi və reallaşmasında məqsədyönlü tədqiqatın meyandır.**

# FƏSİL II. ƏHALİ GƏLİRLƏRİNİN MALIYYƏ-BUDCƏ MEXANİZMİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

## 2.1. Əhali gəlirləri və dövlət büdcəsinin qarşıhqlı əlaqəsi

Əhali gəlirlərinin formalaşmasının əsas mənbəyini dövlət gəlirləri və sahibkarlıq fəaliyyətindən eldə olunan müəssisə və təşkilatlann gəliri təşkil edir. Əhali gəlirləri bölgü və yenidən bölgü yolu ilə formalaşır. Sosial vəziyyətdən asılı olaraq gəlirlərin tərkibində mənbəələrinə görə bu və ya digər gəlirlərin xüsusi çəkisi apancı rol oynayır. Ona görə də əhali gəlirlərinin formalaşması və dinamikasını proqnozlaşdırmaq üçün ümumi daxili məhsulun tərkibində xalis gəlirlərin sahə quruluşunu və həmin sahədə işləyənlərin gəlirlərini müəyyən etmək olar. Digər tərəfdən əhalinin gəlirləri həmin əhalinin sosial tərkibi, əmək haqqı gəlirləri, transfert və sahibkarlıqdan gələn gəlirləri ilə müəyyən edilir. Bu gəlirlər həm dövlət büdcəsinin, həm də sahə və əhali gəlirlərini formalaşdırır.

Dövlət büdcəsi əhali gəlirlərinin formalaşmasında bölgü və yenidən bölgü funksiyasını həyata keçirir. Dövlət büdcəsinin xərcləri hesabına sosial sahələrin əmək haqqı xərcləri və transfert xərcləri formalaşır. Əhalİ gəlirlərinin sosial vəziyyətindən asılı olaraq, sahələrdən alınan əlavələr şəklində olan sahə xərcləri hesabına formalaşan və sosial müdafiə məqsədləri ilə ayrılan pensiya, təqaüd, müavinatlar hesabına olan gəlirlər formalaşır.

Əhali gəlirlərinin mənbəə və xərcləri dövlət büdcəsinin gəlirlərini formalaşdırır. Əhali ümumi daxili məhsulun istehsalında, xalis gəlirin formalaşmasında və istehlak bazarında əmtəə və mal təklifini formalaşdıraraq yenidən ölkənin gəlirlərinin artımına və onun səmərəsinə təsir edir.

Əhali gəlirlərinin makroiqtisadi səviyyədə iqtisadi artım, sosial müdafiə və dövlət büdcəsi, habelə müəssisə və təşkilatların xüsusi fondları ilə əlaqəsi tədqiq olunur. Əhali gəlirlərinin strukturunda mənbələr üzrə dəyişmələr ölkənin əmək haqqı, sahə və sosial təminat mexanizmlərinin səmərəsi ilə müəyyənləşir.

Əhali gəlirlərinin strukturunda təyİnedİci amilin seçilməsi üçün differensial sosial qruplar üzrə gəlir və istehlak balansları tərtib olunmalıdır. Gəlirlərin qiymətləndirilməsi metodikası, uyğun olaraq ÜDM-da əhalinin gəlirlərinin xüsusi çəkisi, büdcə xərclərində əhalinin nominal gəlirləri və istehlakı üçün dolayısı təsir edən amillər nəzərə alınır. Əhali gəlirləri məcmu, real və istehlak səviyyəsilə ölçülür. Əhali gəlirlərinin differensasiyası desil, kvantil və Cİni emsallan ilə müəyyən olunur. İnteqral göstəriciləri proqnozlaşdırılmaq i a differensial göstəricilərin meylini aztəminatlı, orta təminatlı və yüksək gəlirli ailə, əhalinin sayını, onların istehlak büdcəsini müəyyən etmək olar. İstehlak büdcəsinin formalaşması dövlət büdcəsinin, xüsusi vəsaitlərin və büdcədən kənar fondlann bölgüsü və yenidən bölgüsü hesabına formalaşır. Ölkənin icmal maliyyə balansında dövlət gəlirləri, müəssisə və təşkilatlann gəlirləri, dövlət neft fondunun gəlirləri və sosial müdafiə fondu, xarici Ölkələrin müəssisə və təşkilatlarının respublikada geniş istehlak fondu əhali gəlirlərinin maliyyə əsasını təşkil edir.

Hesablamalar göstərir ki, dövlət gəlirləri maliyyə balansının 50%-ni təşkil edir. Özəl sektorun iqtisadi rolu, beynəlxalq və açıq iqtisadiyyat konsepsiyası əhali gəlirlərinin formalaşmasında mülkiyyət münasibətindən asılı olmayaraq digər mənbəələr hesabına artıma səbəb olur.

Əhali gəlirləri və dövlət büdcəsi xarici iqtisadi əməliyyatlardan vergi və rüsumlar, müəssisə və təşkilatlann resurslan, dividentlər, qiymətli kağızlar bazan. Sosial Müdafiə Fondundan gəlirlər. Neft Fondunun yığım və ehtiyatlarınının cari gəlir kimi istifadəsi dövriyyədə maliyyə mənbəələrinin resurs təminatını müəyyən edİr, məcmu tələb bazannda maddi əşya resurslan ilə maliyyə resursları arasında tarazlığın və gəlirlərin idarə edilməsinə şərait yaradır. Funksional model olaraq əhali gəlirləri ilə onun xərcləri arasında tarazlığı təmin edən resurslann bölgüsü və yenidən bölgüsünü aşağıdakı prinsipial sxemə uyğun tərtib etmək olar (sxem 2.1).

Sxemdən göründüyü kimi, əhali gəlirləri dövlət və xüsusi resurslar hesabına formalaşır. Dövlət sektoru və qeyri-dövlət

sektorunun dövlət və əhali gəlirlərinin formalaşmasında xüsusi forma və daxilolma qanunauyğunluqları olduğu kimi müəyyən spesifik xərclənmə xüsusiyyətlərinə malikdir. Daxili vergilər və rüsumlar, xarici-iqtisadi əməliyyatlardan vergi və rüsumlar, Sosial Müdafiə Fondu, Neft Fondu hüquqi statusa malik olan, gəlir gətirən və formalaşdıran mənbələrdir.




Sxem 2.1. Əhali gəlirlərinin formalaşması və qarşılıqlı əlaqəsinin funksional modeli.

2005-ci il Büdcə zərfi və İqtisadi İnkişaf Nazirliyinin materialları əsasında tərtib olunmuş 2.1. nömrəli cədvəldə Azərbaycan Respublikasında dövlət gəlirlərinin əsas maliyyə resurslarının dinamikası verilmişdir.

*Cədvəl 2.1.*

Azərbaycan Respublikasında dövlət gəlirlərinin əsas maliyyə resurslannın dinamikası (mlrd, man)

| Gəlirlər | illər | | | |
|---|---|---|---|---|
| | 2000 | 2001 | 2002 | 2003 |
| **Dövlət büdcəsinin resursları** | **3572,0** | **3974,0** | **4551** | **6104.5** |
| **O cümlədən** | | | | |
| **A. Daxili verKİlər və rüsümlar** | **2549,0** | **2895,0** | **3100.1** | **4089.6** |
| **a) dövlət sektoru** | **1533,0** | **1765** | **2106.7** | **2384.8** |
| **bl qeyri-dövlət sektoru** | **1016,0** | **1130,0** | **1293.4** | **1704.8** |
| **B.Xarici iqtisadi əməliyyatlardan vergi və rüsumlar** | **720,0** | **822,0** | **921,8** | **1061.2** |
| **C. Sair büdcə daxilolmaları** | **303,0** | **207,0** | **291,0** | **953.7** |
| **Müəssisə və təşkilatların resursları — cəmi** | **3102,0** | **4074,0** | **6564,5** | **8281,7** |
| **O cümlədən;** | | | | |
| **Mənfəət (vergiləri ödədikdən sonra)** | **1552,0** | **2714,0** | **2724,3** | **4352,4** |
| **Amortizasiya ayırmaları** | **1550,0** | **1680,0** | **3840.2** | **3929,3** |
| **Digər gəlirlər — cemi** | **2069,0** | **1979,0** | **3239,5** | **5702.9** |
| **Dİvidendlər, qiymətli kağızlar və özəlləşdirmədən gəlirlər** | **40,0** | **86,0** | **107.8** | **97.9** |
| **Sosial Müdafiə Fondunun gəlirləri** | **816,0** | **835,0** | **1657.2** | **1808** |
| **Neft Fondu** | **1213,0** | **1058,0** | **1474.5** | **1820.5** |
| **Məcmu gəlirlər** | **8743,0** | **9977,0** | **14355** | **20089,1** |

Əhali gəlirləri dövlət və qeyri-dövlət, xarici investorların və iqtisadi-ticari əlaqələrin Sosial Müdafiə Fondunun və Neft Fondunun hesabına iştirak payına görə və rəqabət mühitinə uyğun göstərilən büdcə subyektlərinin maliyyə səmərəliyi hesabına formalaşır və inkişaf edir. Büdcə sahibləri hüquqi şəxs kimi özünün təsərrüfat fəaliyyətinin faydalılığı və gəlirləri ilə yanaşı əmək və əmtəə bazarında, maliyyə-kredit münasibətlərində ümumi rəqabət mühiti və daha çox davamlı inkişaf üçün bölgü sistemi ilə üzləşir və inkişaf edirlər,

Dövlət büdcəsi bölgü sistemində əhatə sferasına görə büdcədən maliyyələşdirilən təşkilatların, müəssisələrin əmək haqqı

sistemina və tariflərinə uyğun olaraq hər büdcə ilində ayrılan vəsaitlə məhdudlaşır. Əmək haqqı fondu həmin büdcə təşkilatlarının ştat cədvəlinə və əmək haqqı tariflərinə uyğun olaraq tənzimlənir. Büdcədən maliyyələşdirilən təşkilatlann bazar tipli strukturlarının fəaliyyəti nəticəsində büdcədən kənar daxil olmalar da əməyin stimullaşdırılması üçün həmin müəssisənin daxilində əmək haqqına əlavələr şəkilində istifadə olunur. Təbii ki, məhz büdcə təşkilatlarında qazanılan sahibkarlıq, yaxud ödəmələr üzrə xidmətə görə daxil olan vəsaitlərin üzərində nəzarətin güclənməsi və həmin gəlirlərin əldə edilməsi üçün sərf olunan dövlət büdcəsi İlə maliyyələşdirilən maddi-texniki vəsaitlərin təkrar istehsalı üçün büdcəyə xüsusi vəsaitlərdən ödəmələr tətbiq edilməsi büdcə təşkilatleırmda maliyyə aşkarlığını təmin edə bilər. Buna görə də qanunvericiliyin təkmilləşdirilməsi baxımından 2002-ci ildə qəbul edilən büdcə sistemi haqqında qanun layihəsinin tətbiqi ilə büdcədən kənar fondlarm məcmu maliyyə balansı üçün dövlət büdcəsinə daxil olması və onun üzərində xəzi- nadarhq ilə büdcə nəzarətinin olmasını təmin edir.

Dövlət büdcəsinin dəyişmə dinamikası, onun adambaşına düşən məbləği, həmin xərclərin strukturunda əhalinin gəlirlərini və ayrı-ayn sosial qrupların yaşayış səviyyəsini təmin edən ödəmələrin artırılmasına, yeni iş yerlərinin açılması ilə bir başa müavinatlar verilməsi məqsədlərinin optimal həlli üçün əsas yaradır. Dövlət büdcəsi əhali üçün daha əməli və yaşayış problemlərinin xərclərini ödəyən maliyyə resurslanmn dinamikası olub, proses olaraq sosial-iqtisadi proseslərlə sıx əlaqəlidir. Dövlət büdcəsinin gəlir strukturu, iqtisadi inkişafın artım sürəti, onun səmərəliliyinin artımı ilə tarazlı inkişaf etməklə, iqtisadi artım sahələri və ərazilər üzrə inkişafına maliyyə bazası yaradır. Dövlət büdcəsinin gəlirlərinin artımı dövət sektorunun və dövlət idarəçiliyində onun iqtisadi rolunu artınr və sosial vəzifələri üçün lazım olan maliyyəni təkmilləşdirir. Büdcədən kənar fondlarm, xüsusi vəsaitlərin icmal büdcədə toplanmaqla ölkədə maliyyə və kredit resurslanmn daha səmərəli istifadəsi və milli pulun çevikliyi üçün şərait yaratmaqla əhalinin istehlak bazannda maddi rifahı üçün alıcılıq qabiliyyətini yüksəldir. Kasıb əhalinin yenidən

bölgü hesabına daha da yoxsullaşmasmı məhdudlaşdırır. Əhali gəlirlərini dövlət büdcəsi ilə formalaşan mənbələri, əmək haqqı, sosial müdafiə, müəyyən müavinatlar və məcburi sığorta xərcləri üzrə qruplaşaraq hər birinin daxili məna yükü planlaşma amilləri və perspektiv tənzimləmə və dövlət təminatı prinsipləri mövcuddur, İslahatların sosial effekti məhz büdcə gəlirləri və xərcləri hesabına əhali gəlirlərini formalaşdıran mənbələrin artımı və onun strukturu ilə təkmilləşir. Dövlət büdcəsinin artımı ilə sosial yönlü prioritet xərclərin tərtibi, birbaşa əmək haqlarmın vo pensiya xərclərinin artınıması ilə nəticələnir. Yoxsulluğun ləğvi, sahibkarlığın inkişafı üçün büdcədən ayrılan vəsaitlər birbaşa, yaxud istehsal və iş yerləri vasitəsi ilə əhalinin müxtəlif kateqo- riyalanna təsir edir. 2004-cü ildə dövlət büdcəsindən əmək haqqı xərclərinə 2003-cü illə müqayisədə 930 mlrd, manat artıq vəsait xərclənmişdir.

Əmək haqqı xərclərinin dinamikası uyğun olaraq iqtisadi amil kimi büdcədən prioritet istiqamət kimi tənzimlənir. Canlı əmək məsrəfləri, tələb və təklif, həmçinin yaşayış səviyyəsinin yüksəldilməsi məqsədi ilə büdcə xərclərində üstün artım meyli mövcuddur. Orta aylıq əmək haqqı gəlirlərinin bütövlükdə ÜDM-a mütənasib olaraq dəyişmə meyli, əhalinin rifalıı və onun stimullaşdırma məqsədinin daha fəal yerinə yetirilməsi üçün büdcə vasitəsilə tənzimlənir.

Əhalinin pul gəlirlərinin formalaşma mənbəələri onun xərclərinin əsas istiqamətlərini, maliyyə balansında və büdcənin xərc struktumnda ayn-ayn əmtəələrin istehsalı və idxalını proqnozlaşdırmaq üçün dövlət büdcəsinin rolunu və əsas məqamlarım əsaslandmr. Belə ki, sosial transfertlər hesabına gəlirlər sosial müdafiə fondunun formalaşmasında büdeo mənbələrinin və sosial sığortanın paylannı müəyyən edir. Azərbaycan Respublikasında Dövlət Sosial Müdafiə Fondunun 2004-cü ildə büdcə gəlirləri vo xərcləri 1970 mlrd, manat təşkil etmişdir.

Hesablamalara görə 2004-cü ildə Sosial Müdafiə Fondunun gəlirlərində sosial sığorta haqlan 65% - 1285.5 mlrd, manat təşkil etmiş, o cümlədən, büdcədən maliyyələşdirilən təşkilatlar üzrə 450 mlrd, manat, yəni məcburi sosial sığortamn 35%-ni,

qalan 65%-ni xüsusi müəssisələr hesabına ödənilir [19; s.l70]. O cümlədən sosial sığorta haqlan üzrə ödəmələr neft sektoru üzrə 30%, qeyri neft sektoru üzrə 70% təşkil eidr. Dövlət büdcəsindən ayırmalar (transfert) 545 manat təşkil edir. Təşkilati baxımdan sosial müdafiə xərcləri birbaşa əhalinin gəlirlərinin formalaşmasına, yaxud onun, reallaşması üçün müdafiə məqsədləri güdür. Belə ki, sosial pensiya təminatı dövlət sosial müdafiə aparatının və onun yerli orqanlarının saxlanılmasında əmək haqqı və material xərclərinə və bir sıra sosial müdafiə tədbirlərinin həyata keçirilməsi xərclərinə istifadə olunur.

Sosial müdafiə xərclərinin Azərbaycanda əsas məqsədi pensiya ödəmələri və müavinətlər təşkil edir. Azərbaycanda əhalinin hər 7 nəfərindən bİri müxtəlif dərəcədə sosial müdafiə fondunun kontingentidir. 2002-ci il büdcə xərclərinin strukturunda pensiya ödəmələri 1900 mlrd, manat, yəni sosial müdafiə xərclərinin 90%-ə qedərini təşkil edir.

Dövlət büdcəsinin tərtibi, onun strukturunda bəzi düzəlişlərin edilməsi məhz əhali gəlirlərin azalmaması və sosial müdafiəsində baş verən xarici amillərin təsirini nəzərə almaqla aparılır. Belə ki, dövlət büdcəsinin proqnoz göstəriciləri təmin olunmadıqda, yaxud bəzi məhsullann artımı, yaxud qiyməti ilə bağlı olaraq əlavə vəsait büdcəyə daxil olduqda, həmin əlavə vəsaitlər məhz rifah və əhalinin gəlirləri üçün daha üstün istiqamətlər kəsb edir. Büdcə xərclərində müdafiə olunan xərclər prioritet xərc olaraq, istənilən dəqiqləşdirmə prosesində birinci olaraq təmin olunur. Dövlət büdcəsində sosial təminatı ödəmək üçün istehsal, kredit və borclara maliyyə təsiri və sahəsi ilə əhalinin gəlirlərinə təsir edilir. Uzunmüddətli kreditlər verilməklə və onu büdcə resurslan ilə idarə etməklə əhalinin sərəncamına düşən cari gəlirlər hesabına perspektiv fərdi gəlirlərə sərf olunan xərcləri artırmaq olur. Dövlət büdcəsinin xərclərinin onun gəlirlərindən çox olması, bəzi xərclər üçün xarici kreditlərdən və xüsusi fondlardan istifadə gəlirlərini artırmaq, onlara vergi və kredit verməklə sosial müdafiəni təşkil etmək olur.

Dövlət büdcəsinin səmərəli təşkili onun əhali gəlirlərinin, yaxud xərclərinin formalaşmasında birbaşa və dolayı təsirləri ilə

**qiymətləndirilin Belə ki, dövlət borclannm büdcə vasitəsi ilə tənzimlənməsi bugünkü və gələcəkdə əhalinin xərclərinə təsir etməklə ayrı-ayrı əhalİ kateqoriyalarına eyni effektlə təsir etmir. Bu gün sosial büdcə borclan məhz əhaliyə olan borclann, daxili bordann və xarici borclann nəzərə alınması ilə apanlan borc bazarının formalaşması və onun tənzimlənməsidir. Cari borclann əhali üçün alınması onun büdcə resurslan kimi sahibkarlıq, yaxud birbaşa yoxsulluq probleminin həlli üçün istifadəsi zamanı borclann qaytanimasında ümumi büdcədən verilərsə, onda həmin borclan istifadə etməyən kontingentlərin paymın azalması ilə kompensasiya olunur. Ona görə də borclar vasitəsilə əhaliyə yardım və kredit resurelanmn verilməsi büdcənin gəlir hissəsində məhz ünvanmı dəyişmədən xüsusi təsnifatla tənzimlənməlidir.**

**Dövlət büdcəsindən aynlan hər bir vəsait istehlak xarakterlidirsə onun müəyyən sosial normativləri olmalıdır. Məhz bu sosial sifariş ünvanlı olduqda büdcənin gəlir və xərcində eyni təsnifatlandırma qaydası verilir. Büdcənin xərcləri və gəlirləri arasında tarazlıq büdcə kəsrlərinin ümumi həcmi və həmin kəsrin məhz hansı istiqamətdə istifadəsi ilə müəyyən edilir.**

**Büdcə kəsifi 2004-cİ ildə 99.2 mlrd manat təşkil edib ki, bu da ÜDM-da 0.2%, büdcə gəlirlərində isə 1.3% təşkil edir.**

**Büdcə kəsirinin ödənilməsi mənbəələrində prioritetlik iqtisadi İnkişaf, sahibkarhğm inkişafi ve sosial müdafiə məqsədilə toplanmış əsas kapitalın dövriyyəyə cəlb olunm^ı, yaxud xarici borclardan istifadə olunması və yaxud qiymətli kağızlar buraxmaqla əhalinin bugünkü vəziyyətində sonradan ödənilməsi yolu ilə istehsalm artıniması məqsədini güdür. Respublikada büdcə kəsirinin ödənilməsi səmərəli mənbəə, iqtisadi sabitlik ve əhalinin rifahımn pisləşməsi meyan baxımından həll edilmədikdə onun hədləri dəyişir və keçid dövrü olan respublikalar üçün müəyyən məhdudiyyələr kəsb edir. Azərbaycanda inflyasiyanın azaldılaraq onun sabit saxlanılması, stabil iqtisadi artım dinamikası və əhalinin yoxsul təbəqələrinin inflyasiyadan qorunması üçün büdcə kəsirinin maksimal həddi ümumi daxili məhsulun 4%-nə qədər məbləğində nəzərdə tutulur. Məhz büdcə kəsirinin**

artırılması yolu ilo golirlər və xərclər arasında müəyyən tarazlılıq yaratmaq və perspektiv gəlirlərin artırılması məqsədi ilə büdcə xərclərini artırmaq səmərəli büdcə siyasəti və onun xərc strukturunun təkmilləşdirilməsi ilə mümkündür. 2004-cü il dövlət büdcəsinin struktumnda özəlləşdirmədən daxil olan vəsaitlər 157 mlrd manat, daxili uduşlu istiqraz vərəqələrinin satışından daxil olan vəsait 3.3 mlrd manat, bütövlükdə daxili maliyyələşdirmə mənbəələri hesabına büdcə kəsirinin ödənilməsi üçün 57.8 mlrd manat, xarici borclar hesabına isə vəsait daxil olmayıb.

Əhali gəlirlərinin mövcud dinamikası və perspektiv gəlirlərin mənbəələri dövlət büdcəsində investisiya layihələrinin maliyyələşdirilməsi üçün lazim olan vəsaitlərin prioritetlər üzrə bölgüsüdür. İnvestisiya layihələrinin əsas məqsədi perspektiv yaxud qısamüddətli əmtəə və xidmət istehsal etməklə dövlət gəlirlərinin və əhali üçün verilən əmək haqqlannın artımını saxlamaqdan ibarətdir. Ona görə də büdcədə daxili resurslar, büdcə ayırmaları vasitəsilə investisiya qoyuluşu və yaxud xarici ölkələrdən investisiya cəlb edib, ona zəmanət olaraq limit qoymaqla ölkənin ehiyat fondu yaradıla bilir.

İqtisadi məntiqə görə nə qədər çox kredit cəlb olunursa bir o qədər sosial İnkişaf təmin olunmuş olur. Təbii ki, kredit re-stırslarmın qaytarılması öhdəliyi kredit bazannda rəqabət mühiti yaradır. Büdcə siyasəti məhz bu mühitin formalaşmasını özünün məntiqi İle diktə edir. 2004-cü il dövlət büdcəsinin 10-cu maddəsinə görə investisiya layihələri üçün dövlət zəmanəti ilə alman xarici kreditlərin həcmi 645 mlrd, manat təşkil edir ki, bu da ÜDM-da 2%-ə yaxındır.

Kredit resurslannm dövlət zəmanəti ilə artırmaq son nəticədə ÜDM-ın kütləsini artınr. Kredit resurslarının istehsala cəlb olunması daha səmərəli prioritetlərdəndir. Əgər onu borcların ödənilməsi, yaxud büdcə kəsirində hər hansı istehlak xarakterli daxili və xarici borclann silinməsi üçün sərf olunursa, onda kreditin əsas məqsədi ünvanı pozulur, inflyasiyanın artımı əlavə pul kütləsinin istehsala cəlb olunması məqsədi ilə deyil, borclann silinməsi üçün istifadə olunur. Bu da bütövlükdə gə

lirlərin artınıması mənbəolorinin əsas amili kimi investisiyanın səmərəsini azaldır. İnvestisiyanın gəlirlərə təsiri onun istiqaməti ilə yanaşı texnoloji amil olaraq istehsal proqramının, istehsal güclərinin və səmərəli məsrəf effekt modelinin həlli yollarını seçməklə mümkündür. Gəlirlərin ilkin bölgüsü dövlət büdcəsinin milli hesablar sistemində əlaqəsini təhlil etməyə şərait yaradır. Azərbaycan Statistik Göstəriciləri əsasında tərtib olunmuş 2.2. nömrəli cədvəldə gəlirlərin ilkin bölgüsü və təkrar bölgüsü hesabı verilmişdir [6, s.355; 7, S.348J.

*Cədvəl 2.2.*

Gəlirlərin ilkin bölgüsü və təkrar bölgüsü hesabı
(cari qiymətlərdə, mlrd.manat)

| Göstəricilər | 1995 | 1996 | 1997 | 1998 | 2000 | 2001 | 2002 |
|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| **Ehtiyatlar** | | | | | | | |
| **Ümumi mənfəət (qanşu) ftəlirlər)** | **7409** | **9597,3** | **11344,9** | **13039,8** | **16828,6** | **18955,8** | **21337.2** |
| **Əməyin** | **2385** | **2566,8** | **3120,6** | **3350,3** | **5143,4** | **5118,4** | **6121.4** |
| **İstehsala və idxala vergilər (+)** | **1071** | **1737,4** | **1778,5** | **1312,4** | **1712,6** | **2357,4** | **2737.6** |
| **İstehsala və idxala subsidiya (-)** | **224** | **237,4** | **437,5** | **468,4** | **56** | **73,8** | **72.9** |
| **Mülkiyyətdən alınmış KƏİirlor** | **257** | **272,7** | **488,3** | **456** | **778** | **939,5** | **819,4** |
| **Comi** | **10898** | **13936,8** | **16294,8** | **17690.1** | **24406,6** | **27297,3** | **30942,7** |
| **İstifadə** | | | | | | | |
| **Mülkiyyətdən ödənilmiş gəlirlər** | **248** | **260** | **486,5** | **345,8** | **553,3** | **2281,9** | **2250,3** |
| **İlkin gəlirlərin bölgüsündən yaranan ümumi daxili məhsul** | **10650** | **13676,8** | **15808,3** | **17344.3** | **23853,3** | **25015,4** | **28442,4** |
| **Comi** | **10898** | **13936,8** | **16294,8** | **17690,1** | **24406,6** | **27297,3** | **30942,7** |
| **İlkin gəlirlərin bölgüsündən yaranan ümumi** | **10650,** | **13676,8** | **15008,3** | **17344,3** | **23853,3** | **25015,4** | **28442,4** |
| **Alınmış cari trans-ferllar** | **2605,0** | **3094,0** | **3013,7** | **3529,0** | **4486,4** | **8075,1** | **9379,5** |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| o cümtodən | | | | | | | |
| Gəlirioro, sorvato va s. Vergilər | 562,0 | 839,8 | 708,5 | 758,5 | 1135,5 | 1090,2 | 1349.6 |
| Sosial sığortaya ayırmalar | 497,0 | 531,1 | 668,1 | 582,8 | 853,5 | 878,8 | 1206 |
| Sosial təminat üzrə müavinətlər | 553,0 | 848,7 | 911,1 | 981,1 | 1293,4 | 1365,9 | 1667,1 |
| Digər cari trans* Icrtlor | 993,0 | 874,4 | 726,0 | 1206,6 | 1204,0 | 4690,2 | 5156,8 |
| Cəmi | 13255 | 16770,8 | 18822,0 | 20873,3 | 28339,7 | 33040,5 | 37821,9 |
| İstifadə | | | | | | | |
| Verilmiş cari ıransfertlər | 2116,0 | 2807,5 | 2820,0 | 3232,5 | 4121,2 | 4536,1 | 5537,7 |
| 0 cümlədən | | | | | | | |
| Ciəlirləro, sorvoto vo s. vergiyə | 562,0 | 839,8 | 708,5 | 758,5 | 11.35,5 | 1090,2 | 1349,6 |
| Sosial sığortaya ayırmalar | 497,0 | 531,1 | 668,1 | 582,8 | 853,5 | 878,8 | 1206 |
| Sosial təminat üzrə müavinətlər | 553,0 | 848,7 | 911,1 | 981,1 | 1293,4 | 1365,9 | 1667,1 |
| Digor cari transfertlər | 504,0 | 587,9 | 532,3 | 910,1 | 838,8 | 1201,2 | 1315 |
| Sərəncamda qalan ümumi gəlir | 11139 | 13963,3 | 16002,0 | 17640,8 | 24218,5 | 28584,4 | 32284,2 |
| Cəmi | 13255 | 16770,8 | 18822,0 | 20873,3 | 28339,7 | 33040,5 | 37821,9 |

Cədvəldən göründüyü kimi ümumi gəlirlər mövcud istehsal və qiymətləndirmə metodikasına əsaslanaraq carİ qiymətlərlə 2002-cİ üdə 1995-ci ilə nisbətən 3 dəfə artmışdır. O cümlədən, əməyin ödənilməsi 2,6 dəfə, ümumi mənfəətin 3 dəfə, istehsal və idxala vergilər 2.6 dəfə, mülkiyyətdən alınmış gəlirlər 3,2 dəfə artmışdır. Ümumi gəlirlərin ilkin bölgüsündə yaranmış 30942.7 mlrd, manat 2002-ci ildə mülkiyyətdən ödənilmiş gəlirlərin öz daxili strukturunda 2250.3 mlrd, manatı istifadə edildikdə qalan hissə milli gəliri təmin edir. Milli gəlirin alınmış transfert gəlirlə tamamlanması gəlirlərin təkrar bölgüsündə istifadə üçün milli hesabı əmələ gətirir. Cədvəldən görünndüyü kimi alınmış cari transfertlər 2002-ci ildə 1995-ci ilə nistəbən 3,6 dəfə artmışdır. Sosial transfertlərin artırmmn yuxandakı gəlir

hesablan üzrə artımdan nisbətən geri qalması sosial sığorta ayırmalannın aşağı olması və vergilərin azalması tədbirləri nəticə- sində cəlb olunan vergi bazasının artınlması hesabına olmuşdur. Belə ki, gəlirlərə, sərvətə vergilər 2002-ci ildə 1995-ci ilə nisbətən 2,4 dəfə, sosial təminat üzrə transfertlər 3 dəfə artmışdır. Alınmış cari transfertlər bütövlükdə təkrar bölgü üçün yaranan gəlirlərin 33%-ni təşkil edir.

Gəlirlərin təkrar bölgüsündə ikili hesablardan İstifadə olunur. Belə ki, transferi gəlirlər həm gəlirlərin yaranması, həm də bölgüsü üzrə nəzərə ahmr. Onun mehz iki hesabda olması yenidən bölgü subyektlərinin dəyişməsi ile izah olunur. Təkrar bölgü sferasından sonra sərəncamda olan umutpi gəlirlər formalaşır ki, bu da ümumi yığım və son istehlak xərcləri arasında nisbətin tənzimlənməsi üçün qərar qəbulu, bölgü və investisiya tələbi, istehsal təyinatlı məqsədlər, həmçinin əhalinin istehlak xərclərini ödəmək,cari tələbat və perspektiv geniş təkrar istehsal üçün maliyyələşdirilir.

Dinamik təhlil göstərir ki, 1997~ci .ildən yığımın gəlirlərin istifadəsində xüsusi çəkisi artır. 2000-ci ildən bu günə qədər bu rəqəm 22-24% təşkil edir. Qiymətləndirmə baxımından bu xüsusi çəki əvvəlki illərə nisbətən bir sıra MDB ölkələri ilə müqayisəli yığım göstəricisi kimi qəbul olunur. Amma sahə quruluşuna gəldikdə təbii ki, yığımın ən çox hasilat sənayesi üçün istifadəsi xarakterikdir. Əhali gəlirləri baxımından göstərilən yığımın emal sənayesi üçün istifadəsi mümkün olsa idi, onda yeni iş yerlərinin açılması ve son istehlak üçün lazım olan məhsul- lann daha üstün artması mümkün olardı. Yığmı əsas xərclər üzrə əsas fondlann alınması, yaxud təzələnməsi, maddi dövriyyə vəsaitlərinin dəyişməsi, xalis kreditləri (+) və xalis bordan (-) özündə birləşdirir.

Statistik rəqəmlərin dinamikası maddi-dövriyyə vəsaitlərinin ehtiyatlannm son üç ildə (1999-2002) illər mənfi saldo - 380, 581 mlrd, manat təşkil etdiyini göstərir. Təbii ki, kreditlərin və borcların saldosu məhz yığım üçün lazım olan maliyyə resursla- nmn azalmasma və artmasına gətirib çıxanr.

İstehlak büdcəsi ailə büdcəsi gəlirlərinin yenidən bölgüsü ilə

formalaşır. İki büdcə sistemi ve maliyyə hesabları qarşılıqlı təsir etməklə, istehlak sferasını formalaşdırır. Gəlirlərin subyektlərinin payının formalaşması amilləri istehlak sferasında yeni prizmadan ve təsir gücündən çıxış edİr. Bazar tipli modelə uyğun olaraq qiymət, borc, kredit və lizinq əməliyyatlan nəticəsində istehlak sferası ilə gəlir sferası arasında bir mənalı kəmiyyət bərabərliyi qoymaqla tənzimlənməsi mümkün deyil. Azərbaycanda faktiki son istehlak dinamikası dövlət müəssisələri, ev təsərrüfatı və xidmət sahələrinin maliyyə resurslanm özündə birləşdirir.

*Cədvəl 2.3.*

Son istehlak dinamikası (mlrd, man.)

| | 1990 | 1996 | 1997 | 1998 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|---|
| Dövlot müas-si sə lari | 258,1 | 1640 | 1991,7 | 2607,8 | 3574,0 | 3627,1 | 3759,9 | 3829.5 |
| Ev təsərrüfatı | 767,2 | 11848 | 11544,8 | 13511 | 14864, | 15998.3 | 18701,2 | 20778 |
| Ev təsərrüfatlarına xidmət edən ictimai | 3,4 | 131,6 | 214,5 | 251,8 | 330,3 | 345,5 | 365,5 | 346 |
| Yekun | 1028,7 | 13622 | 13751 | 16370 | 18768,8 | 19970,8 | 22826,6 | 25054,2 |

**Cədvəl Azərbaycan Statistik Göstəriciləri əsasında tərtib edilib [6;** S.374].

Büdcə siyasəti əhali gəlirləri, vergİ və kredit mexanizmlərinin nəzəri metodoloji əsasları kimi formalaşır ve inkişaf edir. Dövlət gəlirlərinin artınıması tədbirləri, vergi mexanizminin təkmilləşdirilməsi, sahibkarlığın inkişafı, əhali gəlirlərinin artımına stimul yaratmaqla tənzimlənərək büdcənin konseptual inkişafında öz əksini tapır. Belə ki, ÜDM-a nisbətən dövlət büdcəsinin gəlirlərinin və xərclərinin nisbəti dövlətin xərc strategiyası üçün baza yaradır. Strateji amil olaraq vergi dərəcələrinin azalması hüquqi və fiziki şəxslərin gəlirlərinin artımına şərait yaradır və vergiyə cəlb olunan ÜDM-un fiziki kütləsini artırmış olur. Bu da bölgü və təkrar bölgüdə subyektlərin imkanlannı artırır. Dövlət büdcəsinin gəlirlərində vergi mexanizmi təkmilləş

dikcə əhali gəlirləri ilə dövlət gəlirləri arasında optimal nisbətlərin tapılması və yenidən bölgüdə dövlətin himayəçilik siyasətinin maliyyə vəsaitinin artınıması imkanı yaramr. Dövlət büdcəsi xüsusi gəlirlər, əhalinin gəlirləri, yığımı və istehlakı, dövlət büdcəsinin dövriyyə prosesində əmtəə və xidmətin istehsal, bölgü və istehlakında tənzimləmə funksiyasını artırır.

ÜDM-un artımı dövlət büdcəsi ilə müqayisədə onun əsas istehsal strukturunu və istifadə istiqamətlərində əmtəə xidmət strukturunu formalaşdınr. Ona görə də dövlət büdcəsinin struktur modeli, onun digər büdcə sistemləri ilə metodiki baxımdan sahə və funksional, maddi-əşya və xidmət üzrə uzlaşması ilə bağlıdır. Büdcə sistemi haqqında qanun hər il cari dövlət büdcəsi haqqında qanun, «Sosial müdafiə fondu» və «Vergi Məcəlləsinə» dəyişikliklər etməklə gəlirlər və xərclər dinamikası və strukturunda tarazlılıq yaradılır.

Ailə büdcəsi, ailə gəlirləri və xərclərinin, əhalinin yığımının üzvi surətdə bağlılığını təmin edən balans formasıdır. Ailə büdcəsinin gəlirlərinin hər birinin dövlət gəlirləri, sahibkarlıqdan gələn gəlirlər, büdcədən kənar fondlar və xüsusi vəsaitlər, xarici maliyyə yardımları və investisiya qoyuluşlan hesabına formalaşması müəyyən təsnifatlaşdırma prinsiplərinə əsaslanır.

Belə ki, əhalinin gəlirləri əmək gəlirləri hesabına mülkiyyət münasibətlərindən asılı olmayaraq ÜDM-un əmək haqqı fondu, ayn-ayn müəssisələrin əmək haqqı fondu və əhali arasında muzdlu əməyə görə ayrılan haqqa görə gəlirlərlə uzlaşır.

Ölkədə pulsuz xidmət, məcburi sığortanın büdcədən maliyyələşdirilən hissəsi, müavinətlər, pensiya və digər sosial müdafiə gəlirləri uyğun olaraq dövlət büdcəsi, sosial müdafiə fondları, müəssisə və təşkilatlann sosial ayırmaları hesabına formalaşır.

Əhali gəlirlərinin maddİ əşya, real görünüşü onun istehlakı ilə təsvir olunur. Əhalinin istehlakı, əmtəə və xidmət bazarında , reallaşan məhsullann və xidmətlərin miqdan ilə Ölçülür. Ona görə də istehlak yanaşması ÜDM-un istehlak strukturunu və əhali gəlirlərinin istehlakı arasında nisbətləri bütöv əmtəə və xidmət qrupları, habelə ayrı-ayrı əmtəə və xidmət istehlakı üzrə qiymətləndirməyə imkan

adambaşına düşən ÜDM gəlirlər və bəzi məhsullar üzrə istehlak normaları, həqiqi gəlirlərin ölçüsünü müəyyən edir.

Gəlirlərin hesablanması istənilən mərhələdə və səviyyədə xərclərin düzgün uçotu, qiymətləndirilməsi ilə bağlıdır. Ona görə də ÜDM-un istehsalı və istehlak metodu ilə hesablanmasının təhlili və proqnozu son nəticədə gizlİ gəlirlərin vergiyə cəlb olunması, əhalinin istehlak strukturunun qiymətləndirilməsi üçün şərait yaradır.

Natural gəlirlərin uçotu təsərrüfatda olan əmlak və ondan istifadədən əldə olunan natural məhsullarm miqdarı ilə ölçülür. Təbii ki, hər bir ailədə bu gəlirlər təsərrüfatçıhğm rentabellik səviyyəsindən asılı olaraq dəyişir. Azərbaycan kənd əhalisinin fərdi fəaliyyətdən gələn gəlirləri 50-70% təşkil edir [109]. Azərbaycan kəndinin sosial həyat tərzi və həyat səviyyəsi, onun ailə təldbi uyğun olaraq gəlirlərin formalaşması və istifadəsi mexanizmini yaradır. Ailə büdcəsinin xərclənməsi ailədə baş verən demoqrafik dəyişmələr, ailə üzvlərinin peşə və məşğuliyyət quruluşu, həmçinin hər bir ailə üzvünün və bütövlükdə ailənin istehlak davranışında prioritetləri ilə bağlıdır. Bu prioritetlər ailənin gəlirləri, onlarm yaradılması forma və mənbəələri, həmçinin peşə və məşğuliyyət səviyyəsinə uyğun olaraq ailənin büdcə təminatında daxil olmaların xarakteri, müddəti və əməyin nüfıiziu sayılması ilə bağlıdır.

Gəlirlərin makrosəviyyedə tənzimlənməsi nə qədər artım və istehsal funksiyası və onu doğuran amillərlə bağlıdırsa, gəlirlərin istifadə sferası sosial-iqtisadi və demokratik, habelə seçmə və istehlak sürəti İlə bağlıdır. Ona görə də gəlirlərin formalaşması və onlara büdcə halında tarazlı yanaşma metodikasının reallaşması makro və mikrosəviyyədə həmin tarazlığı təmin edən amillər və artıq formalaşmış steriotiplər üzrə ölçmə metodikası və adekvat model kimi təsvir olunur.

Dövlət büdcəsinin artımını təmin etmək üçün onun istehsal strukturası və istehlak tələbatı əsas götürülür. Belə ki, istehsal funksiyası kimi ÜDM-un artım tempi və ÜDM -un artımına təsir edən maddi resursların və əməyin ən optimal istifadəsi əsas rol oynayır.

$$ÜDM(t) = A3e"‘ \quad (2.1)$$

$$DBG(t) = f(ÜDM(t), \quad (2.2)$$

$$DBG(t) = A,e^{\wedge}“” \quad (2.3)$$

$$P(t)= \quad (2.4)$$

$$\wedge\ UDM(t)$$

**Blutida ÜDM (t) - ümumi daxili məhsulun cari və perspektiv inkişaf dinamikası; - ÜDM-un t=0 dövründəki hesab kəmiyyəti; b - ÜDM-un orta illik artım tempi; DBG (t) - Dövlət büdcəsinin gəlirləri; p (t) - dövlət büdcəsinin gəlirlərinin ümumi daxili məhsulda elastiklik əmsalı.**

**Əgər p(t)-mn proqnozu ümumi daxili məhsulun və büdcə tələbatının dəyişməsindən asılı olaraq əsaslandırılıb ekzogen olaraq tənzimləmə parametri kimi qəbul olunursa, onda ÜDM-un perspektiv artımı üçün artıq dəyişmə dinamikasının xarakteri verilmiş olunur.**

**P(t)-nin iqtisadi mahiyyəti dövlət büdcəsinin ümumi daxili məhsulun dövlət əlində cəmlənməsi və istifadəsi dərəcəsinin intensiv amili kimi qəbul olunur.**

**Dövlət büdcəsinin tərtibi onun real proseslərə maliyyə yardımı və maliyyə əsası rolunu oynaması sosial-iqtisadi inkişaf meylerinin düzgün müəyyən edilməsi ilə bağlıdır.**

**Büdcə sisteminin tərtibi zamanı dövlət büdcəsi gəlir və xərclərin sebeb və nəticə əlaqələrini və amillərini nəzərə almaqla real iqtisadiyyata idarəetmə mexanizmi kimi təsir edir. Onun maddi-əşya ve maliyyə vəziyyətini, dəyişmə meyllərini formalaşdırır. Dövlət büdcəsi iqtisadi potensialın maksimal istifadəsi və mümkün stabilleşmə şəraitini nəzərə almaqla real, mümkün gəlirlər trayektoriyasını müəyyənləşdirü.**

**Azerbaycan Respublikasının iqtisai və sosial inkişafının dinamikası büdcə gəlirlərinin dinamikasım və onun strukturunu formalaşdırır. Azərbaycan Statistik Göstəriciləri əsasında tərtib edilmiş 2.4. nömrəli cədvəldə Azərbaycan Respublikasının döv-**

iDt büdcəsinin dinamikası verilmişdir [6; s.393].

Büdcə gəlirlərinin formalaşmasında vergiyə cəlb olunan vergi bazası, iqtisadi potensial və uyğun olaraq onlann konkret obyektləri, istehsal gücləri, pul və kredit resursları əsas rol oynayır, Metodiki cəhətdən və qanunvericilik prinsiplərinə uyğun olaraq vergiyə cəlb olunan maddi-əşya strukturunu təkmilləşdirmək, istehsal və xidmət fəaliyyətinin genişlənməsi ilə və vergi dərəcələrini optimallaşdırmaq yolu ilə dövlət büdcəsinin gəlirlərini artırmaq olar.

Cədvəl 2.4.

Azərbaycan Respublikasımn dövlət büdcəsinin dinamikası (mlrd.manat)

| Gəlir və xərclər | 1995 | 1997 | 1998 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|
| ) | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| Gəlirlər-cəmi | 2078 | 2565. | 2327, | 3573, | 3924,0 | 4551, | 6104,5 |
| 0 cümlədən | | | | | | | |
| Əlavə dəyər vergisi | 152,8 | 589.5 | 719,2 | 954,2 | 1266,4 | 1674, 4 | 2048,6 |
| Aksİzlər | 88,6 | 226.6 | 95,8 | 112,2 | 554,6 | 433.3 | 335.2 |
| Mənfəətdən ve-ısi | 431,6 | 439,4 | 341,1 | 629,6 | 588,2 | | |
| Mədən vergisi (royalti) | 0,0 | 331,3 | 174,3 | 251,8 | 237,5 | 250.1 | 283.5 |
| Əhalidən gəlir vergisi | 145,2 | 313.2 | 411,9 | 469,9 | 473,6 | 548,3 | 752.1 |
| Xarici iqtisadi fəaliyyətdən veril | 1054,7 | 338,5 | 293,1 | 316,9 | 299,6 | 376 | 463.5 |
| Yerli vergi ve yığımlar | 14,1 | 0,0 | 0,0 | 0.0 | 0,0 | 0.0 | 0.0 |
| Rüsumlar və qeyri-vergi ödənişlər | 84,9 | 133,6 | 81.1 | 589,6 | 326,3 | | |
| Torpaq vergisi | 4,2 | 22,4 | 24,8 | 33,4 | 52,1 | | |
| Xərclərin ödənilməsinə yönəldilmiş | 6 | 0,0 | 0,0 | 0.0 | 0,0 | | |

*Cədvəi 2.4.-ün davamı*

| l | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| Xərclər, cəmi | 2141,9 | 2943,5 | 2641,7 | 3819,8 | 4037,5 | 4658,8 | 6172.2 |
| 0 cümlədən | | | | | | | |
| İqtisadiyyata | 230,1 | 423,2 | 270,7 | 447.2 | 512,2 | 685 | 1214.6 |
| Sosial-mədəni tədbirlərə | 756,4 | 1360,3 | 1430,8 | 1913,3 | 1981,8 | 2248 | 2676 |
| onlardan | | | | | | | |
| Təhsil | 375,8 | 563,9 | 581,5 | 909,2 | 931.1 | 956,2 | 1174.2 |
| Mədəniyyət və kütləvi informasiya | 45,6 | 71,8 | 71,1 | 90,0 | 96,8 | 102.6 | 139.8 |
| Səhiyyə | 148,3 | 193,8 | 155,4 | 204.7 | 210,1 | 224.1 | 276.6 |
| İdman | 3,9 | 6.8 | 8,1 | 12,7 | 13,1 | 14 | 15.4 |
| Sosial müdafiə fondu | 173,6 | 440,3 | 543,7 | 524,3 | 515,0 | 725.8 | 468 |
| O cümlədən | | | | | | | |
| Sosial təminat fonduna verilmiş vəsaitlər | 9.1 | 83,7 | 71,0 | 172,4 | 215,7 | 225.3 | 302 |
| Elmə | 19,6 | 35,8 | 31,5 | 46,6 | 47,0 | 57.1 | 83.1 |
| Hüquq mühafizə orqanlanna dövlət hakimiyyəti və idarə etmə orqanlarının saxlanması | 203 | 255,3 | 288,5 | 372,1 | 427,4 | 472,8 | 602.8 |

Golirlərin dinamikası,onun formalaşmasında hər bir vergİ növünün rolunu, gəlirlərin bölgüsündə və yenidən bölgüsündə səmərəli variantların axtanіması büdcə tərtibi, təşkili və idarə edilməsi baxımından zərurilik doğurur. Büdcə gəlirlərinin ÜDM-a nisbəti real göstəricilər üzrə 2002-ci ildə 15%, 2003-cü ildə isə 17,4%, 2004-cü ildə 18% təşkil etmişdir. Büdcə proqnozuna görə gəlirlərin ümumi daxili məhsula nisbəti 2005-ci ildə orta illik göstərici olaraq 19,7% nəzərdə tutulmuşdur.

Dövlət büdcəsinin sosial yönümlü olması onun xərc stnık-tıırunda birbaşa əhali istehlakı ilə bağlı sahələrin inkişafına və onlann canlı əmək və maddi məsrəflər üçün çəkilən xərclərin

nisbətlərinin tənzimlənməsi ilə bağlıdır. İndiki büdcə siyasətinin sosial yönlü xarakteri büdcədən maliyyələşdirilən sosial sahələrin əmək haqqı və maddi məsrəf xərclərinin həmin sahələrin normal inkişafı və standartlara uyğun keyfiyyətli fəaliyyət təminatına yönəldilməklə idarə olunur.

Təhsil, səhiyyə, sosial müdafiə fondlan və büdcə vasitəsi ilə əhalinin məcburi sığorta haqlannın ödənilməsi, fövqəladə hallar üçün ehtiyat fondlarından bir dəfəlik ödəmələrin və yaxud büdcədən kənar fondlar və xüsusi vəsaitlərin gəlirlərin normal istehlak səviyyəsinə çatdırılması üçün tənzimlənməsi, icmal büdcədə nəzərə alınır. Ölkənin ehtiyat fondlan və neft fondunun büdcə vasitəsi ilə əhalinin birbaşa gəlirlərin və yaxud istehlakı üçün zəruri olan maddi nemətlərin, menzil-kommunal və digər sosial infrastrukturlann inkişafına yönəldilməsi əhali gəlirləri və ıstehlakınm büdcə vasitəsi ilə dövlətin hamarlama siyasətidir. Əlbəttə, bu hamarlama bərabər şərait baxımından sosial tomi- natlann minimum səviyyəsini təmin etmək üçün edilir. Bir növü ilkin aparat sosial vəziyyət yaratmağa yönəldilir. Əsas məqsəd büdcənin daha çox dinamik statusunu təmin etmək, onun iqtisadi və sosial inkişafının fəal mexanizminə çevirməkdir.

Dövlət büdcəsinin sosial təminat və müəyyən inkişafa stimul yaratmaq funksiyası onun xərclərinin iqtisadi və sosial effekti kimi qəbul olunur. Əgər büdcə xərclərinin artımı ümumi daxili məhsulun artımına müsbət elastiklik əmsalı ilə təsir edirsə onda onun səmərəsi ölçülür. Təbii ki, büdcə xərclərinin inteqral effekti kommersiya gəlirləri formasında deyil, bütövlükdə, əhalinin rifahına təsir edən inteqral gəlirlərin və geniş istehlak fondunun artımı ilə ölçülür. Bu isə öz növbəsində büdcə xərclərinin kompleksliliyi və sisteniliyindən asılıdır. Hər bir sahə üzrə sosial müdafiə və ya əmək vo maddi əşya strukturlan üzrə çəkilən xərclərin müxtəlif xüsusi effekti olsa da inteqral effekt olaraq «multiplikasiya effekti» kimi ümumi artımın xərcə olan nisbəti ilə ölçülə bilir.

A ÜDM

ABX ’

AÜDM=G.ÄBX (2.6)

AÜDM(t) - ÜDM, + a AÜDM(t) (2.7) ÜDMQ + aAÜDM(t) = ƏABX (2.8)

buradan

= (2.9)

burada - G inteqral effekti; A ÜDM - ümumi daxili məhsulun artımı; ÄBX - büdcə xərclərinin artımı; ÜDMo - bazis ili üçün ümumi daxili məhsulun həcmi; a - ümumi daxili məhsulun artı- mımn dinamik əmsalı.

Beləliklə, inteqral artımda rol dövlət büdcəsinin və ÜDM- un qarşılıqlı artımlannm nisbəti ile müəyyənləşir.

Dövlət büdcəsinin sosial effekti yerli büdcələrin formalaşmasına təsiri ilə də özünü göstərir. Regionlara verilən dotasiyalar, subsidiyalar və məqsədli rhərkəzləşdirilmiş xərclər, həmin regionların yerli gəlİr və xərcləri arasında tarazlığı təmin etmək üçün istifadə olunur. Yerli büdcələrlə əhali gəlirləri və xərcləri arasında əlaqə birbaşa əmək haqqı, yaxud sosial subyektlərin maliyyəsinin təşkili ve müştərək istehlak üçün lazım olan xərcləri əhatə edir. Əhali büdcəsinin dövlət büdəci ilə əlaqəsi və qarşılıqlı təsirinin qiymətləndirilməsi büdcə sisteminin daha da təkmilləşdirilməsi və gəlirlərin bölgüsü ve yenidən bölgüsü üzərində nəzarət və idarəetməni tələb edir, vacib maliyyə balansının strateji planım və investisiyanın artmtmasma şərait yaradır.

Dövlət büdcəsinin aşkarlığı, onun elmi proqnozlar əsasında tərtibi və istifadəsi əhalinin tələbatını ödəmək və perspektiv gəlir mənbəyi olan investisiyalann daha səmərəli sahələrə istifadəsi istiqamətləri üzrə təkmilləşdirilir. Bunun üçün əhalinin yoxsulluq həddi, onun minimum yaşayış səviyyəsi və əhalinin perspektiv tələbatım təmin edən sosial-iqtisadi göstəricilər qiymətləndirilir ve nəzərə almır. Dövlət büdcəsi, əhali və ayn-ayn

sahələrin və bələdiyyələrin büdcələri arasındakı metodiki uzlaşma və qarşılıqlı təsir strateji planlaşma məqsədi İlə aparılırsa, bu da son nəticədə tarazlı inkişaf meyllərini reallaşdırır. Büdcə sisteminin iqtisadi və sosial inkişafda aparıcı rolunu müəyyən edir.

## 2.2. Sahibkarlıqdan gələn gəlirlərin dinamikası və idarə olunması problemləri

Bazar iqtisadiyyatının təşəkkülü əhalinin gəlirlərinin xarakterini, onun mənbələrini və onun xərc strukturunda yeni istiqamətlər və artım templərini formalaşdınr.

Sahibkarlıq gəlirləri mülkiyyət münasibətlərindən, icarə haqlanndan, dividentlər, yığım vəsaitinə uyğun olaraq əldə edilən faizlər və muzdlu əməyə görə hüquqi şəxs kimi əhalinin bir qrupunun digərindən əldə etdiyi gəlirləri özündə birləşdirir. Ona görə də biz başqa tədqiqatlardan fərqli olaraq əhalİ gəlirlərinin formalaşmasında və onun dinamikasında fəaliyyət növü olaraq sahibkarlarla işçi qüvvəsi arasında müqavilə, yaxud xalis mənfəətin yenidən bölgüsü nəticəsində əhalinin istifadəsinə verilən payı gəlir kimi qəbul edirik.

Əhalinin hüquqi şəxs və ferdi istehsalçı kimi sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirləri, digər sahibkarlıq fəaliyyətindən götürülən işə və xidmətə görə muzdlu əmək gəlirləri kimi çıxış edir.

Bazar iqtisadiyyatı təşəkkül tapdıqca sahibkarlıq gəlirləri respublikada yaranan maddi və mənəvi nemətlərin apancı həlqəsinə çevrilir. Sahibkarlıq gəlirləri bölgü və yenidən bölgü sistemində dövlət, muzdlu işçilər, xidmət və sahibkar arasında bazar tələb və təklifinə uyğun olaraq bölüşdürülür və idarə olunur. Sahibkarlıq fəaliyyəti mülkiyyət münasibətindən asılı olmayaraq rəqabət mühiti şəraitində öz gəlirlərinə olan tələbatı ödəmək üçün özünün istehsal-xidmət proqramlarını əsaslandırır, variantlar seçir və davamlı inkişaf üçün tədbirlər axtanr. Salııbkarllığm inkişaf dinamikası və maliyyə imkanları yaratdığı gəlirlərlə xərclər arasında fərqin şəxsi gəlir kimi onun isteh

salında və muzdlu işçilərin fərdi gəlirlərində özünü əks etdirir. Sahibkarlıq gəlirlərini ev təsərrüfatında, kiçik və orta biznes fəaliyyətində vo dövlət müəssisələri formasında daha çox təşkilati-iqtisadi strukturuna görə qruplaşdırmaq və müxtəlif səmərə və istifadə istiqamətlərinə uyğun tədqiq etmək olar. Gəlirlərin subyektə görə formalaşmasında kiçik və orta sahibkarlıq özünün təşkilati-iqtisadi formasının səmərəlilik göstəricisini müəyyənləşdirir. Mülkiyyət forması olaraq özəl sektor kimi ÜDM-un 72%-ni təşkil edir. Ölkənin icmal maliyyə və todiyyə balansında qeyri-dövlət sektorunun daxili vergilər və rüsümların yığılmasında 2003-cü ildə 42%-ə qədəri, 2004-cü ildə dövlət büdcəsinin gəlirlərinin proqnozunda 44% təşkil edir. Daxili vergilər və rüsümların özəl sektor hesabına formalaşmasında yerli özəl qurumlar və fiziki şəxslər 52%, xarici investisiyalı müəssisələr uyğun olaraq 2003-cü ildə 48% nəzərdə tutulmuşdur. Özəl sektorun ümumi daxili məhsulun istehsalında payının çox olması vergi və rüsumlarda iso nisbətən az olması, vergiyə cəlb olunan resursların özəl sektorda ehtiyatlannı müəyyən edir. Təbii ki, sahibkarlıq gəlirlərinin istehsalı və bölgüsü, uçotu və onun diffe- rensiyası özünəməxsus qanunauyğunluqlar və meyllər kəsb edir. Metodoloji baxımdan sahibkarlıq fəaliyyətindən gələn gəlirlər mənbəə olaraq daima bazar tipli inkişafın dərinləşməsi və təkmilləşdirilməsi nəticəsində əhali gəlirlərinin ümumi həcmində vo strukturunda xüsusi çəkisinin artmasına, həmçinin bəzi sosial- iqtisadi qruplann bütövlükdə maliyyə imkanlannı formalaşdıran gəlir kimi inkişaf edir. Ayn-ayn mülkiyyət və təşkilati-iqtisadi təsərrüfat formalanmn inkişafı və proqnozunu nəzərə almaqla perspektiv gəlirləri proqnozlaşdırmaq metodologiyası düzgündür.

Qeyd edək ki, sahibkarlıqdan gələn gəlirlər sahibkarlığın forma və fəaliyyət İstiqamətindən və pul, natural, müştərək istifadə üçün ayırdığı vəsaitlərin həcmindən asılı olaraq müxtəlif sosial-iqtisadi qmplann gəlirlərində eyni intensivlikdə iştirak etmir. Beləliklə, sahibkarlıq gəlirlərinə fıkrimizcə, iki əsas müstəvidən baxılır. Birinci mərhələni hər bir sahibkarın gəlirlərinin dinamikası, həcmi və onun istifadəsi təşkil edir. Digər mərhələ isə hər bir ölkənin və fərdin məcmu gəlirində sahibkarlıq fəa

liyyətindən gəlir və onun istifadəsi, həmin gəlirlərin digər sahibkarlardan alınan muzdlu, yaxud xidmətə görə mənimsənilən gəlirlərdir. Sahibkarlıq inkişaf etdikcə əməyin xarakteri, onun dəyəri və onun istifadəsi zamanı verilən haqqın mənzərəsi dəyişir. Sahibkarlıq fəaliyyətindən gəlirlərin bölgüsü birbaşa və dövlət büdcəsi vasitəsilə baş verir. Sahibkarlar dövlət büdcəsinin gəlirlərində vergi qanunvericiliyinə uyğun olaraq mənfəət vergisi, əmlak vergisi, mədən vergisi, hüquqi və fiziki şəxs kimi gəlir vergisi və sosial müdafiə fondunun formalaşması və inkişafı üçün sosial ödəmələr keçirirlər. Sahibkarlığın inkişafı birbaşa əhalinin və sahibkarlann hüquqi və fiziki şəxs kimi gəlirlərinin bölgüsü və yenidən bölgüsü sferasında bir-biri ilə, həmçinin mübadilə, istehlak və yığıra sferasında dövlətlə və öz aralarında formalaşan əlaqələrdən asılıdır.

Gəlirlərin reallaşması üçün sahibkarlar əldə etdiyi məcmu səmərənin bir hissəsini onu yaradan məsrəflər üçün istifadə etməlidirlər. Əmək haqqı və natural gəlirlər respublikada region və sahə xüsusiyyətləri kəsb edir. Gəlirlərin regional bölgüsündə həmin regionun sosial infrastrukturu və tələbatı ödəmək üçün istehsal və xidmətin çeşidi, onun həcmi əsas rol oynayır. Sahibkarlıq fəaliyyəti ilk növbədə istehlak tələbatına istiqamətlənirsə onda bir sıra pul gəlirlərinin məqsədini təmin etmiş olur. O cümlədən əsas yeyinti məhsulları və bir sıra xidmət tələbatı bilavasitə ailə üzvlərinin əmək sərfləri və onlann istehsal etdiyi maddi və mənəvi nemətlərlə ödənilir. Müasir şəraitdə islahatların konkret xarakteri sahibkarlıqdan gələn gəlirlərin stimullaşdı- rılmasına yönəldilir. Torpaq islahatı yerli sahibkarlığın İnkişafı üçün kredit güzəştlərinin verilməsi, bəzİ vergilərin əhalidən tutulmasının güzəştli şərtləri, yaxud müddətli ləğvi son nəticədə gəlirlərin mənbəə kimi ayn-ayn sosial qruplann həyat səviyyə- . sinə müxtəlif dərəcədən təsir edir. Hər bir sahənin, yaxud sahibkarlıq fəaliyyətinin bazar tələbatını nəzərə almaqla gəlirlərinin dinamikasını proqnozlaşdırmaq olur. Tələb və təklif qanununu ayn-ayn istehlak məhsullan və xidmətlər istehsalında gəlirləri formalaşdırır. Pensiya və xidmətə tələbat artdıqca gəlir artır və tələbatın ödənilməsi, yaxud təkliflə tarazlaşma, həmin məhsul

istehsalında gəlirləri azaldır və daha gəlir gətirən sahələrlə məşğul olmaq variantı ax tanlır. (Qrafik 2.1)




*Qrafik 2.1.* Gəlirlərin ÜDM-dan asılı dəyişmə dinamikası (faktiki rəqəmlərdə, mlrd, manatla)

Sahibkarlıq gəlirləri hər bir regionda və demoqrafik tərkibdə əmlakın istifadəsi dərəcəsindən asılı olaraq müxtəlif ailələrdə eyni səviyyədə formalaşmır. Bu gəlirlərin xarakteri fərdi fəaliyyətinin səmərəli təşkili qabiliyyətindən asılıdır. Həmçinin sahibkarlıq gəlirləri dövlətin ümumi iqtisadi strategiyasından, sosial təminat prinsiplərindən, sahibkarlığa yaradılan start şəraitindən və stimullardan asılıdır. Sahibkarlıq səyi onun öz gəlirlərini qiymətləndirmək və iqtisadi cəhətdən gəlirli fəaliyyət növü seçməklə bağlıdır. Bu da fəaliyyət növü üzrə gəlir norması, yaxud əmtəə və xidmət üzrə rentabellik səviyyəsi ilə qiymətləndirilir.

Sahibkar gəlirlərinin dinamikası və fərdi fəaliyyət göstərən hər bir ailənin gəlirlərinin qiymətləndirilməsi həmişə metodiki ' və statistUd çətinliklərlə üzləşib. Sorğu, yaxud birdəfəlik qiy- ‘ mətləndirməklə əhali və ailələr arasında bu gəlirin müxtəlif sistemli iqtisadi qruplarda səviyyəsinin monitorinqini keçinnək olar. Amma natural istehlak səviyyəsini məcmu gƏlir növü kimi qiymətləndirmək və uçotunu aparmaq informasiya dəqiqliyi ba-

xımmdan xeyli çətindir. Potensial yanaşma əmlakın və torpağın maksimal istifadəsi zamanı əldə olunan nominal məhsuldarlıq və yaxud mövcud qiymətlərlə qiymətləndirmək yolu ilə ümumi məbləği müəyyən edİr. Ancaq bütün əmlak yoxsulluq və əhalinin ondan tam istifadə etməməsi ucbatından eyni gəlir gətirə bilmir. Gəlirin gizlədilməsi vergi yığımı və müxtəlif inzibati yoxlamalar ucbatından baş verir. Bu da özəl sektorun və fərdi sahibkarlığın Ümumu daxili məhsul və büdcə, həmçinin istehlak səviyyəsini, habelə əmtəə mal dövriyyəsinin azaldılmasına gətirib çıxarır.

Gəlirlərin uçotu, qiymətləndirilməsi istehsal metodu və istehlak yanaşması ilə daha dəqiqləşdirilir. İstehsal metodu ilə uyğun fəaliyyət sahələrində istehsal həcmi, onun dəyəri və aralıq məhsuldan istifadəni qiymətləndirməklə mümkün olur. İstehsal metodu istehsal həcmi və reallaşan məhsullarm qiymətinə uyğun əldə olunan gəlirlə hesablamr. İstehlak metodu ilə gəlirlərin qiymətləndirilməsi ərazidə və hər bir region daxilində reallaşan əmtəə və xidmət təklifi ilə müəyyən olunur. Xüsusi təsərrüfatdan olan gəlirlərin hesablanmasımn çətin olmaması üçün adam başına düşən heyvandarlıq məhsullannın, torpaq sahələrinin istifadəsindən şəxsi istehlak həcmini, təsərrüfatçılıqda olan gəlirlərin həcmini bərabərləşdirmək yolu ilə və yaxud ondan da artıq qiymətləndirməklə hesablamaq olur. Əmlakın fərdi təsərrüfatda istifadəsi nəticəsində onun bazarda öz reallaşma səviyyəsini tapmayan hissəsi ailə və ev təsərrüfatında istifadə olunaraq məcmu gəlirin bir hissəsi kimi qəbul olunur.

Qeyri-dövlət sektorunun inkişaf göstəriciləri və onun istehsal və istehlak sferasında rolunu müəyyənləşdirir. Belə ki, 2000- ci üdə qeyri-dövlət sektorunda ÜDM bütövlükdə iqtisadiyyat üzrə 69,6%, 2003-cü ildə 72,5% təşkil edir. Qeyri-dövlət sektorunda son məhsulun (gəlirin) 2000-ci ildə uyğun olaraq ümumi buraxılışı 62,6%, 2003-cü ildə isə 60,4% təşkil edir. Beləliklə, hər manat ümumi buraxılışa 2000-ci ildə 1,6 manat, 2003-cü ildə isə 1,7 manat təşkil edir.

Qeyri-dövlət sektorunun inkişaf göstəriciləri İqtisadi İnkişaf Nazirliyinin məlumatlan əsasında 2.5.JVe-li cədvəldə verilmişdir.

*Cədvəl 2.5.*

**Qeyri-dövlət sektorunun inkişaf göstəriciləri (mlrd.man)**

| Göstericilər | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Ümumi daxüi məhsul fÜDM) | 16409,3 | 18619,6 | 20734,0 | 23790,0 |
| Ümumi buraxılış | 269070 | 29563,8 | 34174,6 | 39377,0 |
| Əlavə dəvərin xüsusi çəkİsİ %-lə | 62,6 | 62,1 | 60,5 | 60,4 |
| Sənaye üzıə ümumi buraxılış | 7247,7 | 8285,7 | 9176,0 | 9374,0 |
| Əlavə dəyərin xüsusi çəkisi (%-lə) | 63,3. | 59,0 | 56,0 | 56,0 |
| Oida məhsulları üzrə ümumi buraxılış | 1809,7 | 2528,2 | 3141,8 | 3675,4 |
| Əlavə dəyərin xüsusi çəkisi %-lə | 15,3 | 15,3 | 15,3 | |

**Ev tasərrüfatlan üzrə statistik göstəricilər büdcənin tədqiqi nəticəsi olub, seçim üçün orta statistik göstəriciləri əks etdirsə de, onun bütövl^do əhaliyə şamil edilməsi müəyyən qipotez, yaxud şərtlərlə bütöv əhali haqqında dinamik təsəvvür yaradır və alman nəticələrin şərhi üçün əsas verir. Seçim üçün hesablanmış adam başına düşən gəlir göstəricisi bütövlükdə əhalinin sayına vurulmaqla məcmu gəlir haqqında məlumat almır. Digər tərəfdən həmin göstəricilərin məcmu ÜDM, gəlir və digər inteqral göstəricilərlə nisbəti müəyyən edilir, düzəliş edilməklə büdcə göstəricilərindən inteqral ümumi göstəricilərə keçid təmin olunur. Ailə büdcələrinin sorğu vasitəsilə tədqiqinin göstəriciləri struktur təhlil üçün əsas ola bilir. Çünki hər bir göstəricidə təkrar olunma hər bir elementə eyni dərəcədə təsir etdİyİ üçün ümumİ struktur saxlanılır. Əhalinin adam başına düşən pul gəlirləri Azərbaycan Statistik Göstəriciləri əsasında tərtib olunaraq 2.6.J'fe-lİ cədvəldə verilmişdir [6; s.l26].**

**Əhalinin 2000-ci ildə adam başına düşən pul gəlirləri hesabında, bütün respublika əhalisi üzrə pul gəlirləri (2214,4 x SOS 1,0) = 16,7 trilyon manatdır.**

**Makroiqtisadi gəlirlərin cari proqnoz göstəricilərinin məcmu üzərində yayılması yolu ile alınan göstəricilərdə müqayisəli təhlildə 2000-ci ildə fərq (17,6; 16,7 trilyon) 0,9 trilyon olduğu müəyyən edilir. Bu fərq dİgər qipotez kimi götürülsə, yəni 52 təşkil edir. Uyğun olaraq bu yaxmiıq ev təsərrüfatının büdcə**

*Cədvəl 2.6.*

Əhalinin adanı başına düşən pul gəlirləri (min manat)

| Göstəricilər | 1999 | 2000 | 2001 |
|---|---|---|---|
| Cəmi pu! gəlirləri | 2052,0 | 2214,4 | 2425,4 |
| O cümlədən | | | |
| Əmək haqqı | 337,3 | 386,3 | 409,9 |
| Əmək haqqından başqa gəlirlər | 19,0 | 21,6 | 26,7 |
| Sahibkarlıq fəaliyyətdən gətən gəlirlər | 1290,3 | 1412,3 | 1527,5 |
| Sosial transfcrtlər | 150,0 | 167,7 | 189,1 |
| Mülkiyyətdən gələn gəlirlər | 0.9 | 0,9 | 0,5 |
| Əhalinin xarici valyuta dəyişməsindən gəlirlər | 150,4 | 157.5 | 152,3 |
| Sair gəlirlər | 103,9 | 118,2 | 119,3 |

göstəricilərinin makroiqtisadi göstəricilərin hesablanmasında istifadəsi metodikasını sübüt edir. Əlbəttə, ayrı-ayrı təsərrüfatlarda büdcə statistikası ilə makroiqtisadi göstəricilər arasında fərqi qiymətləndirmək və onun gəlirlərin dinamikasında nəzərə almaq bir sıra metodiki proseduralar tələb edir. Hesab etmək olar ki, ət və ət məhsullarının adam başına düşən istehlakı ilə onun istehsalı arasında fərqin idxalı qiymətləndirməklə natural istehlak üçün istifadə olunur. Çünki, Azərbaycanda bəzi məhsulların ixracatı cuzi fərqlərlə ifadə olunur.

Sahibkarlıqdan hüquqi şəxslərin gəlirləri vergi məcəlləsi ilə tənzimlənir. Vergi qanunvericiliyinə uyğun olaraq hüquqi şəxslərin vergilərinin hesablanması qaydası, məhsulun istehsalına çəkilən xərclərin dinamikası, onun hesablanmasında cari xərclər, amortizasiya ayırmalannı və xərcləri daxil olmaqla sığorta ayırmalarını azaltmaq yolu ilə vergi normasına təsir etmək olar. 2005-ci ilin dövlət büdcəsinin proqnoz göstəricilərinə görə mənfəət vergisi 130.5 mld manat, hüquqi şəxslərin torpaq vergisi 75 mlrd, manat, hüquqi şəxslərin əmlak vergisi 200 ınird. manat təşkil edir. Qanunvericilik normalanna görə vergi tariflərinə uyğun qiymətləndirsək əmlakın, mənfəətin və torpağın dəyərinin hesablammş səviyyəsi müəyyən olunur.

+M(t + T®) = VB (2.10)

Burada, V" - vahid vergi norması; Ə„- əmlakın vergi bazası; M - mənfəət vergisinin bazası; T - torpağın

Hər bir vergi bazası üçün uyğun vergi normalan tətbiq edildiyi üçün

Ə„(,.a + M(t).|i-ı-TV=V (2,11)

a, p, p - uyğun vergi dərəcələridir.

Vergi normaları verildikdə toplanan vergini almaq üçün zəruri olan vergi bazası planlaşdırılır. Əhali gəlirləri məhz vergiyə cəlb olunan vergi bazasının düzgün uçotu və qiymətləndirilməsi metodikasından xeyli asılıdır. Əgər vergiyə cəlb olunan məbləği azaldıb, azaldılan məbləğ sahibkarın və muzdlu işçilərin əmək haqqına və sosial müdafiəsi üçün xüsusi vəsaitlər şəklində verilirsə, onda əhali gəlirləri ilə sahibkarlann məcmu gəliri arasındakı fərq istehlakm gəlirlərdən artıq qalan hissəsində Özünü göstərir.

Əhali gəlirləri ilə sahibkarlıq fəaliyyəti arasında gəlirlərin bölgüsü bazar tipli münasibətlər və müəyyən rəqabət mühitli şəraitlər yolu ilə tənzimlənir. Hər bir sahibkar əldə etdiyi gəlirin bir hissəsini dövlət və sosial müdafiə məqsədləri ilə müştərək ictimai tələbatı ödəmək üçün maliyyələşdirir, həmçinin özünün inkişafı üçün restruktizasiya məqsədləri və stimullar yaratmaq üçün istifadə edir. Bu prioritetlər sahibkann gəlirləri üzərində nəzarətin bazar mexanizmləri və həmçinin müəssisənin, yaxud İcraçı şəxslərin qərar qəbulu və alternativ inkişaf dinamikası və istiqamətləri seçməkdən xeyli asılıdır. Sahibkann gəlirlərinin bazar tipli modeli onun müəyyən dövlət xərclərini ödədikdən (vergi, sosial ödəmələr, məcburi sığorta) sonra yerdə qalan hissəsinin yenidən bölgüsü, əmək haqqı və sosial müavinətlər, həvəsləndirmə və yaxud mükafatlandırma, kapital yığımı və onun istifadəsi, ehtiyat fondlarının yaradılması və ondan gəlir mənbəyi kimi istifadə edilməsi strategiyası ilə müəyyən olunur. Sahibkann ilkin kapitalı, onun maliyyə resurslannın artımı, onun istifadəsinin səmərəli variantlarından asılı olaraq formalaşır. Ona görə də rəqabət və dayanıqlıq kapitalın inflyasiyadan qorunması üçün

daha çevik və tez səmərə verən restmksizasiya siyasəti ilə bağlıdır. Gəlirlərin həmçinin əhali ilə bölgüsü əmək bazan təzyiqi ilə bağlanan əmək müqavilələridir.

Sahibkarlıq gəlirlərinin artımı, onun icraçılanmn və işçilərinin əməyə və xidmətə görə gəlirlərinin artımına səbəb olur. Sahibkarlıq fəaliyyətində əmək haqqının artınıması üçün birbaşa əməyin nəticəsi və ona verilən haqq arasında nisbət iş qüvvəsinə olan tələbat və əmək haqqının alıcılıq qabiliyyəti ilə tənzimlə

nir.

Sahibkarların fəaliyyətinin növü, onun istehsal, yaxud xidmət məhsullanmn bazarda alıcılıq qabiliyyəti, həmin sahənin orta aylıq əmək haqqısını və İşçi qüvvəsinin təklifini artırır. Məhz iş qüvvəsinin iş yerlərindən çox olması, ayn-ayn sahibkarların əmək haqqı itə onun effekti arasında fərqli manevr etməyə, həcminin artırılmasına və vergiyə cəlb olunan mənfəətin artırılmasına səbəb olur. Beləliklə, sahibkarlıq gəlirləri iqtisadi strukturlarda baş verən qarşılıqlı əlaqə və həmçinin hər bir fəaliyyət növünün bazar tələbinə və təklifinə uyğun İstehsal proqramı və maliyyə tarazlığı ilə mümkündür. Hər bir sahibkann maliyyə-maddi planı və onun səmərəli təşkilində istehsal xərcləri ilə fayda arasında optimal nisbətin təmin olunması gəlirlərin düzgün bölgüsünə və onun gizlədilməsi nəticəsində ümumi dinamik artımın azaldılmasına yollar axtarmaq son nəticədə iqtisadi tarazlığı pozur. Sahibkarlıq formalan, onun təşkilati quruluşu, sahə və ərazi İxtisaslaşma səviyyəsi və struktur əlaqələri, gəlirlərin artımı və onun bölgüsündə özünəməxsus xüsusiyyətlər yaradır.

Əmək haqqının müqavilə üzrə hesablanması, ayn-ayn sahibkarlann görülən işin nəticəsinə uyğun əmək haqqı sistemini və iş saatlanmn artınıması hesabına əldə olunan əmək haqqı gəlirlərinin artınlmasma səbəb olur. Ona görə də əmək haqqı gəlirlərinin hər hansı ailədə yuxan olması heç də həmin sahədə daha məhsuldar, yaxud iş qüvvəsinin dəyərinin yuxan olması hesabına deyil, iş saatlarının artımı hesabına əldə olunan gəlİriər hesabına yuxan olur. Ona gÖrə də orta aylıq əmək haqqı səviyyəsinin sahibkarlıqda yuxan olmasının mövcud reallıqlarından

**əsas rolu olamasınt normalaşdıran onun son nəticəsinin ölçülməsi və ona uyğun haqq verilməsidir. Belə ki, makroiqtisadi artım göstəricilərinə görə orta aylıq əmək haqqının dinamikası aşağıdakı kimi ifadə olunur.**

*Cədvəl 2.7.*

| **Əmek haqqı** | **İLLƏR** | | | | | |
|---|---|---|---|---|---|---|
| | **2000** | **2001** | **2002** | **2003** | **2004** | **2005 proqnoz** |
| **İqtisadiyyat üzrə orta aylıq əmek haqqı (min manat)** | **221,6** | **260,0** | **320,0** | **387** | **468,2** | **538,4** |
| **Altun, %-lə** | **120,2** | **117,3** | **123,1** | **122.7** | **127.3** | **122** |
| **O cümlədən dövlət sektorunda (min manat)** | **192,4** | **211,5** | **250,0** | **252.6** | **328,4** | **410.5** |
| **Artım, %-le** | **116,0** | **109,0** | **118,2** | **117,3** | **130** | **125** |
| **Qeyri-dövlət sektorunda (min manat)** | **418,0** | **586,5** | **650,0** | **696.4** | **835.7** | **1002.8** |
| **Artım, %-İa** | **101.7** | **140,3** | **110,8** | **119.7** | **120** | **120** |

**Mənbə: Rəqəmlər İqtisadi İnkişaf Nazirliyinin materialları əsasında tərtib olunmuşdur.**

**Cədvəldən göründüyü kimi qeyri-dövlət sektorunda orta aylıq əmək haqqının səviyyəsi əvvəlki illərdə (2000-2002) iqtisadiyyat üzrə orta aylıq əmək haqqından 2 dəfəyə yaxın y^sək olmuşdur. Son illərdə proqnoz göstəricilərinə iqtisadiyyatın ümumi artımının üstün olması ilə bağlı olaraq orta aylıq əmək haqqı səviyyəsinin artım tempinin qeyri-dövlət sektorundan yuxan olması müşahidə olunur. İqtisadiyyatın özəlləşdirilməsinin**
**2000- 2003-cü illər üzrə proqramı, neft sektorunun inkişafı ile yanaşı diger sahələrin inkişafında sabitlik ve qərarlaşma bütövlükdə dövlət və səhmdə cəraiyyetlerdo əinek haqqımn nəticələrinin artması ilə müşahidə olunmalıdır. Mehz qeyri-dövlət sektorunda işləyənlərin və fərdi eməklə məşğul olanların gəlirlərinin 50%-nin natural təsərrüfatdan gələn gəlirlər kimi qiymətləndirsək, onda əhalinin məcmu gəlirlərinin 30%-ni artınnaqla onlann**

gəlirlərini dəqiq qiymətləndirmək olar.

Sahibkarlıq gəlirləri ilə əhali gəlirləri arasında aralıq subyekt rolunu dövlətin hİmayəçilik, yaxud dövlət mexanizmlərinin səmərəli təşkili və tətbiqi ilə bağlı yaradılan şərait mühüm rol oynayır. Dövlət kənd yerlərində regionların təbii resurslannı inkişaf etdirmək və əhalinin sosial müdafiəsi üçün transfert gəlirləri vasitəsi ilə təsir edir.

Bu gəlirlərin maliyyə kompensasiyası mərkəzləşdirilmiş büdcə gəlirləri, yaxud müəssisə və təşkilatların gəlirlərinin həmin məqsədlərə yönəldilən hissəsinin vergi və rüsumlardan azad edilməsi, yaxud uzun müddətli borclar kimi ödənilməsinə tətil verilməsi və güzəştli kreditlər, həmçinin kredit olaraq avadanlıq və maliyyə lizingləri tətbiq edilməsi daha əməli tənzimləmə siyasətidir. Sahibkarlığın və yaxud bəzi yerli resurslara əsaslanan, kiçik və orta sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərə dövlət himayəsi sahibkarlığa kömək fondu, enerji və digər resurslann kredit olaraq verilməsi və sosial müdafiə tədbirləri həyata keçirməklə stimullaşdırma mexanizmi yaradılır.

Əhali gəlirlərinin sahibkarlıq fəaliyyəti, onun cari xərclərinin qiymətləndirilməsi və cari xərclərə daha çox stimul yaradılması ilə mümkündür. Xərc strukturunu təkmilləşdirmək, ailənin avans edilmiş vəsaiti ilə sahibkarlığa yanaşmaq, bəzi məhsulların istehsalı və ixracatına stimul yaratmaq yolu ilə perspektiv gəlirləri üçün ilkin təşkilati-maliyyə və hüquqi baza yaradılır.

Özəlləşdirmə və xüsusi əmlak əhali gəlirlərinin formalaşmasında və onun xərclənməsində özünəməxsus xüsusiyyətlər tarixi, milli xüsusiyyətlərə uyğun qanunauyğunluqlar yaradır. Əhalinin gəlir strukturunda sahibkarlıq gəlirlərinin artması, hər hansı məhsula olan tələbatın bilavasitə xüsusi istehsal və sahibkarlıqdan alınan gəlirlər hesabına ödənilməsi bazar modeli şəraitində daha üstün artıma malikdir. İctimai iş yerlərinin azalması, əsas istehsal fondlarının və torpaqların xüsusi mülkiyyətə verilməsi və onlann inkişafı üçün şərait yaradılması tələbatın ödənilməsində bir çox məhsullann xüsusi istehsal hesabına ödənilməsini daha sürətlə artınr. Əhali gəlirlərinin istehlak davranışı və priori-

tetlərillin formalaşması yeni gəlir gətirmək məqsədi ilə reallaşır. Daha çox gəlirli və əmlakın artmasına səbəb olan xərc strukturu inkişaf variantı kimi qəbul olunur. Əhalinin sahibkarlıq obyektlərinin əldə edilməsi, tikilməsi, yaxud icariyyə və istifadə üçün gəlir yarada bilən əmlak xərcləri ayn-ayn sosial qruplann xərclərində prioritetlik kəsb edir. Əgər ÜDM-un sahə strukturuna və hər bir sahədə özəl sektorun xüsusi çəkisini təhlil etsək, xüsusi təsərrüfatla bağlı olan sahələrlə sahibkarlığın ÜDM-da və yaxud əmtəə və xidmət dövriyyəsində rolunun yüksək olması səciyyələnir. Rəsmi rəqəmlər göstərir kİ, artıq kənd təsərrüfatı sahəsində özəl sektorun payı 98-99%, tikintidə 80%, əmtəə və xidmət dövriyyəsində 98% təşkil edir.

2004-cü İldə ÜDM-un sahə strukturunda kənd təsərrüfatı, xidmət və tikinti sahələri 63.7% təşkil edir. Sənayenin özünün də özəlləşdirilməsi və qeyri-neft sektorunun inkişafı sahibkarlıqdan gələn gəlirlərin bütövlükdə gəlirlər strukturunda payının 50%-dən 60%-ə qalxması gözlənilir. İqtisadi İnkişaf Nazirliyinin məlumatlan əsasında tərtib edilmiş 2.8JV9-1İ cədvəldə ÜDM-un sahə strukturu verilib.

*Cədval 2.8.*

ÜDM-un sahə strukturu (%-lə)

| ÜDM | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005(proqnoz) |
|---|---|---|---|---|---|---|
| **Cəmi** | **100** | **100** | **100** | **100** | **100** | **100** |
| **Sənaye** | **36,0** | **35,1** | **37.4** | **37.9** | **36.3** | **37.7** |
| **Kənd təsərrüfatı** | **15.9** | **15,8** | **14** | **13.1** | **12.6** | **12** |
| **Tikinti** | **6,5** | **6,2** | **8,7** | **12.1** | **15** | **13.3** |
| **Xidmət sahələri** | **41,5** | **42,8** | **39.9** | **36.9** | **36.1** | **37.1** |
| **O cümlədən** | | | | | | |
| **Ticarət** | **6,7** | **6,7** | **7.5** | **7.4** | **7.1** | **7.1** |
| **Nəqliyyat** | **9.6** | **9,6** | **7.8** | **7.3** | **6.9** | **6.9** |
| **Rabitə** | **3,4** | **2.5** | **2** | **2,2** | **2,3** | **2,4** |
| **Difçər sahələr** | **22,9** | **24,1** | **22.6** | **20.1** | **19.7** | **20,7** |

Regionlar üzrə əhalinin gəlirləri həmin regionlann coğrafi-iqtisadi şəraiti, onlann bazar şəraitində öz məhsullarım reallaş

dırmaq imkanları, ixracatyönlü məhsullann istehsalı, həmçinin sosial-iqtisadi və demoqrafik şərait infrastrukturun vəziyyətindən asılıdır. Regionların əhalisinin gəlirləri, həmin regionda sahibkarlığın quruluşundan və sahibkarlıq üçün ilkin şəraitdən, regiona verilən mərkəzləşdirilmiş dotasiya, kredit resurslarından asılı olaraq formalaşır. Regionun yerli resursları ərazidə olan iqtisadi imkanlar potensialını formalaşdırsa da, onun ərazi və sahələrarası bölgüsü nəticəsində əhalinin gəlirləri formalaşır. Həmin region xammal mənbəyi rolunu oynayırsa onun ancaq gəlirləri əmək haqqından və yerli resurslara verilən ödəmələr və renta gəlirləri ile məhdudlaşır. Ona görə də kompleks gəlirlərin artırılması əhalinin muzdlu və şəxsi gəlirlərinin artmasına səbəb ola bilər. Gəlirlərin regionda saxlanılması üçün həmin regionda yerli resurslardan istifadə edib daxili bazarı doldurmaq, yerli əhalinin tələbatını ödəmək və başqa respublikalardan gələn əhali üçün xidmət sferasını genişləndirməklə xüsusi gəlirləri artınnaq əsas amil olaraq regionda sahibkarlıqdan gələn gəlirlərin artırılması yoludur. Hər bir regionda son məhsul istehsal edib, onu digər region bazarlanna çıxarmaqla iş qüvvəsi kimi əhalinin əmək haqqı gəlirlərini və istehlak bazannda xərcləri azaltmaqla real gəlirləri daha da artırmaq olar. Regiondan əhali gəlirlərinin axınını azaltmaq üçün bazann kompleks təşkili və regionda istehsal olunan gəlirlərlə istehlak gəlirləri arasmda tarazlığı təmin etmək yolu ilə gəlirlərin axınının qarşısını almaq mümkün olur. Region əhalisinin gəliri demoqrafik proseslərdən və həmin regionda olan infrastrukturun təşkili fonnasından asılıdır.

Regionlann və erazilərin mülkiyyət münasibətləri mülkiyyətin idarə edilməsi və məşğuliyyət sferası hər bir ailə və fərdin gəlirlərini formalaşdınr. Ərazidə dövlət, xüsusi və bələdiyyə mülkiyyətinin inkişafı, onlar arasmda təsərrüfat əlaqələrinin ümumi və fərqli cəhətləri, gəlir və xərclərin qarşılıqlı əlaqəsini formalaşdırır. Bələdiyyələrin formalaşması, onun maliyyə əsaslan regionda sosial tələbatın ödənilməsinə ayrılan vəsaitləri təmin edir. Bu vəsaitlərə bələdiyyələrin büdcəsi, yerli gəlir və xərclərə mərkəzləşdirilmiş dövlət büdcəsi vasitəsi ilə ayrılan dotasiyalar, kreditlər daxildir. Yerli büdcə gəlirlərinin İstifadəsi

əhalinin gəlirlərini artmr.

Yerli büdcələrin gəlirləri və bölgüsü əhalinin gəlirlərinin formalaşmasında mühüm maliyyə mənbəyi rolunu oynayır. Yerli büdcələr yerlərdən tutulan vergilər, ödəmələr və dövlət büdcəsinin mərkəzləşdirilmiş xərcləri hesabına formalaşır. Yerli büdcələrin dövlət büdcəsindən aynlan vəsaiti həmin ərazidə yaşayan və sosial sferanın inkişafı və sosial müdafiə ehtiyacları olan in- sanlann sayına uyğun müəyyən edilir. Hər hansı ərazidə bələdiyyə (yerli) büdcəsi müəyyən mülkiyyət münasibətlərinə uyğun olaraq həmin regionun uyğun sosial proqramlannı həyata keçirmək üçün maliyyələşdirilir. Bələdiyyələrin maliyyə osaslannı fiziki şəxslərdən tutulan torpaq və əmlak vergisi, yerli tikinti materiallarından istifadəyə görə vergi, həmçinin yerli büdcələrə müxtəlif ödəmələr və birdəfəlik sosial proqramları həyata keçirmək üçün bələdiyyə qanunvericiliyinə uyğun tutulan vergilərdir.

Bələdiyyə büdcəsinin xərcləri, bələdiyyə xidməti və yerli sosial proqramların həyata keçirilməsi üçün lazım olan ehtiyacla- n ödəmək üçün planlaşdınlır və yığılır.

Region əhalisinin fərdi sabibkar fəaliyyəti ilə yanaşı dİgər sahibkarlann muzdlu əməkçisi kimi, yaxud müqavilə üzrə müəyyən edilən bütün gəlirlər onun ayn-ayn sosial-iqtisadi qruplarda differensiyasmı yaratsa da, maliyyə mənbəyi kimi sahibkarlıqdan gələn gəlir təsnifatı kimi qəbul oluna bilər. Əhalinin sahibkarlıq gəlirləri makroiqtisadi səviyyədə tarazlı maliyyə - kredit və vergi, pul dövriyyəsi proseslərini tənzimləmək üçün ölçülməsi və düzgün qiymətləndirilməsi baxımından vacib tədqiqat obyektidir. Əhali və sahə, erazi müəssisə fəaliyyəti arasında iqtisadi əlaqələrin meyar və göstəricilər sistemidir.

Sahibkarlığın inkişafına yönəldilən tədbirlərin sosial-iqtisadi nəticəsi olaraq gəlirlərin artınlması onun differensasiyasında amillərin qiymətləndirilməsi və proqnozlaşdınlması üçün istifadə olunmasına imkan verir. Gəlirlərin yaranmasında təsərrüfat fəaliyyətinin menecment əsaslan və həmçinin stimullaşdırma mexanizmlərinin elmi əsaslarla müəyyənləşdirilməsi sosial ədalət və düzgün bölgü prinsiplərini formalaşdınr.

Sahibkarlığın dinamikası, onun ərazi və sahə quruluşuna görə qütbləşme dinamikasını və onun səbəb-nəticə əlaqələrini müəyyənləşdirməyə imkan verir. Gəlirlərdə sahibkarlığın nəzərə alınması metodikası, respublikada ayn-ayrı sahibkarlıq fəaliyyətində əmək haqqı, sosial müdafiə tədbirlərinin maliyyə mexanizmləri ilə mümkündür.

### 2.3. Əhalinin pensiya gəlirləri və onun maliyyə təminatının qiymətləndirilməsi

Pensiya əhali gəlirlərinin tərkib hissəsi olub, onun strukturunda və dinamikasında, uyğun kontingentlərin konkret isteh- lak və xərc strukturunda öz xüsusiyyətlərini və təsirini göstərir. Pensiya gəlirlərinin formalaşmasında makroiqtisadi səviyyədə sosial müdafiə fondlarının tənzimlənməsi, pensiyaçılann həyat səviyyəsini yüksəltmək məqsədi ilə problemlərin həlli istiqamətində dəyişilməsi mikrosəviyyədə pensiya təminatmın səviyyəsi, onun differensasiyası, sosial qruplar və əmək fəaliyyətinin təkrar istehsalı üçün təkmilləşdirilməsi və xarakterinə, ünvanına və məqsədinə uyğun idarə edilməsi aspektlərini təhlil və proqnozlaşdırmağa imkan verir.

Pensiya təminatı pensiyaçıların sayından, ölkənin iqtisadiyyatının inkişafının artım tempindən yaşayış üçün lazım olan maddi və mənəvi nemətlərə ehtiyaclardan və iqtisadi durumun mövcud vəziyyəti və inkişaf dinamikasmdan asılı olaraq formalaşır və inkişaf edir. Onun gəlirlərin dinamikasında rolu, pensi- yaçılann ümumi sayı, hər bir pensiyaçı üçün mümkün pensiya təminatı əmtəə xidmət bazannda minimum istehlak büdcəsi ilə müəyyənləşir. Bu baxımdan bazar tipli pensiya islahatları modeli xarici təcrübə ilə yanaşı real faktorlar və imkanlar çərçivəsində həll edilir, uyğun islahatlar proqrarmnın işləmnəsinə gətirib çıxanr. Pensiya islahatlan, onun nəzəri-metodoloji əsasları olan konsepsiya və işlənmə metodikası əsas istiqamətləri ile müəyyənləşir. Azərbaycan Respublikasında pensiya islahatlannm konseptual əsasını, əhalinin əmək qabiliyyətini itirmiş, yaşına uyğun olaraq qanunvericiliklə ictimai əmək sferasından uzaqlaşmış

əhali qruplanmn rifahım saxlamaq, yaxud onların keçmiş əməyinin kəmiyyət və keyfiyyətinə görə hər qazanılmış manatın indi pensiya gəlirləri kimi «qiymətinə» uyğun maddi rifahını və yaşayış üçün lazım olan zəruri məhsullar ve xidmətlər ile təmin etməkdən ibarətdir.

Pensiya təminatı mövcud şəraitdə dövlətin funksiyası olub, onun hüquqi əsasları, ölçülmə mexanizmləri, qaydaları və uyğun olaraq təkmilləşdirmə istiqamətləri işlənir və daima yeni cəhətlərlə və tələblərə uyğun inkişaf etdirilir. Həyat dəyəri dəyişir, alıcılıq qabiliyyəti və əhalinin tələbatı, həmçinin istehsal və xidmət sahəsində ümumİ iqtisadi artım baş verdikdə mütəhərrik pensiya siyasəti formalaşır. Pensiya təminatının əsas amili pensiyaçıların sayı, onların orta aylıq pensiya təminatı və ÜDM- dan pensiya üçün aynlan ümumi vəsaitdən asılı olaraq hesablanır.

Azərbaycanda pensiyaçıların strukturu Azərbaycan Statistik Göstəriciləri əsasında hesablanmış 2.9JVç-li cədvəldə ifadə olunur [7; s.l36].

*Cədvəl 2.9.*

Pensiyaçılann sayı (ilin əvvəlinə, min nəfər)

| | 1994 | 1996 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|---|
| **Pensiyalar cəmi** | 1252 | 1227 | 1206 | 1177 | 1202 | 1209 | 1245 | 1285 |
| **0 cümlədən qocalığa göro** | 797 | 768 | 737 | 727 | 737 | 734 | 735 | 743 |
| **Əlilliyə görə** | 171 | 174 | 161 | 155 | 160 | 168 | 179 | 199 |
| **Ailə başçısını itirməyə gÖrə** | 157 | 147 | 160 | 148 | 139 | 137 | 136 | 136 |
| **Sosial pensiyalar və xidmət işlərinə görə** | 126 | 138 | 148 | 147 | 166 | 180 | 196 | 207 |

Sosial təminatın əsas növü kimi pensiya təminatına geniş yer verilir, onun gəlir mənbəyi kimi araşdırmalara əsasən qocalığa və əmək qabiliyyətini itirmiş insanlara, yaxud ailə başçısım itirən ailənin saxlamnası üçün pul ödəmələri forması kimi qəbul edilir. Ödəmələr keçmiş xidmətə və minimum təminata görə apanlır. Ödəmələr dövlət büdcəsinin və sosial ödəmələr hesa-

bina yaradılan sosial müdafiə fondları hesabına hoyata keçirilir.

Pensiya təminatı ödəmələr olsa da hüquqi bazası olan və gəlir mənbəyi kimi ailələrin birgə yaşayışı üçün istifadə olunan ailə büdcəsinin tərkib hissəsi olub, bütövlükdə əhali gəlirlərinin fonnalaşması və onun tələbata uyğun proqnozlaşdınİması aləti kimi istifadə olunur. Pensiya təminatı ünvanlı iqtisadi əsası olan differensasiyası, daima təkmilləşən sistemi və normativ bazası olan prinsiplər və qanunlar əsasında tənzimlənir. Ona görə də pensiya gəlirləri, ödəmə kimi yox, geniş istehlak baxımından ədalətli artım, stimul yaratmaq və ölkədə maliyyə-büdcə və sosial müdafiə məqsədlərini həyata keçirmək üçün qanunvericiliklə tənzim olunan, normativ-hüquqi ve maliyyə sisteminin tərkib hissəsidir. Onun makroiqtisadi tənzimləmə, büdcə idarəçiliyi, sosial və həyat səviyyəsinin, yoxsulluğun ləğvi kİmi problemlərin öyrənilməsində spesifik xüsusiyyətləri özünəməxsus təhlil və proqnoz metodologiyası tələb edir. Respublikarmzda pensiya təminatı, onun hüquqi, təşkilati, iqtisadi əsasları hesablanma qay- dalan və verilmə mexanizmlərini tənzimləmək üçün «Vətən- daşlann pensiya təminatı haqqında» Azərbaycan Respublikasının Qanunu və hər il Milli Məclis tərəfindən təsdiq olunan Azərbaycan Respublikası Sosial Müdafiə Fondunun, Dövlət Büdcəsinin təsdiqində özünün məbləğini və formalaşma mənbələrini əks etdirir.

Pensiya gəlirlərinin minimal səviyyəsi, orta aylıq və maksimal pensiya məbləği hər bir ölkədə özünəməxsus iqtisadi artım və əhalinin həyat səviyyəsinin mövcud vəziyyətim, əmək haqqı səviyyəsini nəzərə almaqla tənzimlənir. Pensiya gəlirlərinin funksional vəzifəsi ölkə iqtisadiyyatının artımı ilə yanaşı, həmçinin bu günkü əmək prosesində pensiya təminatma stimul yaratmaq məqsədilə onun daima təkmilləşdirilməsi, əmək məsrəfləri və əmək haqqı ilə yaşayış minimumu hədləri arasında optimal nisbətlərin təmin edilməsidir.

Minimal pensiya yaşayış üçün lazım olan minimum maddi və mənəvi nemətlərin həcmi ile ölçülür. Pensİyaçılann normal yaşaması üçün minimum istehlak büdcəsi, təbii ki, əmək qabiliyyətli insanların yaşayış minimumu ilə eyniləşdirilmir. Amma

**minimum pensiya ilə minimum əmək haqqmm orta aylıq məbləği ilə iqtisadiyyat üzrə orta ayhq əmək haqqı arasında müəyyən nisbətlərin və daima artan istiqamətlərdə tənzimlənən prinsiplər əsasında təyin edilən pensiyalar tətbiq olunmalıdır. Azərbaycan Respublikasında minimum pensiya səviyyəsi 2004- cü ilde 125 min manatdır. 1 avqust 1998-ci ilə qədər Azərbaycan Respublikasında minimum pensiyanın məbləği orta aylıq və maksimal pensiyalannm hesablanması üçün istifadə olunurdu, Respublikada minimum əmək haqqının aşağı olması, onun hesab nöqtəsi kimi qanunvericilikdə və gəlir siyasətində istifadə olunması pensiya hesablarında tarazlığı və dinamizmi xeyli zəiflətmişdir və pensiya təminatı sistemində baş verən dinamik və makroiqtisadi tarazlıq nəzərə alınmırdı. Bu da makroiqtisadi artım və stabilləşmə ilə mikrosəviyyəli islahatların ziddiyyətinə gətirib çıxarırdı. Bu da pensiyaçıların pul gəlirlərinin artımı üçün əsas yaratmırdı və pensiyaçılann həyat səviyyəsi, onlann gəlirləri, iqtisadiyyatda baş vcıən orta aylıq və gəlir səviyyəsindən geri qalmaqda davam edirdi. 1998-ci ildə pensiyalann hesablanması üçün Azərbaycan Respublikasıma hökümətinin təsdiq etdiyi orta aylıq əmək haqqı əsas götürülürdü. Pensiya məbləğinin, pensiyaya çıxmaq üçün hüquqların düzgün nəzərə alınmaması son nəticədə pensiya sistemində maliyyə sabitliyinin pozulmasına gətirib çıxara bilir.**

**Azerbaycan Respublikası qanunvericiliyində pensiyaların minimum emək haqqına bağlanması 1998-ci üdə yeni dəyişikliklə orta aylıq əmək haqqı ilə əvəz olundu. Bu da pensiya təminatında həm məbləğin, həm də ayrı-ayn pensiya növlərinin ciddi artımına səbəb oldu. 1998-ci il pensiyalann yeni hesablanması mexanizminin tətbiqi nəticəsində şəhid ailələrinin, müharibə əlillərinin, qaçqın ve məcburi köçkünlərin pensiyalannm məbləği 2 dəfədən çox artnuş və bu məqsədlə büdcədən 170 mlrd manat vəsait sərf olunmuşdur [36; s. 31].**

**Pensiya təminatı gəlir mənbəyi olaraq pensiyaçılann sosial-iqtisadi vəziyyəti onlann pensiyaya çıxmaq statusuna uyğun sistemləşdirilir. Bu sistem pensiyamn gəlir mənbəyi olaraq məqsədini, onun kontingenlərinin sosial-iqtisadi amillərini, pensiya**

gəlirlərinin uyğun kontingent və məqsədlər üçün seçilməsi və tətbiqi mexanizmini və onun dinamik inkişaf mexanizmlərini təmin edən hesablanma və proqnozlaşdırma qaydalarını özündə vəhdət və üzvü əlaqədə birləşdirir. Uyğun olaraq İdarəetmə məqsədi və mexanizmləri formalaşır, onun regional, fiınksional vəzifələri meydana çıxır. Əsas istiqamət olaraq sosial pensiyalar və əmək pensiyaları arasında nisbətlər, onlann qarşılıqlı əlaqəsinə təsir edən ümumi cəhətlər və spesifik xüsusiyyətlər elmi əsaslarla və yaşayış tələbatı ilə uyğunlaşır. Minimal pensiya səviyyəsi bütün kateqoriyalar üçün sosial pensiya flınksiyasmı oynayır və dövlət büdcəsi vasitəsi ilə maliyyələşdirilir. Sosial pensiyalar dövlətin öhdəlikliyi kİmi cəmiyyətdə yaşayan sosial qrupların təsnifatına uyğun olaraq dövlət üçün «maliyyə yükü» ^nksiyasmı oynayır. Əmək pensiyalarını isə iki hissədən ibarət olduğunu təsəvvür edib, onun tənzimlənməsini təşkil etmək olar. Pensiyanın bir hissəsi onun sosial təminatı kimi dövlətin vəzifəsi olaraq maliyyələşdirilir, digər hissəsi isə onun əmək haqqı qazancının məbləğindən aslılı olaraq uyğun sosial ödəmələrə mütənasib olaraq differensial qaydada hər bir fərdi pensiyaçının sosial pensiya məbləğinə daxil olunmalıdır. Sosial pensiyaların məbləği müəyyən məhdudiyyətlərlə, iqtisadi inkişafla bağlı olub, ümumi qanunauyğunluqla tələb və təklif prinsipinə uyğun olaraq inkişaf edir və dövlət tərəfindən tənzimlənir. Digər gəlir hissəsi fərdi fəaliyyət, yaxud bazarda əməyin qiymətindən asılı olaraq dəyişir. Pensiyalann orta aylıq əmək haqqı və məcmu gəlirlərlə müqayisəsi üçün pensiyalann orta məbləğinin dinamİkasma Azərbaycan Statistik Göstəriciləri əsasında tərtib olunmuş 2.I0JV9-1İ cədvəldə baxmaq olar [7; **S.203].**

Pensiya təminatı sistemi dünyada iki əsas prinsiplə İnkişaf edir. «Yığım» və «həmrəylik» prinsiplərinə əsaslanan pensiya sistemləri hər bİr ölkədə onun digər sahələri ilə bağlı olaraq müəyyənləşir. Yığım sisteminə keçirilməsi üçün fərdi uçot sistemi, inkişaf etmiş bank və sığorta uçotu daha mütərəqqi və çevik texnologiyalar üzərində qurulmalıdır. Həmrəylik prinsipi keçmiş SSRİ respublikalannda, o cümlədən Azərbaycanda həya

ta keçirilir.

Cədvəl 2.J0.

## Teyin olunmuş aylıq pensiyalann orta məbləği
## (ilin əvvəlinə, manatla)

| Pensiyaların forması | 1994 | 1996 | 1999 | 2000 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|---|
| Pensiyalann orta mebləgi | 1Ş26 | 17314 | 52574 | 64968 | 73705 | 88493 | 119111 |
| 0 cümlədən | | | | | | | |
| Qocalığa gönə | 1956 | 19201 | 61510 | 73049 | 80047 | 92877 | 123959 |
| Əlilliyə görə | 1824 | 16139 | 51721 | 67481 | 75026 | 10120 | [illegible] |
| Ailə başçısının itirilməsinə görə | 1457 | 13227 | 27134 | 38384 | 53850 | 73715 | 104948 |
| Sosial pensiyalar və xidmət illərinə gOTə | 1175 | 10038 | 31525 | 45992 | 60345 | 66791 | 93483 |

Pensiya gəlirləri tsiklik proses olub müəyyən vəsaitin məqsədli xərclənməsi və birbaşa sosial sifariş üçün yığılması qayda- lannt və ardıcıllığın sistemli-məntiqİ bağlanması metodoloji vo metodik tədbirlərin məcmuu kimi tərtib olunur. Mərhələ-mərhələ həyata keçirilən xərc - gəlir -xərc tsiklik prosesinin məqsədləri, obyektləri, ve subyektləri ümumi və fərqli olsalar da vahid məqsəd və prinsip Ü2rə eyniləşir. Bu vahid məqsədin yerinə yetirilməsində xərc subyektləri, büdcə sahibləri, mülkiyyətçilər, təsisçilər, Ödəyiciler və istehlakçılar vəzifə bölgüsünə uyğun olaraq təsnifləşdirilir. Sxematik olaraq bu ardıcıllığı və vəzifə bölgüsünü aşağıdakı kimi təsvir etmək olar.

Makrtisəviyyə

Xərclər




lil £ ® (D fA ■O 3 O S a| #1

Mibosəviyyə

XƏRCLƏR

Pensiya

İstehsal xərcləri

AlLƏ GƏLİRLƏRİ

1

Maddi-mənəvi nemətlər

Fərdi xərcbr

Yığım xərcləri

*Sxem 2.2.* Pensiya golirlerinİn maliyyə subyektləri vo mənbələri ilə əlaqəsi.

Sxemdən göründüyü kimi xərclər və gəlirlər tsiklik olaraq bir subyekt müstəvisindən diger subyekt müstəvisinə keçməklə yeni məna yükü və obyektləri özündə birləşdirməklə yeni məqsədlər və məna yükü ilə reallaşır. Əgər birinci mərhələdə xərclər təsərrüfat subyektləri, hüquqi və fiziki şəxslərin xərcləri hesabına digər subyektin və dövlətin gəlirləri formalaşırsa, o başqa xərc strukturunda və uyğun olaraq digər subyektin gəlir müstəvisində özünün yeni məzmununa uyğun çıxış edir.

Birinci mərhələdə hüquqi və fiziki şəxslərin sosial ödəmələri, yaxud məcburi sosial sığorta ödəmələri vasitəsilə ilə sosial müdafiə məqsədləri üçün xərclərin normativləri müəyyən edilir. Belə ki, bugünkü əmək haqqı fondu sosial Ödəmələr normativinə uyğun pensiya təminatı üçün fondlar yaradır. Fərdİ gəlirlərin xərclənməsi hesabına gələcək pensiya gəlirlərinin məbləği müəyyən edilə bilər. Dövlət büdcəsinin gəlirlərində yığılan vəsaitlərin pensiya təminatı üçün və digər obyektlərin pensiya

xərcləri üçün ayrılması baş verir və əhali gəlirləri fonnalaşır. Əhali gəlirlərində pensiya məbləği bütövlükdə və ailələr üzrə differensiallaşmış nisbətlər kəsb edir.

Pensiya gəlirlərinin hesablanma metodikası yaşayış minimumu və orta aylıq əmək haqqını nəzərə almaqla daima təkmilləşdirilir, Orta aylıq əmək haqqı səviyyəsinin artımına görə pensiyanın artımının tənzimlənməsi, onların həyat səviyyəsinin yüksəldilməsi üçün baza yaradır. Ona görə də pensiyanın gəlir monboyi kimi özünün təhlil metodikası və proqnozu, onun təkmilləşdirmə istiqamətlərini müəyyən edir. Belə ki, pensiyanın gəlir mənbəyi kimi differensasiyası ayrı-ayn pensiyaçıların həyat səviyyəsində olan fərqləri doğurur. Bu fərqlər möcvud əmək fərqləri ilə uzlaşırsa, onda hər bir pensiyaçının keçmiş əmək haqqının differensasiyası nəzərə alınmır. Ona görə də keçmişdə formalaşmış əmək haqqı differensasiyası, mövcud pensiya gəlirlərinin differensasiyasmda özünü əks etdinnir. Bu gün Azərbaycan reallığında pensiya təminatının səviyyəsində baş verən differensasiyanın əmək haqqı, yaxud bütövlükdə pensiyaçıların gəlirləri arasında differesasiyaya uyğun gəlmədiyini görürük. Bu təhlil metodikası, gəlirlərin və əmək haqqının hesablanması, forma və bazar tipli stimullaşdırma amillərinin pensiya gəlirlərinin təyin olunma və verilmə qaydasında adekvat nəzərə alınmaması ilə izah oluna bilər. Pensiyaların verilməsində gəlirlərin məcmu və onların uçotu dəqiqliklə nəzərə alınmır. Ona görə də makrosəviyyədə əhali gəlirlərinin artım tempi pensiya gəlirlərinin artım tempini üstəliyir və onun differensasiyası pensiya diffe- rensasiyasını təmin etmir. Pensiya islahatlarında iqtisadi və elmi əsaslardan fərqli olaraq daha çox fərmanlar rol oynayır. Sosial müdafiə məqsədi üçün toplanan maliyyə mənbələrinin rolu daha passiv xarakter alır. Bu gün Azərbaycan reallığında minimal pensiya səviyyəsi ilə orta aylıq pensiya səviyyəsində əhali differen- s iy ası 1:1,2 olduğu halda minimal əmək haqqı ilə orta aylıq əmək haqqı arasında nisbət l:12-yədir. Minimum pensiya ilə maksimal pensiya arasında nisbət 1:3 olub əmək haqqının dif- ferensiyasından kəskin fərqlənir. Əmək haqqının son həddində məhdudiyyət yoxdur və əmək haqqının formaları, onun mexa-

ıiizmi bazar islahatlarına uyğun dəyişir, amma pensiya təminatı yığılan büdcə vəsaiti və emək haqqı fondunun məbləğindən ayımıalann ümumi həcmi ilə ölçülür. Pensiya səviyyəsinin dinamikası, onun orta aylıq əmək haqqına və yaşayış minimumuna olan nisbəti pensiya təminatında mövcud proporsiyalan və vəziyyəti izah edir. Yaşayış minimumu səviyyəsi yoxsulluq proqramına uyğun olaraq 120000 manat qəbul edilmişdir [48].

Pensiya səviyyəsinin orta aylıq əmək haqqına və yaşayış minimumuna olan nisbəti müəllif tərəfindən statistik göstəricilər əsasında tərtib edilmişdir.

***Cadval 2.11.***

Pensiya səviyyəsinin orta aylıq əmək haqqına və yaşayış minimumuna olan nisbəti

| | 1995 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|---|
| **Orta aylıq nominal pensiya** | **17,3** | **41,5** | **52,6** | **65** | **72** | **73,7** | **88,4** | **119.1** |
| **Orta aylıq nominal əmək haqqı (min manat)** | **62,4** | **141,6** | **168,4** | **184** | **205,1** | **260** | **315,2** | **383.1** |
| **Orta aylıq pensiyanın orta aylıq əmək haqqma olan nisbəti** | **0,3** | **0,3** | **0,3** | **0,4** | **0.4** | **0,3** | **0.3** | **0.3** |
| **Orta aylıq pensiyanın artım tempi** | | **1.6** | **1,3** | **1,2** | **U** | **1,0** | **1.2** | **1.4** |
| **Orta aylıq nominal əmək haqqının artım tempi** | | **1,6** | **1,2** | **1,1** | **1,1** | **1,3** | **1,2** | **1.2** |
| **Orta aylıq nominal pensiyanın artım tempinin orta aylıq nominal əmək haqqının artım tempinə nisbəti** | | **ı.o** | **1,1** | **U** | **1.0** | **0,8** | **1.0** | **1.2** |

Pensiyaçıların pensiya səviyyəsinə görə paylanması oniann əsas gəlirləri olan pensiya səviyyəsinin differensasiyasını və həmin pensiyaçıların heyat səviyyəsini göstərir. Pensiyaçıların yaşayış səviyyəsi, onların pensiya səviyyəsi və digər yenidən

bölgü ilə əldə olunan gəlirlər hesabına formalaşır. Müasir şəraitdə pensiyanın orta aylıq səviyyəsi, onun tələbatına uyğun olmadığı və yaşayış minimumu üçün kifayət etmədiyinə görə pensiyaçılann fərdi təsərrüfatda məşğulluğu və yaxud muzdlu əmək fəaliyyəti ilə məşğul olmaları zəruri olaraq meydana çıxır. O cümlədən pensiyaçıların əmək bazarında potensial iş qüvvəsi təklifi kimi İştirak etməsi, əmək haqqının aşağı salınmasına və pensiya fondunun formalaşmasında əmək haqqının azalması ilə müşahidə olunur. Pensiyaçılann pensiya səviyyəsinə görə paylanması, onlann gəlirlərinin səviyyəsinə görə paylanması kimi qəbul oluna bilər. Azərbaycanda iş yerlərinin az olması, ancaq müəyyən peşələr üzrə pensiyaçılann İşlə təmin olunmasına imkan verir. Torpaq islahatı nəticəsində pensiyaların fərdi sahibkarlıqla fəaliyyəti, onlann gəlirlərinin formalaşmasında natural gəlirlərin və fərdi təsərrüfatdan alınan məhsulların satışından əldə olunan pul gəlirlərini artırır. Bu da gəlirlərin pensiyanın transformasiyası modeli kimi yeni paylanma dinamikasını formalaşdırır. Pensiyalann paylanmasında pensiyaçıların məcmu gəlir modelinə transofimasiyası onun paramerləri arasında əlaqənin funksional asılılığı, yaxud statistik əmsallan ilə müm- l^ndür. Pensiyalann formalaşması əmək və sosial müdafiə üçün zəruri olan yaşayış vasitələrindən asılı olsa da, ailə büdcəsinin mənbələri isehlakı, o cümlədən pensiyaçıların real İstehlakını formalaşdmr. Pensiyaçılann sayı, onun ev təsərrüfatında məşğulluğu, pensiyanın miqdarı ev təsərrüfatında təminat səviyyəsini formalaşdırır.

Əhalinin yaş quruluşu, məskunlaşması və onun ailəsinin gəlirlərinin digər mənbələri pensiyaçılann İstchlak davranışını, onun təminatının maliyyə mənbələrini və sosial müdafiə tədbirlərini əsaslandarmağa imkan verir. Ev təsərrüfatları üzrə gəlirlərin quruluşu ayrı-ayn sosial-demoqrafık tərkiblə bağlı olub, maliyyə mənbələrini formalaşdırır. Ev təsərrüfatı gəlirlərinin qıını- luşu Azərbaycamn Statistik Göstəriciləri əsasında tərtib olunmuş 2.12Xe-li cədvəldə verilmişdir [7; s.138].

Pensiya ilə gəlirlərin arasında transfonnasiya modeli pensiyaçı ailələrin gəlirlərinin formalaşmasında mənboələr üzrə

ayrı-ayrı gəlirlər arasında nisbət dəyişmələri əsas götürülür. Pensiyaçıların gəlirlərinin 80-100%-ni pensiyalar, sahibkarlıqdan, yaxud muzdlu işlə məşğuliyyətdən olan gəlir və işləməyən pensiyaçılann digər ailə üzvlərindən verilən yardımlar, yaxud maliyyə və maddi köməklər əsas rol oynayır.

Cədvəl 2. }2.

2003-cü ildə ev təsərrüfatında gəlirlərin quruluşu

| | Ölkə üzrə cəmi | Şəhər yerləri | Kənd yerləri |
|---|---|---|---|
| **Gəlirlər cəmi** | **100** | **100** | **100** |
| **Məşğulluqdan gəlirlər** | **30.5** | **40,0** | **17,4** |
| **Üzü məşğulluqdan gəlirlər** | **22.8** | **25,5** | **19.1** |
| **K-ənd təsərrüfatından gəlirlər** | **15.5** | **3,4** | **31.2** |
| **İcarədən gəlirlər** | **1.6** | **2,0** | **1.0** |
| **Əmlakdar gəlirlər** | **0,3** | **0,4** | **0,2** |
| **Alınmış cari transfertlər** | **11,6** | **10.3** | **13.3** |
| **Pensiyalar** | **9.1** | **8.5** | **9,9** |
| **Müavinətlər və sosial yardımlar** | **1,8** | **1,2** | **2.6** |
| **Naturada sosial transfertlər** | **0.7** | **0.6** | **0,8** |
| **Digər gəlirlər** | **17,8** | **17,8** | **17,7** |
| **Digər mənbələrdən aimmış gəlirlər** | **14.0** | **13.8** | **14.3** |

Pensiyaçı ailələr digər ailələrlə birlikdə yaşayır. Azərbaycanda milli ənənəyə görə yüksək təminatlı ailələr pensiyaya çıxdıqdan sonra da ailə strukturu saxlanılır. Həmin ailənin istehlak büdcəsində, digər ailə üzvlərinin yüksək əmək haqqı alması, yaxud digər gəlirləri ilə bağlı olaraq ailə gəlirlərinin azalması halı baş verir. Ancaq kimsəsiz qocalığa görə pensiyaya çıxmış ailələrin gəlir səviyyəsində pensiya yaşında ciddİ problemlər baş verİr. Tədqiqat və müşahidələr göstərir ki, pensiyaya qədər yaşayış tərzinin yuxan olması, əmlak və pul yığımına sahib olmuş pensiyaçılar üçün bazar iqtisadiyyatı şəratində yaşayış səviyyəsində ciddi dəyişikliklər baş vermir. Belə ki, əmanət banklarında saxa- lanılan pulların dayanıqlı təminatı varsa, onda alınan faizlər və dividentlər gəlirlərin pensiya yaşına qədər olan səviyyəsini təmin edə bilər. Beləliklə, bank sistemi və maliyyə sisteminin təş

kili, təminatlığı və bank faizinin tələb və təklifdən asılı olaraq dəyişmə dinamikası pensiyaçılann gəlirlərinə təsir edən amillər kimi üstünlük təşkil edir. Respublikada əhalinin əmanətlərinin dinamikası, onun motivi, məbləği və pulun miqdarma olan tələb və təklif perspektivində pensiyaçıların gəlirlərinin struktur modelini formalaşdırır. Çünki yaşayış minimumu baxımından bu günkü pensiya səviyyəsi hər bir fərdin və ailənin istehlak büdcəsinə nisbətən kifayət deyildir. Pensiya tamlıqda yaşayış təminatı funksiyasını yerinə yetirir. Pensiyanın bugünkü artım dinamikası, ÜDM-un, dövlət büdcəsinin və adam başına düşən gəlir səviyyəsinin artımından geri qalır.

Pensiya məbləğləri qocalığa, əlilliyə, ailə başçısının İtirilməsinə və sosial pensiya olmasından asılı olaraq fərqlənmirlər. Göstərilən bu pensiya növlərinin məbləği orta aylıq pensiya məbləğinə yaxındırsa, orta aylıq əmək haqqı və yaşayış minimumu nisbətindən, sosial pensiya yaşayış minimumuna nisbətən 2,5 dəfədən çox geridə qalır. Bu pensiyaların orta aylıq əmək haqqına olan nisbəti 17,9% yaşayış minimumuna nisbətən isə 8,6% təşkil edir. Pensiyaçıların sosial müdafiəsinin əsas problemi pensiya məbləğinin yaşayış seyiyyəsinə qaldınıması təşkil edir. Pensiyaçıların həyat səviyyəsi, həmçinin mövcud sosal müdafiə və iqtisadi vəziyyətindən asılı olaraq formalaşır və inkişaf edir. Respublikada sosializm şəraitində pensiya təminatı və güzəştlər sistemi minimum əmək haqqı və ölkənin sosial məqsədləri baxımından tənzimlənirdi. Bazar iqtisadiyyatı şəraitində təminat sistemi sosial müdafiə, sığorta və birbaşa ödəmələr yolu ilə pensiyaçılann gəlirlərinin stimullaşdınıması heyata keçirilir.

1 iyun 1994-cü il metodikasına görə pensiyalann artınıması minimum əmək haqqının məbləğinə görə hesablanırdı, pensiyaçılann növünə görə minimum əmək haqqımn 50-100%-nə qədər əlavələr edilirdi. 1 iyun 1998-ci il təlimatına uyğun olaraq pensiyalann artınlmasma əlavələr minimum pensiyadan başlayaraq 20-50% arasında artırılırdı. Sosial tendensiyalann artımı 1998-ci ildən minimal pensiyaya görə hesablanan ailə başçısını itinnəyə görə, yaşa görə minimum pensiyanın 8-%, I qrup əlilliyə görə 100%-dən, II qnıp xəstəliyə görə 80%, 16 yaşına çatmış əlil

uşaqlara göro 100%, III qrup əlilliyə görə uyğun olaraq yaşa göro mmimum pensiyanın 50%-ə qədər artırılıb. Pensiya gəlirlərinin artımında minimum səviyyənin əsas götürülməsi, onun pensiya növü üzrə differensİyasım və orta aylıq maksimal pensiyanın gəlir mənbəyi kimi əsas istiqamətlərini müəyyən edir.

Pensiya islahatlarının səmərəsi hər bir pensiya növünün artımındakı prinsiplər və məqsədlərin səmərəli icrası zamanı əldə olunan nəticələrlə ölçülür. Bu baxımdan pensiya təminatı kompleks iqtisadi və sosial göstəricilərlə vəhdətdə və qarşılıqlı əlaqədə təhlil olunur və proqnozlaşdınlır (Cədvəl 2.13).

Cədvəldən göründüyü kimi, pensiya artımında olan surət 2003-cü ildə 19.5% təşkil etdiyi halda 2002-ci ildə 11.3% təşkil etmiş, 2001-ci ildə isə 8.3% olmuşdur. Əhalinin pul gəlirləri isə 2000-ci ildən daima olaraq 7,3%, 8,0%, 12,3 və 14,8% artmışdır. Orta aylıq pensiya səviyyəsi adam başına 2003-cü ildə 119.1 min manat təşkil etdiyi halda əhalinin hər nəfərinə düşən pul gəlirləri 2983.4 min manat təşkil edir.

Beləliklə, adam başına düşən gəlİr səviyyəsi ilə orta aylıq pensiya səviyyəsi arasında nisbət 2,5:1 olduğunu göstərir. Beləliklə, orta aylıq pensiya səviyyəsi ilə orta aylıq hər nəfərə düşən gəlir arasında fərqlərin böyük olması, digər mənbələrdən gəliri olmayan pensiyaçılann həyat səviyyəsindən aşağı olmasını göstərir. Beləliklə, pensiya islahatlarının hələ də respublikada baş verən artım tempi ümumi iqtisadi göstəricilərdən geri qalmasını göstərir (cədvəl 2.13).

Orta aylıq pensiyanın orta aylıq əmək haqqına nisbəti mövcud disproporsiyamn və əmək haqqı ilə pensiya arasında bir başa əlaqənin hələ ki, təmin olunmadığım sübut edir. Belə ki, 2003- cü ildə orta aylıq pensiya səviyyəsi 119.1 mİn manat təşkil etdiyi halda orta aylıq əmək haqqı 387 min manat, yaxud 3,3 dəfə az, dövlət sektorunda işləyənlərin əmək haqqına nisbətin orta aylıq pensiya səviyyəsi 2,1 dəfə (119.1 min manata qarşı 252.6 min manat), qeyri-dövlət sektorunda isə uyğun olaraq 5.9 dəfə (119.1 min manata qarşı 696.4 min manat) azlıq təşkil edir.

Beləliklə, qeyri-dövlət sektorunda əmək haqqının artımı ilə pensiya təminatı arasında nisbətlərin uyğun olmaması, fərdi is

tehsal sahəsindo pensiyalann cəlb olunan hissəsinin uçotunun düzgün olmaması ilə bağlıdır. Ona görə də pensiya islahatlarında fərdi uçotun təşkili, əmək haqqı və gəlirlərin ümum İ meylləri və dinamikasına uyğun olaraq tənzimləmənin həyata keçirilməsi təkmilləşdirmə istiqamətləri olaraq qalır,

*Cədvəl 2.13.*

Həyat səviyyəsi göstəricilərinin proqnozu

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| **Əhalinin sərəncamında qalan real pul ı^əlirləri, mlrd.manat** | **16639,0 t** | **18111,0** | **20344,4** | **22794.7** |
| **Artım, %** | **107,3** | **108,0** | **117.6** | **119.1** |
| **Əhalinin hər nəfərinə düşən nominal pul gəlirləri, min manat** | **2172,6** | **2179,0** | **2679,0** | **2983,4** |
| **Artım, %** | **108,0** | **107,3** | **121,1** | **113,2** |
| **Əhalinin hər nəfərinə düşən pul xərcləri və əmanətləri, min manat** | **2146,7** | **2330,0** | **2517,5** | **2940** |
| **Artım, %** | **107,8** | **109,0** | **108,0** | **112.7** |
| **O cümlədən** | | | | |
| **Malların alınması və xidmətlərin ödənilməsi, min manat** | **1599,2** | **1801, 0** | **1903,3** | **2198,7** |
| **Orla aylıq əmək haqqı, min manat** | **221,0** | **260,0** | **315.2** | **387** |
| **Artım ,%-lə** | **120,2** | **117,3** | **121.2** | **122.7** |
| **0 cümlədən** | | | | |
| **Dövlət sektorunda, min manat** | **192,4** | **211,5** | **215.3** | **256.2** |
| **Actım,%-lə** | **116,0** | **109,9** | **101.8** | **117,3** |
| **Ondan:** | | | | |
| **Büdcə təşkilatlarında, min manat** | **121,0** | **139,4** | **162,8** | **210,0** |
| **Artım,%-lə** | **120,0** | **115,2** | **116,8** | **129,0** |
| **Qeyri-dövlət sektorunda, min manat** | **418,0** | **586,5** | **581.9** | **696.4** |
| **Orta aylıq pensiya, min manat** | **71,9** | **73.7** | **88.4** | **119.1** |
| **Ar1ım,%-Iə** | **110,7** | **102,5** | **111.3** | **119,5** |

Mənbə: Cədvəl müəllif tərəfindən İqtisadi İnkişaf Nazirliyinin materialları əsasında hesablanmışdır.

Fərdi pensiya uçotu qaydaları hər bir fərdin uçotu hesabına, onun gəlirlərinə uyğun olaraq yıgım əmsalına mütənasib sosial pensiyadan fərqli sürüşkən şkala ilə əmsallar tətbiq olunur.

Pensiya islahatlarının uçotu, hər bir şəxsin pensiya təminatı dövründə həyat səviyyəsinin məhsuldar dövründəki həyat səviyyəsinə uyğunluğu tomİn edəcək və gəlirlərin bölgüsündə dövlətin sosial funksiyasının reallaşmasının mənbələrinin və gəlirlərinin artınimasına imkan verəcək.

Pensiya islahatlarınm həyata keçirilməsi dövlətin təminat vəzifələrini müəyyənləşdirəcək. Pensiyalann minimum səviyyəsinin yaşayış minimumuna ardıcıl yaxınlaşması üçün yollar və öhdəliklər hazırlana bilər. Yaşayış minimumu haqqında qanunun reallaşması pensiya, müavinət və sosial ödəmələrin təkmilləşdirilməsi üçün vacib metodoloji alətdir.

# FƏSİL III. ƏHALİ GƏLİRLƏRİNİN İDARƏ OLUNMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. Əhali gəlirləri və sosial təminat sisteminin formalaşması

**Ölkədə iqtisadi artım, bölgü va yenidən bölgü münasibətləri ən ali məqsəd olan əhalinin rifahı, sosial təminat və yoxsulluğun ləğvi üçün zəmin yaratmalı, onlann reallaşmasımn mexanizmi kimi çıxış etməlidir. Bölgü münasibətləri əhalinin gəlirlərinin dinamikasında, onun strukturunun mənbəə və formalar üzrə dəyişmə meyllərində, həmin əhalinin təminat səviyyəsinə görə differensasiyası göstəricilərində öz əksini tapır. Azərbaycan iqtisadiyyatında makroiqtisadi islahatlar və iqtisadi sabitlik meylləri sosial nəticələrini verməklə yanaşı, sosial islahatların özünün daxili problemlərinin həlli və islahatların gedişi, makrosəviyyəli islahatlarla müqayisədə geri qalır. Etiraf etməliyik ki, sosial islahatlann maddi maliyyə əsası makroiqtisadi islahatlann səmərəsi ilə müəyyən olunsa da# proqmatik tənzimləmə ve stimullaşdırma məqsədi ilə sosial islahatlann prioritetliyi, daha stabil və davamlı inkişaf üçün əsas rol oynaya bilər. Ona görə də tədqiqat və təkliflər obyekti olaraq əhalinin gəlirləri, minimal yaşayış səviyyəsi, əmək haqqı və sosial təminat üsullan iqtisadi elmi dövriyyə, qanunvericilik bazasının təkmilləşdirilməsinə və sosial islahatlann ^ancı meyan kimi qəbul edilməsinə ehtiyac vardır. Minimum əmək haqqı səviyyəsinin sosial təminat fimksiyası, əhali gəlirlərində təbəqələşmə səviyyəsi olan desil, kvantil, Cini əmsallan daima təhlil ve proqnozlaşdırma metodologiyasında tətbiqi parametrlər kimi istifadə olunmalıdır. Bu gün minimum əmək haqqı səviyyəsi, yoxsulluğun ləğvi proqramına uyğun hesablanmış, yoxsulluğun həddini müəyyən edən gəlir səviyyəsi göstəricisindən 4,4 dəfə aşağıdır. Yaxud yaşayış minimumu həddini Rusiyada olan səviyyə qədər götürsək (1585 rub) [110; s. 142-145], onda respublikada minimum əmək haqqı yaşayış minimumunun onda birini təşkil edir. Yoxsulluq həddi**

olan adam başına düşən gəlir səviyyəsi isə Rusiyadakı hesablanmış yaşayış minimumunun 50%-nə bərabərdir. Yaşayış minimumu insan orqanizminin nonnal fəaliyyəti üçün lazım olan zəruri məhsulların əldə olunmasında bazar qiymətlərinə uyğun olan pul vəsaiti ilə ölçülür. Təbii ki, onun hesablanması metodikası, həmin yaşayış minimumu üçün tərtib olunan istehlak səbətinə daxil olunan məhsullann miqdarı və onlann qiyməti ilə, habelə mövcud iqtisadi, təbii, coğrafi və istehlak davranışı parametrlərindən xeyli asılıdır.

Ona görə də müxtəlif metodiki xüsusiyyətlər, yanaşma qaydaları nisbi qiymətləndirmə üsüllan bu minimumun ölçülməsinə təsir edir.

Minimum əmək haqqı, orta aylıq əmək haqqının tənzimlənilməsi və sosial təminat məqsədi ilə pensiya təminatı və həmçinin transfert gəlirlərinin əsaslandın iması və təhlili üçün ilkin start məqamı ola bilir. Minimum yaşayış səviyyəsi dinamik dəyişən, iqtisadi və sosial inkişafın makroiqtisadi artımı ilə kəmiyyət və keyfiyyətcə dəyişən və bazar tipli tələb və təklif tarazlığından, bazann marketinq strukturundan asılı olaraq formalaşır. Bazar iqtisadiyyatının inkişafı və qütbləşmə diffe- rensasiyanm özünün formalaşmasına, yaxud əhalinin sosial təminatı problemlərini, dövlət siyasətinin prioritet istiqamətləri müstəvisinə gətirir. Bu problemin kəskinliyi, məhz planlı təsərrüfat sistemində yaşayan respublikalar üçün daha əhəmiyyətli və orta təminat səviyyəsinin formalaşması dövrünə qədər davam edə bilər.

İslahatlann səmərəsinin ölçülməsi fikrimizcə sosial müdafiə məqsədlərindən qiymətləndirilməli və proqnoz tədbirləri üçün sosial təminat sistemində baş verən müsbət meyllər, yaxud konkret differensiallaşmamn elmi əsaslanmn formalaşması ilə ölçülə bilir.

Bu baxımdan hesab edirik ki, minimal sosial zərurət istehlak səviyyəsi ilə müəyyən olunan yaşayış minimumunun səviyyəsi, öz dəyəri çərçivəsində minimal istehlak büdcəsini, onun formalaşması üçün zəruri olan əmək haqqının zəruri ödəmələri və yığımı nəzərə alsaq proqnozlaşdırılan və ölçülən meyllər kimi

**istifadə olunmalıdır.**

**Bu mövqedən hesab edirik ki, 2010-cu ildə minimum əmək haqqının səviyyəsinin orta aylıq əmək haqqının 1/3-i səviyyəsinə qaldınJması strateji məqsəd olaraq sosial təminatın iqtisadi islahatlann gedişinə fəal sosial siyasət mövqeyindən yanaşma demək olar. Sosial təminatın əsas mexanizmləri, ilkin platforma olan minimal emək haqqı, minimal pensiya və yaxud bir sıra sosial xarakterli müavinətlərin minimal istehlak büdcəsinə uyğun cari qiymətlərlə zəruri olan gəlirlərin formalaşması və siyasəti ilə ölçülür. Təbii ki, bu yanaşma bütün menbəələr hesabına dövlət gəlirlərinin artımı, onun bölgüsü və yenidən bölgüsündə aşkarlığın və ədalətli differensasiya və qütbləşmə şəraitinin yaradılması ilə bağlıdır.**

**Sosial təminatın respublikada strategiyası orta aylıq emək haqqının iqtisadi artımla tənzimlənməsi yolu ile reallaşır. Fikrimizcə, bu yanaşma qütbləşmədə az təminatlı ailələr üçün az səmərəli və yüksək təminatlı ailələr üçün daha faydalı metodologiyadır. Orta aylıq əmək haqqı və gəlir səviyyəsi ile tənzimləmə nəticəsində eyni ödəmələr, az təminatlı ailələrdə Öz nəticələrini daha ciddi qalıqlara firuzə verir.**

**Bu meyllərin praktikada reallaşması üçün yaşayış minimumunun qanunvericilikdə və təhlil, proqnoz və iqtisadi araşdırmalarda tətbiqi sahələri genişlənməlidir.**

**Sosial təminat səviyyəsindən başlayaraq minimal əmək haqqımn səviyyəsi, bütün sahibkarlıq fəaliyyətində əmək haqqının artınimasına stimul yaradacaq. Müəssisələr sosial təminat vəzifəsini həyata keçirən obyektlər kimİ xərcləri və gəlirləri üzərində uçot və səmərəli istifadə etmək üçün tənzimləmə siyasətini həyata keçirəcəklər.**

**Minimal əmək haqqımn iqtisadi idarəetmə və islahatlar proqramı müstəvisinə daxil olması əmək haqqı sistemində differensiallaşmanm bazar tipli modelini yaradacaq, müəssisələrin xərc strukturunda tarazlı nisbətləri tənzimləyəcək, ümumi daxili məhsulun artımını, onun istehsal və istehlak strukturu üzrə tarazlı inkişafım, həmçinin vergi tutulan bazanın ve dövlət gəlirlərinin həcmini və strukturunu təkmilləşdirəcək. Minimal emək haq**

qının uçotu, onun yüksəldilməsi ümumi daxili məhsulun artımı ilə kompensasiya olunacaq. Belə ki, əmək haqqı fondu kimi onun minimal səviyyəsi ümumi daxili məhsulun bölgüsündə təminat məbləği olaraq bütövlükdə təkrar istehsalın mərhələlərində öz əksini tapacaq.

Nəzəri cəhətdən demək olar ki, proqnoz dövründə, ali məqsəd kimi minimum əmək haqqı səviyyəsinin yaşayış minimumuna bərabər olması və ondan nisbətən yuxarı olması mümkün və normal haldır. Əgər respublikada yaşayış minimumunu yoxsulluq proqramına uyğun 120000 manat götürsək, minimal əmək haqqı səviyyəsinin ona nisbəti 2002-ci ildə 23%, 2003-cü ildə 38%, 2004-cü ildə isə 50% təşkil edir.

Sosial təminat funksiyası kimi minimal emək haqqının yüksəldilməsi və həmin minimumdan başlayaraq əmək haqqının sahə və faydalı fəaliyyətinin nəticəsi ilə əlaqəsinin təminatı sonrakı differensasiyanın əsası olmalıdır. Ona görə də əgər biz cini əmsalları ilə təhlil və proqnoz üsullanna üstünlük versək, onda orta aylıq əmək haqqı ətrafında differensiallaşmanın özünün mümkün qübtləşməsində orta vəziyyəti təsvir etmək olar. Bu əmsal daxili qütbləşraəni gizlətməklə, müqayisəli beynəlxalq təhlil aparmaq üçün mümkünlük yaradır. Məhz mexanizm baxımından daha əməlİ qərar qəbulu və dövlət himayəsi kimi qəti tədbirlər üçün əyani sübut meyan kimi qəbul edilə bilmir. Amma daxili qütbləşmə əmsalı kimi desi) əmsalları arasında nisbətlərin təhlili maddi nemətlərin və bazar təklifinin 10% az təminatlı ailənin əhatə dairəsini və mümkün istifadə səviyyəsi ilə 10% yuxarı təminatlı ailələr arasında nisbətləri müəyyən edir. Bu əmsal minimal əmək haqqı ilə minimal əmək haqqı alanların 10%-nin orta aylıq əmək haqqı nisbətləri kimi də qəbul edilə bilər.

Təhlil nəticəsində əsas meyllər kimi minimal əmək haqqının orta aylıq əmək haqqı səviyyəsinin artımına nisbətən üstün artması yolu ilə müəyyən differensiallaşma məqsədlərinə çatmaq olar. Əgər nəzərdə tutulsa ki, 2010-cu ildə minimal əmək haqqı ilə orta aylıq əmək haqqı arasında nisbətlərin əmsalı 301:3 nisbətində təyin olunsun, onda 2003-2010-cu illərdə orta illik

anım tempi 3 dəfəyə, 2005-ci ildən isə mütləq qİymətcə daha üstün artım olmalıdır.

2004-2005-ci illərdə minimal əmək haqqının artırılması meyli İlə onun orta aylıq əmək haqqının 30% səviyyəsinə qaİ- dınlması, yaşayış minimumunun səviyyəsinin minimal əmək haqqı səviyyəsinə və ondan 1,2 punkt yuxan təmin edilməsi konsepsiyasına müvafiq olaraq 2010-cu illərdə orta aylıq əmək haqqının 1,0 mln manata yüksəldilməsi nəzərdə tutulmalıdır.

Orta aylıq əmək haqqının 1,0 mln. manata yüksəldilməsi onun dİfferensasiyasının 1:3 nisbəti işləyənlərin sayının aşağı səviyyəli əmək haqqı səviyyəsindən yuxarı səviyyəli əmək haqqı səviyyəsinə keçməsi ilə, yaxud əmək haqqının özünün səviyyəsinin artımı ilə təmin oluna bilər. Təbii ki, rəqabət mühiti, sahibkarlığın inkişafı, əmək bazarında iş qüvvəsinə tələbatın artması məhz əmək haqqının yuxarı səviyyəsi olan hüquqi və fiziki şəxslərin ümumi sayının artırılması ilə müşahidə oluna bilər. Ev təsərrüfatının büdcə gəlirlərinin təhlili əmək gəlirlərinin dinamikasını müəyyən edİr. Pul gəlirlərinin quruluşu və əhalinin istehlak xərcləri Azerbaycan Statistik Göstəriciləri əsasında tərtib olunmuş 3.1JVg-li cədvəldə verilmişdir [7; s.l42].

Əgər 1990-cı illərdə iqtisadi sistemin sosial nəticələri ilə bazar iqtisadiyyatı şəraitində gəlirlərin struktur dinamikası perspektiv meyllərin hipotezini və mümkün variantlan əsaslandırmağa əsas verir. Belə ki, əmək haqqı gəlirləri xarakteri etibarı ilə üstünlük təşkil etməklə dövlət mülkiyyət formasından daha çox xüsusi təsərrüfat müstəvisino keçir, o cümlədən xüsusi təsərrüfat və muzdlu fəaliyyət növü üzrə gəlir forması daha üstün artır. Digər gəlir forması otaraq əhali arasında bölgü və yenidən bölgü, habelə uçota alınmayan və əmək haqqı cədvəlləri üzrə paylanmayan gəlirlərin olması son 10 ildə 37-40%-ə qədər xüsusi ço- kiyə malikdir. Əmək gəlirləri sahə və sosial qruplar üzrə diffe- rensial göstəricilər ilə müqayisə olunur. Sahələr üzrə gəlir səviyyəsi, fəaliyyət növü hər bir ailə gəlirlərində apancı sahə üzrə mənbəyi həmİn ailə üzvlərinin əsas məşğuliyyəti növü üzro təy- inedici rolunu oynayır.

*Cədvəl 3.J.*

Ev təsərrüfatının pul gəlirlərinin quruluşu ve əhalinin istehlak xərcləri (faizlə)

| | 1990 | 1995 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Gəlirlər** | **100** | **100** | **lÖO** | **100** | **100** | **100** | **100** | **100** | **100** |
| **O cümlədən** | | | | | | | | | |
| **Əmək gəlirləri** | **69,3** | **35,4** | **40,0** | **39,7** | **34,9** | **35,5** | **39,6** | **30,5** | **30,5** |
| **Sosial transfertler** | **12,7** | **6.1** | **7,7** | **7,6** | **7,5** | **7,8** | **9,0** | **11,1** | **11,6** |
| **Kənd təsərrüfatı məhsullarının, yellik, mal- qara və s. satışından Kəlir** | **7,5** | **16,6** | **13,2** | **14,8** | **16,7** | **18,3** | **33,4** | **15,4** | **15,5** |
| **Digər gəlirlər** | **10,5** | **41.9** | **39,1** | **37,9** | **40,9** | **38,4** | **18,0** | **43** | **42,4** |
| **Əhalinin İstehlak xərcləri** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100 •** | **100** | **100** |
| **Ərzağa** | **53,4** | **76,0** | **77,6** | ***JhL*** | **72,2** | **66,3** | **68,3** | **53,6** | **54,7** |
| **Qeyri-ərzaq mallarma** | **36,4** | **17,1** | **15,2** | **16,2** | **17,5** | **23,2** | **7\|1** | **16,9** | **15,8** |
| **Xidmətlərin ödənilməsinə** | **8,9** | **6,0** | **6,6** | **5,8** | **9.2** | **9,3** | **22,0** | **28,9** | **28,8** |
| **Alkoqollu içkilərə** | **1.3** | **0.9** | **0,6** | **0,9** | **1.1** | **1,2** | **2,6** | **0,6** | **0,7** |

Metodiki yanaşma baxımından xərc strukturu, onun dinamikası və proqnozu gəlirlərin ümumi həcmi, onun xarakteri və fonnaca mənbəələri üzrə keyfiyyət təhlili aparmağa imkan verir. Gəlirlərin artımı qiymətin dəyişməz şəraitində xərclərin ümumi artımına və onun strukturunda tələbatın ödənilmə dərəcəsi az olan məhsullara xərclənməsinə daha elastik təsİr edir. Tələbatın ödənilmə dərəcəsində prioritetlik əhalinin hər hansı məhsulla tələbatının ödənilməsi dərəcəsində daha çox zəruri ehtiyaclara üstünlük verilməsi ilə müəyyən olunur. Gəlirlərin aşağı səviyyəsi, ancaq ərzaq mehsullanna olan tələbatı ödəmək imkanlannı yaradır. Gəlirlərin sosial təminat üçün zəruri olan yaşayış minimumundan artıq hissəsi əhalinin istehlak davranışı, onun ailə tərkibi, məşğuliyyət səviyyəsi, təhsil, yaxud istehlak mədəniyyəti ilə bağlıdır. Dövlətin əhalinin təminat səviyyəsini tənzimləməsi məhz zəruri ehtiyaclar üçün lazım olan ərzaq və qeyri-ərzaq məhsullarının alınması üçün gəlir səviyyəsini təmin et

**məkdən ibarətdir. Ərzaq xərclərinin əhalinin xərc strukturunda yuxan olması, onun digər xərclərinin, o cümlədən qeyri-ərzaq və xidmət xərclərinin aşağı olmasına səbəb olur. Təbii ki, bu da gəlirlərin təyinatına görə fonnalaşması və istifadəsi arasında proporsiyalann pozulması ilə mümkünlüyü haqqında məlumat verir. Ev təsərrüfatlannm gəlirləri və xərclərinin strukturunda ərzaq xərclərinin nisbətən azalması meylinə baxmayaraq, respublikada onun səviyyəsinin 64-70% arasında dəyişməsi müşahidə olunur. Gəlirlərin xərclənməsinə ərzaq tələbatı Ödənildikcə onun doyma halı qərarlaşır və daha çox xidmət və qeyri-ərzaq xərcləri artır.**

**Əhali xərclərinin strukturunda pulsuz təhsil, səhiyyə və bir sıra transfert gəlirləri hər bir fərdin və ailənin xərc strukturunda özünün təsirini göstərir. Belə ki, xidmət xərcləri, dövlət büdcəsi ilə maliyyələşdirilən müəssisələrin hesabına baş verirsə, onda onlann daha çox ərzağa və qeyri-ərzaq xərclərinə imkanları artır. Sosial transfertlerin yüksəldilməsi pullu xidmət xərclərinin azalmasına gətirib çıxanr Xidmət xərcləri transfdrt gəlirlərinin artması hesabına artır ki, bunun da maliyyələşdirmə mənbəyi dövlət gəlirləri hesabına baş verir. Xidmətlərin ödənilməsi xərcləri əhalinin xərclərinin son İki ildə 22-29% -ni təşkil edir. Bunun yuxan xüsusi çəkisi həmin transfert gəlirlərin hesabına artır. Əgər 2001-ci ildə əhalinin transfert gəlirləri onun bütün gəlirlərinin 9,0%-ni təşkil edirsə, onun xidmət xərcləri 22,0% təşkil etməsi həmin xərclərin bilavasitə emək gəlirlərinin hesabına ödənilməsi ilə baş verdiyini sübut edir. Əhalinin əsas kütləsinin gəlirləri əsasən əmək gəlirlərindən və onlann artınıması istiqamətlərindən asılıdır. Muzdlu əmək, özü-özünə fərdi təsərrüfatda məşğulluq, sahibkarlıq fəaliyyəti əhali arasında yenidən bölgü münasibətlərini formalaşdınr. Əmək qabiliyyətli əhalinin dövlət sektorundan fərqli olaraq xüsusi sektora və sahibkarlıq fəaliyyətinin bütün növlərində, mülkiyyət münasibətlərindən asılı olmayaraq yerli və xarici müəssisələrin təşkili nəticəsində gəlirlərin xarakteri dəyişir. Əməyə görə gəlirlər daha çox bazar tələbinə uyğun məhsul istehsalı, yaxud xidmət növünün gəlirliyi səviyyəsindən asılı olaraq dəyişir.**

Mülkiyyətçilər firma sahibi kimi əmək haqqı fondunun əmək haqqı sisteminə uyğun hissəsini mənimsəyib özünün gəlir və xərclərini formalaşdırır.

Gəlirlərin formalaşması mənbələri əhalinin gəlirlərin səviyyəsinə görə paylanması qanunauyğunluqlarını yaradır. Az təminatlı, yəni adambaşına düşən gəlir səviyyəsi yaşayış minimumundan aşağı olan və gəlir səviyyəsi yaşayış minimumundan yuxarı olan əhalinin sayı arasında nisbətlər median və modam müəyyən edİr. Əhalinin gəlirlərinin səviyyəsinə görə təhlilinin keyfiyyət səviyyəsi ən az gəlirlərə malik əhalinin 10%-nin ən yuxan gəlirlə təmin olunan əhali qruplarının 10%-nin gəlirləri arasındakı nisbət desil əmsalı olaraq götürülüb, təhlil obyekti kimi qəbul olunur. Gəlirlərin bir qrup əhalinin əlində cəmləşməsi prosesi təbii ki, bu desil əmsalının artmasına səbəb olur. O cümlədən, «gizli» gəlir mənbəələri artdıqca, onlann yenidən bölgü sferasına cəlb edilməsinin imkanlan azaldıqca, dövlət xərcləri vasitəsi ilə formalaşan gəlirlər səviyyəsi ilə «gizli» iqtisadiyyat vasitəsilə formalaşan gəlirlər arasında fərqlər artır. Kapitalın az qrup əlində cəmləşməsi və əmək bazarında tələbin təklifdən aşağı olması gəlirlərin differensasiyasma təsir edən amillərin daha üstün rol oynaması meylini ləngidir və nəticədə differensial- laşma daha da dərinləşir.

Ona görə də gəlirlərin adam başına görə formalaşmasının transformasiya modeli ayn-ayn gəlirlərin immitasiya modelləşdirilməsi əsasında baş verir və proqnoz göstəricilər kəsb edir. Belə ki, hər sosİal qrup üçün gəlirlərin formalaşmasında nüvə rolunu oynayan gəlir növü immitasiya bazası kimi istifadə olunur. Əmək gəlirlərinin əsasını əmək haqqı və yaxud digər əmək gəlirləri, pensiyaçılar üçün əmək haqqının səviyyəsi və sosial müdafiə məqsədi üçün yaşayış minimumu əsas rol oynayır. Sahibkarlıq və digər biznes fəaliyyəti rəqabət mühiti şəraitində müəssisə gəlirlərinin miqdan və onların perspektivi ilə müəyyən olunur.

Transformasiya modelinə görə Azərbaycan Respublikasında mövcud statistik göstəriciləri və yoxsulluq həddini əlaqələndirməklə əhalinin gəlirlərin səviyyəsinə görə dinamikasını aşağıda

kı qanunauyğunluq kimi qəbul etmək olar (Qrafik 3.I.).

**Əhalinin sayı (%)**




**27,0 50 70,0 120,0 154,5 193,8 galirbr (min manat)**

*Qrafik 3.1.* Əhali gəlirlərinin məbləğinə görə paylanma funksiyası.

Minimum əmək haqqı səviyyəsini qaldırıb yaşayış minimumuna uyğun gəlirlər səviyyəsinə yüksəldilməsi differensasiya səviyyəsini azalda bilər. Belə ki, minimum gəlirlər səviyyəsi 70 min qəbul edilərsə, maksimal gəlir səviyyəsini 200 min qəbul edildikdə uyğun desil əmsalı 1:3 nisbətində qəbul oluna bilər. Fikrimizcə, məhz desil əmsalının 1:3 nisbəti ən optimal variant olmaqla həyat səviyyəsində obyektiv stimul yaratmaq və gəlirlərin aşkarlığı üçün əsas göstərici ola bilər. Adam başına düşən gəlir səviyyəsinin 200 min manat məbləği 5 nəfərdən ibarət ailənin mocmuu gəlirinin 1 mln. manata yüksəldilməsi deməkdir. Gəlirlərin aşkarlığı adam başına düşən makroiqtisadi göstəricilərlə ailə büdcəsinin tədqiqi zamanı formalaşan gəlirlər arasında fərqlərin aradan götürülməsinin metodikasını təkmilləşdirmək yolu ilə baş verir.

Ev təsərrüfatının sorğu vasitəsilə tədqiqinin məlumatlarına görə adam başına düşən pul gəlirləri 2001-cİ ildə 154,5 min manat təşkil etdiyi halda adam başına düşən pul gəlirləri makroiqtisadi səviyyədə 2475,4 manat təşkil edir. Büdcə statistikasının bütövlükdə əhali üçün identik' olması məqsədilə büdcə dinamikasından kənar göstəricilərə keçid modeli tərtib olunur. Ona görə də struktur üzrə transformasiya reallığa daha yaxındır.

*Cədvəl 3.2.*

2001- ci ildə ev təsərrüfatının pul gəlirlərinin müqayisəli təhlili

| Gəlirlər | Ev təsərrüfatmın adambaşına pul gəlirlərinin tərkibi | | Əhalinin adambaşına düşən pul gəlirlərinin tərkibi | |
|---|---|---|---|---|
| | Min manat | Faiz | Min manat | Faiz |
| Cəmi gəlirlər | 154,4 | 100 | 2475,4-452,3= =2023,1 | 100 |
| 0 cümlədən | | | | |
| Əmək gəlirləri | *61,2* | 39,6 | 409,9+26,7 | 21,6 |
| Sosial transfertler | 14,1 | 9,1 | 189,1 | 9,3 |
| Bütün növ satışdan gəlirlər | 51,6 | 33,4 | 1527,5+0,6 | 75,5 |
| Digər pul gəlirləri | 27,5 | 17,8 | 119,3 | 5,9 |

Əhalinin gəlirlərinin differensiyasına təsir edən amillərin dəyişmə dinamikasını qiymətləndirərək baş verən sosial müdafiə tədbirlərini və dövlət gəlirlərinin bölgüsü, yenidən bölgüsü və habelə xərclərini təmin edən sosial təminat səviyyəsini əsaslandırmaq və proqnozlaşdırmaq mümkündür. İlk növbədə əmək haqqı, pensiya, işsizliyə görə müavinatlar, uşaqlara yardım, qaçqınların maddi təminatı, təqaüdlər uyğun olaraq yaşayış minimumu və əmək haqqı differensasiyasına uyğun proqnozlaşdınlır.

Əhali gəlirlərinin və ailə gəlirlərinin əsas mənbəyi və is- tehlak xərcləri, həmçinin dövlət gəlir və xərclərinin fəal mənbəyi olan işçilərin sayı, onların əmtəə və xidmət ba2^arına uyğun istehsal seqmentlərinin strukturu, həmçinin daha çox xarici ölkələrə ixracat olunan məhsul istehsalı kimi multiplikasiya səmərəsindən xeyli asılıdır. Əhalinin proqnozu təbiİ artım və yerli istehsalın və xidmət bazannın ümumİ həcmindən asılı olaraq formalaşır və əmək qabiliyyətli seqmentlər təşkil edir. Əhali proqnozu miqrasiyanın xüsusi çəkisi ilə müəyyən olunur. İstehsal həcmi və xidmət bazan kontingentləri və istehlakçıların miqdarı nə qədər çox artırsa bir o qədər də əmək bazarında işçi qüvvəsinin ümumi sayı və onun peşə yönlü fəaliyyəti inkişaf edir və dünya bazanna uyğun istehsal strukturu yaranır.

Ailə gəlirləri həmin ailə üzvlərinin sayı, onlann peşə yönlü fəaliyyətinin xarakteri ve həmçinin hər bir ailə üzvünün uyğun gəlir kontingenti kimi fərdi gəlir miqdarı ilə ölçülür. Ailə gəlirlərinin əsas mənbəyini əmək və transfert həmçinin sahibkarlıqdan olan gəlirlər təşkil edir. Ailə gəlirlərinə həmçinin əhali arasında yenidən bölgü amilləri və digər mənbələr də təsir edir. Qiymətləndirmə metodologiyasının inkişaf dinamikası bazar iqtisadiyyatı şəraitində sahibkarlıq, muzdlu xidmət, yaxud xüsusi təsərrüfatda digər ailə üzvlərinin əməyini muzdla istifadə etməklə ödəmələr haqqı təşkil edİr. Artıq yüksək təminatlı ailələr öz fərdi təsərrüfatlarında ev təsərrüfatı ilə məşğul olmaq üçün digər ailələri cəlb edib, onlara bazar qiymətlərində əmək haqqı ödəyirlər. Həmin gəlirlər onu mənimsəyən ailə üçün gəlir sayılır, onu ödəyən ailə üçün isə xərclər istiqamətlərində nəzərdə tutulur. Beləliklə, əhalinin gəlir və xərclərinin həqiqi uçotu yenidən bölgü hesabına ailə miqyasında artırılmış olur. Bu məbləğ nominal gəlirlərin bölgüsü hesabına formalaşmış differensasiya- sını azaldır. Ona görə də respublikada yenidən bölgünün xüsusi çəkisinin daha üstün artması bütövlükdə ailələrin təminatı üçün şərait yaradır. Amma, fikrimizcə, bu amil İqtisadi artım və ölkədə ümumi daxili məhsulun milli hesabında təkrar hesabın artımına səbəb olur. Digər tərəfdən ümumi daxili məhsulun vergitutma və büdcə gəlirlərinin formalaşmasında iştirakını azaldır. Əsas bölgü müstəvisində gəlirlərin gizlədilməsi ailələrin xərc strukturunda öz əksini tapır. Bu da əmtəə və xidmət bazarının ümumi dövriyyəsinin həcmini artırmış olur. Amma ailə gəlirləri kimi onun adam başına düşən səviyyəsi 10 000 manat, yaxud ondan az olması hesabına paylanmaya görə gəlir vergisi azalır. Yaxud sa- hibkarlann əmək haqqı və muzdlu əməyə görə ödəmə haqqının az olması, amma istehlak bazannda onların həcminin reallaşması əmtəə və xidmət dövriyyəsinin əhalİ gəlirlərinin səviyyəsinə yaxın olmasma gətirib çıxarır.

Beləliklə, əhalinin ümumi sayı, əmək qabiliyyəti, əhali və onun məşğulluğu ilə gəlirlərin arasında transformasiya modeli, mümkün yenidən bölgü forma və metodlarım özündə əks etdirməlidir.

Yoxsulluq proqramı çərçivəsində əhalinin məşğuliyyətinin təmin olunması ümumi iqtisadi artımın amili olan məşğul olanların sayını artırır və hər birinin əmtəə və xidmət bazarında rolunu yüksəltməklə, aİlə gəlirləri və yenidən bölgü üçün lazım olan vəsaitləri artınr. Əhalinin təbii artımı istehlak bazan və onun gəlirlərinin tam məşğulluq səviyyəsində əsas potensial göstəricisidir. Əhalinin emək qabiliyyətli sayı və ondan istifadə dərəcəsi gəlirləri formalaşdınr. Əmək ehtiyatlannm dinamikası, onlann məhsuldarlığı ümumi gəlir və onun differensiyasını yaradır. İstehlak bazan əhalinin real alıcılıq qabiliyyəti ilə müəyyən olunur və real gəlirlər formasında özünü büruzə verir. Yenidən bölgü vasitəsi ilə gəlirlərin formalaşması nominal gəlirlərin differensa-siyası səviyyəsini hamarlayır, görünməyən gəlirlər hesabına istehlak səviyyəsini yaxınlaşdınr. Belə ki, bilavasitə sosial qruplar və ayn-ayn sahibkarlar arasında xidmət və muzdlu əmək fəaliyyəti üzrə ümumi daxili məhsulun səviyyəsini onun istehlak mərhələləri üzrə uçotu, bütövlükdə dövlət gəlirlərinin ümumi səviyyəsini və əhali üçün lazım olan ümumi daxili məhsulun kütləsinin real göstəricisini ifadə edir. Bölgü siyasətində dövlət təminatı, milli resursların dövlət mülkiyyətində olması hesabına dövlətin cəmiyyət qarşısında öhdəliklərini meydana atır. Belə ki, mərkəzləşdirilmiş gəlirlər olan dövlət büdcəsi ehtiyat fondu və neft fondunun istifadəsində əhalinin müdafiəsi, perspektiv əmək haqqı və gəlir gətirən sahələrin inkişafı ilə mümkün olmalıdır. Ona görə dövlət gəlirlərin idarə edilməsi cari heyat səviyyəsinin yüksəldilməsi və yoxsulluğun ləğvi, həmçinin perspektiv dayanıqlı inkişaf meylləri arasında nisbətlərin tənzimlənməsi funksiyasının effekti ilə müəyyən olunur. Hər bir fərdi İqtisadi fikir həmin sosial qruplann mövqeyindən, onun yaşayış səviyyəsindən və perspektiv dünya görüşündən xeyli asılıdır. Əhali gəlirlərinin artınimasında iki əsas vektor və mərhələ tətbiq etmək vacibdir. Birinci mərhələdə dövlət gəlirlərinin hesabına yaşayış minimumuma uyğun müvafiq gəlir növü tətbiq olunur. Belə ki. İşləyənlər üçün əmək haqqı səviyyəsinin yaşayış minimumuna çatdınıması, minimum pensiya ilə minimum əmək haqqı arasında bərabərlik, yaxud sosial müavinat, təqaüd və dövlət hesabına

maddi təminat alanlann minimal gəlir səviyyəsi, yaxud onun yaşayış minimumuna çatdınnaq üçün lazım olan müavinatlar sosial müdafiə fondundan verilməlidir. Ümumi dövlət gəlirləri çərçivəsində mümkün deyilsə, onda bütün qruplar üzrə xüsusi çəki əmsalı ilə azalma tempi reallaşdınla bilər. Dövlət gəlirlərinin əsas mənbəyi sahibkarlıq fəaliyyətindən, dövlət mülkiyyətində olan müəssisələrin mehsullannın daxili və xarici bazarda satışından gələn gəlirlərdən və əhalinin bilavasitə gəlirlərindən tutulan vergilər və sosial ödəmələr vasitəsi ilə təmin olunur, Dövlət gəlirlərinin formalaşması, ümumi iqtisadi siyasətin tənzimlənməsi və stimul yaratmaq məqsədi ilə bölgü forması və metodlannı və əsas istiqamətlərini müəyyən edir. Dövlət gəlirləri ümumi daxili məhsulun bölgü mexanizmləri vasitəsi ilə onun sərəncamında olan maliyyə vəsaitini müəyyən edir. Təbii ki, bu gəlirin canlanması bir başa iqtisadi inkişaf sahələrini və sosial müdafiə üçün lazım olan imkanları artıra bilir. Digər tərəfdən dövlət bərabərlik və təkrar gəlir formalaşması siyasəti apannaqla stimullar yaratmaq üçün vergi ödəmələri, gəlir gətirmək imkanlarından mərhum olan üzvləri üçün maddi və mənəvi şərait yaratmaq məqsədi ilə gəlirlərin vahid dövlət büdcəsində toplamnası və yenidən bölgüsü funksiyasını öz üzərinə götürür. Məhz bu bölgünün effektli olması hər bir cəmiyyət üzvünün maraqlannm nəzərə alınması və alınmış maraqlann ədalətli inkişafı naminə perspektiv nəsillər üçün maddi və mənəvi baza yaradılması ilə mümkün olunur. Ona görə də bugünkü bölgü prinsiplərində əhali gəlirləri, onun mənbə və əsas formalan dövlət gəlirlərinin forma və mənbələrini müəyyən edir. Digər tərəfdən dövlət gəlirlərini əhali gəlirləri arasında yerdəyişmənin bir qrupun payının digər qrupa verilməsinin mexanizmini yəni bölgüsünü müəyyən edir. Məhz bölgü sistemində artıq digər meyarlar istehlak, sosial müdafiə və təminat prinsipləri əsas rol oynayır. Ona görə də məhz əhali gəlirlərinin fərdi və kollektiv formasında və milli sərvət kimi təbii resurslannm satışından əldə olunan gəlirlərin hansı hissəsinin cari istehlak, hansı hissəsinin isə perspektiv inkişaf və ümumi maraqlann qorunması üçün istifadəsi dövlətin iqtisadi təhlükəsizlik və davamlı inkişaf konsepsiyasının reallaşma me

xanizmidir. Dövlət gəlirləri əhali tələbatını ödəmək, onun normal yaşayış səviyyəsini təmin etmək və perspektiv inkişafın maddi xərclərini təmin etmək üçün lazım olan perspektiv xərclərdən və ehtiyatlardan asılı olaraq formalaşır:

(3.1)

Burada, - dövlətin tələbat üçün gəlirləri; - əhali gəlirləri; - amortizasiya xərcləri; - innovasiya xərcləri; - ehtiyat xərcləri; t - müvafiq dövr

Əhali gəlirlərinin artımı dövlət gəlirlərinin mənbəyi olduğu kimi dövlətin əmək haqqı, sosial müdafiə və sosial sığorta xərclərinin hesabına formaldır. Əmək haqqı gəlirləri və pensiya müavinatlan arasında dövlət gəlirlərini formalaşdırmaq və əhali gəlirlərinin pensiya müavinatı vasitəsi ilə alıcılıq qabiliyyətinə uyğun təqdim etmək üçün korrelyasiya asılılığı mövcuddur. Bu günkü əmək haqqı fondu dövlət gəlirlərinin xərclənməsində əsas istiqamət olduğu üçün onun artımı həmçinin stabil sosial ödəmələr şəraitində işləyən müəssisələrin və kollektivin yaratdığı gəlirlərin bir hissəsinin ona verilməsi və pensiya fondunun formalaşmasına gətirib çıxanr. Amortizasiya xərcləri bugünkü gəlirlərin həm mənbəyi və həm də onun xərclənməsində ümumi iqtisadi artıma təsir edən amil olaraq əməyin intensiv yüksəlməsi dərəcəsindən asılı olaraq formalaşır. Yeni iş yerləri artırsa, əməyin nəticəsi daha çox səmərəli inkişaf edirsə, amortizasiya məbləği çoxalır, onun məcmuu gəlirdə payı artır və xalis gəlir kimi dövlətin gəlirlərinin azalmasına gətirib çıxanr.

İqtisadi İnkişaf Nazirliyinin və Azərbaycan Respublikasının 2005-ci il Dövlət Büdcəsi zərfi I cild əsasında tərtib olunmuş 3.3K9-1İ cədvəldə Azərbaycan Respublikasının erazisi üzrə toplu gəlir və xərcləri verilmişdir.

Cədvəl 3.3. toplu

Azərbaycan Respublikasının ərazisi üzrə gəlir və xərcləri

GƏLİRLƏR

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Dövlət büdcəsinin resursları (gəlirlər) | 3572 | 3924,0 | 4551 | 6104,5 |
| 0 cümlədən | | | | |
| A. Daxili vergilər və rüsumlar | 2549 | 2895,0 | 3400 | 4089,6 |
| a ) dövlət sektoru | 1533 | 1765, | 2106,2 | 2384,8 |
| b) qeyri-dövlət sektoru | 1016 | 1130 | 1293,4 | 1704,8 |
| 0 cümlədən | , | | | |
| Yerli özəl qurumlar və fiziki şəxslər | 461 | 570 | 710 | |
| Xarici invcstisiyalı müəssisələr | 555 | 610 | 715 | |
| B.Xarici iqtisadi əməliyyatlardan vergi və rüsumlar | 719,6 | 822,0 | 921,8 | 1061,2 |
| C. Sair büdcə daxilolmalan | 303,4 | 207,1 | 229,1 | 953,7 |
| Müəssisə və təşkilatlarm resursları - cəmi | 3102 | 4074 | 6564,5 | 8281,7 |
| 0 cümlədən: | | | | |
| Mənfəət (vergiləri ödədikdən sonra) | 1552 | 2214 | 2724,3 | 4352,4 |
| Amortizasiya ayırmaları | 1550 | 1860 | 3840,2 | 3929,3 |
| Digər gəlirlər - cəmi | 2112 | 2494, | 3239,5 | 5702,9 |
| O cümlədən | | | | |
| Dividendlər, qiymətli kağızlar və özəlləşdirmədən gəlirlər | 38 | 86,0 | 107,8 | 97,9 |
| Sosial Müdafiə Fondunun gəlirləri | 816 | 1350, | 1657,2 | 1808 |
| Neft Fondu | 1213 | 1058, | 1474,5 | 1820,5 |
| Gəlirlərin yekunu | 8787 | 10492,0 | 14355 | 20089,1 |

XƏRCLƏR

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Dövlət büdcəsinin xərcləri | 3820 | 4037,5 | 4658,8 | 6172,7 |
| Müəssisə və təşkilatların sərəncamında qalan mənfəət və amortizasiya hesabma xərclər | 3102 | 4074,0 | 6564,2 | 8281,7 |
| Digər xərclər - cəmi | 887 | 1554,0 | 2199,2 | 5062,5 |
| Qiymətli kağız, dividendlərdən və özəlləşdirmədən alınmış ehtiyatlann sərfi | 38 | 200 | 107,8 | 97,9 |
| Sosial Müdafiə Fondunun xərcləri | 816 | 1350,0 | 1657,2 | 1808 |
| Neft Fondunun xərcləri | | 4,0 | 434,2 | 1180,1 |
| Xərclərin yekunu | 7809 | 9665,5 | 11470,2 | 19516,9 |
| Resurslarm maliyyə balansı +,- | 978 | 826,5 | 932,5 | 572,2 |
| O cümlədən büdcə kəsiri | -247 | -113,5 | -107,8 | -68,2 |
| ÜDM-ə nisbəti | 1,1 | 0.4 | 0,4 | 0,2 |

Cədvəldən göründüyü kimi respublikanın məcmuu gəlirləri 2003-cü ildə 20089.1 mlrd manat təşkil edir ki, bu da ümumi daxili məhsula nisbəti 57.3%-ə bərabərdir.

Ümumi daxili məhsulda gəlirlərin səviyyəsinin aşağı olması onun idarə edilməsində bölgü və yenidən bölgü mexanizminin tam təkmil olmaması ilə izah olunur. Müəssisə və təşkilatlann resurslarında amortizasiya ayırmaları mənfəətlə (vergilər çıxıldıqdan sonra) müqayisədə 50%-e yaxındır ki, bu da rentabellik səviyyəsinin aşağı olması ilə izah olunur. 1 manat amortizasiya xərcləri 1,05 manat mənfəətə uyğun gəlir ki, geniş istehsal və investisiya xarakterli islahatların maliyyə əsasının aşağı olması ilə izah olunur.

Dövlət Büdcəsi bütövlükdə ölkədə gəlirlərin 30%-ni təşkil edir. Beləliklə, 70% gəlirlər dövlət mexanizmlərindən kənarda formalaşır.

Əhali gəlirləri ümumi daxili məhsulun tərkib hissəsi kimi formalaşır. Əhali gəlirləri və dövlət gəlirlərinin ümumi daxili məhsulda xüsusi çəkisi və dinamikası bölgü və yenidən bölgüdə dövlət gəlirlərinin və natural gəlirlərin rolunu müəyyən edir. Əhalinin pul gəlirləri 2000-ci ildə 17,6 trilyondan 2004-cü ildə 24,2 trilyona yüksəlmiş, artım tempi 8-12% təşkil etmişdir. Dövlətin büdcə gəlirləri 2000-ci ildə 3,6 trilyon manatdan 2002- ci ildə 4,8 trilyona qalxmış, artım tempi 10-12% təşkil etmişdir. Əhali gəlirlərinin formalaşması onun idarə edilməsinin əsas istiqamətlərini müəyyən edir. O cümlədən emək haqqı, pensiya islahatı, dövlətin sosial müdafiə və sosial sığorta sisteminin əsas İstiqamətlərini və proqnozlaşdımıa qaydalarını müəyyənləşdirir. Dövlət büdcəsinin gəlir və xərclərinin ÜDM-da xüsusİ çəkisi sintetik göstərici kimi istehlakın dövlət tərəfindən tənzimlənən payını müəyyənləşdirir. Azərbaycanda stabil iqtisadi inkişaf dinamikası və tarazlı iqtisadi inkişaf meylləri bu payın son 1996- 2003-cü illərdə 14-16% arasında dəyişməsinə imkan verir. Əhalinin pul gəlirlərinin ÜDM-a nisbəti İsə uyğun olaraq 2003-cü ildə 69.1%-ni təşkil edir. ÜDM-un bölgüsü və yenidən bölgüsü hesabına büdcə xərcləri və bir başa xüsusi gətirlər əhali rifahı üçün ümumi vəsaitin rolunu artırır.

Əhali gəlirləri, dövlət gəlirləri və yenidən bölgü nəticəsində əhali xərclərinin dövlət gəlirlərinə təsiri bir sıra iqtisadi və sosial göstəricilərin qarşılıqlı təsiri və əlaqəsi ilə həll oluna bilir. İqtisadi inkişaf Nazirliyinin və Azərbaycan Respublikasının 2005-ci il Dövlət Büdcəsi zərfi I cild əsasında tərtib olunmuş 3.4JNfo-li cədvəldə əhali və dövlət gəlirlərinin makroqitİsadi dinamikası göstərilmişdir.

*Cədvəl 3.4.*

## Əhali və dövlət gəlirlərinin makroiqtisadi dinamikası (mlrd, manat)

| Göstəricilər | 2000 | 2001 | 2002 | 2003 | 2004 proqno | 2005 proqno |
|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul | 23590,3 | 26578,0 | 30312,3 | 35053,4 | 40300 | 47800 |
| Real artım, %-le | 111,1 | 109,9 | 110,6 | 111,2 | 109,5 | 114,1 |
| Parakəndə əmtəə dövriyyəsi | 10589,0 | 11887,0 | 13442,3 | 15310 | 17189 | 19368 |
| Real artım, %-lə | 109,8 | 109,9 | 109,6 | 110,9 | 109 | 109,4 |
| Əhalinin pul ]^olirləri | 17554,0 | 19010,2 | 21220,3 | 24207,9 | 27100 | 30300 |
| Real artım, %-lə | 108,0 | 110,4 | 111,6 | 114,1 | 111,9' | 111,8 |
| Əhalinin xərcləri | 17347 | 18800,0 | 21015,4 | 23859,8 | 27200 | 29950 |
| Real artım, %-lo | 108,9 | 108,4 | 109,3 | 113,5 | 114 | 110,1 |
| Orta aylıq əmək haqqı (min manat) | 221,6 | 260,0 | 315,2 | 387 | 487,6 | 594,8 |
| Real artım, %-lə | 120,2 | 117,3 | 121,2 | 122,7 | 127,3 | 122 |
| Dövlət büdcəsinin gəlirləri | 3572,0 | 392,0 | 4551,0 | 6104,5 | 7045 | 9422 |
| Dövlət büdcəsinin xərcləri | 3820,0 | 4037,5 | 4658,8 | 6272,7 | 7794,2 | 10001 |
| Əhalinin pul gəlirlərinin Dövlət büdcəsi gəlirlərinə nisbəti | 0,20 | 0,21 | 0,22 | 0,26 | 0,26 | 0,31 |
| Adam başına düşən dövlət büdcəsi gəlirləri, mİn manat | 442 | 482 | 554,8 | 748,5 | 835,7 | 927,2 |
| Orta aylıq əmək haqqının adam başına düşən dövlət büdcəsi gəlirlərinə nisbəti | 0,50 | 0,54 | 0,57 | 0,59 | 0,63 | 0,73 |
| Adam başına düşən mal dövriyyəsi, min manaı | 1310 | 1460 | 1638,7 | 1839,6 | 2050 | 2291 |
| Adam başına düşən mal dövriyyəsi ilə dövlət büdcəsi gəlirləri arasında nisbət | 0,37 | 0,42 | 0,36 | 0,30 | 0,29 | 0,29 |

Adam başına düşən əhali gəlirlərinin formalaşması mənbələri, dövlət mülkiyyətinin, sahibkarlığın və əhali arasında yenidən bölgü mexanizmlərinin xüsusiyyətlərini və onun regional aspektlərinin mahiyyəti və dinamikasım əks etdirir. Ona görə də ailə gəlirlərindən dövlət gəlirlərinin idarə olunmasına çıxış özünün bir sıra metodiki aspektləri ve qiymətləndirmə metodları ilə əlaqəli olduğu üçün son nəticə məhz axtarış və tədqiqatın metodoloji prinsipləri ilə müəyyən olunur.

İqtisadi ədəbiyyatlarda gəlirlərin qiymətləndirilməsi, onun proqnozlaşdırılması və gəlirlərin paylanmasının tədqiqi sahəsində 1950-ci illərdən müxtəlif yanaşmalar əsasında tədqiqatlar aparılmışdır. Gəlirlərin paylanması qanunauyğunluqlarının loqo-rifmik normal funksiyasına uyğun olduğu sübüt olunmuşdur [98]. Bu fıınksiyalann ayn-ayn parametrləri hər bir respublika və sosial qrup üçün xüsusiyyətləri özündə cəmləşdirir [84, 110]. Bazar iqtisadiyyatı şəraitində gəlirlərin bizneslə və sahibkarlıq fəaliyyəti ilə bağlı məzmunu miqdar və formaca dəyişdiyi kimi onun xərc stmktumnun da xarakterik və əsas istiqamətləri dəyişir, Amma xərclərin xarakterinin və məzmununun şəxsi İstehlak- la bağlı əksər hissəsinin biznes gəlirlərindən asılı olmaması əksər əhali uçun normal paylanmanın qəbul edilməsinə əsas verir. Yoxsul ailələrin gəlirlərinin tənzimlənməsi sosial siyasətin nəticələrinin qiymətləndirilməsindən xeyli asılıdır [9; 22; 96]. Əhalinin gəlİr səviyyəsinə görə iqtisadi stratifikasiyası, yoxsulluq həddinin, minimum əmək haqqı səviyyəsinin vergi verənlərin maksimal vergi yükünə görə paylanması və orta aylıq gəlir və əmək haqqı səviyyəsinə görə qumlur. Gəlir vergisinin həcminə görə stratifıkasiya əhalinin 40%-nə gəlir vergisindən azad olmaq haqqı verir. 2005-ci ilin dövlət büdcəsində fiziki şəxslərdən gəlir vergisi büdcə gəlirlərinin 11.3%-nİ təşkil etməklə 1060 mlrd manat proqnozlaşdınlır. Büdcə gəlirləri ümumi daxili məhsulun 19.7%-ni təşkil etdiyi halda, gəlir vergisi ÜDM-a nisbətən 2.2 % təşkil edir. Gəlir vergisinin gəlirlərin həcmindən asılı olaraq tutulması əhali gəlirlərinin təminat səviyyəsinə görə stratifı- kasiyasım müəyyən edir. Gətir vergisi əhalinin 60%-nə qədər tətbiq olunur. Gəlir vergisinin dərəcəsi qanunvericiliyə uyğun

olaraq 15%-den 35%-ə qədər gəlirin adambaşına düşən səviyyəsinin 100 mindən başlayaraq 3 mln manata qədər paylanmasına uyğun tətbiq olunur. Əgər qəbul etsək ki, əhalinin 50%- nin gəlirlərindən 35% həcmində vergi tutulursa, onda 55%-nin gəlir vergisi 15%-dən 34%-ə qədər dəyişir.

Dövlət gəlirlərinin formalaşmasında vergi gəlirlərinin rolu cari və planlaşma təcrübəsində aşağıdakı ümumi iqtisadi göstəricilərlə nisbətdə müşahidə olunur. (Cədvəl 3.5.) Cədvəldə planlaşma və cari strukturun əlaqəsinin açılması məqsədi güdür. Vergi gəlirlərinin hər biri birbaşa, yaxud dolayısı yolla əhali gəlirlərinə, onun real alıcılıq qabiliyyətinin səviyyəsinə, yaxud differensasiyasına təsir edir. Orta aylıq əmək haqqı, yaxud orta illik gəlir səviyyəsindən hesab nöqtəsi kimi istifadə etməklə artım templərinə istinad etmək bilavasitə əhalinin alıcılıq qabiliyyəti aşağı olan ailələr üçün az təsir edə biləcəyini gözləmək olar.

Vergi gəlirləri ilə büdcənin ailə gəlirlərini formalaşdıran xərclər arasında normativ nisbət söyləmək çətindir. Çünki vergilərin hamısı məhz sosial təminat üçün xərclənmir. Sosial təminat vergiləri gəlirlərdən tutulan vergilərin və sosial ödəmələrin hesabına baş verir. Sosial ödəmələr qanunvericiliyə uyğun olaraq əmək haqqı fondunun 22%-nin sosial müdafiə fonduna keçirilməsi itə formalaşdınlır. Büdcədən ayrılan sosial müdafiə məqsədləri mehz daha çox əhalinin minimal yaşayış təminatı üçün lazım olan vəsaitin sosial müdafiə fondu vasitəsi ilo təmin olunması mümkün olmayan hissəsini ödəmək üçün aynlması planlaş- dınlır.

Vergi gəlirlərinin dövlət büdcəsi gəlirlərində rolu

ho

| | **Göstericitərin adı** | **2002-ci il qanun mlrd, manat** | **2002-ci il gözlənilir mlrd, manat** | **2003-cü il layihə** | | |
|---|---|---|---|---|---|---|
| | | | | **mlrd. manat** | **Artım tempi *(%)*** | |
| | | | | | **2002-ci ilin təsdiq edilmiş səviyyəsi ilə müqayisədə** | **2002-ci ilin gözlənilən səviyyəsi ilə müqayisəsi** |
| 1 | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| | **Dövlət büdcəsi gəlirləri** | **4780** | **4662** | **6092** | **27,4** | **30,7** |
| 1. | **l*iғikı səxslərdəa selir vergisi** | **530** | **535** | **580** | **9,4** | **84** |
| *2.* | **Məntəət vergisi** | **700** | **680** | **770** | **10.0** | **------ ^** |
| **J.** | **iorpaq vergisi** | **55** | **56** | **56** | **1,8** | |
| *4.* | **Əmlak vergisi** | **80** | **110** | **132** | **65,0** | **20** |
| *t>.* | **Əlavə dəyər vergisi** | **1635** | **1870** | **1909** | **16,8** | **14 3** |
| | **U cümlədən AR ərazisinə gətirilən Əlavə dəyər vergisi** | **545** | **580** | **652** | **19,6** | **12,4** |
| ***b.*** | **Aksizlər, o cümlədən;** | **495** | **420** | **300** | | **-28,6** |
| | **AR ərazisinə gətirilən mallara aksizlər** | **75** | **44** | **60** | **-20,0** | **36,3** |
| **7.** | **Mədən vergisi** | **420** | **305** | **640 '** | **52** | **109 8** |
| **ö.** | **Gömrük rüsumları** | **290** | **290** | **300** | **3,4** | **3,4** |
| y. | **Yol vergisi** | **10** | **7** | **8** | **-20,0** | **14 3** |
| **JU.** | **Dövlət rüsumu** | **115** | **115 1 115** | | | |

*Cədvəl 3.5.-in ardı*

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| 11. | Birdəfəlik rüsum | 0 | | 6 | | |
| 12. | Sadələşdirilmiş sistem üzrə vergi | 8 | 16 | 84 | 950 | 425 |
| 13. | Vergi olmayan sair gəlirlər | 202 | 173 | 182 | -9,9 | 5,2 |
| 14. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 10 | 11 | 12 | | 9,0 |
| 15. | AB-nın qrantı | 47 | 47 | 50 | | 6,4 |
| 16. | Milli Bank | 140 | 140 | 100 | | -28,6 |
| 17. | Sair | 43 | 43 | 42 | | -2,3 |
| 18. | Dövlət Neft Fondundan transfertlər | | | 500 | | |
| 19. | Büdcə təşkilatlarının büdcədənkənar xüsusi vəsaitləri | | | 301 | | |

Fiziki şəxslərdən tutulan hər bir vergi və onun dərəcəsi onun nominal gəlirlərinin bir hissəsidir. Təbii ki, fiziki şəxslərin bir sıra ehtiyaclarını və müdafiə məqsədlərini öz səlahiyyətləri çərçivəsində idarə edən dövlət, həmin gəlirlərin bir hissəsini va- sitəii və bilavasitə ödəmələr yolu ilə əhalidən toplayıb, məqsədli və şəffaf mexanizmlər yolu ile ifadə etməlidir. Ona görə də gəlirlərin ifadə edilməsi dövlətin funksiyasıdır. Vergilərin birbaşa tutulmasında differcnsial siyasət daha çox sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin stimullaşdırılmasmda maneəyə çevrilmişdir. Vergilərdə differcnsial siyasət gəlirlərin hamarlanması məqsədi güdürsə bu səhv siyasətə çevrilir. Əksinə verginin verilməsi daha çox yüngülləşdirmə mexanizmləri yolu İlə nə vaxtsa qaytarılmalı, yaxud həmin vergi verənlərə gəlir arasında elastiklik əmsalının daima vahiddən böyük olmasına şəy göstərilməlidir. Vergi yığma yolu ilə əmlak, gəlir, mənfəət, resursların istifadəsi idarəetmə sferasına cəlb olunur. Onun məbləği, hər bir növ əmlaka və səlahiyyətə görə differensasiyası məqsəd və prinsiplərə əsaslanır. Elmi əsaslarla proqnozlaşdınimış gəlir tələbatı, əmlak və gəlirlərin vergiyə cəlb olunmasının dairəsini, bazasım və onun dərəcəsini müəyyən edir. İqtisadi inkişafın effektli variantı kimi verginin yığılma bazasını genişləndirib, daha çox dövlət gəlirlərini artırmaqla, onun sonrakı effektini həmin gəlirlərin yenidən vergi bazasının genişlənməsi, yaxud inkişafı üçün istifadə mexanizmlərindən asılı olaraq formalaşdırmaq məqsədi güdülür. Digər halda gəlirlərin vergiyə sərf olunan hissəsini yumşaltmaq yolu ilə iş yerlərinin artıniması və gəlirlərin azaldılmasına meyl edən sahə və fəaliyyət növlərini stimullaşdırmaq yolu ilə idarə etməyə yönəldilən konseptual yanaşma mümkündür. Birinci variantda hesablar və ölçmə metodologiyası daha təkmil və müqayisəli təhlil və proqnoz üçün statistik göstəricilərlə müəyyən olunur. İkinci halda isə effekt ümumi artım, əhali gəlirlərinin indeksi, onun həyat səviyyəsinin yüksəldilməsinin dövlət gəlirləri kimi qəbul edilməsi ilə mümkündür. Bu hal gəlirlərin hesabının üzərində nəzarət mexanizmi, onun deklarasiyası, aşkarlığı və istifadəsinin leqallığı ilə təmin oluna bilər.

Vasitəli vergilər olan əlavə dəyər vergisi və aksiz vergisi birbaşa əhalinin nominal gəlirlərinin bir hissəsinin qiymətlər vasitəsi ilə büdcə gəlirlərinin artırılmasına yönəldilir. Nominal gəlirlər nə qədər çox istehlak sferasına çıxırsa, onun əlavə dəyər vergisi də artır və dövlət büdcəsində onun xüsusi çəkisi böyüyür. Əlavə dəyər vergisinin 2002-ci ildə ümumi daxili məhsulda 5,7%, dövlət büdcəsinin gəlirlərində 34,2% olması aksiz vergilərinin uyğun olaraq 1,7%, 10,4% olması, əhali gəlirlərinin 75%-nin dövlət büdcəsinə ancaq vasitəli vergilər yolu ilə keçməsini göstərir. Torpaq və əmlak vergisi fiziki və hüquqi şəxslərdən tutulmaqla mənfəətin azalmasına, yaxud fiziki şəxslərin gəlirinin və hüquqi şəxslərin xalİs mənfəətinin azalmasına gətirib çıxarır. Fiziki şəxslərin torpaq vergisinin və əmlak vergisinin bələdiyyə büdcəsinə daxil olması yerli büdcələr hesabına bir sıra sosial tələbatlann ödənilməsinə yönəldilən yerli xərclər mahiyyət etİban ilə əhalinin məcmuu gəlirinin mənbəyi olaraq çıxış edir. Bələdiyyə xərcləri kollektiv istehlak yolu ilə mənimsənilən yerli xidmət və sosial sfera vasitəsi ile reallaşır. Bu gəlirlərin idarə edilməsi bələdiyyənin özünü idarəetmə prinsiplərinə uyğun aparılır [13]. Bələdiyyələrin maliyyə əsasları dövlət büdcəsindən ayrılan dotasiya, yerli sosial məqsədlər üçün yığılan vergilərdən və həmçinin bələdiyyə mülkiyyətinin istifadəsi nəticəsində əldə olunan gəlirlərdən idarət olur.

### 3.2. Əhali gəlirlərinin qiymətləndirilməsi metodikaları və proqnozlaşdırılması

Əhali gəlirləri ümumi iqtisadi göstərici və dinamizm meyan kimi baş verən istehsal və bölgü proseslərinin xüsusiyyətlərini özündə əks etdirdiyi kimi istehlakın səmərəli və son effekti kimi də özünü büruzə verir. İstehlak davranışı əhali gəlirlərinin artımı və onun xarakteri, məqsədi, həmçinin istehlakçının sosial-iqtisadi parametrləri ilə formalaşır və inkişaf edir. Adam başına düşən gəlir onun alıcılıq qabiliyyətini müəyyən edir. İstehlakın strukturu gəlirlərin artımı və ailənin sosial-demokratik xarakteristikası ilə müəyyənləşir. Bəzi məhsullara olan ehtiyaclar

gəlirlərin artması ilə artır. Digər məhsullara isə artım daha çox elastik olursa, başqalanna nisbətən az ola bilir. Ona görə də istehlakm proqnozunun və strukturunun normativ bazasının təkmilləşdirilməsi gəlirlərin formalaşmasına və proqnozuna elmi əsas yaradır.

İstehlak yönümlü «oriyentasiya» makroiqtisadi və struktur tənzimləmənin əsas meyar və göstəricisi kimi qəbul olunur. Makrosəviyyədə istehlak yönümlü siyasət ümumi daxili məhsulun artımını təmin edən istehsal istehlakı və əhalinin güzaram üçün lazım olan pul gəlirləri məcmu gəlirlər və istehlak üçün lazım olan əmtəə və xidmət təklifinin ümumi tələbata uyğun dəyişmə dinamikası ilə müəyyənləşir.

Ümumi daxili məhsulun istehlak strukturunda istehsal xərcləri və onun səmərəli istifadəsinin təşkili ümumi daxili məhsulun artımını, onun istehlak üçün lazım olan hissəsini artırır.

İstehsal xərcləri perspektiv gəlirlərin amili olaraq makroiqtisadi səviyyədə tənzimləmə obyektidir. Əgər hər manat istehsal xərcinin istehlak effekti bütün gəlirlərin artımım təmin edirsə, onda xərclərin effektə görə optimal bölgüsü ölkə iqtisadiyyatının və sahibkarlığın son faydalılıq meyarı olaraq istiqamətlənir.

İstehsal xərcləri ilə gəlirlər arasında nisbətlər sonrakı gəlirlərin artımımn mənbəyi rolunu ifadə edir. Ona görə də bu hallarda çəkilən xərclər istehsal olunmuş gəlirlər səviyyəsindən nisbətən kənarlaşır. Bu da öz növbəsində avans edilmiş xərc strukturunu özündə əks etdirir. Məhz avans edilmiş xərc strukturunun yaranan gəlirlərdən artıq hissəsi borc, yaxud ehtiyatlar hesabına baş verir. Ona görə də xərclər və gəlirlər arasında balans bilavasitə xərclərin maliyyə mənbəyini özündə əks etdirir.

Əhali xərcləri, onun istehsal və istehlak üçün xərclədiyi vəsaitlərin miqdarı ilə ölçülür. Əhali gəlirlərinin istehsal xərcləri və onun xüsusi təsərrüfatı, tikinti və yığımı üçün lazım olan xərclərinin dinamikası ilə müəyyənləşir. Əhalinin istehlakı onun cari və perspektiv tələbatı ilə ölçülür. Cari tələbatının ödənilmə dərəcəsi fizioloji normalar ve əhalinin perspektiv tələbatının istiqamətləri ilə ölçülür. Cari tələbat Ödənildikcə ona çəkilən

xərclər azalır, gəlirlərin artması prosesi zamanı perspektiv xərclərin xüsusi çəkisi, bütövlükdə xərc strukturunda və gəlirlərin tərtibində artımla xarakterizə olunur. Əhali gəlirlərinin maliyyə mənbəyi kimİ istehlakın səmərəli təşkili yanaşma olaraq metodoloji xüsusiyyətlər kəsb edir. İstehlakla gəlirlər arasında qarşılıqlı təsir və əlaqənin xarakteri və dəyişmə dinamikası mövcud reallığın məqsədlərə uyğun idarə olunmasına və tənzimlənilməsinə imkan verir. Araşdırmalar və real ev təsərrüfatı göstəriciləri gəlirlərin artmasımn istehlak həcminin artmasına təsirini funksional qanunauyğunluqlarla əks olunduğunu sübüt edir. Belə ki, gəlirlərin istehlak normasına təsirinin elastikliyi vahiddən böyükdür:

**s, = Ş->0** **(3.2)**
dx

Bəzi məhsullar, yaxud istehlak təsnifatına uyğun qmplar üzrə gəlirlərin artması İlə istehlakın artımının son faydalı həddi olur və gəlirlərin sonrakı artımı həmin məhsullar üzrə artıma səbəb olmur. Bu da elastiklik əmsalımn vahiddən kiçik (E„<1) və nisbətən aşağı düşməsinə səbəb olur. Bu hallarda gəlirlərin artımı İstehlakın struktur dəyişmələrinə səbəb olur.

*Z I . H = y* **P-**3)
İ j

**Xxij=yi (3.4.)**
j

Burada, Xj^ - c istehlak qrupunun i-gəlirlər səviyyəsində həcmi, yaxud xüsusi çəkisidir, ikinci halda

= > 0.5)

Yj - i gəlirləri üzrə gəl İr səviyyəsidir.

Gəlirlərin işlənilən artımı cari xərclər, yaxud yığım üçün istifadə olunan pul gəlirlərinin həcmində öz əksini tapır.

Gəlirlərin xərclərin səviyyəsindən yuxan olması yığımın atınıması, azalması isə yaxud əhali gəlirləri ilə dövlət və maliyyə-büdcə sistemi arasında təkrar bölgü, yaxud perspektiv xərclər üçün kredit, borc münasibətlərinin təsirinin olması

deməkdir. İstehlakın gəlirlərdən asılılığı dinamikası və qanuna-uyğıınluqlan daha çox struktur dəyişmələr üçün xarakterikdir. Gəlirlərin istehlaka təsiri birbaşa və funksional olsa da, diffe- rensial olaraq əmtəə qrupları, xərc strukturu və əhalinin həyat səviyyəsinin çatılmış səviyyəsi və yaxud tələbatının ödənilmə dərəcəsinin maksimal həddə yaxınlaşma tempindən asılı olaraq formalaşır və struktur kimi İnkişaf edir. Hər hansı əmtəə və xidmət növü istehlak və tələbat baxımından müxtəlif təbəqələrdə özünü əks etdirir. Əhali qruplan öz gəlirləri səviyyəsində özünün tələbatının ödənilməsində konkret əmtəə və xidmətin növünə üstünlük verir. Ona görə də gəlirin az gəyişməsi daha çox «hissedici» əmtəələr üçün maliyyə mənbəyi rolunu oynayır və həmin gəlirin dəyişməsi daha çox bəzi qrup əmtəələr üçün «hissedici» - dominant rol oynayır. Əgər hər hansı əmtəə və xidmət ailə üçün az prioritetdirsə, gəlirlərin dəyişməsi həmin əmtəə və xidmətin istehlakına təsir etmir. Digər əmtəə və xidmətə təsir gücü isə kiçik artımla ifadə olunur. Ona görə də gəlirlərin istehlak səviyyəsinə, onun strukturuna və dinamikasına təsiri tələbatın ödənilmə dərəcəsi ilə əlaqələndirilirsə, nəzəri və praktiki cəhətdən daha adekvat qanunauyğunluq və proqnoz üçün uyğun dəyişmə modeli tərtib etmək mümkündür. Gəlirlər və istehlak arasında bazar seqmentlərinin rolunu və istehlak bazannın seqmentləşmə strukturunun təsirini qiymətləndirmək mümkündür.

Tələbatın ödənilmə dərəcəsi təkcə gəlirlər amili ilə deyil, mövcud əmtəə və xidmət təklifi və onlann təminat səviyyəsi ilə ölçüldüyü üçün regional və sosial xüsusiyyətlər kəsb edir. Nəzəri düşüncələr və iqtisadi ədəbiyyatlarda baş verən araşdırmalar istehlak tiplərinə uyğun gəlir və İstehlak arasında qarşılıqlı əlaqələri təhlil edirlər [99, 122].

Müasir qloballaşma amilləri bazar tipli inkişaf meylləri və sosial gərginlik problemləri əhalinin istehlak davranışında və onun bilavasitə qiymətləndirilməsində yeni yanaşma üsullarını və fəndlərini tələb edir. Real sistem daha mürəkkəbləşir və dərinləşir. «Belə sistemdə real tərəqqi insanların daha çox mənəvi, mədəni, əxlaqi və maddi nemətlər istehsal etməsi qa

biliyyətinin artmasına səbəb olmalıdır. Yeni təqdim olunan «insanlığm yeni resursları», «inkişafm yeni paradiqması», (tərəqqinin yeni ölçülmesi» kimi terminlər daha konstruktivdir» [86, S.9; 106; 90].

Belə yanaşma müstəvisindən artıq fəaliyyət ölçüsündən fərqli olaraq keyfiyyət müstəvisi və gəlirlərdən daha çox istehlak davranışı, seçim və özünü idarəetmə rol oynayır. Həyat səviyyəsindən daha çox həyat keyfiyyəti kateqoriyası və prosesi özünü doğurdur. Yoxsulluq statistik haldan çox qloballaşma nəticəsi kimi qiymətləndirilir. Məhz isfehlakın həcmindən daha keyfiyyətli göstərici onun strukturudur. Hər bir ailə və cəmiyyətdə istehlak davranışı inteqrasiya və standart keyfiyyətlər baxımından qiymətləndirilir. Artıq əhalinin adambaşına düşən ərzaq və qeyri-ərzaq məhsullarının istehlakında daha mütərəqqi forma istehlak strukturunda xidmət və mənəvi dəyərlərdir.

Dinamik bir proses olaraq istehlak davranışını qiymətləndirmək üçün məhz gəlirlərin, bölgü və islahatların nəticəsi olaraq istehlakın strukturunda baş verən keyfiyyət dəyişmələrini qiymətləndirmək və onların qloballaşan dünya proseslərində keyfiyyətcə dəyişmələr baş verən ölkələrə yaxınlaşması meyllərini ölçmək və analitik ifadə etmək metodikası daha vaciblik kəsb edir. Ona görə də inkişaf meyarı, davamlı və səmərəli bölgü, forma və metodları məhz iqtisadi artımla yanaşı struktur dəyişmələrin arasında kəmiyyət əlaqəsinin müəyyən edilməsi ilə qiymətləndirilir. İstehlak strukturu etalətli proses olmaqla xarici mühitdən nə qədər çevik asılı vəziyyətdədirsə, bir o qədər də özünün qanunauyğunluqları, qarşılıqlı dəyişmə texnologiyası olan strukturdur. Hər hansı strukturun (iaxilində əvəz etmə ftınksional və yaxud iqtisadi səmərə baxımından müəyyənləşdirilir. Təbii ki, əvəzetmə aiqoritmini, yaxud xarici tənzimləmə qaydası olan istehsalı, gəlirlər və əmtəə xidmət təklifini nəzərə almaqla dəyişmək mümkündür. Bununla yanaşı İstehlak seqmentləri və istehlak dəyərinin faydalılığı məhdud əmtəə, xidmət və gəlir səviyyəsində istehlakın fizioloji və istehlakçının istehlak davranışı ilə müəyyən olunur. İstehlak, istehsal və gəlir tsiklik xarakter olub, özünəməxsus dinamizm və qanunauyğun

luqlar yaradır.

Gəlirlərin dəyişməsinin eyni qiyməti istehlakın həcmində ve onun strukturunda aIIə, ərazi və sosial-iqtisadi qruplar üzrə müxtəlif dərəcədə kəmiyyət və keyfiyyət dəyişmələri yaradır. Belə ki, adambaşına düşən məcmuu gəlİr, həmçinin pul gəlirləri müxtəlif ailə və sosial-demoqrafık tərkibli əhali qruplannda müxtəlif istehlak seqmentlərini formalaşdınr. Daha çox az təminatlı ailələrdə gəlirlərin artımı, onun ərzaq tələbatını ödəmək üçün kompensasiya olunur. Orta təminat səviyyəsinə görə qruplaşan əhalidə gəlirlərin artımı ilə mənəvi dəyərlərin və xidmət xərclərinin artımı müşahidə olunur. Ən yüksək təmin olunmuş ailələrdə gəlirlərin artımı tamlıqla mənəvi dəyərlərin və xidmət istehlakmm artırılması ilə tarazlaşır. Tarazlı inkişaf tələblərinə uyğun olaraq gəlirlərin xərclərlə uyğunlaşması yeni xərclər, yaxud yığım formalan yaradır. Bazar iqtisadiyyatı şəraitində xərclər strukturunda sahibkarlıq xərcləri hüquqi şəxs olaraq borc, kredit və qiymətli kağızlar, turizm və investor olaraq yeni fəaliyyət növləri üzrə gəlirlərin xərclənməsinin formalan və şərtləri meydana gəlir. Gəlir artıq ancaq istehlak bazan ilə deyil, həmçinin istehsal və investisiya, qiymətli kağızlar və borc bazarının əsas amili və mənbəyi kimi inkişaf edir. Ona görə də gəlirlər və xərclər arasında tarazlı inkişaf və idarəetmə obyekti kimi ərazi, funksional təyinat üzrə tədqiqat aparmaqla əhali gəlirlərinə kəsişmə prizması kimi baxmaq məqsədəuyğundur.

Ərazi gəlirləri və xərcləri ərazi toplu balanslarında ərazinin pul kütləsi, alıcılıq qabiliyyəti və ərazidə əmanətlərin dinamikası ilə tarazlaşdmiır. Ərazinin kompleks inkişafı üçün toplanmış maliyyə resurslarının bölgüsü və yenidən bölgüsü texnologiyası və xüsusiyyətləri qiymətləndirilir. Ərazinin inkişafı üçün lazını olan maliyyə tələbatının imkanları baxımından yeni yaradılan ÜDM-un dəyər göstəricisi və investisiya qoyuluşu (bütün mənbələr hesabına) qiymətləndirilir.

Ərazinin maliyyəsi, gəlir formasını almadan, istehlak və bölgüdə mübadilə və istehlak resursu kimi tarazlaşdıncı amil funksiyasını yerinə yetirə bilir. Ərazi gəlirləri ilə mərkəzləşdirilmiş və yaxud fərdi gəlirlər arasında əlaqə həmin ərazinin

xərcləri dinamikası ilə balanslaşdınlır. Ərazi subyekt gəlirlərin fornıal tərəfi, sosial-iqtisadi inkişaf isə onun xərc istiqamətləri kimi ifadə olunur.

h m 0

P-6)

i=l j=l

burada Xj^. - c gəlirlərinin i-ci əlamətinə görə əsas göstəriciləri; Bk k-çı xərclərin əlamətlərinə görə əsas göstəricilərini əhatə edir.

Gəlir və xərclərin tarazlığı statistik balans ifadəsi deyil, dinamik inkişaf prosesi kimi ifadə olunur. Belə ki, gəlirlər və xərclər arasında yeni mənbələr və qarşılıqlı əlaqədə olan bir- birinİ şərtləndirən göstəricilər təsnifatlaşdmlır. Hər bir göstəricinin formalaşması mənbəyi həm gəlir, həm də istehlak rolunu ifadə edir. Belə ki, natural gəlirlər mecmuu gəlirlərin və məcmuu istehlakın əsas' mənbəyi rolunu oynayır. Məcmuu gəlirlər və xərclər arasında tarazlı inkişaf dinamikasını və əsas amillərin təsir gücünü qiymətləndirmək üçün korrelyasiya və reqressiya tənlikləri qurmaq olar.

**y=(yı, y2.0** = x.(x„ x^, .. ,x„) **(3.7)**

burada, y - gəlirlərin mənbəələr üzrə formalaşma dinamikası; x - xərclərin əsas istiqamətlər üzrə formalaşması.

Gəlirlərin xərclərə təsiri xərclərin hər birinin xarakteri və məzmunu, perspektivi ilə müəyyənləşir. Cari xərclərin normalaşmış «doymuş» halı onun gəlirlərdən elastikliyİni azaldır. Bəzi xərclərin gəlirlərdən elastikliyi nəzəri baxımdan funksional olsa da, sosial-iqtisadi qruplar və adət-ənənə baxımından müxtəlif əlamətlərdən asılıdır. Ona görə də əks əlaqə prosesi gəlirlərin təsirini qiymətləndirmək metodikası birbaşa amillərlə yanaşı, dolayı təsirlə formalaşır. Belə ki, ərzaq İstehlakı, qeyri-ərzaq istehlakı və xidmət istehlakı eyni elastikliyə malik deyil. Tələbatın ödənilmə dərəcəsi ilə istehlak strukturu və onun dinamikası arasında əlaqələr mövcud olur. Tələbatın ödənilmə dərəcəsi yuxarı olan əmtəə və xidmətlərə gəlirlərin dəyişməsi və xidmətlərə əksinə tələbatın ödənilmə dərəcəsi aşağı olan əmtəə və xidmətlərə gəlirlərin artması daha intensiv təsir edir. Ona görə də gəlir

lər və istehlak arasında əlaqələrin birbaşa və əksinə təsirləri qiymətləndirilməklə gəlirlərin xərclərə və istehlak strukturuna təsirini tənzimləmək üçün bazar iqtisadiyyatı şəraitində istehsal seqmentlərini və uyğun istehsal proqramlarını tərtib etməklə bazar tələb və təklifinə təsir etmək oltir.

Əhali gəlirləri istehlak davranışında bazann təşkili, onun idarə edilməsi və əhali rifahını tənzimləmək üçün sosial müdafiə tədbirlərini əsaslandırmaq və tətbiq etmək üçün istifadə olunur. Belə ki, gəlirlərin artımı birbaşa alıcılıq qabiliyyətini onun marketinq strukturunun təkmilləşməsinə şərait yaradır. Gəlirlər eyni səviyyədə əhalinin tərkibi, ailənin üzvlərinin İşlə təmin olunması, məşğuliyyət quruluşu və həmçinin həyat səviyyəsinin formalaşmış dinamikası ilə müəyyən olunur. Məcmuu gəlirlərin tərtibi istehlakm formalaşma mənbələrini, forma və tələbatın ödənilməsi xarakterini konkret istehlak strukturunu, onun seqment tərkibini müəyyən edir. Pul gəlirləri əmtəə-pul münasibətlərinin daha intensiv dəyişməsini, onun əhatə dairəsini, pul dövriyyəsinin tənzimlənməsi ilə nəticələnir, əmtəə, xidmət və kredit münasibətlərinin reallaşması sürətini artınr.

Pul gəlirlərinin istehlak bazannda alıcılıq qabiliyyəti əmtəə və xidmət bazannın təklifi ilə təzahür edir. Real gəlirlər hər hansı əmtəənin və xidmətin məcmuu təklifi və uyğun olaraq onlann istehlak qiyməti ilə müəyyən olunur. İstehlak bazannda mal və xidmət dövriyyəsinin təşkili, onun alıcılıq qabiliyyətinə uyğun seqmentləşdirilməsi real gəlirlərin səviyyəsinin istehlak tələbatına uyğunluğunu təmin etmiş olur.

Əmtəə və xidmət bazarının təşkili əhalinin sosial müdafiə istiqamətlərini nəzərə almaqla idarə olunursa, onda mövcud gəlirlərin daha səmərəli istehlak strukturunda reallaşması, həmçinin potensial gəlir mənbəələrinin yenidən dövriyyəyə qayıtmasını sürətləndirir. İlk növbədə əmtəə və xidmət bazarında rəqabət mühitinin yaradılması, istehlak seqmentlərinin seçilməsi və plan-laşdınlmasında sahibkarlıq mühitinin yaradılması vacibdir. Əmtəə və xidmət təklifinin ümumi həcmİ istehlak seqmentlərinin marketinq quruluşunu tədqiq edib, onun dəyişməsində baş verən tədiyyə qabiliyyətinin proqnozu ilə tarazlı olduqda əmtəə və

xidmətin əvəz edilməsi ehtimalı azalır. Əgər əmtəə və xidmət bazannda tələbatı uyğun əmtəə və xidmət olmadıqda, onun əvəz edilməsi yolu ilə istehlak tələbatı ödənilir. Ona görə də əmtəə və xidmət bazannm təşkili məcmuu tələbatla məcmuu təklif arasında tarazlığın təmin edilməsi tədbirlərini hazırlamaq və həyata keçirməklə yanaşı konkret əmtəə və xidmət üzrə tələb və təklifin amilləri arasında əlaqələri təmin etməkdən xeyli asılıdır. Məhz bu nisbətlər gəlirlərin istifadəsinin səmərəli təşkilini təmin edir.

İstehlakın gəlirlərə təsiri gəlirlərin proqnozlaşdırılmasında, onun stimullaşdırma funksiyası kimi daha da artınıması və bölgüsünün təkmilləşdirilməsİndə özünü əks etdirir. İstehsal, büdcə, maliyyə və əmək resurslannm istifadəsi gəlirlərin iqtisadi amili, tənzimləmə mexanizmi və bölgü meyarı kimİ sosial müdafiə rolunu oynayır. Makrosəviyyəde istehlak strukturu maddi istehsal, maliyyə resursları və əhali rifahımn əsas amili kimi formalaşır. İstehlak davranışında gəlirlərin artımını yaratmaq üçün əmək haqqı gəlirlərinin artımı və istehlak üçün maddi-mənəvi nemətlərin istehlak büdcəsində təmin olunmasına zəmin yaratmaq resurs istifadəsi vasitəsilə gəlirlərdə öz əksini tapır. «İstehsal qiyməti)) gəlirlərlə ölçülür. İqtisadi islahatlann nəticəsi «istehlak həcmində)) baş verən artımla ölçülə bilir. İstehlak xərclərinin artırılması əmək haqqı, transfert gəlirlərinin, həmçinin müştərək istehlak obyektlərinin və sahələrinin saxlanılması və istifadəsi xərclərinin artınimasma səbəb olur.

İstehlak xərcləri birbaşa ailələrin mobil gəlirlərinə və natural istehlak xərclərinə ayrılır ki, bu da dövlət büdcəsinin təhsil, mədəniyyət, səhiyyə və sosial müdafiə məqsədləri üçün aynlaıı vəsaitlərin artmasına, ayn-ayn müəssisə və sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin istehlak sferası üçün müştərək İstifadə, büdcə və mərkəzləşdirilmiş xərclər hesabına ödəmə yolu ilə baş verir. Transfert xərcləri ünvanlı kontingentlər və ümumi istehlak xərcləri üzrə ifadə olunur. Bu iki istiqamətin formaca və məzmunca ödənilməsi xüsusiyyətləri mövcuddur. İlk növbədə pul gəlirləri kontingentin ailə xərclərini ödəmək üçün istifadə olunur. Natural gəlirlər isə hər fərdin, ya

xud kontingentin natural gəlirləri mənimsəmək üçün uyğun tələbatı olduqda mümkün olur və kəmiyyətcə onun miqdarı reallaşır. Belə ki, pulsuz tibbi xidmət, şəhərin ümumi xidməti və ekoloji mühit hər bir istifadəçinin ünvanına yönəldilir. Ona görə də məhz ümumi xərclərin kimin üçün istifadəsində differensialhq mövcud olduğu üçün onun hesablanması və müqayisəsi adam başına düşən büdcə xərcləri və yaxud maliyyə icmal balansından bütün hüquqi və fiziki şəxslər tərəfindən ayrılan vəsaitlərlə ölçülür.

Yenidən bölgü əhalİ qruplan arasında aynlan istehlak fondunun yenidən bölgüsü hesabına fərdi gəlirlərin artmasım şərtləndirir. Ola bilsin ki, çox uşaqlı ailələrin sosial müdafiəsi xərcləri, az uşaqlı, yaxud ümumi istehlak sahələrinin az inkişaf edən ərazilərində nisbətən azlıq təşkil edİr. Beləliklə istehlak xərclərinin strukturu iki əsas prinsipə uyğun olaraq tənzimlənir. Birincisi, əməyin kəmiyyət və faydalılığına görə stimul yaratmaq məqsədi ilə əmək gəlirləri formasında mülkiyyət münasibətlərindən və sahibkarlıq formalarından asılı olmayaraq uyğun tarif və tələb- təklifə görə əməyin haqqı kimi ödənilir. Bu gəlirlər formaca müqavilə, yaxud tarif dərəcələri üzrə tənzimlənir. Digər gəlirlər sosial müavinət, yaxud minimal yaşayış həddini təmin edən dövlət təminatı vəzifəsini heyata keçirmək üçün formalaşır. Ümumi gəlirlərin tərkibində emək və sosial müdafiə məqsədi ilə istifadə olunan resurslann istehsalı və düzgün bölgüsü, həmin gəlirləri olan işçilərin sayı onlann peşə və məhsuldarlıq fəaliyyəti sahibkarlıq fəaliyyətinin nəticələri, həmçinin perspektiv layihələrin istifadəsi və bazan ilə müəyyən olunan investisiyalarla ölçülür.

Gəlirlərin formalaşmasının mənbəələrini dövlət sahibkar və müştərək investisiyalann xərcləri təşkil edir. Dövlət büdcəsinin struktum ayn-ayn sahələrin inkişafının xərc smetasına uyğun və dövlətin gəlirlərinin imkanları ilə ölçülür. Hər bir sahənin xərclərinin optimal ölçüsü həmin sahənin ümumi daxili məhsulda rolu ilə qiymətləndirilir. Dövlət büdcəsi maliyyə mənbəyi rolunu oynadığı kimi, kommersiya fəaliyyəti güdməklə çəkilən xərclərin rentabellik səviyyyəsini nəzərə alır. Digər tərəfdən sosial

müdafiə və rifah məqsədi ilə dövlət büdcəsinin istehlak xərcləri, onun sosial vəzifələri və qrant finrksiyasına uyğun olaraq əsaslandınljr və proqnozlaşdırılır. Xərc stnıktunmu hər hansı gəlirin yaradılması və istifadəsi üçün lazım olan maddi, maliyyə və resurs istifadəsini ödəmək üçün toplanılır, yaxud ayrılır. Məqsədli sosial-iqtisadi inkişaf üçün çəkilən xərclərə uyğun maliyyə mənbələri və onları ödəyən subyektlər planlaşdırılır, onların ödəmə haqlarının forması və hədləri müəyyən edilir.

Dövlət büdcəsi sahibkarlıq fəaliyyəti xərclərinin maddı-maliyyə əsasını tələbat sistemi və real İmkanlarla əlaqəli şəkildə variantlara uyğun olaraq səmərəli yollarla vəhdətdə pianlaşdınr və idarə edilir. Xərclərin ayrılmasında layihənin hesabatlar üzrə reallaşması üçün lazım olan imkanlar və onların istifadəsi proqramlar üzrə tərtib olunur. Hər bir iqtisadi və sosial proqramın reallaşması üçün müxtəlif yanaşma və inkişaf texnologiyası nəzərdə tutulursa, onların istifadəsində təşəbbüskarlıq və bazar diktəsi özünün mütərəqqi rolunu oynayır. Belə ki, maliyyə resurslarının məhdud çərçivəsində əmək haqqı və sosial müdafiə xərclərinin sabitləşmiş və nəzərdə tutulmuş artım tempində uyğun olaraq xərc strukturlannın seçilməsi üçün resurs proqramlarının və texnoloji xətlərin seçilməsi əsas amil rolunu oynayır. İstehlak metodu ilə ümumi daxili məhsulun və ondan hesablanan məhsulun və dövlət gəlirlərinin, əhali və sahibkar gəlirlərinin hesablanmasına qoyulan xərclərin dinamikası və mənbəələri ilə müəyyənləşdirilir. Hesab edilir ki, hər hansı layihənin mövcud qiymətlərlə reallaşması üçün mövcud resurs strukturu və onların İstifadəsi texnologiyasında iqtisadi və sosial nəticələr əldə etmək mümkündür. Əgər mövcud mümkünlüyün əldə edilməsi üçün lazım olan resurslann yeni layihəsi meydana çıxırsa, lazım olan əlavə xərclər və resurslar tapılır.

Xərclərin son məhsulda rolu, texnoloji prosesin göstəricisi ilə müəyyənləşir. Aralıq istehlakın aşağı düşməsi, istehsal prosesinə çəkilən xərclərə uyğun olaraq son məhsul istehsalının artırılması imkanlan ilə müəyyən olunur. Beləliklə, bazar tipli inkişaf modeli, kommersiya mənfəəti əldə etməklə rentabellik səviyyəsini yüksəltməkdən ibarət olmalıdır. İstehlak davranışı an

caq istehsal strukturu marketinq göstəriciləri ilə deyil, həmçinin bazann marketinq strukturu itə müəyyənləşir. O cümlədən idxal məhsullannın həcmi, onun strukturu, hər hansı məhsulun qiyməti və onun istehlak xüsusiyyətləri, əhali gəlirlərinin istifadəsi, həmçinin xüsusi kapitalın regionda reallaşması, yəni istifadəsi üçün şərait yaradır. Gəlirlərin regionda qalması yeni iş yerlərinin açılması və ixracatyönlü məhsullann istehsalı üçün fəallığı artırır. Məhz bu fəallıq dərəcəsi intensiv amil olaraq qiymətləndirilib gəlirlərin artımında təşkilati-iqtisadi amil kimi nəzərdə tutulur. Gəlirlərin artımının xarici əlaqələr amili ixracatyönlü məhsulların artırılması və idxalın istehlak strukturunda xüsusi çəkisinin azaldılması yolu ilə yerli resurslann payının yüksəldilməsinin təmin olunmasıdır. İxrac və idxalın dinamikası, onun marketinq strukturu, daxili gəlirlərin istehsalı, istifadəsi və başqa ölkələrə axımnı formalaşdınr. Mal və xidmət dövriyyəsi iiə əhalinin alıcılıq qabiliyyəti arasında tarazlı və üstün artma meylləri, daxili sahibkarlığa stimul yaratmaq istiqaməti və tədbirlərini müəyyən edir, Azərbaycanın Statistik Göstəriciləri əsasında tərtib olunmuş 3.6J^^o-li cədvəldə İdxal və ixracın dinamikası göstərilir [6; S.668].

Metodoloji əhəmiyyət olaraq idxal və ixracın hər birinin istehsalda və istehlakda rolunun makrosəviyyəli təhlili və proqnozu, habelə hər bİr əmtəə və xidmət istehsalı və istehlakında rolu əmtəə və xidmət bazarının təşkili metodikasını və tədbirlərini əsaslandınr.

Cədvəldən göründüyü kimi son illərdə ixracın idxalata qarşı üstün artması meyli son ikİ ildə müsbət saldoya gətirib çıxarmışdır. Hər bir əmtəə və xidmətin istehsalı, istehlakı və ixracatı onun tədiyyə balansını müəyyənləşdirir.

gc (3.8)

Burada c - məhsulun ərazi tələbi; Y- əmtəə və xidmət təklifi; UQ - istehsal həcmi; U, - ixracat; Ug - idxal olunan uyğun c məhsullarıdır.

İdxal və ixracın dinamikası (min ABŞ dolları)

| **İllər** | **Dövriyyə** | **İdxal** | **İxrac** | **Saldo** |
|---|---|---|---|---|
| **1991** | **4002234.3** | **1881266,2** | **2120968,1** | **239701,9** |
| **1992** | **2423835,0** | **930862,0** | **1483973,0** | **544111,0** |
| **1993** | **1353467,1** | **628806,0** | **724661,1** | **95855.1** |
| **1994** | **1430644,7** | **777910,5** | **652734,2** | **-125176,3** |
| **1995** | **1304856,5** | **667657,2** | **637199,3** | **-30457,9** |
| **1996** | **1591881,8** | **960636,3** | **631245,5** | **-329390,8** |
| **1997** | **1575652,9** | **794343,2** | **781309,7** | **-13033.5** |
| **1998** | **1682647,9** | **1076497,4** | **606150,5** | **-470346,9** |
| **1999** | **1965552,4** | **1035888,8** | **929663,6** | **-106225,2** |
| **2000** | **2917281,1** | **1172071,2** | **1745919,9** | **573148,7** |
| **2001** | **3745159,8** | **1430677,4** | **2314282,4** | **883405,0** |
| **2002** | **3832883,7** | **1665484** | **2167399,7** | **501915,7** |
| **2003** | **5218146,7** | **2626427,3** | **2591719,4** | **-34707,9** |

Hər hansı c məhsulunun istehsalında çəkilən xərclərin maliyyə mənbəyi rolunu oynayan hüquqi və fiziki şəxsin vəziyyətindən asılı olaraq əraziyə kapitalın axını yaxud hazır məhsulun və xidmətin xarici ölkələrə istifadə üçün daşınması baş verir. Beləliklə, istehlak strukturunun inteqrasiya və beynəlxalq əlaqələr sistemində formalaşmasının açıq sistemi formalaşır. Bu açıq sistemin səmərəlilik dərəcəsi həmin sistemdə İştirak edən ölkənin ümumi iqtisadi strategiyasımn əsas istiqamətləri və konkret biznes fəaliyyətinin xüsusiyyətləri ilə və onlann iqtisadi dövriyyə cəlb edilməsi qabiliyyəti ilə müəyyənləşir.

Azərbaycanda baş verən İqtisadi artımın əsas göstəricilərinin dinamikasında xarici investisiyalann artımı keçmiş SSRİ respublikalarında birincilər içərisindədir. 2003-cü ildə əsas kapitala qoyulan investisiyalar 19 trilyon təşkil etmişdir ki, bu da ümumi daxili məhsula nisbətən 54% təşkil edir.

İdxal və ixracın mal strukturu pul gəlirlərinin istifadəsinin əsas istiqamətlərini müəyyən edir. Belə ki, avadanlıq və texnologiyaların idxalı iş yerlərinin açılması üçün istifadə edilirsə, gəlirlərin mənbəyini artırır. İşçi qüvvəsinin respublikada qalma

sı, onun istehlakı üçün lazım olan pul gəlirlərinin dövriyyədə qalmasında və pulun miqdannın ümumi daxili məhsulda xüsusi çəkisinin artımına səbəb olur. Ümumi daxili məhsulun strukturunda aralıq və son məhsulun istifadəsinin əsas istiqamətləri və mənbəələri gəlirlərin istifadəsinin texnoloji quruluşunu müəyyən edir. Belə ki, aralıq məhsulunun istifadəsində idxal məhsullarının miqyası son məhsulun respublikadan axımna səbəb olur. Son məhsulun ixracatı isə gəlirlərin artınimasına səbəb olur.

Əhali istehlakının maddİ əşya xidmət forması onun gəlirlərinin əsas istifadə istiqamətlərini gəlir və istehlak balansının maddi-maliyyə balanslarla əlaqəsinin qarşılıqlı təsir və əsas formalaşma mənbələrini müəyyənləşdirir.

Əhali gəlirlərinin artımı və strukturu uyğun olaraq onun istehlakının quruluşunda öz əksini tapır. Ərzaq istehlakının artımı mal dövriyyəsini və yerli istehsalı stimullaşdırır. Ərzağın natural istehlakı məcmuu gəlirlərin strukturunu müəyyənləşdirir.

Məcmuu gəlirlərin formalaşmasında fərdi sahibkarlıq məhsullanmn rolu və xüsusi çəkisi artır. Belə ki, respublikada ət və ət məhsullarına olan tələbatın ödənilməsində fərdi istehsalın rolu artır. Əhali bir sıra ərzaq məhsullarına olan tələbatı öz istehsalı və birbaşa istehlakı hesabına ödəyir ki, bu da İstehlak tələbatının ödənilməsinin mənbələrini formalaşdım.

Ev təsərrüfatının istehlak xərclərinin strukturunun tədqiqi əhalinin maddi-əşya formasında gəlirlərin istifadəsinin əsas istiqamətləri haqqında təsəvvür yaradır. Ümumi meyllər və dəyişmə dinamikası qanunauyğunluqlar xərclər və gəlirlər arasında baş verən struktur təsiri qiymətləndirir. Əhalinin istehlak xərcləri Azərbaycanın Statistik Göstəriciləri əsasında tərtib olunmuş 3.7 JS'o-li məlumatlarından görmək olar [6; s. 179].

İstehlak strukturunda ərzağa tələbatın azalması onun miqdarının azalması ilə deyil, gəlirlərin artması ilə yanaşı digər məhsulların İstehlakının daha intensiv artması ilə izah olunur. Ev təsərrüfatı üzrə xidmət xərclərinin artımı 1990-cı ildə 8,9%-dən 22%-ə yüksəlməsi, xidmətin daha da elastik olaraq gəlirdən asılılığı ilə izah olunur. Xidmət istehlakı respublikada gəlirlərin ar-

tırılmast, respublikaya gəlon kapitalın artımına səbəb olur. Xidmət istehlakı xüsusi növ istehlak olub, əhalinin gəlir səviyyəsindən və onlann istehlak davranışından asılı olaraq formalaşır.

*Cddval 3.7.*

Əhalinin istehlak xərcləri (faizlə)

| İstehlak xərcləri | 1990 | 1995 | 1997 | 1998 | 1999 | 200! | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|---|
| Cəmi xərclər | 100 | 100 | 100 | ■100 | 100 | 100 | 100 | 100 |
| 0 cümlədən | | | | | | | | |
| Ərzağa | 53,4 | 76,0 | 77,6 | 77,1 | 72,2 | 68,3 | 53,6 | 54,7 |
| Qeyri-ərzaq məhsullarının alınmasına | 36,4 | 17,1 | 15,2 | 16,2 | 17,5 | 7,1 | 16,9 | 15,8 |
| Alkoqollu içkilərə | 1.3 | 0,9 | 0,6 | 0.9 | 1.1 | 2,6 | 0,6 | 0,7 |
| Xidmətlərə | 8,9 | 6,0 | 6,6 | 5,2 | 9,0 | 22,0 | 28,9 | 28,8 |

Əhalinin istehlakında xidmətin payı təminat səviyyəsindən asılı olaraq artma meylinə malikdir. Aztəminatlı ailələrdə xidmət istehlakı və onun ən vacib növləri xarakterikdir. Xidmət istehlakmın tərkibində pulsuz xidmətlər daha çox xüsusi çəkiyə malikdir. Yüksək təminatlı ailələrdə xidmət istehlakının ümumi kütləsinin artımı ile onun tərkibində daha mütərəqqi xidmət istehlakı üstünlük təşkil edİr. Xidmət istehlakının yeni formaları təsərrüfatçılıq obyekti kimi yeni sahələrin inkişafına, özünəməxsus pul gəlirlərinin və emək haqqı sisteminin formalaşmasına, ümumi daxili məhsulda xidmət sferasının rolunun yüksəldilməsinə və əhalinin məşğulluğunda xidmət sferasının rolunun artımına gətirib çıxanr. Yerli resursların təbii, coğrafi şəraitin intensiv əhali axını şəraitində və beynəlxalq kontraktlann reallaşması üçün respublikaya gələn iş qüvvəsinin xidmət tələbatını ödəmək üçün gəlir mənbəyi rolunu oynamasının perspektivliyi daha da artır. Beynəlxalq turizm, xidmət sferası mövcud gəlirlərin bütün fonna və mülkiyyət formalarına təsir edir. Əhali gəlirlərində gəlir mənbəyi kimi xüsusi məhsullann satılması və xidmət göstərilməsi hesabına alman gəlirlərin miqdarı artır.

Hər bir istehlak məhsulunun və istehlak fəaliyyətinin məz-

niunu və elastiklik dinamikasına uyğun olaraq aparılan iqtisadi artım və struktur siyasət yeni gəlirlərin yaradılması və onun səmərəli istifadəsi üçün amil funksiyası rolunu oynayır. Gəlirlərin istehlakdan asılılığı düzgün menecment və biznes fəaliyyəti ilə bağlıdır. İstehlak sferasında bölgü və gəlirlərin dinamikasında daha rəqabətə dözümlü və səmərəli iqtisadiyyat rol oynayır. Ona görə də istehlak sferası makroiqtisadi istiqamətlər kimi sahə, ərazi və funksional bölgü mexanizmlərinin dəqiqliyini və onların prioritetliyini nəzərə almalıdır.

İstehlak sferası perspektiv xərclərin və daxili resurslann istifadəsinə stimul yaradan sahələrin ən vacib strateji məqsəd kimi əsaslandırılması, regionlann resurslarından daha səmərəli istifadə edilməsi yolları ilə bölgə gəlirlərinin artınlmasına səbəb olur. Ayrı-ayrı ərazilərin özünü maliyyələşdirmə və xərcləri hesabına perspektiv gəlirlərinin artınıması yolu ile getməsi daha prioritet və bazar tipli inkişafın əsas yoludur.

Regional inkişafın əsas amili olaraq, yerli gəlirlərin regionların inkişafında rolunun artınıması və xarici mənbələr hesabına yerli büdcəyə daxil olan resurslar hesabına sahibkarlığın inkişafı əsas apancı istiqamət rolunu oynayır. Regionlann kompleks sosial-iqtisadi inkişafı gəlirlərin artınlmasımn əsas istiqaməti olduğu kimi, onun istehlak bazan kimi təşkili və idarə olunması, regiona gələn maliyyə və maddi vəsaitlərin əsas coğrafi zonası kimi qəbul olunur. İstehlakın gəlir mənbəyi rolunu oynaması kapital qoyuluşuna uyğun olaraq hər manatın effekti ilə ölçülür.

= (3.9,

harada ki, Ötp(t,), 5tp(to) islahatdan sonra və əvvəl son effektdir; M(t,), M(to) həyata keçirilən maliyyə vəsaitinin qoyuluşudur.

Əhali xərclərində istehlakın növü, seqmentləri və ayrı-ayrı mal və xidmət üzrə dinamikası uyğun olaraq ekspotensiya qanunauyğunluğu ilə dəyişir. Bəzi əmtəələr üzrə dəyişmə xətti xarakter daşıyır. Bəzi əmtəə və xidmət üzrə ekspotensiya əyrisi ilə ifadə olunur.

$$y = \quad Ag \quad = e \qquad \mathbf{(3.10)}$$

$$y = l \qquad = 1 \qquad \mathbf{(3.11)}$$

Burada, e(t) istehlak xərclərinin gəlirlərdən asılılığı, yaxud dəyişmə elastikliyidir.

Xərclərin ümumi daxili məhsulda, dövlət büdcəsində, ailənin xərclərində iqtisadi inkişafla yanaşı dəyişmə meylini ayn- ayn məhsullar üzrə onun tutumunu, hədlərini və elastik 1 iyinin dəyişmə intensivliyini proqnozlaşdırmaq, perspektiv gəlirlərin həcmi və onun forma və mənbələri haqqında senarilər yazmaqla mümkündür. Beləliklə, proqnozlaşdırma sistemində sosial- iqtisadi inkişaf daha çox istehlak meylləri baxımından məqsədli və real olur. Hər hansı tədbirin son nəticəsi kimi qiymətləndirilir və onun gəlirlərə olan tələbatı müəyyən edilir.

İstehlak davranışı çox amilli mürəkkəb-sosİal iqtisadi kateqoriya və sistemli təsvir metodikası olduğu üçün gəlirlərin və iqtisadi artımın mümkün və optimal variantım qiymətləndirməyə və onun həlli yollannı müəyyən etməyə imkan verir.

İstehlak son nəticə olaraq rifah və konseptual inkişafın iqtisadi modeli kimi bazar iqtisadiyyatına uyğun variantlı hesablar aparmağa imkan verir.

### 3.3. Əhali gəlirləri sisteminin təkmilləşdirilməsi istiqamətləri

Əhali gəlirlərinin dinamikası, strukturu, forma və mənbələri, iqtisadi artım və sosial tələbata uyğun dəyişmə xüsusiyyətləri, onun təhlili və qiymətləndirilməsinin, hesabı və proqnozunun özünəməxsus spesifik xüsusiyyətlərini, metodiki cəhətlərini və inkişafı üçün lazım olan təşkilati-idarəetmə tədbirlərini formalaşdınr. Əhali gəlirləri öyrənilmə məqsədi və tədqiqatı dərinliyindən asılı olaraq, makrosəviyyəli idarəetmə və mikrosəviyyəli araşdırma obyekti olaraq təsviri və funksional dəyişmə modellə-

rinə uyğun olaraq qiymətləndirilə bilər. Makrosəviyyoli tədqiqat obyekti kimi ümumi daxili məhsulun formalaşması, onun əmtəə-xidmət strukturu, texnoloji-marketinq və istehlak seqmentləri üzrə tələbatın ödənilmə dərəcəsində rolu əsas götürülür və analitik ifadələr üzrə tədqiq olunur.

MİkrosəviyyƏdə gəlirlərin daxili strukturu, forma və istehlak məqsədləri ilə istifadə perspektivləri və sosial-iqtisadi amillərdən asılı dəyişmə meylləri qiymətləndirilir.

Əhali gəlirlərinin iqtisadi və sosial inkişafın dinamikası və əhalinin rifahı baxımından qiymətləndirilməsi üçün onun ümumi daxili məhsuldan funksional asılı artımı və əsas gəlir mənbələri üzrə formalaşma dinamikası əsas götürülür.

y=A«e"‘ (3.12)

Burada y - gəlirlərin artımı; A„ - hər hansı bazis ili üçün gəlirlərin səviyyəsi; b - ümumi daxili məhsulun artımı ile gəlirlərin artımı arasında elastiklik əmsalı; i - uyğun dövrlərdir.

Əhali gəlirləri həmçinin bölgü münasibətləri və prioritetlərdən asılı olaraq formalaşır. Sahələrin hər birinin son məhsulunun tərkib hissəsi və yığımı ilə istehlak fondu arasında münasibət, yaxud sahibkann son məhsulunun bölgüsü meyllərinə uyğun formalaşır.

^ = x^+y, (3.13)

j

Burada - i sahəsinin istehsal həcmi; a^^ - həmin sahənin c məhsulu üçün sərf etdiyi xərclər matrisiası; - i sahəsinin son məhsuludur.

Son məhsul gəlirlər, kapital qoyuluşu və dövlət büdcəsində sosial məqsədlər, sığortalar üzrə istifadə olunur. Son məhsulun bölgüsü sahələr, sahibkarlar və dövlət büdcəsi, yerli büdcələrin və bələdiyyələrin büdcəsinin formalaşması və qarşılıqlı əlaqəsi ilə müəyyən olunur. İslahatlar proqramı və hansı investisiya və biznes əməliyyatı üçün lazım olan proqramlann reallaşması üçün mərkəzləşdirilmiş büdcə və məqsədli fondlar yaradılır. Məqsədli proqramlann maliyyə əsası birbaşa investisiya, kreditlər və sosial proqramlar üzrə maliyyələşdirilir. Dövlətin gəlir və xərcləri əra-

zi icmal balansı və istehlak xərcləri balanslar üzrə tesvir olunur, Balans metodu hər bir gəlirin özünün diger sahə amillerine təsirindən asılı olaraq deyişmə dinamikasım ve xərclərin istiqamətləri üzrə məhdud səviyyəsini müəyyən edir.

$$E\,EG;, = \sum_{k=1}^{k-m} Xərc L \qquad (3.14)$$

**burada G;j. - c gəlirlərinin mülkiyyət və sahibkarlıq formasından asılı olaraq i - obyekt ve təsərrüfat formaları üzrə formalaşma mənbələri. Xərc,;' - t - gəlirlərin k sahə xərclər üzrə funksional təminatına görə strukturunu müəyyən edir.**

**Gəlir və xərclər balansı subyektlər üçün müxtəlif funksional təyinat və mənbəələr kəsb etdiyi üçün onların qimyətləndirilmə- sİ xüsusi metodlar ile ölçülür ve qiymətləndirilir. Gəlir və xərclər arasında balans metodı statistik tənzimləmə və proqnoz üçün istifadə olunur. Struktur təhlil hər hansı i gəlİr növünün, hər hansı k istehlakına təsir gücünü qiymətləndirir. Mövcud seçim və tələbatın ödənilmə dərəcəsi arasında əsas prioritetləri müəyyən edir. Gəlir və xərclər balansı artım və 'struktur modeli iİə qiymətləndirilir. Artım modelində hər hansı rekurent münasibətlərdə birbaşa və dolayısı təsirlər nəzərdə tutulur.**

**Dinamik balanslar hər bir gəlirin dəyişməsinin amilləri ilə baş verən struktur dəyişmələri qiymətləndirməklə ifadə olunur. Funksional struktur model və qiymətləndirmə üsullan ayn~ayn gəlirlərin amillərdən asılı olaraq qiymətləndirilməsi və onun perspektiv artımım, ümırnıi artımla tarazlı təsviri metodikası ilə reallaşır. Əhali gəlirlərinin əmək haqqı gəlirləri ümumi daxili məhsuldan, transfert gəlüləri büdcə xərclərindən ve sahibkarlıq gəlirləri sahibkarlığın inkişaf dinamikasından asılı olaraq funksional modellə təsvir olunur. Sonradan həmin gəlirlər balans tənlikleri ilə ifadə edilir.**

**,..x„) (3.15)**

$$\sum_i f,(x,,..jı.) = \dot{I}Y, = \sum_t l;Y.(t) \qquad (3.16)$$

**Burada, y; - i gəlirlərinin x,...x„, amillərindəti funksional**

ifadə yolu ilə tapılan həcmi; Yj(t) - ümumi gəlirin balansdan kənarda proqnozu ilo müəyyən edilir.

Təbii ki, hər bir gəlir növünün formalaşması və perspektivi bir sıra fərqli amillərdən asılı olduğu üçün onların ayrılıqda proqnozu yolu ilə həmin alınan məcmuu gəlir, gəlirin ümumi daxili məhsuldan asılılığı yolu ilə alınan gəlirlər göstəricisindən fərqli ola bilər. Sonradan stmktur təhlil və real dəyişmə meyllərini tətbiq etməklə dəqiqləşdirmək mümkündür.

Əhali gəlirlərinin balans metodları ilə qiymətləndirilməsi məhz iqtisadi balanslann tərkibində onun rolu ilə müəyyənləşir. Belə ki, ayn-ayn ərazilər, sosial qruplar məşğuliyyətinə və peşə sənətinə uyğun fərqlənən ailələr, həmçinin fərdlər üçün ayrılıqda gəlirlər və xərclər balansı tərtib olunur. Planlı təsərrüfat sistemində belə balanslar dövlət plan layihələrinin tərtib hissəsi olmaqla təsdiq olunub əsaslandınimış inkişaf kimi qiymətləndirilirdi. Müasir bazar iqtisadiyyatı şəraitində gəlir və istehlak xərc balansı, dövlət büdcəsi, pul dövriyyəsi, həmçinin tarazlı inkişafı təmin etmək variantlarla hesablama aləti kimİ istifadə olunur. Əhali gəlirləri və xərcləri balansı hər bir gəlirin mənbəələri, meylləri və bütün gəlirlərin kompleks təsviri üzrə makro və mi^o səviyyəli balanslara bölünür. Daha çox funksional təhlil vo sosial-iqtisadi parametrlərin qiymətləndirilməsi üçün ümumi differensasıya göstəriciləri ilə yanaşı, komponentlər üzrə diffe- rension yanaşma daha əhəmiyyət kəsb edir [64; 82; 84; 95].

Gəlirlərin təhlili və proqnozu, onun əhali və sosial iqtisadi qruplar üzrə paylanmasının təsviri modeli və statistik paylanma parametrlərinin dinamik təhlili və perspektiv paylanma ilə keçid modelinin seçilməsi və ifadəsi mühüm əhəmiyyət kəsb edir. Keçid modeli transformasiya məqsədi ilə formalaşmış qanunauyğunluğun və statistik əlaqənin dinamik və yaxud bazar tipli xüsusiyyətlərini nəzərə almaqla daha çevik asılılıq formasına deyilir.

Qeyri-bərabərliyin gəlirlərin paylanmasında səviyyəsini hesablamaq üçün Lorens əyrisindən və Cini əmsalından istifadə olunur. Lorens əyrisini qurmaq üçün absis oxunda əhalinin, or- dinat oxunda gəlirlərin faizlərlə məbləği müəyyənləşdirilir.




Gəlirlərin paylanmasında qeyri-bərabərliyin konkret səviyyəsini hesablamaq üçün Cini əmsalından istifadə olunur. Bu əmsalın ədədi qiymətini ştrİxlənmiş fiqur sahəsinin OAB düzbucaqlı bərabəryanlı üçbucağın sahəsinə olan nisbətinə bərabərdir. Cini əmsalı 1990-cı ildə 0,35 dən 1997-ci ildə 0,7-yə qədər artmışdır [34, s. 103].

Azərbaycanda əhalinin 49%-nin kasıblıq həddində olması əhalinin yansınm gəlirlərinin bütün gəlirlərin 30%-nin təşkil etdiyini göstərir. Onda Cini əmsalında 0,3% qeyri-bərabərlik əhalinin 49%-nin sahib olduğunu, qalan 50-nin isə 70%-ə sahib olduğunu gösterir.

Əhalinin gəlirlərinin paylanması hər bir ailənin və hər bir fərdin əmək qabiliyyətini, sahibkarlıq fəaliyyəti və həmçinin onun sosial-iqtisadi vəziyyəti ilə struktur-funksional model şəklində təsvir olunub qiymətləndirilir və proqnozlaşdırılır. Belə ki, pensiyaçıların gəlirlərinin paylanmasında sosial pensiyaçıların sayı, əmək pensiyaçılarımn əmək haqqısının differensasiyası, onun sahə və ərazi üzrə fərqləri və həmçinin en yuxarı pensiya səviyyəsi müəyyən differensasiyasının yaradılmasına səbəb olur. Gəlirlərin paylanmasında desil, kvantil, mediana, moda xarakteristikaları fonksional transformasiya modelinin əsas keçid xarakteristikalarını müəyyən edir. Desil əmsallar ən aşağı gəliri olan

əhalinin 10%-I ilə ən yuxan gəliri olan 10%-nin arasında nisbətləri müəyyən edir.

Gədir dcsil Gəlir"'"(1 0% - ə uyğun) / Golir"'"(10%-əuyğun) (3.17)

Azərbaycanda planlı təsərrüfat sistemində bu əmsal 3:1 nisbəti arasında dəyişirdirsə, indi hesablamalara görə 30:1 qədər qalxır. Gəlirlərin modasının yuxan olması orta illik artım tempindən asılıdır. Ümumi daxili məhsulun artması və bütün qruplar üzrə onun təsirinin artım istiqamətində olması gəlirlərin artımına, yəni onun pik nöqtəsinin qalxmasını müəyyən edir. Gəlirlərin paylanmasının medianı elə əhali nisbətlərini müəyyən edir ki, onların 50% nisbətlərində gəlirlərinin səviyyəsinin nisbətini xarakterizə etsin. İndiki şəraitdə 50%-investisiya 120000 manat adam başına gəlir əldə etməsi həmin sahə qədər 12D000 min manatdan yuxarı gəlirlərə malik olmasını və gəlİr üçbucağı kimi onun qeyri-münəzimliyinin Cini əmsalının, yoxsulluğun Cini əmsalı ilə eyniliyini müəyyən edir.

"-cini - '^cini IJ.IÖ;

Gəlirlərin formalaşması hər ailədə demoqrafik tərkiblə, hər bir fərdi gəlirin səviyyəsi, onun mənbəələri arasında olan differensiasiya əmsalları ilə qiymətləndirilir. Ev təsərrüfatında uşaqların sayı, işleməyənlər və ya yaşına görə təsərrüfat başçılannın gəlirləri müxtəlif otur.

18 yaşınadək uşaqları olan ev təsərrüfatlannm gəlirləri Azərbaycanın Statistik Göstəriciləri əsasında tərtib olunmuş 3.8JV9-1İ cədvəldə göstərilmişdir [6; s.l28].

Cədvəldən göründüyü kimi uşaqlann ailədə artması onlann adambaşına düşən gəlirlərinin azalması ilə müşahidə olunur. 4 uşağı olan ailələrdə gəlirlərin adambaşına düşən səviyyəsi uşağı olmayan ailələrdən, demək olar ki, 2 dəfə aşağıdır. Uşaqlı ailələrdə gəlirlərin xarakteri dəyişir. Daha çox özünəməşğulluqdan gələn gəlirlər, müavinət ve kompensasiyalar, kənd təsərrüfatından gələn gəlirlər təşkil edir.

Torpaqların əhaliyə paylanması nəticəsində uşaqlı ailələrin 18 yaşınadək olan uşaqlannın əməyindən istifadəsi nəticəsində

gelirlərin səviyyəsi yüksək olur. Uşaqsız ailələrin adambaşına düşən gəlirlərin əsas mənbəyini digər məşğulluqdan olan gəlirlər, kend tesərrüfatmdan gələn gəlirlər və pensiyalar təşkil edir. Uşaqsız ailələrin adam başına düşən gəlirləri 192,6 min manat 4 uşağı olan ailələrdə isə 104,0 min manat təşkil edir. Uşaqlann bir-bir artımı adambaşına düşən gəlirlərin uyğun olaraq S5 min, 13 min, 7 min, 4 min manat azalması ilə müşahidə olunur.

*Cədvəl 3.8.*

**18 yaşınadək uşaqlan olan ev tesərrüfatlanmn gəlirləri (aylı adambaşına, manatla)**

| Gəlirlər cərht | Uşaqsız ailələr | 1 uşağı olan ailələr | 2 uşağı olan ailələr | 3 uşağı olan ailələr | 4 uşağı olan ailələr |
|---|---|---|---|---|---|
| Gəlirlərin cəmi | 192566 | 145726 | 131682 | 124515 | 104027 |
| Məşğulluqdan | 78764 | 62902 | 54206 | 44030 | 33191 |
| Kənd təsərrüfatından gəlirlər | 61036 | 49750 | 46146 | 53076 | 44254 |
| Ozüməşğulluqdan ^elirlaı | 2058 | 3603 | 2773 | 3981 | 3478 |
| İcradan Rəliılər | 7553 | 5075 | 4713 | 4245 | 4737 |
| Əməkdən Rəlirlər | 4804 | 3245 | 3333 | 3386 | 2586 |
| Persiyalar | 24457 | 10083 | 8838 | 6349 | 6392 |
| Müayinət və kompensasiyalar | 822 | 1893 | 2941 | 3489 | 4826 |
| Təqaüdlər | 340 | 201 | 110 | 65 | 61 |
| Qohum və dostlardan səltrləT | | 6971 | 5993 | 4083 | 3177 |
| Digər gəlirlər | 3112 | 2004 | 2529 | 1811 | 1336 |

Gəlirlərin xarakteri ilə ailənin demoqrafik tərkibi həmin ailənin alıcılıq qabiliyyətini və istehlakının xarakterini, məzmunu arasında uyğunluq yaradır. İcarədən gələn gəlirlər əmlakın icarə verilməsi ve məşğulluqla tamamlamr.

Gəlirlərin formalaşması və istifadəsinin kompleks tədqiqi, istehsal, bölgü və istehlak əlaqələrini sistemli təhlil edib və idarə

edilməsi tədbirlərini əsaslandırmaq üçün differensial yanaşma və balans üsulu bazar İqtisadiyyatı şəraitində də öz əməli çevikliyini saxlayır. Hər hansı bir sosial müdafiə tədbirlərinin hazırlanması, əmək haqqı, pensiya təminatı və sosial müdafiə tədbirlərinin həyata keçirilməsi üçün yoxsulluq həddinin ölçülməsi və yoxsulluq həddində yaşayan əhalinin həyat səviyyəsinin yüksəldilməsi tədbirləri və orta təminatlı ailələrin yaşayış səviyyəsinin saxlanılması üçün profilaktik tədbirlərin həyata keçirilməsi tədbirləri, məhz sistemli və gəlir istehlak məntiqinin reallaşması ilə mümkündür.

*Cədvəl 3.9.*

Gəlir və istehlakın differensial və sistem təsviri

| **Əhalinin gəlirlərinin səviyyəsinə görə paylanması** | | | | **Əhalinin istehlakı** | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Gəlirlərin səviyyəsi** | **Ailələrin sayı** | **Ailə üzvləri** | **Gəlirlər** | **İstehlak olunan maddi və mənəvi nemətlər** | **Ərzaq** | **Qeyri-ərzaq** | **Xidmət** | **Yığım** |
| **30000** | **N,** | | **G,** | **C,** | **Ə.** | **QƏ,** | **X,** | **M,** |
| **30000-100000** | **N;** | | **Gi** | **Q** | **Əl** | **QƏ;** | **X\|** | **M;** |
| **100000-600000** | **N,** | | **G,** | **Cj** | **Ə,** | **QƏ3** | **X3** | ***M,*** |
| **600000-!000000** | **N4** | ***N,*** | **G4** | **C4** | **Ə4** | **QƏ4** | **X4** | **M,** |
| **1000000-l500000** | **N,** | | **Gj** | **Q** | **Əj** | **QƏj** | **X5** | **M,** |
| **1500000-2000000** | **Ns** | | **G,** | **C.** | **ə.** | **QƏ,** | **X,** | **M,** |
| **2000000-3000000** | **N,** | **^7** | **Gv** | **C,** | **ə,** | **QƏ,** | **X,** | **M,** |

Cədvəl əhalinin gəlir və istehlakının blok sxemi kimİ matrisa formasında təsvir olunur. Mövcud paylanma parametrlərini statistik qiymətləndirib, onlann perspektiv transformasiyasını müəy

yən etmək olur. Belə ki, gəlirlərin paylanmasının differensasiyası əmsalına görə gəlirlərin dəyişməsi faktorlarından asılılığının analitik ifadəsi, funksional doyişmə dinamikası nozəri cəhətdən müəyyən edildikdən sonra perspektiv gəlir səviyyəsini proqnozlaşdırıb, onun formalaşmış struktur-funksional modelə görə dif- ferensasiyasmı tapmaq olar.

Əhali gəlirlərinin ümumi daxili məhsuldan asılılığı eksponensiya qanununa uyğun dəyişməsi qipotez edilir: jr=c"'“”‘

Burada y - x ümumi daxili məhsulun artımı; a, b ümumi daxili məhsulun dəyişməsinə uyğun olaraq eksponensiya dəyişməsinə müvafiq gəlirlərin dəyişməsinin parametrləridir. 1996-cı ildən ümumi daxili məhsulun orta illik artım tempi 8% olduğu üçün 1995-ci ilin səviyyəsi başlanğıc kimi götürüldükdə funksiyanın dəyişmə dinamikası y=e®®'''şəklində ifadə olunur. t =0 olanda gəlirləri995-ci ilin əhali gəlirlərinə bərabər götürülür.

Əhali gəlirlərinin transformasiya modeli uyğun olaraq əmək haqqı, sahibkarlıqdan gələn gəlirlər və transfert gəlirlərin transformasiyası formasında verilir. Sosial- iqtisadi qruplarda ayrı-ayrı gəlirlər digər gəlirlərə nisbətən üstünlük təşkil edirsə, həmin gəlir transformasiya modelinin nüvəsini təşkil edir. Digər gəlirləri əsas gəlirlərə nisbətən baş verə bilən amillərin dəyişmə ehtimalına uyğun olaraq dəyişməsini qiymətləndirmək metodikasından asılıdır.

Belə ki, büdcədən maliyyələşdirilən sahələrdə işçilərin gəlirlərinin səviyyəsi onlann orta aylıq əmək haqqının dəyişməsi ilə müəyyən edilir. Əmək haqqı gəlirləri planlı təsərrüfat sistemində məcmuu gəlirlərin formalaşmasını müəyyən edirdisə, müasir radikal islahatlar şəraitində əhalinin əksər hissəsinin gəlirlərini sahibkarlıqdan gələn gəlirlərin dominant rolu oynaması ilə səciyyələnir. Sahibkarlıq gəlirləri məhz sahibkarlıq fəaliyyətinin ÜDM-un artmamda rolu və onun səmərəlilik səviyyəsi ilə ölçülür. Ona görə də sahibkarlıq gəlirlərinin makrosəviyyəli qiymətləndirilməsi metodiki cəhətdən ümumi və bütün gəlirlərin dinamikası ilə uyğun olsa da onun differensasiyasınm sahələr üzrə qiymətləndirilməsi və onların gəlirlərin bölgüsündə davam-

İl inkişaf ve marketinq planı ilo işçilərin heyat səviyyəsi üçün lazını olan maddi və mənəvi nemətlərin məcmuunun qiymətləndirilməsi əsas rol oynayır.

Kənd təsərrüfatı məhsullanmn istehsalının 98%-nin pərakəndə ticarətin, 99%-nin özə! sektorun payında olması, fərdi gəlirlərdə kənd təsərrüfatının xüsusi çəkisini və onun perspektivini müəyyən edir. Kənd yerlərində əmək haqqı gəlirlərinin formalaşması dövlət büdcəsindən maliyyələşdirilən təşkilat və müəssisələrinin hesabına baş verir. O cümlədən, təhsil, səhiyyə və icra orqanlannm işçilərinin gəlirlərində əmək haqqının xüsusi çəkisi 70-80% təşkil edir. Təbii ki, bu əhalinin torpaq payı və xüsusi təsərrüfatı olduğu üçün ailə üzvlərinin həmin təsərrüfatda məşğulluğu nəticəsində ailə büdcə gəlirlərinin formalaşmasında onların rolu müşahidə olunur. Pensiyaçıların gəlirlərinin əsas mənbəyi pensiya ödəmələri və təsərrüfatdan gələn gəlirlər təşkil edir. Təbii ki, fərdi təsərrüfatın saxlanması və onun inkişafı əlavə xərclər hesabına və iş qüvvəsinin sərfi yolu ilə baş verir. Bu məsrəflərin pensiyaçı və kasıb ailələrdə reallaşması qeyri- mümkün olur. Həmçinin fərdi təsərrüfatdan yığılan məhsullann reallaşması şəraitindən və onun qiymətindən asılı olaraq kənd əhalisinin gəlirlərinin artırılması ehtimalı yüksəlir. Ailənin məşğulluğu və onun yaş və fiziki İmkanlan aşağıdırsa kənd əhalisinin əldə etdiyi məhsulun pul gəlirlərinə çevrilməsinin mümkünlüyü azalır. Bu da əhalinin fərdi tesərüfatdan gəlirlərinin artırılmasına maneçilik törədir. Məhz fərdi təsərrüfat rentabelsiz olduğu üçün kredit və yaxud gəlirlərin istehsala cəlb edilməsi səmərəli olmur. Bu da öz növbəsində kənd əhalisinin gəlirlərinin formalaşma mənbəyi kimi fərdi təsərrüfatın istehsal və tədavül dövriyyəsinə cəlb edilməsinin yollannı və proqnoz tədbirlərinin həyata keçirilməsinin iqtisadi əsaslarını yaratmağı tələb edir.

Fərdi sahibkarlıq əlaqəsi çox hallarda natural ehtiyacları ödəmək məqsədi ilə inkişaf etdirildiyinə görə iqtisadi səmərə alınmadan ənənəvi və prestij məşğuliyyət növü olaraq reallaşır. Ona görə də Azərbaycanda torpaq islahatı, ictimai təsərrüfat formalannın əmlakının özəlləşdirilməsi və yeni təsərrüfatçılıq fomıalarına cəhdlər xüsusi aspektlər kəsb edir. Bazarda alıcılıq

qabiliyyətinin azalması reallaşan məhsulların çoxluğu İlə yanaşı, natural istehlakın daha da vacibliyi ilə səciyyələnir. Fərdi təsərrüfatdan toplanılan məhsulların pul gəlirlərinin mənbəyinə çevrilməsi üçün məhsulun reallaşması imkanlarını artırmaq üsullan və yollan tətbiq olunur. Belə ki, kənd təsərrüfatı məhsullannın emalı ilə məşğul olan sahibkarlığa güzəştli kredit verilməsi, qabaqcadan həmin xammal istehsalı üçün avans kapital buraxılması habelə kənd təsərrüfatı texnologiyasmm təchizatı ilə mərkəzləşdirilmiş, yaxud sahibkarlıq fəaliyyəti kimi məşğul olunması tədbirləri tətbiq olunur.

Sahibkarlıq gəlirləri, xırda və orta biznes fəaliyyəti ilə məşğul olan kontingentlərin gəlirlərinin hesablanması və tədqiqi, fərdi təsərrüfatla məşğul olanların gəlirlərinin dinamikasından, xarakter və müddətindən fərqli idarə olunur. Xırda biznes və orta sahibkarlıq gəlirləri kommersiya və investisiya xarakteri daşıyır. Yeri gəldikdə həmin gəlirlər təkrar bölgü yolu ilə gəlir əldə etmək məqsədi ilə borc və yaxud sələm kİmi verilir. Divi- dend payı olan sahibkarlann kapitalını iqtisadi dövriyyə cəlb etmək üçün edilir.

Dividend gəlirləri hər bir sahibkarm gəlirlərinin bölgüsündə xərc istiqaməti rolunu oynayırsa, dİger tərəfdən başqa sahibkarlann, yaxud fərdi investisiya qoyamn gəlirləri kimi formalaşır.

Sahibkarlığın formalan gəlirlərin xarakterini, məzmununu və onun hədlərini foımalaşdınr. Belə ki, birja fəaliyyəti, kredit əməliyyatlanm həyata keçirən ancaq bank olmayan ittifaqların fəaliyyəti, məsləhət, yaxud xidmət göstərmək üçün yaradılan hüquqi şəxslər və fərdi yardıma görə müqavilə ilə alınan haqlar bazar iqtisadiyyatı şəraitində gəlirlərin yeni xarakterini, daxil olma xüsusiyyətlərini və miqyasının ölçü metodikasını özündə birləşdirir.

Bu gəlirlərin formalaşması görülən işin və xidmətin ümumi həcmindən onlann qiymətindən, yaxud qoyulan sərmayənin istifadə səmərəliliyindən asılı olaraq həll olunur.

Sahibkarlıq fəaliyyətində çəkilən xərclərin müştərək forması olan ittifaqlar, birliklər, kredit ittifaqları, müştərək müəssisələr, eyni şəraitdə eyni xərclərə uyğun olaraq bərabər pay götürmək,

yaxud qiymətlərin istifadəsi üçün dividentlər, habelə perspektiv gəlirlərdən almaq üçün uzunmüddətli kapital qoyuluşlannm şərtlərini, bank faizini, alıcılıq qabiliyyətinin və indeksasiyanın dinamikasını nəzərə almaqla qiymətləndirilir və bölgüsü təşkil olunur.

Gəlirlərin tezliklə bərpası üçün xərclər və kapitala tələbat formalaşır. Əhalİ gəlirlərinin sahibkarlıq fəaliyyətindən yeni- dən gəlir götürmək mənbəəsi rolunu oynamaq üçün təminat və əmanətlərin bərpası, habelə bank faizinin dəyişmə dinamikası vacibdir. Eyni gəlir götürmək üçün müxtəlif istiqamətlərdə vəsaitlərin istifadəsi planlaşdırıla bİlər və istifadə üçün qoyula bilir.

Kommersiya gəlirləri məqsədilə yatınm daha çox gəlir gətirən sahələrin prioritet istiqamətlər kimi qəbul olunur. Ərzaq və qeyri-ərzaq tələbatını ödəmək üçün zəruri olan xərclərin ödənilməsindən artıq (bezi hallarda həmin xərclərə qənaət etməklə artıq qalan) gəlirləri istifadə etmək əlavə gəlir gətirmək məqsədi ilə istifadə olunduqda, ailə başçısı, yaxud sahibkar gəlirlərinin idarəedici meneceri rolunu oynayır. Cəmiyyətdə sahibkarlıq şəraiti gəlirlərin istifadəsi üçün ilkin şəraitin eyniliyi müxtəlif gəlir götürmək üçün müxtəlif seçim və stimullar yaradır.

Gəlir sahibi, onun borc vəsaiti yaxud təsərrüfatın təşkili və əmanət yığımı kimi banklarda saxlamaqla özünün divident gəlirlərini təmin etməkdə daha gəlirli mənbəələr seçə bilər. Ona görə də gəlirlərin proqnozu həmin gəlirlərin yaradılması mənbəələri- ıin perspektiv dəyişmə meyllərini proqnozlaşdırmaqla mümkün olur. Bu İsə öz növbəsində iqtisadi islahatların və normativ- hüquqi bazanın təkmilləşdirilməsi amilləri ilə qiymətləndirilir. Hər bir gəlirin özü ayrılıqda Özünəməxsus siyasət və mövcud potensialın istifadəsi İlə bağlı amillərlə formalaşır və İnkişaf edir. Transfert gəlirlərinin qiymətləndirilməsi əmək proseslərindən fərqli olaraq sosial siyasətin əsas istiqamətləri və sosial müdafiə fondlarının həcmi və strukturunu müəyyən etməklə ifadə olunur,

Transfert gəlirlərinin minimal səviyyəsi dövlətin təminat öhdəlikləri olub, iqtisadi durum inkişaf etdikcə və əmək haqqı sistemi təkmilləşdikcə tənzimlənir.

**Transfert gəlirlərin minimal həddi yoxsulluq həddinin səviyyəsi Vo alıcılıq qabiliyyəti üçün lazım olan maddi və mənəvi nemətlərin bazar təklifi ilə müəyyən olunur. Sosial pensiyalar, yaşayış minimumu heç bir gəliri olmayan ailələrin təminatı üçün lazım olan pul vəsaiti ilə ölçülür. Bunun əsasında minimal sosial pensiya müəyyənləşdirilir. Fikrimizcə, minimal sosial pensiyanın səvi3^yəsi yaşayış minimumunun 30-40% həcmində plani aşdın- Ursa, onun qalan maddi və maliyyə xərclərini özəlləşdirilmiş və İcariyyə verilmiş əmlakdan, yaxud əlavə əmək məsrəfləri ilə ödəmək mümkün ola bilər. İcarə gəlirlərinin artımı torpaq payı olan kənd əhalisi üçün mühüm menbəə rolunu oynamalıdır. Bazar tələb və təklifraə uyğun olaraq iqtisadi təbəqələşmə gücləndikcə icaredarhğa imk^lar artdıqca yoxsul və yığımı olmayan əhali öz əmlakının icarə verməyi dıdıa üstün hesab edəcəkdir. Respublikada gəlirlərin tənzimlənməsi üçün əhali yığımına təminat verilməsi və əhalinin pul yığımının istifadə üçün əmanət banklarında saxlanılmasına stimul yaradılması yolu və metodları inkişaf etdirilməlidir. Nağd hesablaşmalardan dahä çox nağdsız və kreditlə ödəmə prinsiplərin seçilməsi vacibdir. Əhalinin əmanət kassalantida saxlamlan vəsaiti onun gəlir mənbələrinə çevrilib və həmin vəsaitinin istifadəsi daha əməli kredit vəsaitləri kimi istifadə oluna bilir. Əhalinin əmanətleritiin motivi, məqsədi və sosial iqtisadi qruplar üzrə əmanətlərin dinamikası və xarakteri müxtəlif aspektlərdən tətbiq oluna bilər.**

**Bizim fikrimizcə, əmanətlərin tədqiqi metodikasında gəlirlərin dəyişməsi ilə əmanətlərin dəyişməsi arasında nisbətlər müəyyənləşib, gəlirlərin proqnozuna uyğun olaraq əmanətlərin dinamikası və xarakteri proqnozlaşdmimalıdır. Əhali yığımının əmanət kassalannda, ev şəraitində və xarici banklarda saxlanılması mümkündür. Yığumn artımı gəlirlərin istehlak üçün istifadə olunan hissəsini azaldır, dövriyyədən əhalinin payım azaldır, pulun istifadə subyektlərini dəyişir, yaxud pul hərəkətsiz qalır. Bunlann hər birinin müəyyən sosial-iqtisadi nəticələri mövcuddur. Bu nəticələri qiymətləndirib tənzimləmə idarəetmə mexanizmləri vasitəsi ilə istifadə olunmayan gəlirlərin başqa müstəvidə reallaşması üçün şərait yaradıla bilər. Mehz bank, maliyyə**

və kredit sistemi ilə əhalinin gəlirlərinin xərclənməsinə təsir etməklə əhali yığımının gəlir gətirmək qabiliyyətini artırmağa şərait yaradılır.

Müasir dövrdə əhalinin pul yığımının səmərəli istifadə üçün onun mülkiyyətçi tərəfindən deyil, digər sahibkar və yaxud icarədarlar, geniş miqyasda dövlət tərəfindən xərclənməsinin tənzimlənməsi vacibdir. Dövlətin məhz əhali gəlirlərinin İdarəetmə funksiyası əhalinin xərcləri və yığımlan üzərində nəzarətin qanunvericilik əsasında mənafelərin uzlaşması prizmasından həllİ İlə mümkündür. Əhalinin yığımımn təminatı və onun faiz ödəmələrinin inflyasiyadan əlavə orta mənfəət normasına yaxın, yaxud ondan yuxarı olması əhalinin yığıma olan marağını artırmış olur. Əhalinin yığımı differensial yanaşma və differensial modellərlə təsvir olunur [51; s.63-115].

Aztəminatlı ailələrin yığımı yox səviyyədə, yaxud aşağı xüsusi çəki ilə müşahidə olunur. Gəlirlərin səviyyəsinin artımı ilə yığım üçün istifadə olunan vəsait də artır.

Nəzəri cəhətdən planlı təsərrüfat sistemində gəlirlərin yığım üçün istifadə olunmasında üstün artım, əmtəə və xidmət bazarında mal və xidmət təklifinin tələbatına uyğun olmaması qipotezi ilə də izah olunurdu. Əmtəə və xidmət bazarının müasir vəziyyəti və açıq bazar iqtisadiyyatı şəraitində əmtəə və xidmət bazarının fəzasının respublika hüdudlanndan kənarda tapmaq imkanlarına malik olduğu üçün, məhz yığımın bu amili nəzəri cəhətdən varsa da praktiki cəhətdən az mümkündür.

Yığımm olması milli ənənəvi baxışlar və perspektiv ehtiyacları ödəmək üçün lazım olan vəsaitlərin toplanması və yaxud ailənin fövqəladə xərclərini ödəmək məqsədi ilə formalaşır.

Yığım vəsaitinin xərclənməsi ailə və fərdlərİn xərclərini ödədiyi üçün və makroiqtisadi tələb və təklifin göstəricilərində özünün İfadəsini tapdığına görə gəlir kimi qiymətləndirilir, ona görə də gəlir və xərclər balansında nəzərə alınır.

SY,±AY,=XXii. (3'9)
İ k

Burada, Yj^ - c gəlirinin i sosial-iqtisadi qruplar üzrə stmktu-ru; AY - i qruplannda yığımın dəyişməsi, k istehlak istiqa

mətləri üzrə i- sosial-iqtisadi qruplarda xərclərdir.

Yığımın qiymətləndirilməsində pulun başqa respublikalara axması, yaxud ölkə daxilində əhalinin ayrı-ayn təbəqələri arasında yenidən bölgüsü zamanı baş verən təkrar bölgünü qiymətləndirmək vacibdir. Bu amillərin qiymətləndirilməsi metodiki və İnformasiya qıtlığı ucbatından müəyyən çətinliklərlə qarşılaşır. Amma eksperiment yaxud müşahidələr və mikrosəviyyəli göstəricilərin müqayisəli təhlili yolu ilə bu prosesləri qiymətləndirmək mümkündür. İlk növbədə respublikada reallaşan əmtəə xidmət sahələrindən gələn gəlirlər ürhumi daxili məhsulun istehsalı üzrə hesablanmasında əhali üçün ayrılan gəlir hissəsi ilə müqayisədə məcmuu tələbatın məcmu gəlirlərdən artıqlığı müşahidə olunanda, pulun pespublikaya axını baş verir. Təbii ki, bu axının bir hissəsi müəssisə və təşkilatlar yolu ilə onların layihələri və istehlak xərcləri ilə ötürülür. Digər hissəsi isə onların gəlirlərinin şəxsi istelılak, yaxud əlavə kapital qoyuluşları ilə yenidən istifadəsi yolu ilə formalaşır. Respublikanın ərazisində qa- zamlan gəlirlərin respublikada qalması əhalinin və əmtəə xidmət bazannın daha da genişlənməsi üçün əlavə vəsaitlə təmin olunur. Bu da öz növbəsində yeni iş yerlərinin açılması vo əmək bazarında yeni iş qüvvəsinə ehtiyacları artınr ki, bu da işçilərin gəlirlərinin artımına səbəb olur. Respublikaya investisiya axını, müştərək layihələr, təbii və coğrafi mühit, mövqelərin beynəlxalq əlaqələr və məqsədlər üçün istifadəsi əhali gəlirlərinin artımını müəyyən edir.

Əhali gəlirlərinin formalaşması mənbələri daha çox xarici şirkətlərin, investisiyaların və müştərək müəssisələrin hesabına artır. Ölkədə bazar tələbatı artıq yerlİ əhali üçün yox məcmuu tələbat və təklif göstəricilərinin ərazi maliyyə balansı İlə qiymətləndirilir. Respublikada ərazi maliyyə balansı xarici investisiyaların həcmini və onun istehsala cəlb olunmasında sərf olunan maddi material məsrəflərinin mənbəyini, habelə istehsal olunmuş hazır məhsulun respublika bazannda və ixracat üçün istifadə olunan hissəsini qiymətləndirib toplu balansda ifadə etmək metodikasını əsaslandırmaqla meydana çıxır. Makroiqtisadi tarazlı inkişaf məcmuu istehsal və istehlak balanslarında həmin

balansların ayrı-ayn iqtisadi regionlar timsalında və ayn-ayn zənıri məhsullar üzrə tərtib olunması zəruriliyi meydana çıxır.

Əhali gəlirlərinin sahələr üzrə və xidmət sferalannin dövlət büdcəsi ilə əlaqəli təsviri və sonradan gəlirlərin xərclənməsinin əmtəə və xidmət növlərinin ayn-ayn sahə istehsalı və idxalat quruluşu ilə marketinq və İstehlak təsnifatı üzrə əlaqələndirilməsi ölkə iqtisadiyyatının tarazlı maddi, maliyyə və istehlak qurum- lan arasında nisbətləri müəyyən^edir. Təbii ki, bazar iqtisadiyyatı şəraitində bu nisbətlər və əlaqələr ayn-ayn amillərin təsiri ilə formalaşdığı üçün normativ bazadan çox tələb və təklifin dinamik qanunlan ilə tənzimlənir.

Əhali gəlirlərinin istehlak modeli və onun təsviri, əhalinin rifahımn mövcud vəziyyəti, onun tələbatımn ödənilmə dərəcəsi və bir sıra sosial iqtisadi amillərin dəyişməsində istehjak prioritetliyinin dəyişmə dinamikası əsas götürülür.

Əhalinin istehlak davranışı əsasən gəlirlərdən asılıdır. Aztəminatlı ailələrin istehlakının dominant rolunu onun gəlirləri təşkil edir. Gəlirlərlə istehlak arasında reqressiya mövcuddur və yaxud \% gəlirlərin artması ayrı-ayn istehlak strukturunda paylanmaqla istehlakm da 1% artımına təsir edir;

$$2 A x_{„} = A A , \quad (3.20)$$
$$J$$

burada x-,^- c istehlakının i əhali qrupunda artımıdır; AA - istehlak artımıdır.

Orta təminatlı ailələrdə gəlirlərin 1% artımı ərzaq və qeyri-ərzaq bölüsündə qeyri-ərzağın xeyrinə təsir edir. Xidmət istehlakı minimum artım tempi ilə saxlanılır. Yüksək təminatlı ailələrdə isə 1% gəlirin artımı tamamilə xidmət və yığım üçün istifadə olunur.

Yüksək gəlirli ailələrin və sosial iqtisadi cəhətdən fərqlənən əhalinin istehlak davranışı respublika üçün tipik istehlak modeli olmasa da, orientir üçün istifadə oluna bilər. Orta istehlak səviyyəsi orta gəlirlərə uyğun olaraq müəyyən qiymət və təklif məhdudiyyətləri çərçivəsində ölçülür. Ona görə də strateji planlaşdırma məqsədi ilə normal istehlak modeli hər bir respublika

üçün hesablana bilər. Fizioloji normalara uyğun istehlak səviyyə- sini, onun maddi nemətlər üzrə quruluşunu müxtəlif əhali qrup- lan üzrə hesablamaqla proqnoz və müqayisəli təhlil aparmaq üçün metodoloji alət əldə edilmiş olur. Az gəlirlər üçün minimum istehlak büdcəsi, orta gəlir səviyyəsi və ən maksimal istehlak tələbatı üçün normal büdcə ve istehlak strukturu hər il hesablansa mümkündür.

Bu metodlarla bazar təklifinin marketinq strukturu qiymətləndirilməlidir. Belə ki, ərzağa olan tələbatı bir sıra əvəz edici maddi və mənəvi nemətlərlə təmİn etmək olur. Bəzən bazarın əmtəə ve xidmət quruluşuna uyğun olaraq potensial tələbat faktiki əmtəə və xidmətdə öz ifadəsini tapır.

Ona görə də bazar iqtisadiyyatınm tələb qanunlannm gəlirlərdən asdı real dinamikası formalaşdığı kimi, təklifin idarə edilməsi yeni tələbin ve yeni gəlirin yaranmasına səbəb olur.

Əhali gəlirlərinin proqnozu kompleks tədbirlərin iqtisadi islahatların və struktur dəyişmələrin qarşılıqlı təsiri və onların sosial-iqtisadi nəticələri kimi formalaşdığına və inkişaf etdiyinə görə sistem yanaşma təhlil ve kompleks proqnozlaşdırma modelləri tətbiq oluna bilir. Normativ yanaşma ilə emprik formalaşma vəhdətdə həll olunur.

## BÖLMƏ: YOXSULLUQ VƏ SOSİAL-İQTİSADİ İNKİŞAF

### 1. Yoxsulluğun səbəMəri va ölçülməsi

Yoxsulluq əhalinin həyat səviyyəsinin aşağı olan təbəqələrinin ehtiyaclarını ödəmək üçün zəruri olan tədbirlərin maddi, mənəvi və maliyyə mənbəələrinin, onun ləğvi məqsədi ilə istifadəsi və idarə olunmasının əsas mexanizmlərini əhatə edir. Yoxsulluq problemi bütün ölkələrin iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq mövcud olub, təbəqələşmə dərəcəsindən asılı olaraq müxtəlif ölkələrdə müxtəlif problemlər doğurur. Keçid dövrü yaşayan dövlətlər üçün yoxsulluq daha xarakterik prosesdir. O cümlədən, sistemdə yaşayan keçmiş SSRİ respublikaları və Şərqi Avropa Ölkələrində özünəməxsus yoxsulluq problemləri və onun spesifik ölkələrə uyğun xüsusiyyətləri meydana çıxır.

Yoxsulluq probleminin meydana çıxması əhalinin ehtiyaclarını ödəyən maddi və mənəvi nemətlərin istehsalı və bölgüsünün ümumi iqtisadiyyatın inkişafına uyğun gəlməməsi ilə səciyyələnir. Bazar iqtisadiyyatına keçid mövcud təsərrüfat əlaqələrinin pozulmasım, vahid xalq təsərrüfatı sistemi kİmi formalaşan keçmiş SSRİ təsərrüfat əlaqələrinin qırılması və daxili resursların dağıdılması əhval-ruşiyyəsi ilə qarşılandı. Yeni sistemin yaradılmaması, onun ilkin şəraiti olan kapital və resurs təminatının qərarlaşmaması və bazar tipli idarəetmə strukturalarının formalaşması şəraitində, köhnə sistemin ideoloji cəhətdən gərəksizliyi və s. ondan istifadənin azalması ilə bağlı olmuşdur. Yoxsulluğun İqtisadi təşkilati və sosial-iqtisadi səbəbləri və nəticələri mövcuddur. Yoxsulluğun iqtisadi əsasını onun iqtisadi artıma, əhalinin tələbatına uyğun olmaması İlə izah olunur. İqtisadiyyatın transformasiyası ümumi iqtisadi artımın azalması, İş yerlərinin itirilməsi, inflyasiyanın intensiv artımı ilə müşahidə olunur.

Yoxsulluq nisbi proses olub, iqtisadiyyat inkişaf etdikcə,

onun həddi və yaranma səbəbləri dəyişir, yeni məzmun və xarakter kəsb edir. Yoxsulluq sosial-iqtisadi proses olmaqla hər bir ölkənin iqtisadi durumu, onun maddi və sosial şəraiti, islahatların dərinliyi və onun sosial-nəticələrinin xüsusiyyətlərinə uyğun olaraq formalaşır və həlli yolları zərurİləşir.'

Müasir şəraitdə dünya iqtisadi inkişaf qanunauyğunluqları, qloballaşma, işsizlik və həyat səviyyəsinin rütbələşməsi meylləri artır və yeni aspektlər kəsb edir. Qloballaşma qeyri-mün- təzəm proses olub dünyada ölkələrin, sosial qrupların və etnik qrupların müxtəlif inkişaf səviyyəsi İlə səciyyələnir. Bu da öz növbəsində bir sıra qorxu və risklərin yaranmasına səbəb olur.^

Ayrı-ayrı ölkələrin texniki-inkişaf səviyyəsi dünya əmək və kapital bölgüsündə rolu hər hansı qlobal tədbirin yoxsul ölkələrin əhalisinin həyat səviyyəsinin formalaşmasında və onların əhalisinin qütbləşmə hədlərində öz nəticələrini ifadə edir. Birləşmiş Millətlər Təşkilatının 2000-ci ildə Baş Assambleyasının Cenevriyə sosial-iqtisadi inkişafa dair sessiyasında qloballaşmanın iqtisadiyyatın mərkəzi problemi olaraq, maddi nemətlərin bölgüsündə qeyri-bərabərlik qeyri-bərabər gəlir əldə etmək, sosial sferada qeyri-bərabərliyin olması qeyd edilmişdir.

Ölkələrin ümumi iqtisadi durumu və əhalinin rifahı onların iqtisadi artım tempi və stabilləşmə kontekstində dinamik inkişafının parametrləri ilə səciyyələnir. Beynəlxalq standartlara uyğun olaraq inkişaf meyllərini təmin etmək üçün Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun keçid dövrü olan ölkələrdə əsas məqsəd olaraq stabilləşmə və makroiqtisadi tarazlıq əldə etmək üçün maliyyə proqramları həyata keçirməklə tənzimləmə siyasəti aparmışlar. Hər bir ölkənin ümumi inkişaf dinamikası ümumi daxili məhsul və onun adambaşına olan səviyyəsi və əhali gəlirləri ilə ölçülür.

' (dlacejıeHHe u rjıo6aJiH3auH«». no24925n oömeH pcÄ. H.M.PHMauıeBCKofi. M.HayKa2002.s.l5

^ **Ə.Əlirzaycv "İqtisadiyyat; düşüncabr, baxışlar». Bakı, 2002, s. 242.**

*Cədvəl L*

Hor nəfərə düşən ümumi daxili məhsul 1998 -ci İl
(ABŞ dolları ilə)

| Ölkələr | ÜDM | Ölkələr | ÜDM |
|---|---|---|---|
| **Bütün dünya** | 5625 | **Səudiyyə Ərəbistanı** | **8625** |
| **Lüksemburq** | **29975** | **Argentina** | **7605** |
| **ABS** | **24925** | **Venesuela** | **7015** |
| **Norveç** | **23356** | **Braziliya** | **5625** |
| **Yaponiya** | **19815** | **Liviya** | **4880** |
| **İsveçrə** | **20960** | **Rusiya** | **4445** |
| **Kanada** | **19860** | **Çin** | **3665** |
| **Fransa** | **19165** | **İndoneziya** | **3060** |
| **Böyük Britaniya** | **18210** | **Filippin** | **2285** |
| **Almaniya** | **18165** | **Hindistan** | **1405** |
| **On beş Avropa** | **17660** | **Mavritaniya** | **1020** |
| **Küveyt** | **15805** | **Somali** | **805** |
| **İsrail** | **13425** | **Azərbaycan** | **570,6** |
| **BƏƏ** | **10480** | **Nigeriya** | **530** |
| | | **Mozambik** | **235** |

Cədvəldən göründüyü kimi, adam başına düşən ÜDM məhsulun səviyyəsinə görə kəskin fərqli ölkələrdə yoxsulluğun həddi də müxtəlifdir. Təbii ki, nisbi yoxsulluq həmin ölkələrdə daha çox gəlir əldə edən əhali qrupları ilə az gəlirləri olan əhali arasında nisbətlə ölçülür. Beləliklə, gəlir səviyyəsi ölkələrdə alıcılıq qabiliyyətini və əmtəə xidmət təklifinin miqdarı və istehlak dəyərlərinin qiyməti ilə ölçülür. Yoxsulluq dövlətlər arasında iqtisadi əlaqələrin, miqrasiya problemlərinin və kapital axınının intensivləşməsi ilə müşahidə olunduqda yoxsul ölkələrin gəlirlərinin bir hissəsinin varlı dövlətlərə axınına səbəb olur. Belə ki, ucuz iş qüvvəsi və təbii resursların istifadəsi üçün cəlb olunan kapitala görə ucuz məsrəflərlə yuxan

**' Azərbaycan statistik göstəricilər 2002. s. 546.**

monfoəl əldə etmək mümkün olur ki, bununda bölgüsündə maliyyə və pul sahibi daha çox pay mənimsəyir. Yoxsullucj həmçinin xroniki bir proses olmaqla, alıq və qloballaşan bazar iqtisadiyyatı şəraitində daha da dərinləşir. Bazarların olmaması, kapital axını və yüksək əmək ehtiyatlarının olması, qloballaşan proseslərdə qütbləşmənin məhz varlı dövlətlərin hesabına dinamik inkişafına səbəb olur. Bu baxımdan dünya səviyyəli qlobal problem olaraq yoxsulluğun qarşısını almaq üçün BMT və digər iqtisadi qurumlar onun ləğvi proqramlarına qoşulmağı, həmin proqramlar üçün maliyyə və maddi yardımlar göstərməyi müasir iqtisadi idarəetmə və dünya İnkişaf istiqamətlərinin prioritetləri kimi baxırlar. Keçmiş SSRİ ölkələrində yoxsulluğun qalmasının transformasiya prosesləri ilə əsaslandırmaqla yanaşı, onun yaranmasının məhz keçid dövrünün, islahatların dərinliyi və onların sosial-iqtisadi nəticələri ilə bağlamaq da mümkün variantdır.

Yoxsulluq səviyyəsi makroiqtisadi göstərici olub, həyal səviyyəsinin yüksəldilməsi probleminin sinonimu olmaqla, tamamilə fərqli amillər və tədbirlərlə ləğvİ mümkün olan sosial müdafiə tədbirlərinin məqsədli təşkili və idarə edilməsi kri- teriyası kimi qəbul oluna bilər. Dünya iqtisadiyyatda real iqtisadi göstəricilərin dinamikası və meyllərini nəzərə almaqla ümumiləşmiş göstəricilər sistemi qəbul olunsa da onların hər bir ölkədə özünəməxsus hədləri tənzimləmə mexanizmləri və qiymətləndirilməsinin metodiki bazası mümkündür.

Regionların ümumi inkişaf dinamikası eyni olmadığı üçün onlarm yoxsulluq metodları üzrə qütbləşməsini və təsnifatlaşdırılması üçün adam başına düşən məcmuu gəlir səviyyəsinin götürülməsi və onun real istehlakda təsvirini qəbul etmək məqsədəuyğun sayılır. Ona görə də məcmuu gəlirlə yanaşı, onun real alıcılıq qabiliyyətini əlaqələndirmək üçün tələbat və tələbatın ödənilmə dərəcəsi kimi adam başına düşən istehlak həcmi və maddi, mənəvi nemətlərin tələbatın ödənilmə dərəcəsində prioritetliyinin qəbul olunması fikrimizcə daha düzgündür. Dünya inteqrasiya sisteminə yoxsulluğun ləgvi ilə bağlı

proqramlarda iştirak etmək və Azərbaycanın sosial-iqtisadi inkişaf konsepsiyasının mühüm həlqəsi kimi onun aradan qaldırılmasının əsas amilləri olan iqtisadi artım, bölgü və isteh- lak olunan maddi və mənəvi nemətlərin artırılması mühüm vəzifələr kimi dövlətin iqtisadi rolu, sahibkarlıq və idarəetmə sisteminin təkmilləşdirilməsi yollarını özündə birləşdirir.

Yoxsulluğun yaradılması xronoloji və birdəfəlik faktorlardan asılı olaraq dəyişir. Yoxsul ailələr maddi və mənəvi cəhətdən təmin olunmuş ailələrə çevrildikdə, yeni ailələr o həddə düşür, yaxud daima o həddə yaşayırlar. İlkin növbədə yoxsulluq iqtisadi vəziyyət və demoqrafik tərkib, yaxud hər hansı təsərrüfat və biznes fəaliyyətinin riski ilə ölçülür. İqtisadi vəziyyətin ilkin amil kimi yoxsulluğa təsirini adambaşına düşən ÜDM-un artımında, gəlirlərin dinamikasında, qiymət səviyyəsinin dəyişməsində, həmçinin inflyasiya, yaxud sosial gərginliyin artmasında müşahidə etmək olur. Azərbaycan iqtisadiyyatının 1990-1995-ci illərdə ümumi iqtisadi göstəricilərinin azalma tempi və inflyasiya səviyyəsinin 1600-1800%-ə qalxması, iş yerlərinin azalması yoxsulluğun qərarlaşmasının əsas aparıcı amili kimi çıxış edir. 1991-1993-cü illərdə Azərbaycan Respublikasında müəssisələrin böyük əksəriyyətində istehsal prosesi dayanmış və ya müəssisələr özgücünün cəmi 15-20%-i səviyyəsində fəaliyyət göstərmişdir. Həmin illərdə sənayedə illik geriləmə 20-30%-ə, kənd təsərrüfatında 16-24%-ə, kapital qoyuluşunda 40%-ə çatmışdır, istehlak mallarının qiyməti ildə 14-18 dəfə artaraq iqtisadi və sosial sahədə kəskin geriləməyə səbəb olmuşdur.'

İqtisadi durumun 1990-1995-ci illərdə böhran vəziyyəti, bölgü, sosial və rifah sahəsində, həmçinin demoqrafik proseslərin rifaha təsirinin səmərəliliyini azaltmaq nəticədə əhalinin yoxsulluq səviyyəsi, onun rifahı daha kəskin templərlə aşağı düşmüşdür. Əhalinin əlində olan pulun kütləsinin alıcılıq qabiliyyəti aşağı düşməklə, yoxsul ailələrin və orta təminat sə-

**Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001. s.159**

viyyəsindo olan əhalinin yoxsulluq həddinə düşməsi və yaxud yanaşması kəskin olaraq tezləşmişdir. Əhali gəlirlərinin azalması, yığımın inflyasiyası, əmanətçilərin sovet dövründən qalan pulun alıcılıq qabiliyyətinin itirilməsi və yeni milli pulun ifadəsində rublun ekvivalentliliyinin təmin olunmaması, qütbləşmənin daha da dərinləşməsinə və sosial müdafiənin artıq idarəetmə sferasından çıxmasına səbəb olmuşdur.

Azərbaycan Respublikasında yoxsulluğun obyektiv əsası olan qaçqınlıq və məcburi köçkünlük problemləri və onun uzun müddət respublikada yaratdığı iqtisadi, mənəvi və psixoloji amillər təşkil edir. İqtisadi potensialın bütöv ərazi vahidliyi, regionlar arası və texnoloji əlaqələrin pozulması təsərrüfat nəzarətinin özəlləşdirmə və restruktizasiyanın qeyri-mümkünlüyü şəraitini yaratmışdır.

Yoxsulluq problemi obyektiv səbəblərlə əlaqəli olub, əhalinin demoqrafik tərkibi, iş yerləri ilə təmin olunma səviyyəsi və həmçinin dövlətin sosial müdafiə məqsədləri üçün zəruri vəsaitlərinin olmaması ilə də formalaşır. Bazar iqtisadiyyatına keçid və vahid SSRİ xalq təsərrüfatına uyğunlaşmış istehsal sahələri öz əmtəə bazarlarını itirdikləri üçün istehsal həcminə tələbat azalmış, açıq iqtisadiyyat şəraiti və liberal iqtisadiyyatın ilkin şəraiti idxal hesabma bazarın formalaşmasına gətirib çıxarmışdır. Xarici Ölkələrin o cümlədən uzaq ölkələrin və şərt ölkələrinin Azərbaycan əmtəə və xidmət bazarında idxalının daha sürətlə artması yerli istehsalın məhsullarının yığılıb qalmasına, müəssisələrin əmək haqqı və digər borclarının artmasına, son nəticədə iş qüvvəsinin azaldılması və işin tamamilə dayandırılması İlə nəticələnmişdir. Yoxsulluğun demoqrafik amili artıq qiymətlərin artması hesabına pensiyaçıların, işləyənlərin və çox uşaqlı ailələrin kollektiv təsərrüfat formasından kənarda qalıb, dövlət himayəsində zəruri müavinət almamaları ilə əlaqələndirmək olar. Sosial sferaların maliyyə maddi təminatı maliyyə imkanları olmadıqları üçün zəifləmiş pulsuz təhsilə, səhiyyə xidmətlərinin və müavinətlərin azalması əhalinin məcmuu ehtiyaclarının ödənilməsində ümumi döv-

lol rolunun azalmasına, şəxsi vəsaitlərinin Öz təyinatından ayırıb. məhz yoxsulluğu yaradan səbəblər istiqamətində xərclənməsinə gətirib çıxarmışdır.

Yoxsulluğun yaranmasını həmçinin islahatların sosial- iqtisadi nəticələri ilə əlaqələndirmək lazımdır. Bazar iqtisadiyyatı tələblərinə uyğun ilkin şəraitin yaradılması ilkin kapitalın olması ilə mümkündür. Azərbaycanda müstəqillik şəraitində ilkin kapitalın yaradılması istehsal, ixracat və əhalinin natural təsərrüfat hesabına öz ehtiyaclarını ödəmək, yaxud xarici ölkələrdən və əhali resurslarından iqisadi dövriyyə borc kapital cəlb etmək yolu ilə çıxış tapılır. Bu şəraitlərin hər biri Azərbaycan Respublikasında özünəməxsus xüsusiyyətlər kəsb edir. Belə ki, ixracat məhsulu üçün xammal olan məhsullarının istehsalını artırmaq və onun səmərəsini yüksəltmək problemi əlavə kapital qoyuluşu problemi ilə rastlaşır.

Məhz ixracatın stimullaşdırılması tədbirləri və kapital axınının respublikaya axını üçün ilkin investisiya şəraitinin yaradılması, respublika daxili imkanların iqtisadi dövriyyəyə cəlb edilməsi yolu ilə yerli iş qüvvəsindən istifadə və xidmət sferası üçün kapital axınına səbəb oldu. Yoxsulluğun xarakteri, onun həlli yollan, üsullarının əməli tətbiqi və idarə edilməsi ilə bağlıdır. Yoxsulluğun ölçülməsi, onun həddinin və yoxsulluq həddində yaşayan əhalinin həyat səviyyəsinin sosial-iqtisadi göstəriciləri ilə xarakterizə olunur. Yoxsulluğun ilkin araşdırma metodologiyası ümumi iqtisadi durumun və mütərəqqi dəyişmələrin, yoxsulluğun həddinə və əhalinin paylanması dərəcəsinə təsiri ilə araşdırılanda yoxsulluğun ləğvinin perspektiv amilləri və onların tənzimlənməsinin metodologiyası meydana çıxır və spesifik olaraq formalaşır. Əgər əhalinin adam başına düşən gəlir səviyyəsi beynəlxalq səviyyəli gəlirlər ilə müqayisədə yoxsulluq həddi göstəricisi kimi qəbul olunsa, onda real həyat səviyyəsi, yəni tələbatın ödənilmə dərəcəsi kənarda qalmış olur.

Əhalinin həyat səviyyəsinin real gö.stəriciləri və onların yüksəldilməsi tədbirləri bütövlükdə əhali və onun yoxsul tə-

**bəqoləri üçün xarakterik əhəmiyyət kəsb edir. Amma yoxsul təbəqəyə şamil edilən tədbirlər daha mövcud reallıqlarla əhatə olunur və əhali gəlirlərinin və istehlakmın artımına səbəb olur.**

**Yoxsulluq əhalinin həyat səviyyəsinə görə təbəqələşmə dərəcəsini və yoxsul əhali ilə orta təminatlı və yüksək maddi rifaha malik olan əhali arasında tələbatın Ödənilməsinin real vəziyyəti ilə müqayisədə üzə çıxır.**

**Həyat səviyyəsinin bazar iqtisadiyyatı şəraitində təhlili və proqnozunu vermək üçün onun meyar və göstəricilər sistemini verib, yoxsulluqla həyat səviyyəsi arasında ümumi və fərqli cəhətləri nəzərə alıb, tədqiqat metodlarım tərtib etmək olar. Klassik ədəbiyyatlarla daha çox sosializm cəmiyyətləri üçün xarakterik olan ümumiləşmiş sosial-iqtisadi problem əhalinin həyat səviyyəsinin yüksəldilməsi meyarı ilə qəbul olunurdu. Həyat səviyyəsinin ölçülməsinə istehlak olunan maddi və mənəvi nemətlərin məcmuu və tələbatının ödənilməsi dərəcəsi kimi yanaşma və uyğun olaraq ölçmə üçün tətbiqi raexanizmlər mövcud idi.'**

**Yoxsulluq həddİ həyat səviyyəsinin yüksəldilməsinin orta göstəricilərindən və bütöv əhali üçün düşünülmüş tədbirlərindən fərqli olaraq yoxsul statusu qazanan əhalinin potensialını istifadə etmək şəraitim yaratmaqla onun orta təminatlı və yüksək həyat səviyyəsinə malik olan İerarxiyaya çatdırılması tədbirləridir. Belə konseptual yanaşma baxımından yoxsulluq tənzimlənən bir proses kimi beynəlxalq və respublika daxili proqramların məqsədli sosialyönlü və həlli mexanizmlərinin elmi əsaslarla düşünülmüş bir sistem formasıdır. Həm daxili resursları, həm də xarici ölkələrin investisiya və digər maliyyə, maddi yardımlarım nəzərə almaqla respublikada «Yoxsul- luğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramları 2003*2005»2 işlənib hazırlanmış və tətbiq olunur. Yoxsulluğun**

’ Mafiep ttVcjıoBHÄ XCK3HH Hw:eJieHHa». M, 1972.

^ Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramı. Bakı, 2003. S-304.

azaldılmasının məhz iqtisadi inkişafla vəhdətdə proqram xarakterinə gətirilməsi yoxsulluğun krİterial inkişaf istiqaməti olaraq məqsədyönlü fəaliyyət dairəsinə gətirilməsi, digər tərəfdən iqtisadi inkişafın nəticələrinin sosial-iqtisadi effekti kimi baxılması, istehsal bölgü və istehlak sferasının tənzimlənilməsi deməkdir.

Yoxsulluğun vahid, yaxud kompleks göstəricilər sistemi ilə təsvir olunması da həm metodoloji, həm də təşkilati- iqtisadi problem olan müxtəlif araşdırmalar mənbəəsi kimi diskussiyaya cəlb oluna bilər. Fikriraizcə, vahid göstərici olaraq adambaşına düşən gəlir səviyyəsi, sabit qiymətlərdə alıcılıq qabiliyyəti kimi, yoxsulluq həddİ göstəricisi kimi qəbul oluna bilər. Bununla yanaşı gəlir səviyyəsinin hesablanması və bazar iqtisadiyyata keçid mərhələsində müəyyən çətinliklər kəsb etdiyi üçün, real həyat səviyyəsini və tələbatı, onun ödənilmə dərəcəsini tam və dolğun ifadə etmədiyi üçün real istehlak səviyyəsi daha adekvat göstəricidir. Digər tərəfdən yoxsulluq ancaq maddi və mənəvi nemətlərin istehlak həcmi ilə deyil, həmçinin istehlak olunmuş nemətlərin marketinq strukturu, onların tələbat sistemi ilə uyğunluğu və tələbatın özünün inkişaf səviyyəsi ilə ölçülməlidir. Tələbatın az inkişaf etmiş səviyyəsində onun ödənilmə dərəcəsi maksimal ola bilər və istehlakın artım tempi yuxarı olarsa bu hələ həyat səviyyəsinin yuxan olması, yaxud yoxsulluğun ləğvi üçün səmərəli tədbirlərin həyata keçirilməsi demək deyil.

Real istehlak səviyyəsi, yoxsul ailələrdə, yüksək gəlirlər həddində həmin ailənin yoxsulluq həddindən çıxarılması meyarı əsas ola bilir. Az təmin olunmuş və tələbatı aşağı olan ailələrdə yüksək gəlir və maddi - mənəvi nemətlər onun yoxsulluğun tam ləğvi göstəricisi deyil.

Ona görə də yoxsulluğun ləğvi tamamilə tənzimləmə mexanizmi kimi proqram xarakterli tədbirlərin kompleks məc- ınuu kimi formalaşdınlır. Maddi və mənəvi nemətlərin istehlakı arxasında iqtisadi, demoqrafik, coğrafi, sosial amillər gizlənir. Bu amillər differensial göstəricilər və meyllər forma

**sıdır.** Bu baxımdan əhalinin təbii artım səviyyəsi, məşğulluq səviyyəsi və məşğul olanlarla işləməyənİərin sayının nisbəti, pensiyaçıların və təqaüdçilərin sayı, onların təminat səviyyəsi, təbii iqlim şəraiti, əmtəə və xidmət təklifi yoxsulluğun formalaşması və yoxsulların sayımn müəyyən edilməsi amilləridir.

Yoxsulluq maddi və mənəvi nemətlərin istehsalı, bölgüsü və istehlakı sferasında baş verən dəyişikliklərin, maddi, mənəvi və xidmət cəhətlərinin göstəriciləri ilə vəhdətdə öyrənilir. Ona görə də yoxsulluğu aşağıdakı kimi sxematik təsvir elmək olar (sxem 1).




*Sxem 1.*

Sxemdən göründüyü kimi yoxsulluğun idarə edilməsi onu formalaşdıran amillərin təhlili, təsir gücləri və həmin amillərin tənzimlənilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsinin qaydaları normativ əsasları ilə bağlıdır. Hər bir cəmiyyətdə iqtisadi inkişafın və əhalinin tələbatını nəzərə alan zəruri mad

di və mənəvi nemətlərin məcmun, həmin ailənin istehlak büdcəsini təşkil edir. İstehlak büdcəsi insanın yaşayışı üçün lazım olan maddi və mənəvi nemətlərin minimum səviyyəsini, onun tərkibini müəyyən edir.

Minimumu hesablamaq üçün ən züruri məhsulların fizioloji tələbata uyğun rasionunu tərtib etməklə baş verir.

Yaşayış minimumu həyat səviyyəsinin yüksəldilməsi, normativ hüquqi göstəricilərinin qanunvericilik bazasının yaradılması, həmçinin əhalinin sosial müdafiə məqsədləri üçün astana və hesab göstəricisi kimi qəbul olunur, minimum yaşayış səviyyəsi dinamik dəyişən ümumi iqtisadi artım və əhalinin tələbatının dəyişməsi bağlı olaraq kəmiyyət və keyfiyyətcə dəyişir.

Gəlirlərin yaşayış minimumundan aşağı olması həmin ailələrin nisbi yoxsulluğunu müəyyən edir. Bəzən bütün əhalinin gəlirlərinin yaşayış minimumuna görə nisbətlərinin paylanmasının qanunauyğunluqları məzmunca əhalinin təminat səviyyəsində difierensiyasmı və yoxsulluğa yaxın, yaxud ondan uzaq olan ehtimalları müəyyən edir. Beynəlxalq səviyyəli göstəricilər olan «Lorens əyrisinin və Cini əmsallarını hesablamaq, həmçinin yoxsulluğa təsir edən aİmllərin təsir gücünü qiymətləndirmək üçün istifadə olunur.



Yoxsulluğun ümumi göstoricibri ilə yanaşı yoxsul əhalinin özünün daxilində differensiallaşma, onun ləğvi üçün konkret tədbirlərin xaratkerini və tətbiqi dairəsini əsaslandırır. Yoxsulluq həddi mütləq və nisbi olaraq gündəlik tələbatı ödəmək üçün lazım olan ərzaq və qeyri-ərzağın ayrı-ayrı kateqoriyalarını və müxtəlif şəraitdə yaşayan əhalinin vəziyyətinin həddini müəyyən etməkdə özünü ifadə edir. Mütləq yoxsulluq həddi adam başına aylıq 120 000 manat təşkil edir. Bu hədd 2.200 kilokalori ərzaq qəbulunu təmin edən minimum ərzaq istehlakı səbətinin dəyərinə əsaslanır. Təbii ki, bu ərzaq səbəti mövcud əhali istehlakında olan və Azərbaycan əmtəə və xidmət bazarında olan marketinq strukturuna əsaslanır. Ev təsərrüfatları üzrə ərzağın payının 68,3%, qeyri-ərzağın 7,1%, xidmətin isə 22% olması oriyentir hesablamalar üçün qəbul oluna bilir.

*Cədvəl 2:*

Əhalinin istehlak xərcləri (faizlə)

| İstehlak xərcləri | 1990 | 1995 | 2000 | 2001 |
|---|---|---|---|---|
| **Cəmi** | **100** | **100** | **100** | **100** |
| **O cümlədən** | | | | |
| **Ərzağa** | **53,4** | **76,0** | **66,3** | **68,3** |
| **Oeyri-ərzaq mallarınnın ahnmasına** | **36,4** | | **23,2** | **7,1** |
| **Xidmətlərə** | **8,9** | **6,0** | **9,3** | **22,0** |
| **Alkoqollu içkilərə** | **1,3** | **0,9** | **1,2** | **2,6** |

Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramında minimum istehlak səbətində ərzağın çəkisi 70% həcmində götürülmüşdür. Təbii ki, gəlirlərin artması və ev təsərrüfatlarında bəzi məhsullarla tələbatın ödənilmə dərəcəsinin maksimal hədlərə yaxınlaşması istehlakın qurluşunda ərzaq və qeyri-ərzağın xüsusi çəkisinin dəyişməsinə gətirib çıxa-

**' Azərbaycan statistik göstəriciləri 2001. s. 125.**

ra bibr. Qısa müddətli proqram üçün ərzaq istehlakımn 70% götürülməsi yoxsul ailələr üçün normativ baza kimi qəbul olunur. Gəlir səviyyəsi yuxan olan ailələrdə ərzaq istehlakımn aşağı olması xarakterikdir. Yoxsulluğun məhz bu göstəricisi də onun istehlak strukturunda ərzağın payının yüksək olması və xidmətin aşağı olmasıdır. Yoxsulluğun ləğvi nəticəsində xidmət istehlakımn xüsusi çəkisi artır. Qeyri-ərzaq istehlakında keyfiyyət və qiymət amili rol oynamış olur. Yoxsulluq həddinin müvafiq əsaslarla hesablanması nəticəsində proqrama uyğun olaraq onun səviyyəsinin 49% təşkil etdiyi müəyyən edilmişdir.

Cədvəl J.*

Əhali kateqoriyaları üzrə yoxsulluq səviyyələri (fərdlər)

| **Əhali kateqoriyaları (fərdlər)** | **Yoxsulluq səviyyəsi, mütləq yoxsulluq həddi (120000 manat və ya 25,0 ABŞ dolları)** | **Yoxsulluq səviyyəsi, nisbi yoxsulluq həddi (72000 və ya 15,5 ABŞ dolları)** |
|---|---|---|
| **1** | **2** | **3** |
| **Ümumi əhali** | **49%** | **17%** |
| **Şəhər** | **55%** | **20%** |
| **0 cümlədən** | | |
| **Böyük şəhər** | **54%** | **18%** |
| **Kiçik şəhər** | **55%** | **24%** |
| **Kənd** | **42%** | **13%** |
| **Naxçıvan MR** | **45%** | **8%** |
| **Abşeron-Ouba** | **58%** | **25%** |
| **Muğan-Səlyan** | **51%** | **20%** |
| **Gəncə-Qazax** | **50%** | **16%** |
| **Şəki-Zakatala** | **49%** | **27%** |
| **Lənkaran-Astara** | **45%** | **8%** |
| **Şirvan** | **38%** | **14%** |
| **Qarabağ-Mil** | **54%** | **21%** |

**Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramı. Bakı,** 2003. S.41

| 1 | 2 | 3 |
|---|---|---|
| **Bakı** | **49%** | **13%** |
| **Kişi**<br>**Oadm** | **48%**<br>**50%-** | **16%**<br>**17%** |
| **0-15 yaş** | **52%** | **18%** |
| **16-29 yaş** | **50%** | **17%** |
| **30-39 yaş** | **50%** | **18%** |
| **40-49 yaş** | **48%** | **15%** |
| **50-59 yaş** | **45%** | **14%** |
| **60-dan yuxarı yaş** | **44%** | **15%** |

Yoxsulluğun ikinci həddi nisbi hədd olub, mütləq həddin (120000 manat) 60%-ni təşkil edən gəlir səviyyəsini özündə birləşdirir. Bu da 2001-ci il üçün 72000 manat, yaxud 15,5 ABŞ dolları təşkil edir. Bu həddə yaşayan yoxsullar əhalinin 17%-ni təşkil edir. Yoxsulluğun əhali kateqoriyaları üzrə hədləri, həmin əhalinin yaşadığı ərazinin sosial, iqtisadi göstəriciləri, şəhər və kənd mühiti və onların təsərrüfatla bağlılığı, ailə üzvlərinin sayı, işləyən və işləməyənlərin nisbəti, yaş, cins və istehlak xərclərindən asılıdır. Sonuncu amil eyni gəlir səviyyəsində müxtəlif istehlak şeylərinə üstünlük verilməsi adət ənənəsi və istehlak davranışı ilə bağlıdır. Yoxsulluğun göstəriciləri, kompleks təsvir və səbəb nəticə əlaqələrini açmaq üçün daha çox amillər üzrə təhlil aparmağı tələb edir. Onun göstəricilər sistemini amillərə, yəni dominantlara, konkret formalaşmış dinamik və hesab göstəricilərinə və proqmatik proqnoz göstəriciləri üzrə təsnifatlaşdırmaq olar. Göstəricilər sistemi real iqtisadiyyatın ümumiləşmiş sintetik sosial-iqtisadi göstəriciləri ilə formalaşır. Belə ki, respublikada ümumi daxili məhsul (ÜDM), adam başına düşən məcmuu gəlirlər, əmək haqqı səviyyəsi, əmtəə və xidmət dövriyyəsi, pul gəlirləri, pullu xidmətlər istehlakı adam başına düşən istehlak səviyyəsi, bəzi vacib məhsulların adam başına düşən istehlakı sosial müdafiə fondları, əhalinin istehlak strukturu ümumi sintetik göstərici-

br olub yoxsulluğun və həyat səviyyəsinin fonnalaşma dinamikası və perspektiv dəyişmə meyllərini müəyyənləşdirir. Ona görə do bu göstəricilərin özünün kompleks təhlili və onların dəyişməsi ilə yoxsulluğun hədləri və ləğvi arasındakı mullipli- kasiya effektinin müəyyən edilməsi yoxsulluğun ləğvi üçün şərait yaradır. Problemlər hərtərəfli və sintetik rol oynayır. Bir tərəfdən göstəricilərin dinamikası yoxsulluğun mövcud vəziyyətini qiymətləndirməyə imkan verir, onun şəraitini araşdırır, digər tərəfdən yoxsulluğun ləğvİ tədbirlərini hazırlamağa imkan verir. Bu məqsədlə yoxsulluğun aşağı salınması tədbirləri təşkilatı iqtisadi əsaslarla yanaşı, ümumi artım meyllərinə nail olmaq və dayanıqlı tədbirlər həyata keçirməklə stabil və dinamik inkişaf dinamikasına sahib olmaq meyllərini tələb edir. Ona görə də bazar iqtisadiyyatına keçidin ümumi anatomiyası, onun sosial iqtisadi nəticələri yoxsulluğun anatomiyasını və onun əsas ilkin şəraitini göstəricilərlə formalaşdırır.

Azərbaycan Respublikasında 1996-cı ildən başlayaraq davam edən dayanıqlı iqtisadi inkişaf və tarazlı balanslaşdırılmış iqtisadi siyasət əhalinin həyat səviyyəsinin yüksəldilməsinə şərait yaratmaq, onun əsas göstəricilərinin dinamikasına və artımına səbəb olmuşdur. Makroiqtisadi sosial-iqtisadi inkişaf göstəriciləri əhalinin həyat səviyyəsinin yüksəldilməsi, qütbləş- məyə aparan amillərin hamarlanması və regional, fərdi sosial siyasətin formalaşması, o cümlədən müxtəlif kateqoriyalı insanlar üçün ilkin sosial müdafiə təminatı şəraitlərinin yaradılması bazasına səbəb olmuşdur. Bazar İqtisadiyyatı şəraitində hamarlama siyasəti kortəbii yox, hər kəsin əmək və tələbatının ictimai mahiyyətini stimullaşdırmaq, dövlətin wprotek-. sionist» siyasətini artırmaq üçün istifadə olunur. Məhz sosial müdafiə və yoxsulluq problemi artıq konkret tədbirlər və ünvanlı müdafiə və ilkin kömək məqsədini güdür. Yoxsulluğun aradan qaldırılmasının ən əlverişli və stimullaşdırıcı istiqamətləri prioritetlər kimi qəbul olunur. Bazar iqtisadiyyatı şəraitində bütün hüquqi və fiziki şəxslər eyni əmək qabiliyyə-

tinə, istehlak və istehsal davranışına malik deyil və eyni tələblərin də qoyulması sosial ədalətin pozulmasına gətirib çıxara bilər. Ona görə də differensiallaşmış sosial müdafiə problemləri və metodları daha səmərəli və optimal variant kimi qəbul oluna bilər. Əhalinin rifahının yüksəldilməsinin əsas meyarlarından biri olan pul gəlirlərinin dinamikası təşkil edir. 1995- 2001-ci illərlə ölkə üzrə pul gəlirləri 2,6 dəfə artaraq 17,6 trilyon manat olmuşdur. 2000-ci illərdə adam başına düşən pül gəlirlərinin həmin məbləq 2215 min manat təşkil etmişdir. Ümumi iqtisadi göstəricilərin dinamikası və əsas istiqamətləri yoxsulluğun daha çox ləğvi istiqamətlərinin ilkin şəraiti və iq-‘ tisadi təşkilati potensialını və onun idarəetmə xüsusiyyətlərini doğrur. (cədvəl 4).

Cədvəl 4}

Əsas sosial iqtisadi göstəricilər

| Göstəricilər | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 |
|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| Əhalinin sayı, min nəfər | 7726,2 | 7799,8 | 7876,7 | 7953,4 | 8016,8 | 8081,0 | ■8141,4 |
| O cümlədən | | | | | | | |
| Əmək qabiliyyətli yaşda, min nəfər | 4243,5 | 4996,9 | 4355,0 | 4515,4 | 4614,5 | 4768,3 | 4892,9 |
| Əhalinin təbii artımı, hər 100 nəfərinə | 12,3 | 10,8 | 11,0 | 10,0 | 9,0 | 8,9 | 8,1 |
| Əhalinin pul gəlirləri, mlrd, man | 6702,7 | 9525,7 | 17367,1 | 14423,8 | 16134,4 | 17556,4 | 19381,8 |
| Adam başına düşən pul gəlirləri, min manat | 886.0 | 1246,3 | 1602,3 | 1850,9 | 2052,0 | 2714,4 | 2415.4 |
| Əhalinin pul xərcləri, mlrd, manat | 6378,9 | 9265,2 | 12056,6 | 14662,7 | 15922,6 | 17347,2 | 18800,8 |

**' Azərbaycan statistik göstəriciləri 2002, s.35-37; 317; 329; 323- 324.**

| l | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| ümumi daxili mohsul, mlrd.manat | 10669,0 | 13663,2 | 15791,4 | 17203,1 | 18875,4 | 23590.<br>5 | 26619,8 |
| Adam başına, mlrd, manat | 1410,3 | 1787,6 | 2046,0 | 2201,5 | 2401,6 | 2975,4 | 331,1 |
| DÖvbt büdcasinin galirbri, mlrd.manat | 1584,7 | 2012,8 | 2565,2 | 2327,3 | 2797,6 | 3573,2 | 3924,0 |
| Ümumi daxili məhsulda, Va-b | 14,9 | 14,7 | 16,2 | 13,5 | 14,8 | 15.1 | 14.1 |
| İqtisadiyyatda məşğul olan işçilərin orta aylıq əmək haqqı, manat | 14467,4 | 89370,1 | 141643,4 | 16849,2 | 184367.6 | 221606,0 | 259953,0 |
| Pərakəndə əmtəə dövriyyəsi, mlrd, manat | 5293,4 | | 8485,6 | 9238,8 | 9448.1 | 105989,4 | 11877,4 |
| Adam başına düşən əmtəə dövriyyəsi, min manat | 699,7 | | 1099,4 | 1185,5 | 1201,6 | 1336,9 | 1486,4 |
| Pullu xidmətlərin həcmi, mlrd, manat | 837,3 | | 1763,9 | 2102,5 | 2267,3 | 2385,9 | 2488,6 |
| Adam başına düşən pullu xidmətlərin həcmi, min manatla | 110,7 | | 228,6 | 269,7 | 288,4 | 300,9 | 311,4 |
| Pərakəndə əmtəə dövriyyəsinin fiziki həcm indeksləri əvvəlki ib nisbətən %-lə | 102.3 | 114,1 | 114,3 | 111.3 | 113,3 | 109,8 | 109,9 |
| Pərakəndə əmtəə dövriyyəsində qeyri- dövlət sektorunun payı | | | | 97,1 | 97,9 | 98,3 | 98,4 |

Əsas sosial-iqtisadi göstaricibrin dinamikası, adam başına düşon səviyyəsi və əlaqələri, nisbətləri yoxsulluğun aradan qaldırılmasının maddi-maliyyə əsasını, onun ehtiyatlarının istifadəsi istiqamətlərini müəyyən edir.

Əhalinin sayı, təbii artım, onun yaş və məşğuliyyət quruluşu, ailənin təminat səviyyəsini, onun gəlir və istehlakmın quruluşunu yaradır. Əhalinin təbii artımı müstəqillik dövründən aşağı düşməyə başlayıb. Hər min nəfərə təbii artım 1995-ci ildə 12,3 nəfər təşkil etdiyi halda, 2001-ci ildə 8,1 nəfərə demək olar ki, 1/3 qədər azalmışdır. Belə sürətli azalma bir tərəfdən yoxsulluğun artımı, digər tərəfdən həyat səviyyəsinin adam başına düşən göstəricilərinin məhz əhalinin azalması hesabına artmasına gətirib çıxara bilər. İqtisadi əbədiyyatda təbii artımla maddi rifah arasında reqressİya əlaqəsi olmasa da ev təsərrüfatı göstəriciləri ailədə üzvlərin artması ilə onların gəlirlərinin azalmasını sübut edir. Yoxsulluq həddi məhz uşağı çox olan ailələrdə daha aşağıdır. Hər bir yeni doğulan uşaq uyğun gəlirlərin 25% artmasını tələb edir ki, yoxsulluq səviyyəsi dəyişir.

Əhalinin sayı ilə onun əmək qabiliyyətli yaşda olanları arasında Azərbaycanda münbit, yəni əlverişli nisbətlən mövcuddur. Əhalinin saymm artımına uyğun olaraq əmək qabiliyyətli insanlarının sayı da artır. İqtisadi fəal əhalinin ümumi sayının statistik göstəriciləri üzrə 98,7% məşğul olanlar kimi qəbul olunur. Əlbəttə, məşğulluq meyarı özəlləşdirilmiş əmlak şəraitində torpaq payı olanlar və mülkiyyət hüququ olanlar götürülür. Əhalinin demoqrafik tərkibi onun məşğulluğunun mülkiyyət münasibətlərindən asıhlığı və təsərrüfat formalarında fəaliyyəti onun əməyinin Ödənilməsi xarakterini və səviyyəsini müəyyən edir. Ona görə də yoxsulluq nisbi proses olaraq regionlarda təsərrüfatın sahələri və onların məhsuldarlığı və əmtəə bazarına çıxmaq qabiliyyəti ilə ölçülür. Azərbaycanda əhalinin yoxsulluğunun demoqrafik göstəricisi hər bir ailədə işləyənlərlə işləməyənlər arasında nisbətlə ölçülür. Bütövlükdə əmək qabiliyyətli yaşında əhalinin sayı 2001-ci

İldo bütün ahalinin sayma nisbətən 52% təşkil edir.

Potensial baxımından hər məşğul olanın məcmuu gəliri özü və ailəsini təmin etmək üçün, onun yaşamaşı üçün lazım olan normativ istchlak büdcəsindən 2 dəfəyə çox olan gəlirlə ödənilməlidir.

Təbii ki, gəlir səviyyəsi bu potensial həcmdən az olanda yoxsulluq prosesi formalaşacaq. Yoxsulluğun makroiqtisadi əsasları ümumi daxili məhsulun artımı, onun istifadəsi, adambaşına düşən səviyyəsinin bir sıra tədbirlərin həyata keçirilməsi üçün kifayətliyi və həmçinin yeni investisiya proqramları əks etdirir. ÜDM-m büdcə və sahibkarlıqla əlaqəsi, əlverişli bölgü prinsipləri yoxsulluğun mövcud vəziyyətini və onun həlli yollarını formalaşdırır. Dövlət büdcəsinin gəlirlərinin 14,7% ÜDM-da payı, fıkrimizcə, yoxsulluğun həlli yolunda dövlətin maliyyə imkanlarının tam ödənilməsi haqqında əsas verir. Beləliklə, yoxsulluğun makroiqtisadi problemləri həmçinin özəl sektorun iş yerlərinin açılmasında, o cümlədən İqtisadiyyatın strukturunda mütərəqqi dəyişmələr ilə əlaqədə təhlil olunmalıdır. Bugünkü özəlləşdirmə və torpaqların özəl sektorda olması ilkin resurs potensialının bir tərəfini onun maddi əsasını yaradır. Onun maliyyə əsası isə həmin vəsaitlərdən istifadə etmək üçün pul, kredit, xarici resursların iqtisadi dövriyyə cəlb edilməsi yolları ilə mümkünlüyünü əsaslandırır.

4-cü cədvəlin makroiqtisadi göstəricilərinin hər birinin birbaşa və dolayısı yolla yoxsulluğun əmələ gəlməsində mövcud reallıqları qiymətləndirməklə onun həlli yollarının elmi və metodiki əsaslarını tərtib edib qərar qəbuluna qədər çatdırmaq olar. Ona görə də yoxsulluğa iqtisadi artım, məşğulluq və həyal səviyyəsinin müdafiəçisi kimi dövlət orqanlarının rolunu və əsas istiqamətlərini hazırlamaq müddəaları əsas götürülür. Biz yoxsulluğa konseptual əsas olaraq, onun maddi, sosial, təşkilati və tənzimləmə mexanizmlərinin kompleks tədqiqi və əlaqəsinin sistem təhlili proqnozu kimi baxırıq. Yoxsulluğun fəsadları bütün ictimai, iqtisadi və sosial səviyyədə müasir səviyyəli parametrlərlə öz əksini tapır. Ona

görə də makrosəviyyəli məqsədli proqram metodu və həllinin iqtisadi, təşkilatı yolları müxtəlif alternativ metodların tətbiqi hər hansı sosial-iqtisadi region və əhali qrupları üçün spesifik seçim meyar və göstəriciləri tətbiq etmək olar. Alternativ seçim yeni iş yerləri, iqtisadi yardım,, yaxud təminat mexanizmləri ilə həll edilir.

Yoxsulluğun mahiyyəti, dinamikası, formalaşma və meylləri sosial-iqtisadi proqnozların tərtib olunmasını, onun daha çox adekvatlığım tələb edir.




Sxem 2. Yoxsulluğun tədqiqi və təhlilinin ardıcıllığı və metodikası.

Yoxsulluğun proses olaraq sistem təsviri, onun ümumi və konkret obyektlərinin seçilməsi və metodiki priyomlar daha çox qərar qəbulunun reallığını və mümkünlüyünü artırır, Belə ki, Azərbaycanda müəyyən prioritetlər, ənənəvi yanaşmalar yoxsulluğun, yaxud perspektiv həyat səviyyəsinin daşıyıcılarıdır. Belə ki, təhsilə ehtiyac bütün əhali qrupları üçün ümumi qərar qəbuludur. Amma təhsil sahəsində olan maddi imkansızlıq və yaxud təhsilin özünün keyfiyyətcə zəif olması yoxsul əhali üçün daha dərİn sosial-iqtisadi nəticələr verə bilər. Ona görə də, sxemdən göründüyü kimi, elmi proqnozlar resurslar və mexanizmlərİn ümumi qərara təsiri əhali tərəfindən yoxsulluğun ləğvi baxımından qiymətləndirilməlidir.

## 2. Yo\su]luğun azaldılması inkişafın amilidir

Yoxsulluq problemi, onun sosial-iqtisadi nəticələri, dinamikası və meylləri inkişaf problemləri ilə bağlıdır. Sosial- iqtisadi inkişafın əsas istiqamətləri, onun meylləri və qanunauyğunluqları uyğun olaraq yoxsulluğun ləğvində müəyyən rol oynayır. Daha çox istehlaka təsir etmək, onun həcmi və strukturunda maksimal səmərə yaratmaq üçün bazarın təşkilinə və alıcılıq qabiliyyətinə təsir etməkdən ibarət olmalıdır. Bu baxımdan yoxsulluğun səviyyəsinin, regional xüsusiyyətləri və respublika sosial-iqtisadi inkişafın əsas potensial imkanları və perspektivləri arasında uzlaşmaq yaratmaqdan ibarətdir. Yoxsulluğun ləğvi üçün iqtisadi potensial, məşğulluq səviyyəsi və adam başına düşən ümumi daxiH məhsul, yaxud geniş istehlak fondu götürülür. Məhz iqtisadi potensialın səmərəli istifadəsi, iş qüvvəsinə malik olanların mülkiyyət münasibətlərindən asılı olmayaraq, məşğulluğunun təmin edilməsi, əhalinin istehlakında xidmət sferasının inkişafı, intellektual mülkiyyətin qiymətləndirilməsi və onun istifadəsinin sosial-iqtisadi effektinin yüksəldilməsi, yoxsulluğun ləğvinin həlli istiqamətləri kimi qiymətləndirilə bilər.

Yoxsulluğun ləğvi məqsədləri İlə təşkilati-iqtisadi potensialın səmərəli təşkili və idarə olunması mühüm istiqamət kimi rol oynayır. Respublikada təbii ehtiyatların, karbohidrogenlərin və insan resurslarının iqtisadi dövriyyə cəlb edilməsi üçün investisiya proqramları, onların təşviqi və respublikada pul-maliyyə-kredit mexanizmlərinin təkmilləşdirilməsi bir başa ümumi rifah və yoxsulluğun həddinin aşağı salınmasmm əsas istiqaməti kimi formalaşır. Bu məqsədlə respublikada aparılan struktur reformalar, neft kontraktları, Şahdəniz qaz kəməri, Bakı-Ceyhan, İpək Yolu və digər beynəlxalq səviyyəli kotraktlar məhz Azərbaycanda formalaşmış iqtisadi potensialın istifadəsi, yeni istehsal və bölgü münaisbətlərinin təkmilləşdirilməsi, habelə digər sahələrin inkişafına təməl və əsas yaradılmasına imkan verir.

**investisiya axını iqtisadi səmərə gətirir. Bu səmərənin bölgüsündə maraqlar, xarici və daxili investorların payı və onların gəlirlərinin bölgüsü mexanizmləri investisiyam stimullaşdırır. Trasnmilli kompaniyaların istehsal şəraiti, daxili investorlara nisbətən daha səmərəli olduğu üçün onun rəqabət mühiti şəraitində inkişafına səbəb olur. Daha ucuz iş qüvvəsi və yerli təbii resurslara əsaslanan ixtisaslaşmış istehsal və xidmət obyektlərinin inkişafı, yüksək gəlir və əlavə mənfəət gətirməsinə səbəb olur. Regionda bu mənfəət və gəlirlərin yerli əhalinin əmək gəlirlərinə, dövlət büdcəsinə və sosial ifnrastruktu- ranın inkişafına yönəldilməsi son nəticədə əhalinin məşğulluğu və trasnfert gəlirlərinin artımına səbəb olur. Strateji inkişaf baxımından əldə olunan gəlirlər və mənfəət yoxsulluğun həlli üçün əsas mənbəə rolunu oynayır. Burada alternativ hal kimi vəsaitlər və mənfəət yeni iş yerlərinin açılması məqsədi, yaxud transfert xərcləri kimi istifadə oluna bilər. Variantların seçilməsi, artıq əhalinin yaş tərkibi və onların yaşaması üçün lazım olan resursların istifadəsinin vacibliyindən asılıdır. Azərbaycan Respublikasında yoxsulluğun ləğvini iki əsas vektor və istiqamət üzərində həll etmək vacibdir.**

**Birincisi, yoxsulluq həddinin faktlannm əsas səbəblərinə görə təhlil edib, onların sosial müdafiə tədbirləri yolu ilə ehtiyaclarını ödəməklə.**

**İkincisi, yeni iş yerləri və yaxud xüsusi və fərdi təsərrüfat üçün ilkin kapital və şərait yaratmaqla istehsal və xidmət sferasında məşğulluğu təmin etmək.**

**Sosial müdafiə kontingentlərinin tam dövlət təminatı mərhələ-mərhələ baş verə bilər. Belə ki, işləyən pensiyaçılar, kənd yerlərində demoqrafik vəziyyətindən asılı olmayaraq bütün əhaliyə verilən torpaq payı, sahibkarhq fəaliyyəti ilə məşğul olmaq istəyən qocalar və həmçinin uşaq əməyindən istifadə imkanları, respublikada yoxsulluq həddində yaşayan ancaq dövlət təminatı vasitəsi ilə təyİn olunmasını hələ ki qoya bilməz. Arama pensiya, təqaüd və müavinatlar elə qoyulmalıdır ki, onun yuxarıdakı mənbələri olmasa, əhalinin rifa-**

iının yaşayış minimumu təmİn olunsun. Yoxsulluq hor bir aibdə bölgü və cəmiyyətdə yenidən bölgünü xüsusi fondların yaradılmasını, həmçinin məqsədli fondların formalaşması yolları ilə reallaşır. Azərbaycanda qaçqınlıq və köçkünlük amili, yoxsulluğun həlli yollarında xüsusi istiqamətlə təmin olunur. Dövlət büdcəsinin xərc strukturunda bü məqsədlərə ayrılan sosial müdafiə xərcləri, köçkün ailələrə qida və xidmət xərclərində güzəştlər, dövlət büdcəsi və xarici hümanitar kömək vasitəsi ilə qaçqın əhali üçün mənzil, kommunal və istehsal şəraitini yaratmaq üçün yardımlar və tikililər rol oynayır.

Yoxsulluğun ərazi üzrə yerləşməsi onun ləğvi ilə həmin regionlarda əhalinin məşğulluğu və sosial infrastrukturun düzgün istifadəsi yolu ilə bütövlükdə kompleks regional xarakter kəsb edir. Belə ki, məşğulluğun ərazi qurluşu, sahibkarlığın regional xarakteri, adətən kommunal və kommunikasiya elementləri çox olan ərazilərdə daha intensiv inkişaf edir. Abşeron-Bakı iqtisadi regionunda kiçik və orla biznes müəssisələrinin yerləşməsi, bir başa bu zonada kommunikasiyaların daha geniş inkişafı ilə bağlıdır. Bu meyllər əhalinin regionlardan Bakıya və digər iri şəhərlərə axınına, rayonların ehtiyatlarının istifadəsinin azalmasına və son nəticədə ümumi iqtisadi artımda ərazi proporsiyalarının pozulması ilə nəticələnir. Regionlarda kiçik biznes və orta sahibkarlığın inkişafı, bazar tələbatı ilə müəyyən olunduğu kimi, onun inkişafına şərait yaradan istehsal və sosial infrastrukturların inkişafı ilə də müəyyənləşir. Əgər yol şəraiti, məhsulun satışı və tədarükü üçün ilkin məntəqələrin, yaxud bazar təiəbatiınm olmaması, enerji, istilik, kommunal xidmətlərin olmaması son nəticədə həmin ərazinin həm istehsal, həm də əhali üçün əlverişli olmaması və əhalinin miqrasiyasına səbəb olur. Ona görə də regionların kompleks inkişafı yolu, bir başa iş qüvvəsinin istifadəsi və əhalinin məskunlaşması üçün əsas istiqamət olaraq inkişaf edir. Regionun differensial şəraitini hamarlamaq üçün regional siyasət konturu cızılır və inkişaf etdirilir.

Sosial-iqtisadi inkişafın struktur dəyişmələri, mövcud

strukturun səmərəli iqtisadi struktura çevrilməsi strategiyasını nəzərdə tutur. Belə ki, əməktutumlu, yaxud kapital tutumlu fəaliyyətlərin, daxili bazar yaxud xarici bazara istiqamətlənmiş fəaliyyətlər, həmçinin istehsal, emal və satış arasında nisbətlərin yoxsulluğun ləğvi və rifah baxımından tənzimlənilməsi zəruriyyəti meydana çıxır. Əmək tutumlu sahələrin inkişafı, daha çox işçi qüvvəsi tələb edən, əmək haqqı xərclərin xərc strukturunda xüsusi çəkisinə görə yuxarı olan sahələrin inkişafı ilə bağlıdır. Yoxsulluğun həddinin yuxarı olması şəraitində əməktutumlu sahələrin inkişafı, ucuz iş qüvvəsinə əsaslanır. Bu da Öz növbəsində yoxsulluğun xronoloji prosesə çevrilməsinə səbəb olur. İnvestisiya tutumlu sahələr əmək haqqı xərcləri ilə fondlarla silahlanma, yaxud elmi-texniki tərəqqinin tətbiqi ilə bağlı xərclərin arasında tarazlığın yaradılmasına və son nəticədə inteqral effektin əldə olunmasına səbəb ola bilir. Əmək haqqı xərcləri gəlirlərin və islehlak bazarında alıcılıq qabiliyyətinin, ümumi daxili məhsulun istehsal və istehlak strukturundakı zəruri əmək xərcləri ilə onun alıcılıq qabiliyyətinin maddi-əşya formasında reallaşdıran maddi nemətlər və xidmət istehsalını formalaşdırır.

Sosial-iqtisadi inkişafın nəticələri dövlət büdcəsinin, həmçinin büdcədən kənar vəsaitlərin ümumi daxili məhsulun maliyyə əsaslarını yaradır. Büdcə kəsirləri, onun perspektiv İnkişafının dövlət tərəfindən maliyyə əsaslarım müəyyən edir, büdcə layihələri sosial və investisiya prioritetləri əsasında qurulur, ayrı-ayrı sahələrin, sahibkarlıq fəaliyyətinin və əhalinin sosial müdafiəsinin, sosial sahələrin inkişafi üçün zəruri xərclərin əsas artımını müəyyən edir. Bu baxımdan dövlət büdcəsinin xərc strukturunda dinamikası baş verən meylləri göstərir (cədvəl 1).

Dövlət büdcəsinin xərcləri, cədvəldən göründüyü kimi, cari və perspektiv xərcləri əhatə edir. Carİ xərclər sosial sahələr və əmək haqqı, sosial müdafiə və bir sıra borcların ödənilməsi xərcləridir. Perspektiv xərclər rifahın perspektiv həlli və kadr hazırlığı üçün kapital tutumlu xərclərdir. Hər bİr istehlak

*Cədvəl 1.*

1997-2002-ci illərdə dövlət büdcəsinin iqtisadi
və sosial xərcləri (faizlə)

| **Xərclər** | **Xüsusi çəki** | |
|---|---|---|
| | **1997** | **2002** |
| **1. Milli Məclis** | **0,30** | **0,30** |
| | **4,70** | **15,9** |
| | **1,20** | **1,3** |
| - | **11,20** | **12.7** |
| | **8,23** | **2,0** |
| | **20,42** | **22,6** |
| | **7,83** | **5,7** |
| | **8,73** | **14,3 -** |
| | **2,75** | **4.9** |
| | **2,80** | **2,4** |
| | **0,20** | **0,3** |
| | **2,64** | **2,0** |
| | **4,60** | **0,03** |
| | **0,30** | **5,10** |
| | | **0,4** |

olunduqda özünəməxsus təkrar istehsal effekti yaradır. Məhz bu effektin dəyər kəmiyyəti və həmİn effektin istifadəsi əsaslı kapital qoyuluşunun istiqamətlərini müəyyən edir. Büdcə iqtisadiyyat inkişaf etdikcə daha tarazlı və dayanıqlı investisiya və kredit resurslarının tətbiqinə çevrilir. Cədvəldən göründüyü kimi, nisbi də olsa dövlət büdcəsinin son 5 ildə 2 dəfə artımı ilə yanaşı, onun strukt urunda da keyfiyyət dəyişmələri baş vermişdir. Təhsil, xərclərinin xüsusi çəkisi 20,42%-dən 22,6%-ə, sosial müdafiə xərcləri 8,73%-dən 14,3%-ə, sosial təminat xərcləri 2,75%-dən 4,9%-ə, kənd təsərrüfatının inkişafına ayrılan xərclər 4,60%-dən 5,20%-ə dövlət investisiya qoyuluşu 3,38%-dən 3,45%-ə, ehtiyat fondları 0,28%-dən 1,71%-ə qədər yüksəlmişdir.

İnvestisiya tələbatı xarici investisiyaların və yerli resursla

rın hesabına baş verir. İnvestisiyanın 70%-nin xarici investisiya mənbəi hesabına ödənilməsi iş yerlərinin və bazarda isteh- lakm artımına səbəb olur. Büdcə xərclərinin prioritet istiqamətləri, iqtisadi artımın sonrakı dinamikasını və həyat səviyyəsinin perspektiv inkişafı üçün şərait yaratmaq imkanları ilə Ölçülür. Sosial müdafiə xərcləri, cari istehlak üçün istifadə olunsa da, onun təhsil və səhiyyə sahələrindəki artımı bu sahələrin maddi-texniki bazasının artırılması, təhsilin və səhiyyə işçilərinin rifahı üçün şəraitin yaradılmasına səbəb olur. Təhsil sahələrinin inkişafı, əhalinin ömür müddətinin, ailə xərclərinin və sağlamlığın qorunması ilə sosial-iqtisadi səmərə əldə etməyə ən əlverişli yaradan sahədir. Səhiyyənin inkişafı, onun sosial-iqtisadi effekti, bu xidmətin istehlakçıları arasında bölünür. Pulsuz səhiyyə xidməti, dövlət büdcəsi vasitəsi ilə maliyyələşdirilir və bu xidmətin bütöv bazar qiymətində onu mənimsəyən ailələrin məcmuu gəlirləri və geniş istehlak quruluşunu müəyyən edir. Dövlət büdcəsi iqtisadi inkişafın törəməsi kimi, cari maliyyə ili üçün potensial imkanları müəyyənləşdirdiyinə görə onun strukturunda həmçinin prioritetlər kredit forması ilə də təmin olunur. Regional siyasətin formalaşması, kənd təsərrüfatı və iqtisadiyyatla bağlı sahələrin inkişafı üçün büdcə xərclərinin artımı və kredit şərtinin sadələşdirilməsi sahibkarlığın inkişafı ilə rifaha təsir edir.

Kredit resurslarının artımı və onun xarakteri verilmə ünvanı və şərtləri birbaşa əhalinin rifahına və onun yoxsul- 1 uğunun ləğvi üçün xüsusi əhəmiyyət kəsb edir. Sosial-iqtisadi inkişaf baxırmndan kredit vəsaiti, verilmə müddətində gəlir mənbəi kimi xərc strukturunda öz əksini tapır. Kredit verilən təşkilatlar və kredit alanlar arasında bağlanılar şərtlərin dərəcəsi İnkişaf və rifah üçün əsas istiqamətlərdən biridir. Respublikada kredit resurslarının artımı ilə onun strukturunda keyfiyyət dəyişmələri baş verir. Qısamüddətli kreditlərin xüsusi çəkisi azalır, uzun müddətli kreditlərin xüsusi çəkisi artır. Kreditlərin verilməsində ucuz faiz siyasəti, əhalinin əlində olan gəlirlərin inkişafı üçün istifadə edilməsinə şərait yaradır. İqti-

sadi ədəbiyyatlarda kredit verilməsi və maliyyə yardımları ilə inflyasiya arasında baş verən nisbətlərin rifahın pisləşməsinə doğru addım atılmasına gətirib çıxarması haqqında fikirlər mövcuddur. Lakin kreditlərin bir başa təyinatı üzrə istifadəsi, onun səmərəliliyinin artırılması, son nəticədə əmtəə və xidmət bazarında əmtəə və xidmət təklifinin artması ilə qiymətlərin enməsindən, itirilən vəsaitlə müqayisədə dəfələrlə çox olması məhz onun səmərəsinin yüksəldilməsi ilə iqtisadi artım nisbətləri sonuncunun yüksək artımı ilə müşahidə olunursa, bu səmərəli fəaliyyətdir.

Əmək haqqının artırılması və əmək haqqı ilə müəyyən olunan əmtəə və xidmət bazarının artması tarazlı inkişafın və əhalinin rifahını yaşxılaşdınr. Digər hallarda əmtəə və xidmət bazarında istehlak seqmentinə uyğun təklif təmin olunmursa, onda inflyasiya və qiymətlərin qalxması baş verir. Əhalinin rifahı dövlət büdcəsindən, büdcədən kənar fondların istifadəsi, xüsusi vəsaitlərin istifadəsi hesabına formalaşır. Bir çox müəssisələrdə əmək haqqı normalaşmış, əmək göstəricilərindən kənara çıxıb, görülən İşin kəmiyyət və keyfiyyətinə görə müəyyən edilir. Tikinti sahəsində, xidmət və digər nəticə ilə ölçülən sahələrin əsas əmək haqqı fondu və onun hər bir işçiyə verilən hissəsi, uyğun olaraq fərdi əməklə ölçülür. Əmək haqqının artımı sahələrin ümumi daxili məhsulda rolu və onun artımında aralıq məhsul və son məhsulda olan payı ilə ölçülür. Sahələrin son məhsul, yaxud xammal istehsal etməsindən asılı olaraq, yaxud bazarda yüksək əmtəə və xidmətin tələbatına uyğun olaraq artırsa onda gəlirlər də artır. Gəlirlərin əsas hissəsi olan muzdlu əməyə görə verilən haqq, tələb və təklifdə müəyyən olunur. Əmək haqqının artım tempi onun- məhsuldarlığı ilə uzlaşdıqda həmin əməyə stimul yaranır.

Yoxsulluğun ləğvi və sosial-iqtisadi inkişaf arasında vəhdət ayrı-ayrı sahələrin aparıcı rolunu qiymətləndirmək, onun inkişafına şərait yaratmaq və perspektiv inkişafını müəyyən etməklə baş verməlidir.

Belə ki, respublikada özəlləşdirmənin ikinci mərhələsi

2000-2003-cü illərdə iri müəssisələrin özəlləşdir məsini əhatə etdiyi üçün transmilli kompaniyaların yaranmas: ilə kiçik və orta müəssisələrin inkişafı və əhalinin məşğuliyyətinin perspektivləri müəyyən edilir. Sənaye sahələri yerli xammala əsaslanan emal sənayesi ilə inkişaf edir. Neft hasilatı, emalı və nəqli Azərbaycanda xüsusi yer tutur. Ümumi.daxili məhsulun 18%-ni, dövlət büdcəsinin 41%-ni neft sektoru təşkil edir. Neftin İxracatı və onun qiymətinin dəyişməsi respublika gəlirlərini əhatə edir. Respublikada neft sektoru, indiki islahatlar şəraitində strateji istiqamət olaraq, əhalinin rifahı, əsas fondların istifadəsi, məşğulluq problemi və digər sahələrin problemi üçün xüsusi əhəmiyyət kəsb edir. Neft fondunun yaradılması məqsədi, onun istifadəsində nəzarət və sosial məqsədlər üçün istifadəsi qaçqın və köçkün ailələrin yaşayışı üçün əlavə gəlir mənbəi rolunu oynayır. Neft sektorunda işləyənlərin əmək haqqısı və sosial müdafiəsi digər sahələrdən yüksəkdir.

Neft sektorunun sosial-iqtisadi nəticələri cari, perspektiv tədbirlər üçün istifadə olunur, ilkin növbədə dövlət büdcəsinin formalaşmasına həm gəlir mənbəi kimi vergi daşıyıcısı rolunu oynayır. Digər tərəfdən neft məhsullarının ixracatı, respublikaya valyuta ehtiyatlarının əsas mənbəi rolunu oynayır. Azərbaycanda əmtəə pul dövriyyəsinin müəyyən hissəsi valyuta haqq hesabları ilə reallaşır. Valyuta mənbəə kimi ixra- catyönlü məhsulların istehsalı, inteqrasiya sistemində ölkənin xüsusi çəkisini artırır. Əmtəə ixracatı yeni iş yerlərinin açılması ilə bağlıdır. Son illərdə idxal və ixrac balansında ixracatın idxalı örtməsi müsbət saldo ilə ifadə olunur. İdxalın strukturu istehsal yönlüdürsə, onun sosial-iqtisadi nəticələri yeni iş yerlərinin açılmasına və əlavə gəlir gətirilməsinə səbəb olur. Ona görə də sosial-iqtisadi inkişaf tendeksiyasında maliyyə balanslarının tərtibi, onun əsas mənbəələri iqtisadi və sosial inkişafla əhali rifahı arasında tarazlılıq yaradır.

İdxalın tənzimlənməsi yerli istehsalın inkişafına istehsal yönlü fəaliyyət üçün gömrük güzəştlərinin tətbiqi, investisiya xarakterli kapitala vergi qoyulması, ölkəyə gələn resursların

arlımına stimul yaradır. Azad ticarət və liberal iqtisadi siyasət şəraiti, əmtəə və xidmət istehsalının marketinq strukturunun rəqabət mühiti şəraitində yeniləşməsin: tələb edir.

Marketinq strukturu kompleks iqtisadi və sosial inkişafın əsas istiqaməti olaraq tələbat strukturu ilə formalaşır. Belə ki, gəlirlərin səviyyəsi, əhalinin alıcılıq qabiliyyəti və əmtəə təklifi istchlak strukturunun əsas istiqamətlərini formalaşdırır. Parakəndə mal dövriyyəsinin əsas strukturu yerli tələbat ərazidə yaşayan əhalinin istehlak tələbatının planlaşması istehsal strukturunu, idxalı özündə birləşdirir. İstehlak tələbatının ödənilmə dərəcəsində vacibliyinə görə differensiallaşır. Ən vacib tələbat növü bütün əhali üçün ərzaq tələbatı, qeyri-ərzaq və xidmət tələbatı ilə xarakterizə olunur. Maddi və mənəvi tələbatın marketinq strukturu, tədqiqat obyekti kimİ və isteh- lakın xarakterinə uyğun olaraq yeyinti məhsulları, geyim, əşyaları, tikinti, tibbi dərmanları və mədəni tələbatı ödəyən ayrı-ayrı xidmət əşyaları ilə ödənilir. Yoxsulluğun ləğvi üçün yanaşma sosial-iqtisadi inkişafın ayrı-ayrı problemlərini və əsas istiqamətlərini müəyyən edir. Bu problemlərdən on vacibi əhalinin məşğulluğu üçün lazım olan sahibkarlığın inkişafı strategiyasıdır. Bu məqsədlə ilkin iqtisadi baza yaradıirmşdır. O cümlədən, torpaqların özəlləşdirilməsi, sahibkarlığın inkişafı üçün hüquqi və normativ bazanın yaradılması, əmtəə və xidmət bazarının formalaşması və inkişafı üçün azad iqtisadi və rəqabət mühitinin yaradılması, idxal və ixrac proseslərində respublika maraqlarının qorunması və ölkədə sosial məqsədlər üçün aparılan ardıcıl tədbirlərin məcmuu ilə həll olunur.

Sosial-iqtisadi inkişaf və sahibkarlıq problemləri ayrı-ayrı aspektlərdən öyrənilsə də, rifah problernləri baxımından sahibkarlığa stimullar yaratmaq, yeni iş yerləri açmaq və gəlir gətirmək qabiliyyətinə malikdir.

Sahibkarlığın inkişafı məqsədi ilə əhali rifahını yüksəltmək üçün dövlətin iqtisadi maliyyə və resurs potensialının səmərəli istifadəsi yolları tətbiq olunur.

Sahibkarlığın yoxsulluğun ləğvində rolunu daha da artır

maq maqsədi ilə onun ilkin şəraiti və bir sıra tədbirlərin həyata keçirilməsi, işsizliyin təminatına və əhalinin rifahına təsir edir. Kiçik biznes fəaliyyəti, fərdi təsərrüfat forması, ailə təsərrüfatı, bir sıra fermer təsərrüfatlarının təşkili və idarə olunması, mühüm və səmərəli inkişaf strategiyası olaraq respublikada maddi və mənəvi nemətlərin bazarının təşkili və əhalinin gəlirlərinin artımı üçün aparıcı təsərrüfat həlqəsidir. Respublikada sahibkarlığın İnkişafının ilkin şəraiti dövlət himayəsi, yolu ilə təmin olunur. O cümlədən, dövlət resursları, müəssisə və təşkilatların xüsusi vəsaitləri, sahibkarlıq və həmçinin respublikada fəaliyyət göstərən xarici şirkətlərdə yerli əhali və yerli resurslardan istifadə istiqamətləri ərazidə kompleks sosial-iqtisadi inkişafın əsas istiqamətləridir. O cümlədən, aqrar sektorun inkişafı üçün neft amili, xarici investisiyaların ənənəvi sahələr olan üzümçülüyün və şərabçılığın inkişafı tütün emalı və tütün istehsalı, ət və ət mhsullan, süd və süd məhsulları, meyvə - tərəvəz və konserv istehsalı, həmçinin mülkiyyət münasibətlərindən asılı olmayaq, xidmət sferası və istehsal infrastrukturu əsas istiqamətidir. Respublikada yerli əhalinin tələbatı və xarici ölkə vətəndaşlarının iş görmək intensivliyi kapital axınının həcmi, ərazi iqtisadi və sosial potensialın həcmini və onun strukturunu müəyyən edir. İqtisadi potensial kimi mövcud istehsal gücləri və onların mülkiyyət formasından asılı olmayaraq istifadə səmərəsi əsas yer tutur. Sosial və intellektual potensial mövcud insanlar, təbii artım və onların istehsal və istehlak qabiliyyətləri əsas yer tutur. Hər iki potensial növü biri-birinə uyğun kəmiyyət və keyfiyyət seqmentləri ilə uyğunlaşdıqda alman multiplikasiya effekti yüksək olur. Sosial potensial maddi tərəfi və onun istehlak davranışını istehsalda yaranan gəlirlər və onun bölgüsü təşkil edir. Əhali gəlirlərinin mənbəə və formaları iqtisadi potensial təkrar istehsalı sxemi və metodları ilə müəyyən olunur. Sosial amil olaraq əhalinin sosial kontingent kimi tipləşdiril- məsi və onların dinamikasının proqnozu verilməklə, iqtisadi amil və resursların təsnifatlaşdırılması baş verməlidir. Nə qə-

dor bu uyğunluq baş verirso bir o qodor optimal olaqo yaranır.

Resurs təminatı Azərbaycan Respublikasında əlverişli iqtisadi şəraiti, əhalinin iş qüvvəsi, təbii resurslar və coğrafı- iqtisadi və investisiyanın artımı və onlardan istifadə yolu ilə mümkündür. Resurs təminatı baxınundan əhali və iş qüvvəsi, onların təbii artımı və intelektual mülkiyyətin təkrar istehsalı, yeni keyfiyyət aspektləri və həmçinin iş qüvvəsinin elmi- texniki və yeni texnologiyanın tətbiqi ilə inkişaf etməsini nəzərdə tutmaq olar.

Maddi resurslar maddi təminatın tərkib hissəsi olmaqla, yeni texnologiyalarm istehsalı, idxalı və. istifadəsi, həmçinin xammal və təbii sərvətlərin ehtiyatlarının istifadəsi üçün əhəmiyyət kəsb edir. Xammal və təbii ehtiyatların emalı və ixracatı üçün xarici investisiyaların ölkəyə gətirilməsi Və onların yeni texnologiya üstünlüyü ucuz iş qüvvəsi və xammalla istehsal və emal sənayesində və transmilli kompaniyaların yaranmasında rolu son nəticədə ixracata baza yaradır. Resursların təkrar istehsalı üçün əsas verir. Azərbaycanın sosial- iqtisadi inkişafı üçün resurs təminatının əsas aparıcı həlqəsi ölkənin əlverişli iqtisali-coğrafı mühiti, tranzit iqtisadi region olması, Bakı-Ceyhan neft kəmərinin sosial-iqtisadi effekti və Bakı-Şahdəniz qaz kəmərinin və Asiya - Avropa dəhlizi üçün TRASEKA layihəsi və həmçinin hava yolları, gəmi və dəmir yolları əlaqələri üçün mövcud potensialın olması və perspektivliyi, son nəticədə xüsusi effekt verir.

Respublikada yuxarıdakı beynəlxalq səviyyəli layihələrin inkişafı, onların sosial infrastruktura təminatı yeni iş yerlərinin açılması üçün mühüm əhəmiyyət kəsb edir. Respublikanın ərazisində istehsal, istehlak sferası, xidmət və məişət- obyektlərinin tikilişi, yeni iş yerlərinin açılmasına gətirib çıxarır. O, cümlədən mehmanxana, mənzil tikintisi, anbarlar, xidmət obyektləri, iaşə obyektləri və həmçinin tranzit yüklər, əhali daşınması üçün zəruri olan obyektlərin inkişafı əhali rifahın və yoxsulluğun ləğvinin köklü istiqamətləridir (sxem).




***Sxem.* Sosial problemlərin sosial-iqtisadi inkişafda rolu.**

Sxemdən göründüyü kimi, sosial-iqtisadi inkişaf aydın vo real məqsədlərlə ifadə olunur, iqtisadi artım, yeni iş yerləri və sahibkarlığın və sosial xidmət sferaların tədqiqi əsas aparıcı həlqə rolunu onyayır. Sahibkarlığın sosial problemləri həm təsərrüfat daxili, həm də bölgü, mübadilə sferasında formalaşır. Əmək haqqı sistemi firma və şirkətlərin inkişafı ilə onların maliyyə və sosial xərcləri artır.

Respublikanın sosial-iqtisadi inkişafının əsas*istiqamətləri

ib əhalinin maddi və mənəvi təbbalmın ödənilməsi arasında optimal nisbətlər və tənzimləmə mexanizmləri ilə əlaqəli cəhətlərinin inkişaf etdirmək yolu ilə mümkündür. Maddi rifah özü iqtisadi artımın və resurs təminatının tərkib hissəsi kimi qəbul edilə bilməlidir. Əgər iki iri amil olaraq maddi amil ilə insan amilinin iqtisadi artımda və resurs təminatında qəbul olunur.

AÜDM = f (Y,g, Ys)

İstehsal funksiyası formasında

ÜDM=Yığ“Ys*’ ifadə olunur.

Burada, AÜDM - ümumi daxili məhsulun artımı; Yığ ~ yığım üçün ayrılan ümumi daxili məhsulun bir hissəsi; Ys - istehlak üçün istifadə olunan ümumi daxili məhsulun hissəsi; a,p - elastiklik əmsalıdır.

**a-ı-p<l**

Sxemə uyğun olaraq hər bir sahə, region, sahələrarası inkişaf meylləri ilə həyat səviyyəsi arasında əlaqələri tədqiq etməklə, onlar arasında funksional dəyişmələri və meyllərin dinamikasım proqnozlaşdırmaq mümkündür.

İqtisadi və sosial inkişafın maliyyə potensialı, ÜDM-un kütləsi, onun tərkibində pul kütləsinin dövlət büdcəsinin, həmçinin toplu maliyyə kütləsinin xüsusi çəkiləri ilə ölçülür.

Büdcə gəlirlərinin ÜDM-də nisbəti real göstəricilər üzrə 20Ü0-Cİ ildə 15,2%, 2001-ci ildə 14,8%, 2002-ci ildə isə 16,4% olmuşdur. Dövlət büdcəsinin ÜDM-da xüsusi çəkisinin bir başa rentabellik səviyyəsinin artması və bazara çıxarılan son məhsulun qiymətinin qalxması ilə bağlıdır. Maliyyə resursları məhz ÜDM-un reallaşması ilə formalaşır. Maliyyə resursları mülkiyyət münasibətlərindən asılı olmayaraq, investisiya forması və istiqamətlərindən həmçinin leqal və gizli iqtisadiyyat bölümündən asılı olmayaraq inkişaf edir, dərinləşir və səmərəli istifadə olunur.

### Azərbaycanın toplu maliyyə balansı

| | ölçü vahidi | 2000-ci Ü | 2001-ci U | 2002-ci il | 2003-cü i! proqnoz |
|---|---|---|---|---|---|
| Dövlət büdcəsinin lesursUın (gəlirlər, vergilər) | Mlrd, manat | 3572 | 3924,0 | 4762 | 6092,0 |
| A.Daxili vergilər və rüsumlar | Mlrd.manat | 2549,0 | 2895,0 | 3600 | 4062,0 |
| a) dövlət sektoru | Mlrd.manat | 1533,0 | 1765,0 | 2212,0 | 2464,0 |
| b) qeyri-dövlət sektoru | Mlrd.manat | 1016,0 | 1130,0 | 1388,0 | 1588,0 |
| B. Xarici iqtisadi əməliyyatlardan vergi və rüsumlar | Mlrd.manat | 720' | 822,0 | 921,0 | 1020,0 |
| C, Sair büdcə daxil olmaları | Mlrd.manat | 303,0 | 207,0 | 241,0 | 1010,0 |
| Müəssisə və təşkilatların resursları, | Mlrd.manat | 3102,0 | 4074,0 | 4578,0 | 4825,0 |
| Digər gəlirlər | Mlrd.manat | 2069,0 | 1979,0 | 2160,0 | 2084,0 |
| Gəlirlər cəmi | Mlrd.manat | 8743,0 | 9977,0 | 11500,0 | 13001,0 1 |

Maliyyə resurslarının artımı iqtisadiyyat üçün lazım olan əsaslı vəsaitin, kapital qoyuluşunun və sosial inkişaf üçün lazım olan maddi və mənəvi nemətlərin məcmunu artırır. Həmçinin resursların tarazlı, uzlaşma istifadəsi məsrəflərin səmərəli variantının seçilməsi, optimal texnoloji layihələrin və sosial effektli idarəetmənin hazırlanmasım zəruri sayır. Sosail iqtisadi inkişafda resursların həcmi və strukturundakı əvəzet- mə, yeni elm və texnika tutumlu proseslərə əmək tutumlu fəaliyyətin optimal əlaqəsi amillər və imitasiyalar modelləri ilə həll olunur. ‘

**' AımcKtiH A.H. «HayKa, xexHHKa, 3KOHOMHKa». M., ƏKOHOMHKa, 1986,** C.251-257.

### 3. Yoxsutluğun azatdümasmda məqsəd)! proqram planlaşması

Yoxsulluğun loğvi proqramı tədbirlər məcmuu olaraq məqsədli proqram üsulunun bazar tipli xüsusiyyətlərini kəsb elməklə əhalinin az təminatlı hissəsinin bütövlükdə rifah və maddi təminat səviyyəsində xüsusi çəkisini azaltmaq və orta yaşayış səviyyəsində yaşayanların ümumi sayım yüksəltməyə doğru yönəldilir. Bu proqramın tərtibi, təsdiqi və icrası sistem halında bir-birini tamamlayan xüsusiyyətlərlə əlaqələndirilir və təşkilati iqtisadi idarəetmə mexanizmi kimi səmərəli alət olaraq bazar tipli idarəetmə prinsipinə və qaydasına çevrilir. Yoxsulluğun ləğvi proqramı uyğun olaraq iqtisadi sistemin bazar tipli münasibətləri prizmasında konkret tədbirləri nəzərə almaqla proqnozlaşdırılır və nəticələri qiymətləndirilir. Məhz proqramın reallaşmasının iqtisadi, maliyyə və təşkilati əsasları tərtibat və idarə olunma prinsipləri elmi və resurs potensialı ilə məhdudlaşmaqla məqsəd meyarına uyğun olaraq təsnifatlaşdınhr, tənzimlənir və idarə olunur.

Yoxsulluğun ləğvi mərhələ-mərhələ iqtisadi artımın nəticələri ilə sıx əlaqədə aparılan islahatların səmərəli təşkilinin nəticəsi kimi qiymətlədirilməklə yanaşma cari resursları və perspektiv imkanları nəzərə almaqla ölçülür. Cari resurslar bu günkü iqtisadi və sosial vəziyyətin durumu, meyli və mövcud perspektivi üçün əldə edilən imkanlarla ölçülür. İqtisadi artımın stabilləşmə və tarazlı inkişaf dinamikası, büdcədənkənar fondların artımı, inteqrasiya amili, xarici investisiya və daxili ehtiyatlar yoxsulluğun ləğvini iqtisadi və resurs amili olaraq daxili və xarici səmərə verir.

İqtisadi artımın tarazlı inkişafı və onun bölgüsündə cari tələbatın ödənilməsinin prioritetliyi itə perspektiv investisiya siyasəti yoxsulluğun ləğvinin makroiqtisadi tədbirlər məcmundur. Funksional qiymətləndirmə metodikasına uyğun olaraq yoxsulluğun ləğvi iqtisadi artım, bölgü sistemində is- tehlak səviyyəsi və investisiyanın bütün mənbələr hesabına

Hrlınıması və istifadəsi yolu ilə mümkündür,

$$AYl(t)=f(ÜDM(t), Js'fft), JN(o)$$

burada, AYl(o - yoxsulluğun ləğvinin t müddətində dəyişmə meyli; ÜDM(l) - uyğun dövr üçün ümumi daxili məhsul; Js°(t) - istehlak fondu; JN(t) - investisiya həcmi.

ÜDM-un atımı ib yoxsulluq həddi arasında əlaqə və onun səmərəsi, hər bir vahid artıma uyğun olaraq inteqral effekt və ayrı-ayrı sahələr üzrə təsir gücü qiymətləndirilir. ÜDM-un artımının sosial müdafiə fonduna olan .təsiri, dövlət büdcəsində təhsil, səhiyyə, sosial təminat sahələrinə ayırmalar, dövlətin yoxsulluğun azaldılması üçün həyata keçirdiyi iqtisadi mexa- nizmlərin imkanlarını müəyyən edir. Sosial müdafiə fondunun həcminin və onun maliyyə mənbələrinin genişlənməsi həmçinin işləyən müəssisə və təşkilatların dövlət və qeyri- dövlət müəssisələrin sosial ödəmə yolu ib sosial müdafiə fondunun formalaşmasında rolu ib tənzimlənir.

Sosial Müdafiə Fondu yoxsulluğun ləğvi proqramını çərçivəsində dövlət büdcəsindən ayırmalar və məcburi sosial sığorta ayırmaları yolu ib formalaşır və inkişaf edir. Bu fondun birbaşa yoxsul ailələrə xərclənməsi, onun ünvanlı təyinatını formalaşdırır və ÜDM-un artımı, sahibkarların gəlirlərinin artımı ib artır. 2004-cü il dövlət büdcəsinin gəlirləri 6957 mlrd, manat, xərcləri 7272 mlrd, manat nəzərdə tutulursa, sosial müdafiə fondunun uyğun olaraq gəlirləri və xərcləri 1970,5 mlrd, manat nəzərdə tutulmuşdur. Beləliklə, Sosial Müdafiə Fondunun sosial müdafiə məqsədi ib bir başa xərcləri Dövlət büdcəsi xərclərinin 1/3-nə yaxın olmuşdur (1970,5:7272).

Dövlət büdcəsinin sosial müdafiə və sosial təminat xərcləri 2004-cü ildə 1185,3 mlrd, manat təşkil edir ki, bu da bütövlükdə sosial müdafiə xərclərinin 60%-ni təşkil edir. Beləliklə, dövlət büdcəsi sosial müdafiə xərcləri üçün əsas iqtsiadi mənbəə rolunu oynamaqla, respublikada yoxsulluğun ləğvi üçün sosial təyinatlı xərclərin üstün artırılması meyli ilə səciyyələnir.

YoxsuUuğun loğvi proqramının iqtisadi mexanizminin osas hissəsi iş yerlərinin açılması, onun səmərəli istehsal strukturu və səmərəli bölgü mexanizmləri olan dövlət büdcəsində investisiyayönlü tədbirlərlə sosial müdafiə tədbirləri arasında optimal nisbətlərin tənzimlənməsidir. Dövlət büdcəsinin sosialyönlü tədbirləri büdcədən maliyyələşdirilən təşkilatların əmək haqqısı və gəlirlərinin artırılması məqsədi güdürsə, investisiya məqsədi, daha çox gəlirti və bazan olan sahələrin və funksional fəaliyyətlərin stimullaşdırılmasım təşkil edir. Bu baxımdan dövlət büdcəsinin tərkibinə daxil olan büdcə gəlirlərinin mənbələri təkmilləşməli və daha çox vergi bazası və vergiyə cəlb olunan resurslar artır. Azərbaycan Respublikasında sosialtəyinatlı xərclərin artımı üçün gəlirli sahələrin gəlirlərinin yenidən bölgüsü sistemi, onun özündə təkrar istehsal xarakterli tədbirləri təmin etməklə, sosial tədbirlər mənbəi rolunu oynamaq üçün əhalinin və iş qüvvəsinin təkrar istehsalı amili rolunu oynayır. Məhz respublikada neft sektorunun gəlirlərinin sosial müdafiə üçün büdcə gəlirlərinə çatması, onun istifadəsində dövlət nəzarətinin olması, digər sahələrin və sosial müdafiə tədbirlərinin dövlət qarantıdır. 2003-cü ilin dövlət büdcəsinin gəlirləri və xərcləri strukturunda neft fondundan ayırmalar 500 mlrd, manat təşkil edirdisə, 2004-cü İldə bu rəqəmin 650 mld.manata yüksəldilməsi nəzərdə tutulur. Neft fondunun təşkili, onun büdcə gəlirlərinin formalaşmasında rolu, həmçinin həmin fondun başqa, qeyri-neft sektoru üçün istifadəsinin təşkilati-idarəetmə strukturu, yoxsulluq və rifah məqsədlərinin səmərəli həlli istiqamətidir. Əgər dinamik inkişaf meylləri təhlil olunsa, 1996-2003-cü illərdə həyata keçirilən stabilləşmə və tarazlı inkişaf proqramı strateji planlaşma obyekti olan neft sektorunun yoxsulluq proqramında rolunu açır. Neft gəlirləri həm investisiya, həm də sosial müdafiə məqsədləri arasında məqsədlərin prioritetliyi baxımından elastik olaraq tənzimlənir. Dövlət büdcəsinin tərtibi və təsdiqinin əsas mexanizmləri, reallaşması və icrasına nəzarətin ardıcıllığı, meyllər və göstəricilər sistemi tənzimləmə mexanizm-

bri, iki əsas tarazlı inkişafın arasında kəmiyyət dəyişmələrini qiymətləndirməyi tələb edir.

$$\ddot{a}DB\{t) = JN'' \{t)-JS\wedge (r)$$

$$\frac{AJNjt)}{ADBİO} = a(/): \quad \frac{(/)}{AD(0} = \wedge(0$$

$$«(0+;ö(0 = 1$$

Burada, A DB(t) - dövlət büdcəsinin artımı; a(t) - investisiya və dövlət büdcəsi arasında elastiklik əmsalı; p(t) - istehlak ilə dövlət büdcəsi arasında elastiklik əmsalı.

Yoxsulluğun ləğvi kompleks və qarşılıqlı əlaqədə olan tədbirlərin məcmuu səmərəsi və son nəticəsi olduğu üçün prioritetlik yanaşma baxımından xüsusi effektlə seçilə bilir. Məhz elastiklik əmsalının dəyişmə dinamikası səmərəliliyin kəmiyyət göstəricisi kimi qəbul olunur. Ona görə də əsas amillər və yoxsulluq həddinin arasında əlaqə daha çox perspektiv nəticələr baxımından qiymətləndiriləndə məcmuu effekt verir.

$$AJH=aixt+a2X2....anXn$$

AJH - yoxsulluğun həddinin dəyişməsi; $x_1$, $X_2$...Xn - yoxsulluğa təsir edən amillər; $a_1$,$a_2$...an - koorelyasiya əsallarıdır.

Yoxsulluğun ləğvi tədbirlərinin üstünlüyü hər bir respublikada iqtisadi durum və onun inkişaf meylləri, xarici və daxili imkanların xüsusiyyətlərinə uyğun formalaşır. Azərbaycanın iqtisadi inkişaf tempi və yeni iş yerlərinə tələbat məqsədi baxımında investisiya amili, onun dinamikası və strukturunun təkmilləşməsi strateji amil olaraq qalır.

Azərbaycanın ərazi üzrə toplu maliyyə resursları onun imkanlarını məhdudlaşdırır və sahə, ərazi istehsal və sosial proqramların maliyyə əsası olmaqla perspektivləri müəyyən edir, (cədvəl 1.)

Cədvəldən göründüyü kimi, gəlirlərin həcmi ümumi daxili məhsulun artımına uyğun olaraq dəyişir. Əgər 2004-cü ildə ümumi daxili məhsulun həcmi 37300 mlrd, manat proqnozlaşdırılırsa, bütövlükdə gəlirlər 20773,4 mlrd, manat təşkil edir.

*Cədvəl L*

Azərbaycan Respublikasının ərazi üzrə toplu maliyyə balansı (mlrd.manat)

| | 2001 hesabat | 2002 hesabat | 2003 gözlənilən | 2004 proqnoz | 2005 proqnoz |
|---|---|---|---|---|---|
| **üövbt büdcosinin resusian (gətirlər)** | **3924,0** | **4551,0** | **6185,0** | **6957,0** | **7781,0** |
| **O cümlədən** | | | | | |
| **A. Daxili vergilər və rüsumlar** | **2895,0** | **3400,1** | **4162,0** | **4635,0** | **5300,0** |
| **a) dövlət sekloru** | **1765** | **2106,7** | **2587,0** | **2802,0** | **2987,0** |
| **b) qeyri-dövlət sektoru** | **1130,0** | **1293,4** | **1575,0** | **1833,0** | **2313,0** |
| **B. Xarici iqtisadi əməkdaşü-qdan vergi və rüsumlar** | **822,0** | **921,8** | **1020,0** | **1120,0** | **1220,0** |
| **C. Sair büdcə daxilolmaları** | **207,0** | **229,1** | **1003,0** | **1202.0** | **1261,0** |
| **Müəssisə və təşkilatların resursları, cəmi** | **4074,0** | **4612,2** | **5440,0** | **6650,0** | **7700,0** |
| **Digər gəlirlər** | **2494,0** | **3239,5** | **5075,4** | **4941,1** | **5292,4** |
| **Sosial müdafiə fondunun gəlirləri** | **1350,0** | **1657,2** | **1815,7** | **1970,5** | **2005,6** |
| **Neft sektorunun gəlirləri** | **1058,0** | **1474,5** | **1561.1** | **928,7** | **1354.4** |
| **Dövlət büdcəsindən edilən subsidiyalar** | * | - | **1598,6** | **1882,0** | **1842,4** |
| **Gəlirlərin yekunu** | **10492,0** | **12402,7** | **16700,4** | **18525,2** | **20773,4** |

Gəlirlərin ümumi daxildə payı 55,7% (20773:37300) lo- diyyo qabiliyyətinin xüsusi çəkisini müəyyən etməklə, xalis məhsulun, yəni səmərəlilik göstəricisini müəyyən edir. Elas- tiklik əmsalına görə hər vahid ÜDM artımı 1,85 vahid gəlirlərin artımını təmin edir.

Respublikada dövlət büdcəsinin resurslarım vergilər, daxili və xarici iqtisadi əlaqələrdən tutulan vergilər təşkil edir. Statistik göstəricilər dövlət və qeyri-dövlət sektorunun vergi gəlirlərinin formalaşmasında rolunu qiymətləndirməklə, onun artımını təmin edən ehtiyatları müəyyən edir.

Yoxsulluğun ləğvi çərçivəsində vergi tutmanın sosial nəticələri, hüquqi və fiziki şəxslərin gəlir vergisinin təkmilləşdirilməsi, vergi tutulan gəlir məbləğinin artırılması, vergidən azad olanların sayını artırır. Vergİ yükünü azaltmaqla vergiyə cəlb olunan vergi bazasım artırmaq, onun uçotunu təkmilləşdirməklə gəlirlərin həcmini, onun tələbata uyğun maliyyə imkanlarını əldə etmək mümkündür. Hüquqi və fiziki şəxslərin gəlir vergisinin tutulması aztəminatlı ailələrin istehlak səbətini təmin edir, onun sahibkarlıq fəaliyyətini stimullaşdırır. Bir sıra vergi borclarının silinməsi sahibkarlığın inkişafı üçün ilkin maliyyə bazası yaradır. Maliyyə vergi sisteminin yoxsulluğun ləğvi kontekstində səmərəli təşkili və idarə olunması kiçik və orta sahibkarlığın tənzimlənməsi, onun stimullaşdırıl- ması və güzəştli kredit və vergi sisteminin tətbiqi metodları tətbiq oluna bilir. «Azərbaycan Respublikası Vergi Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikası Qanunu 15 oktyabr 2003-cü il büdcə paketi zərfində vergi məcəlləsinin 101-ci maddəsi aşağıdakı redaksiyada verilir.

*Cədvəl 2.*

Vergi şkalası

| **Vergi tutulan aylıq gəlirin məbləği** | **Vergi məbləği** |
|---|---|
| **150000 manatadək** | **Vergi tutulmur** |
| **150001-3000000** | **150000 manatdan çox olan məbləğin 14%-i** |
| **3000000 manatdan çox olduqda** | **399000 manat+3000000 manatdan çox olan məbləğin 35%-i** |
| **Hüquqi şəxslərin vergi tutulan aylıq gəlirlərinin məbləği** | **Vergi məbləği** |
| **1800000 manatadək** | **Vergi tutulmur** |
| **1800000 manatdan 3600000 manatadək** | **1800000 manatdan çox olan məbləğin 14%-i** |
| **3600000 manatdan çox olduqda** | **4788000 manat +3600000 manatdan çox olan məbləğin 35%-i** |

Differensial vergi tutumu gəlirlərin minimum səviyyəsi ilə minimum yaşayış səviyyəsi arasında tarazlığı təmin edir.

Yaşayış minimumu əhalinin təminat səviyyəsini qiymətləndirmək üçün istifadə olunur. Gəlirlərin vergi tutulmayan məbləğinin yoxsulluq həddindən (120000 manat) 30000 manat artıq olması əhalinin vergi tutumundan azad olması ilə yaşayış minimumu səviyyəsindən az fərqli gəlir səviyyəsində yaşamasına şərait yaradır,

Yaşayış minimumunun respublikada hesablanması,onun tənzimləmə meyarı kimi istifadəsi minimum və orta aylıq əmək haqqının, pensiya və müavinət sisteminin tənzimlənməsində istifadə olunur. Minimum pensiya dövlətin sosial təminat funksiyasını təmin edir. Pensiya təminatı dövlətin sosial siyasətinin əsas istiqaməti olmaqla yaşayış minimumu üçün lazım olan maddi-mənəvi nemətlərin məcmuu ilə tənzimlənir. Minimum yaşayış ehtiyacları əmək haqqı sisteminin sosial məqsədlərə uyğun olaraq tənzimlənilməsi metodikasını təkmilləşdirir. Minimum əmək haqqı hər bir fərdin muzdlu əməyinin minimum istehlak şeylərinin vasitəsi ilə təkrar istehsalı meylindən asılı olaraq dəyişir. Minimum əmək haqqının dəyişməsinin əsas məqsədi əməyin və onun xarakteri, faydalılığı arasında dilTerensiyasmı tənzimləmək üçün istifadə olunur. Belə ki, minimum əmək haqqı əmək haqqının differensiyası üçün hesab nöqtəsi və başlanğıc astanası kimi qəbul olunur.

***MƏH{t)***

burada ƏH‘*‘‘'(t) - əmək haqqının differensiyası; OƏH(t) - orta aylıq əmək haqqı səviyyəsi; MƏH(t) - minimum əmək haqqı səviyyəsi.

Əmək haqqı sistemi sahə, ərazi, həmçinin bazar tələbinə uyğun məhsul istehsah artdıqca təkmilləşir. 2003-cü ildən minimum əmək haqqının orta aylıq səviyyəsinin 27500 manatdan 450 manata qaldırılması haqqında prezident formanı və sonrakı, yəni 2004-cü ildə büdcə xərclərində minimal əmək

haqqının 60000 manata çatdırılması layihəsi yoxsulluğun ləğvi və birbaşa rifahın yaxşılaşdırılmasının maliyyə əsasıdır, Dövlət sektorunda əmək haqqı sisteminin təkmilləşdirilməsi Milli hesabların xərc strukturunu dəyişdirir və uyğun olaraq qeyri- dövlət sektorunda və bütövlükdə iqtisadi sferada gəlirlərin formalaşması mənbələrinə təsir edir. Özəl sektorun əmək haqqı sistemi daha çevik və rəqabət mühiti şəraitində çevik siyasətin formalaşmasına təsir edir. İqtisadi və təşkilati amil olaraq əmək haqqı ilə onun nəticəsi və ümumi iqtisadi artıma uyğun olaraq sosial qarant prinsiplərini və mexanizmlərini proqnozlaşdırmaq kompleks tədbirlərin yeni təşkilatı formasıdır.

Cədvəldən göründüyü kimi, əhalinin pul gəlirləri 2004-cü ildə 11,0% artırılması gözlənilirsə, orta aylıq əmək haqqının 17,5% artırılması gözlənilir, o cümlədən dövlət sektorunda 27%, qeyri-dövlət sektorunda 20,5% təşkil edir.

Əhalinin hər nəfərinə düşən pul gəlirlərinin artırılması üçün transfert gəlirləri sosial müdafiə xərcləri və müavinətlər tədbirlər olaraq iqtisadiyyatın inkişafı ilə təmin olunur.

Əhali gəlirlərinin artımı iİçün sahibkarlıq gəlirləri daha üstünlük təşkil edir. Sahibkarlığın inkişafı iş qüvvəsinin təmin olunması və gəlirlərin artırılması üçün əsas rol oynayır.

Qeyri-dövlət sektorunun inkişafı, qeyri-dövlət sektorunda orta aylıq əmək haqqının artımının müntəzəm tempi, qeyri- dövlət sektorunun inkişafında bazar tipli istehsalın seqment- ləşmə quruluşunun təkmilləşməsi ilə baş verir. Qeyri- dövlət sektoru daha çox istehsal xarakterli sahələr olduğu üçün, onun son məhsulunun növü və strukturu daima təkmilləşir, Bazar tələbatına uyğun istehsal tədbirləri uyğun olaraq son məhsulu artırmaqla dövlət büdcəsinə daxil olmalar vergi yolu ilə dövlət gəlirlərini artmr.

Dövlət gəlirləri ilə müəssisə və təşkilatların gəlirləri arasında bölgü və yenidən bölgü istehsalın stimullaşdınıması və güclü maliyyə imkanlarının formalaşmasına səbəb olur.

*C;}dvəl* 3.'

2004-2007-ci illər üçün əhalinin həyal səviyyəsinin göstəricilərinin proqnozu

O

| | Ölçü vahidi | 2001-ci il hesabat | 2002-ci il hesabat | 2003-cü il gözlənilən | 2004-cü il proqnoz | 2005-ci il proqnoz | 2006-cı il proqnoz | 2007-ci il proqnoz |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| **Əhalinin sərancamında qalan real pul gəlirləri** | **Min manat** | **18093,2** | **19819,7** | **23356,1** | **25853,7** | **28634,1** | **31726,8** | **35219,5** |
| **Arlım sürəti** | **%** | **108,7** | **109,5** | **117,8** | **110,7** | **110,8** | **110,8** | **111,0** |
| **Əhalinin hər nəfərinə düşən nominal pul gəlirləri** | **Min nəfər** | **2379,0** | **2635,2** | **3069,1** | **3363,9** | **3702,9** | **4072,8** | **4484,6** |
| **Artım sürəti** | **%** | **109,5** | **110,8** | **116,5** | **109,6** | **110,1** | **110,0** | **110,1** |
| **Əhalinin hər nəfərinə düşən pul xərcləri və əmanətləri** | **Min manat** | **2329,7** | **2609,8** | **2945,9** | **3220,8** | **3520,8** | **3849,9** | **4257,4** |
| **Artım sürəti** | **%** | **T08,5** | **112,0** | **112,9** | **109,3** | **109,3** | **109,3** | **110,6** |
| **O cümlədən** | | | | | | | | |
| **Malların alınması və xidmətlərin ödənilməsi** | **Min manat** | **1787,8** | **1967,8** | **2287,3** | **2474,2** | **2708,6** | **2957,1** | **3261,8** |
| **Orta aylıq əmək haqqı** | **Min manat** | **260,0** | **315,2** | **443,0** | **525,2** | **626,1** | **757,2** | **946,5** |
| **Artun sürəti (%** | | **117,3** | **121,2** | **140,8** | **118,5** | **119,2** | **120,9** | **125,0** |

**' Azərbaycan Respublikasının 2004-cü il dövbı büdcəsinin zərfi II cild. Səiı.98**

*cədvəl 3-ün davamı*

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| **0 cümlədən** | | | | | | | | |
| **Dövlət sektorunda** | **Min manat** | **211,5** | **215,3** | **316,1** | **369,9** | **438,1** | **534,1** | **678,3** |
| **Artım sürəti** | **%** | **109,9** | **101,8** | **146,8** | **117,0** | **118,4** | **121,9** | **127,0** |
| **Ondan:** | | | | | | | | |
| **Büdcə təşkilatlarında** | **Min manat** | **139,4** | **162,8** | **260,5** | **307,4** | **368,8** | **461,0** | **557,9** |
| **Artım sürəti** | **%** | **115,2** | **116,8** | **160,0** | **118,0** | **120,0** | **125,0** | **121,0** |
| **Qeyri-dövlət sektorunda** | **Min manat** | **586,5** | **610,8** | **727,4** | **872,9** | **1047,4** | **1256,9** | **1514,6** |
| **Artım sürəti** | **%** | **140,1** | **104,1** | **125,0** | **120,0** | **120,0** | **120,0** | **120,5** |

Yeni iş yerlərinin açılması ərazi və sahə strukturunda maliyyə imkanlarının artırılması ilə mümkündür. O cümlədən kredit mexanizminin həm sahibkarlıq fəaliyyəti, həm də fərdi istehsal üçün maliyyə imkanlarını artırır. Kredit şərtlərinin yoxsulluğun ləğvi proqramı üçün verilməsi və istifadəsinə nəzarət məqsədi və funksional ünvanlı kredit siyasətinin yaradılması təkmilləşməsinə səbəb olur. Məqsədli kredit fərdi sahibkarlığın fermer təsərrüfatlarının bəzi məhsulların istehsalının həcminin artırılması üçün daha səmərəli istiqamət olaraq qalır,

İqtisadi inkişafa stimul yaratmaq məqsədi ilə «pul kredit siyasətində konkret tədbirlər müəyyən edərkən imkan daxilində iqtisadiyyatın sahələri arasındakı qarşılıqlı asılılığı nəzərə almahdır».*

Kredit verilməsində prioritet olaraq iş yerlərinin artırılması və dövriyyədə olan pulun miqdarının onun tələbatına uyğun tənzimlənməsi faizlərin daha çevik və səmərəli təşkili ilə mümkündür.

Faizin artırılması kredit bazarında kredit resurslarına olan tələbatla formalaşır. Tələb və təklif dəyişdikcə kreditlərin qiyməti, onun faizi dəyişir və son nəticədə istehsal və istehlak fəaliyyəti üçün lazım olan pulun dəyəri sabitləşir. Kredit sisteminin təkmilləşdirilməsi, kredit resurslarının mənbələri, onun təyinatı və müddəti ilə reallaşır.

Yoxsulluğun ləğvi proqramı çərçivəsində büdcədən ayrılan kredit vasitəsi sahibkarlığa kömək fondu, xarici investisiyaların mənbəİ hesabına təmin olunur. İnvestisiya proqramları sahibkarlığın inkişafının maliyyə əsasını təşkil edir, O cümlədən, investisiyanın sahə quruluşu,onun bazar tələbatına uyğun mənfəət gətirmək qabiliyyəti ilə ölçülür. İnvestisiyanın bazar tipli modelinin həmçinin sosial müdafiə məqsədi ilə təşviq etmək meydana çıxır. Tənzimləmədə kreteriya olaraq sosial effekt götürülsə, onun konpensasiyası, mərkəzləşdir il-

**' A. Abdullayev «lqti.sadiyyal və iqtisadi siyasət». Bakı, 2003. s.78.**

miş dövlət büdcəsi və xüsusi fondlar hesabına ola bilər. Respublikada hər hansı fondun təşkili və onun istifadəsi, məqsədyönlü sosial tədbirlərin yaxud inkişaf meyllərinin tənzimlənməsi üçün istifadə olunur. Sahibkarlığa kömək fondu qısamüddətli kredit və cari istehsal tələbatının maliyyə dayaqlarını təmin etmək üçün verilir. Sahibkarlığa kömək fondu kiçik və orta biznesin və kiçik və orta sahibkarlığın, hüquqi və fiziki şəxslərin fəaliyyətinə maliyyə yardımı kimi istifadə olunur.

Biznes proqramlarının bazar tipli modeli, bazarın istehiak seqmentləri ilə müəyyənləşir. İstehiak seqmenti və ona uyğun istehsal texnologiyası, yaxud xidmət strukturunu formalaşdırmaqla, onun maliyyə əsaslan və kredit qoyuluşunun əsas istiqamətləri və onun həcmi müəyyən olunur.

Yoxsulluğun ləğvi üçün region proqramları, investisiya proqramları, innovasiya və bazarın qorunması, məşğulluq və sosial proqramların məcmuu kompleks tədbirlər sistemi kimi təsvir olunur. Bu sistemin formalaşma meylləri və dinamikası, məqsədli proqram üsulunun reallaşması prinsiplərinə əsaslanır.

Yoxsulluğun ləğvi proqramı mərkəzi struktur təşkilati ünsür olmaqla bütövlükdə sistemin struktur quruluşunu formalaşdırır (sxem 1).

Sxemdən göründüyü kimi, təşkilati-iqtisadi quruluş və idarəetmə sisteminin təkmilləşdirilməsi yoxsulluğun ləğvi və iqtisal-sosial inkişafın vəhdətinin kompleks qarşılıqlı tədbirlərini əhatə edir. Hər hansı proqram məhəlli funksional fəaliyyət xüsusiyyətlərinə malik olduğu kimi, konseptual inkişaf məqsədinə də yönəlir və özünün təsir gücü ilə ümumi artımda özünü təzahür etdirir.

İqtisadi-təşkilati tədbirlərin təkmilləşdirilməsi üçün ölkədə əmək bölgüsü və ixtiaslaşma, kompleks təşkilati-idarəetmə problemləri həll olunduğa meyllər baş verir. Özəlləşdirmə proqramları elmi və innovasiya tədbirləri uyğun olaraq investisiya proqramları nəzərdə tutulur.




Sxem L Yoxsulluğun ləğvi proqramı və digər proqramların qarşılıqlı əlaqəsi.

Regionun sosial-iqtisadi inkişafını stimullaşdırmaq üçün iqtisadi vo sosial idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi yolu ilə yerli resursların və xarici iqtisadi imkanların istifadəsindən səmərəli istifadə mexanizmi yaradılır.

İxracatyönlü istehsal, daxili tələbata uyğun struktur siyasət, uyğun olaraq investisiya və əsaslı vəsait qoyuluşunda yerli' vəsaitlərin istifadəsinə şərait yaradır.

## 4. Yoxsulluğun ləğvinin həlli yollan

Əhalinin həyal səviyyəsinin perspektiv inkişaf dinamikası və meylləri onun amilləri ilə həyat səviyyəsinin ümumi və

**konkret göstəricibrinin dəyişməsinə səbəb olan tədbirlərin əsaslandırılması ilə baş verir. Həyat səviyyəsinin orta statistik və proqnoz göstəriciləri onun tam yoxsulluq səviyyəsinin ləğvi demək deyildir. Yoxsulluq aztəminatlı ailələrin və fərdlərin xüsusi çəkisi ilə müəyyən olunur. Belə ki, orta təminat səviyyəsi həyat səviyyəsinin differensiyasımn yüksəlməsi şəraitində də baş verir.**

**Ona görə də proqnoz dövrü üçün yoxsulluğun tədbirləri konkret tədbirlər və az təminatlı ailələrin bütün əhali kütləsində payının qiymətləndirilməsi ilə mümkündür. Əhalinin gəlirlərinin qiymətləndirilməsi və onun səviyyəsinə görə əhalinin paylanması təminatlıq səviyyəsini müəyyən edir. Adam başına düşən gəlir səviyyəsinə uyğun olaraq əhalinin alıcılıq qabiliyyəti, yığımı və istehlak davranışı baş verir. Ona görə do gəlirlərin dəyişməsi ilə əhali qruplarının xərcləri arasında baş verən struktur və həcm dəyişmələri rifahın keyfiyyət qiymətləndirilməsi kimi qəbul etmək olar. Ona görə də yoxsulluğun ləğvinə ancaq gəlirlər səviyyəsindən yanaşma, bazar tələbatına uyğun istehlak səviyyəsini qiymətləndirmək üçün kifayət deyil. İstehlak yanaşması bölgüdən kənarda istehlak strukturunu qiymətləndirməyə imkan verir. Əhalinin istehlak modeli gəlirlərdən asılı olaraq karolyasiya və funksional asılılıq kimi ifadə oluna bilir:**

$$y = a_1X_1+a_2X_2...a_nX_n$$

burada, istehlak həcmi $x_1$,$X_2$,$X_n$ uyğun amillərdir. İstehlak amili kimi ən aparıcı amil gəlirlərin səviyyəsi ($x_1$), ailənin üzvlərinin sayı ($X_2$) və əhalinin ayrı-ayrı əmtəə və xidmət istehlakı səviyyəsi ilə ölçülür.

**Funksional asılılıq ümumi daxili məhsulun artımı ilə əhali gəlirlərinin artımı arasında dəyişmə dinamikasım və gəlirlərin strukturunun ayrı-ayrı raənbəələr üzrə rolunu qiymətləndirməklə hesablama aparıhr.**

**Gəlir və istehlak arasında tarazlı inkişafı və struktur də-**

yişməsini balans üsulu ilo təhlil və proqnoz vermək mümkündür. Gəlir və islehlak balansının makroiqtisadi səviyyədə tərtibi ayn-ayn tələbat və imkanları nəzərə almaqla dəyişmə meylinə baxılır və ümumi balans sxeminin tərkib hissəsi kimi qəbul olunur.

>ı *=1

burada, yıj - əhalinin i sosial iqtisadi qrupları üzrə j gəlirlərinin paylanması; Xik - əhalinin i sosial-iqtisadi qrupları üzrə k istehlak qrupunun balans göstəricisidir. İslehlak balansı, yəni onunfaktiki səviyyəsi tələbatın reallaşmasının nəticəsi kimi çıxış edir. İstehlak qurluşunda gəlir səviyyəsi dəyişdikcə, istehlak strukturunda ayrı-ayrı istehlak qruplarının xüsusi çəkisinin dəyişməsi, ümumi meyl kimi zamandan asılı olaraq proqnozlaşdırıla bilər.

Əhali gəlirlərinin dinamikasında özəlləşdirmə, mülkiyyət münasibətlərinin dəyişməsi, onun xarakterini və mənbələrini müəyyən edir. Belə ki, dövlət sektorunun xüsusi çəkisinin iqtisadi artımda rolu, yaxud bazar tələb və təklifinin formalaşmasında rolu azaldıqca, əmək haqqı payı azalır, sahibkarlıq və transferi gəlirləri artır. Transfert gəlirləri əhalinin qocalınası, sosial müdafiə üçün kontingentlərin sayı artdıqca transferi gəlirlərinin xüsusi çəkisi artır. Gəlirlərin qiymətləndirilməsi, onun differensiyasmı, istehlak üçün lazım olan normativ istehlak büdcəsini müvafiq bazar qymətlərində təmin edən səviyyə ilə ölçülür. O cümlədən, normativ proqnozlaşdırma zəruri olan maddi, mənəvi nemətlərin rasional strukturu ilə müəyyən olunur. Normativ yanaşma nisbi kəmiyyət olsada, bazar tipli inkişaf meyllərində əhalinin fizioloji və intellektual səviyyəsinin yüksəldilməsi yollarını müəyyən edir. Normativ yanaşma metodları hər hansı məhsula görə tələbatın ödənilmə dərəcəsini qiymətləndirməyə imkan verir. Bazar iqtisadiyyatı

şəraitində normativlərin hüquqi baza kimi istifadə edilməsi və onun normativ aktlar kimi istifadəsi müqayisəli təhlil və mövcud dinamikanı qiymətləndirməyə imkan verir. Bazar iqtisadiyyatı şəraitində normativlərin hüquqi baza kimi istifadə edilməsi və onun normativ aktlar kimi istifadəsi müqayisəli təhlil və mövcud dinamikası qiymətləndirmək üçün istifadə olunur. Sadə halda normativ istehlak göstəriciləri ilə faktiki istehlak arasında nisbətlər tələbatın ödənilmə dərəcəsi kimi ölçülür.

$$Təl = \frac{Fis\{t)}{NisU)}$$

burada, Fis (t) - faktiki olaraq i məhsullarının istehlak normaları; Nis(t) - uyğun olaraq ideal normalardır.

Bazar iqtisadiyyatı şəraitində normativlər dünya ölkələrinin təcrübəsini onların şəraitini nəzərə almaqla, yerli şəraitə modifikasiya edilmiş normalar kimi qəbul olunur .

Müqayisəli təhlil üsulları və normativ inkişaf meylləri və göstəriciləri arasında tarazhğı təmin etmək üçün fəal tənzimləmə və təşkilatı tədbirlər həyata keçirilir. O cümlədən, stimullar və ədalətli bölgü prinsipləri bazar tipli inkişafa uyğunlaşdırılır. Adam başına düşən istehlak normaları inkişaf etdikcə marketinq strukturu təkmilləşir. Onun əmtəə və xidmət təklifinin standartlara uyğun planlaşdırılması və idarə olunması üçün əhalinin alıcılıq qabiliyyəti və onun seqmentlər üzrə proqnozu verilir. Proqnozlaşdırma zamanı, ayrı-ayrı amillərin alıcılıq qabiliyyətinə və əmtəə və xidmət təklifinə təsiri qiymətləndirilir. Hesablamalar göstərir ki, istehlakm hər hansı məhsul üzrə dəyişməsi həmin normativlərə qədər artım tempinə malik ola bilir. Sonradan hər məhsul və xidmət üzrə doyma hah başlayır və tələbatın Ödənilməsi başqa əmtəə və xidmət üzrə baş verir.




Δ x – gəlirlərin artım tempi; Δy – istehlakın artım tempi.

A^ı ^ Aj/j
= Ax, **Ax,**

A;/'
^2 = AX|' Axj

Birinci halda elastiklik omsalmın azalması, ikinci halda elastiklik əmsalının artması baş verir.

eı+e2...cn = 1

Məhdudiyyət şərti bütün elastiklik əmsalımn bir tələb əyrisindən digərinə keçməsi ilə nəticələndiyini göstərir. Əgər tələbin ödənilməsinin hər hansı istehlak seqmentindən digər is- tehlak seqmentinə keçmə dərəcəsini qiymətləndirmək mümkün olursa, onda gəlirlərin dəyişmə dinamikasına uyğun olaraq formalaşan istehlak strukturunun mövcud əmtəə və xidmət seqmentində dəyişmə ehtimalım vermək mümkündür. Marketinq strukturu həmçinin əmtəə təklifi ilə formalaşır. Ona görə də perspektiv qiymətləndirmə də hər yeni istehlak seqmentinin dövri tələbata çevrilməsi ehtimalını da qiymətləndirmək nəzərdə tutulmalıdır. Tələb və təklifin perspektiv qiymətləndirilməsində struktur yanaşma əhalinin yoxsuUuğun nisbi ölçülməsi üçün əsas verir. Əgər eyni gəlir səviyyəsində ərzaq tələbatımn doymuş səviyyəsində xidmət və mənəvi tələ

**batı ödəmək üçün elastiklik daha üstün artırsa, bu bütövlükdə həyat səviyyəsinin qiymətləndirilməsinin daha keyfiyyətli metodları ola bilər. Yoxsulluq həmçinin islehlak davranışının perspektiv dinamikası ilə də ölçülür, hər bir əra2İdə, hər bir ailə tərkibində və ailə üzvlərinin sosial iqtisadi parametrləri ilə səciyyələnir.**

**Belə ki, təhsil, səhiyyə və müəssisədə fiziki işlə məşğul olanlann istehlak davranışı onları tiplərə ayırmağa imkan verir. İstehlak davranışı modelinin konstruktiv quruluşu kimi keyfiyyəti onu formalaşdıran sosial-iqtisadi göstəricilərlə kompleks təsvir edildikdə mahiyyətcə yeni məna kəsb edir və istehiakm formalaşmasının tiplərə uyğun olaraq təsnifatlaşdı- rılmasına səbəb olur. Azərbaycanda ev təsərrüfatının sosial- iqtisadi göstəricilrinin dinamikası əhalinin iqtisadi və sosial əmanətlərinə görə paylanması və onların gəlir və xərc strukturları, bütövlükdə əhali üçün müəyyən nəticələrin ümumiləşməsinə imkan verir.**

**Adambaşına düşən aylıq gəlir, hər bir nəfərin istehlak üçün alıcılıq qabiliyyətini müəyyən edir, bütövlükdə əhalinin təminat səviyyəsinə görə qütbləşməsini müəyyən edir (cədvəl l).**

**Adambaşına düşən xərclər hər bir fərdin xərcləri və onun natural istehlak etdiyi kənd təsərrüfatı məhsulların dəyərini və xidmət istchlakım Özündə birləşdirir. Cədvəlin təhlili cari gəlirlərə görə əhalinin paylanmasına xarakterizə edir. Cədvəldən göründüyü kimi, gəlirin 120000 manat da daxil olma səviyyəsində əhalinin 11,3%-i daxildir. Digər qütbdə isə 10% əhalinin gəliri 320000 manatdan yuxandır. Onda hesablamalara görə desil əmsalı, yəni 10%-in aşağı gəliri olan əhalinin**

**10% yuxan olan gəliri olan əhaliyə nisbəti —= 3,2 desil**

**əmsalını təşkil edir. Fikrimidə, bu desil əmsalı təbəqələşmə üçün (1:3) olan nisbəti kimi reallıqdan xeyli uzaqdır. Güclü əmək haqqı səviyyəsinə görə qütbləşmədə minimal əmək haqqı ilə maksimal əmək haqqı arasında nisbət 2003-cü ilin axırında l:L0 kimidir.**

*Cədvəl* A'

2002- ci ildə əhalinin adam başına düşən gəlirlərinin
səviyyəsinə görə bölgüsü
(natural istehlak da daxil olmaqla)

| Adambaşına gəlirlər, min manat | Əhali, min nəfər | Faizlə |
|---|---|---|
| Cəmi əhali | 8172 | 100 |
| 50-80 | 122,6 | 1,5 |
| 80-100 | 277,8 | 3,4 |
| 100-110 | 204,3 | 2,5 |
| 120-130 | 367,7 | 4,5 |
| 130-140 | 465,8 | 5,7 |
| 140-150 | 547,5 | 6,7 |
| 150-160 | 612,9 | 7,5 |
| 160-180 | 1274,8 | 15,6 |
| 180-200 | 1070,5 | 13,1 |
| 200-240 | 1323,9 | 16,2 |
| 240-280 | 694,6 | 8,5 |
| 280-320 | 326,9 | 4,0 |
| 320-360 | 204,3 | 2,5 |
| 360-400 | 114,4 | 1,5 |
| 400-440 | 73,5 | 0,9 |
| 440-480 | 49,0 | 0,6 |
| 480-520 | 32,7 | 0,4 |
| 520-550 | 16,3 | 0,2 |
| 550-600 | 32,7 | 0,4 |
| 600 və çox | 40,9 | 0,5 |

Qeyri-dövlət sektorunda əmək haqqı səviyyəsi dövlət sektorunda orta aylıq əmək haqqı səviyyəsinə nisbətən 1,5 dəfə

**' Azərbaycanın statistik göstəriciləri. s.l23**

yüksokdir. Perspektiv inkişaf istiqamətindo özal sektorda əmək haqqının artımı ib dövlət sektorunda olan əmək haqqı arasında yaxınlaşma meyli həyat səviyyəsinin hamarlanması istiqamətində inkişaf etsə də bazar yönlü rəqabət mühiti bu fərqlərin qalmasına səbəb olacaq.

Büdcədən maliyyələşdirilən müəssisə və təşkilatların əmək haqqı sistemi uyğun olaraq ÜDM-un artımı, onun istehlak üçün ayrılan hissəsinin artımı ilə yanaşı artırılır. ÜDM-un artım tempi ilə əmək haqqı arasında artım tempi arasında nisbətlər stimullaşdırıcı rol oynayır, Əmək haqqı təkrar isteh-sal prinsipi ilə proqnozlaşdırılır. Onun perspektiv qiymətlən-dirilməsi iki əsas amillər sistemi və istiqamətləri əsasında veri-lir.

1) Əmək haqqı artımı onun əsas faydalılıq göstəricisi olan ÜDM-un artım tempi ilə funksional olaraq dəyişir. Əgər ÜDM-un artım tempi AÜDM, əmək haqqının orta aylıq ar-tım tempi AƏH ilə ölçülsə, onda tənzimləmə parametri kimi ÜDM-un əmək haqqı artımından asılı elastiklik əmsalı

***e =*** AC/DAf jQQ ölçülür. Əgər bu nisbət arzu olunan səmə-
***AƏH***

rəlilik göstəricisi kimi qəbul edilirsə, onda

ÜDM(t)=AoeE'

ÜDM-un artımı müəyyən edilir.

2) əmək haqqı həmçinin yaşayış minimumu həddində ilkin hesab həddi olmaqla, sonrakı tələbat dərəcəsinə uyğun olaraq dəyişməlidir. Belə ki, yoxsulluq həddi minimum əmək haqqının artımı üçün bazis rolunu oynayır. Əgər yoxsulluq həddində yaşayanların sayımn azalma tempini uyğun illərdə Ay(t) ilə işarə elsək, onda əmək haqqının həcmini ailə yükünü nəzərə almaq 3 dəfə artması emprik qiymətləndirmə üsuludur. Çünki respublikada bir nəfər işləyənə uyğun olaraq 2 işləməyən uyğun gəldiyi və əmək haqqı 30% əhalinin əsas yaşayış vəsaiti mənbəi olduğu üçün hesablamalar yoxsulluq həddinin

azalma tempi moqsədi ib omok haqqı tempinin artımı arasında ekspopensial qanun olduğunu sübut edir.

AƏH(t)=Aoey(>)

burada, Au - yoxsulluq həddinin yoxsulluq proqramına uyğun olaraq müəyyən edilmiş və təsdiq edilmiş həddi (120000 manat) olduğunu bilərək, sonrakı illərdə məhz əmək haqqının artım tempi, yoxsuUuğun azaldılması üçün zəruri olan əmək haqqı fondunu və ÜDM-un artım tempini tənzimləyir. Əmək haqqı fondun artım tempi, ancaq büdcə gəlirləri ilə məhdudlaşmır. Çünki büdcədə sahələr üzrə əmək haqqının artırılması orta kəmiyyətlə deyil, həmçinin hər bir sahənin özünün səmərəlilik göstəricisi və həmin sahələrin prinsipliyi ilə də təsvir olunur.

Bu baxımdan əmək haqqının artırılması meyli və onun mexanizmi sosial ödəmələrin və vergi sisteminin təkmilləşdirilməsi ilə mümkün olmalıdır. Gəlirlərin formalaşmasında əmək haqqının orta aylıq səviyyəsinin artımı, onun differen- siyası və həmçinin xarakteri, məzmunu və onun formalaşmasında emprik sahələrin rolunu qiymətləndirərək perspektiv sahələrin sosial rolunu qiymətləndirməklə baş verir. Ən prioritet sahələr kimi əmək tutumlu və gəlİr gətirən, yəni mənfəət tutumlu sahələrin artımı son nəticədə əhali gəlirlərinin ayrı- ayrı mənbələrini tənzimləyir. Daha çox transfert gəlirlərinin ümumi həcmi ilə yanaşı onun ünvanlı xarakteri bir başa az təminatlı ailələr üçün daha üstun artımı ilə tənzimlənir.

Əhali gəlirlərinin sosial qruplar üzrə formalaşmasında mənbələrin dəyişmə dinamikası minimum istehlak büdcəsi ilə tənzimlənməlidir. Azərbaycan sosial-iqtisadi qanunlar sistemində istehlak büdcəsinin normativ işi kimi qəbul olunması bazar iqtisadiyyatı şəraitində müqayisəli təhlil aləti kimi istifadə olunur. Onun hesablanması və proqnozu hesab göstəricisi olmaqla, ancaq qiymətləndirmə metodikası kimi istifadə olunur.'

**' YoxsuUuğun ləğvi iqtisadi inkişaf proqramı. Bakı, 2003.**

Maddi və mənəvi nemətlərin demək olar ki, 50-60%-i büdcə dövriyyəsindən keçməyərək müəssisə və təşkilatlar daxilində bölgü və yenidən bölgü sferasını keçir. Respublikada maliyyə resurslarının 52%-ni müəsisə və təşkilatların maliyyə resursları dövlət sosial müdafiə fondu, neft fondu və ayrı-ayrı sahələrin güzəştli kreditin və subsidiyaları təşkil edir. Müəssisə və təşkilatların bölgü sistemində rolu onların mənfəətinin bölgüsü və yenidən bölgüsü istiqamətləri ilə reallaşır. Dövlət büdcəsinin xərc strukturunda neft sektorunun payı 2004-cü il dövlət büdcəsi layihəsində 46,4% təşkil edir. Ayrı-ayrı sahələrin dövlət resurslarının formalaşmasında rolu və büdcə vasitəsi ilə maliyyələşdirilməsi uyğun gəlir və mənfəətin qarşılıqlı əlaqəsini formalaşdırır. Metodika baxımından sahənin iqtisadi potensialı onun mənfəətini və mənfəətinin dövlətə sahə və əhali arasında bölgüsünü formalaşdırır. Məhz bu formalaşma xüsusiyyətlərini təhlil edib, onun proqnozunu verməklə, mövcud ehtiyatların dəyişməsinə dövlət tənzimlənməsi yolu ilə təsir edilmiş olur.

2004-cü ilin dövlət büdcəsi gəlirləri həmin ilin ÜDM- unun 18,7 %-ni təşkil edir. Təbii ki,bu optimal pay deyil, bunun proqnoz göstəricisini verməklə ÜDM-un artımını proqnozlaşdırmaq olar. ÜDM-un sahə strukturu ilə onun vergi tutumu arasında olan nisbətlərin proqnozu istehsalın və xidmətin səmərəli təşkilinin idarə edilməsi metodikasıdır. Təhlil götərir ki, respublikada ayrı-ayrı sahələr ÜDM-da yuxarı xüsusi çəkiyə malik olsalarda, onun vergi yükü aşağıdır.

ÜDM-da qeyri-dövlət sektoru 75% təşkil etdiyi halda, onun mütlək həddi 30 trilyon manata çatdığı halda vergi gəlirlərində xüsusi çəkisi 37% təşkil edir. Dövlət sektorunun vergi yükü daha üstün artır. Daxili vergilərin və rüsumların strukturunda dövlət sektorunun özündə vergi verilməsi onun dövriyyəsi və mənfəəti ilə uyğun deyildir. Belə ki, daxili vergi və rüsumların 4635,0 mlrd, manatı olduğu halda, 2802,0 mlrd, manatı dövlət sektorunun, o cümlədən neft sektorunun payının 1833,0 mlrd, manat olduğu nəzərdə tutulur, digər dövlət

mülkiyyDtindo olan nəqliyyat, rabitə, kimya şirkətləri Azori- qaz və digərlərinin payı cuzi olub artım tempinin həcmi aşağıdır.

Əhalinin xərcləri strukturuna təsir edən vergi yükləri helə ki, xüsusi çəkisinə və artım tempinə görə yuxarı olaraq qalır. Belə ki, idxal və ixrac 2004-cü ildə 4481,6 mlrd, manat təşkil etməklə ixracat 2251,6; idxalat isə 1230,0 mlrd, manat; 21,6 mlrd, manat saldo təşkil edir. 2001-ci ilə nisbətən ixrac və idxalın dinamikasında azalma baş verib, 2004-cü ildə 2001-ci ilə nisbətən ixracat 2344,0 mlrd, manatdan 2352,0 mlrd, manata, idxal isə 1431 mlrd, manatdan 2232 mlrd, manata dəyişmişdir. Xarici iqtisadi əlaqələrin vergi yükü yüksəkdir. Xarici iqtisadi əlaqələrin dövriyyə həcmi 4,5 trilyon manat təşkil etdiyi və onun vergi yükünün yüksək olması 1170 mlrd, manat, yəni 25% təşkil etməsi, bir sıra qiymət əmələ gətirən vergilərin artmasına və həyat səviyyəsinin azalmasına təsir edir. Bu belə vergilərin yuxarı olması, son nəticədə vergi gəlirləri içərisinə əlavə dəyər vergisinin xüsusi çəkisinin 31%-ə qalxmasına səbəb olub. Ona görə də proqnozlaşdırma baxımından ÜDM- un sahə strukturu, mülkiyyət formaları üzrə proqnozu gəlirlərin vergi növləri üzrə qiymətləndirilməsinə əsas verməlidir.

ÜDM-un sahə strukturu, həmin sahələrin aralıq və son məhsullarının nisbəti ilə müəyyən olunur. Son məhsulun istehsal dövriyyəsində xüsusi çəkisi ÜDM-da özünün rolunu göstərir. Sənayenin, kənd təsərrüfatının payının azalması, xidmət sferasının, o cümlədən istehsal və sosial xidmət infrastrukturunun payının çox olması, bazar tipli islahatların və Özəlləşdirmənin sürətlənməsi ilə müşahidə olunan meyllər kimİ formalaşır. Perspektivdə sənayenin digər sahələrinin, o cümlədən emal və yüngül sənayenin artması və bu sahələrin xüsusi çəkisini formalaşdırmalıdır. ÜDM-un sənayedə xüsusi çəkisi 13,6%, onun vergi tutumunun bütün vergi gəlirləri daxilində 63% olması, rabitənin vergi veriminin 30 mlrd, manat planlaşdırılması vergi bazası ilə vergi tutumu arasında belə ki, müəyyən ehtiyatların olmasını göstərir. Nəqliyyat sahəsinin

ümumi dövriyyəsi 2004-cü ildə 279,5 mlrd, manat proqnozlaşdırıldığı halda onun vergi verimi 120 mlrd, manat təşkil edir.

Əhalinin rifahı iqtisadi inkişafın son nəticəsi olmaqla yanaşı, onun proqnozu, başqa sahələrdən fərqli olaraq stimullaşdırıcı və nüvə rolunu oynayan proqnozlar kimi qəbul olunur. Əhali rifahının kompleks tədqiqi və proqnozu həmçinin İstehlak metodları ilə reallaşır. İstehlakm sahə və ərazi, funksional sahələri, onların tələbatın ödənilməsində rolu qiymətləndirməklə, perspektiv dəyişmələr layihələndirilir.

Belə ki, qeyri-istehsal obyektlərinin hər birinin real istehlak səviyyəsində və ayrı-ayrı ailə və sosial iqtisadi qruplar üzrə istehlakında təsiri qiymətləndirilir. Səhiyyə, təhsil və sosial müdafiə tədbirlərinin hər biri sosial sahə kimi maliyyə, kadr potensialı və onun regionlar üzrə yerləşməsi müəyyənləşdirilir. Əhalinin həyat səviyyəsinin yüksəldilməsi tədbirlər çoxluğu ilə müəyyən olunduğu üçün əsas üsul olaraq kompleks məqsədli proqram üsulu daha sərfəlidir. Ali məqsədin seçilməsi, onun mövcud imkanlara uyğun ojaraq reallaşmasının mərhələ- mərhələ təsviri və hər mərhələdə tədbirlərin seçilməsi və optimal raənafeyilər baxımından əlaqələndirilməsi bu üsulun əsas mahiyyətini təsvir edir. Məqsədlər sonradan resursların layihəsini, texnoloji strateji planlaşma və mexanizmləri formala.ş- dınr.

Məqsədli proqram variantları dövlət sahə və region, həmçinin funksional məhəllə proqramların sistemi kimi təsvir olunur. Məqsədli proqram yolu ilə maddi rifah və yoxsul 1 uğun ləğvi üçün vəzifə bölgüləri, səlahiyyətlər və vəzifələr müəyyən edilir.




Sxemə uyğun olaraq səmərəli tədbirlərin əsaslandırılması ali məqsədin seçilməsi ilə bağlıdır. Müasir şəraitdə ali məqsəd üçün konkret rəqəmlər yox fəza yaxınlaşmasına daha realdır. Müəyyən standartlara yaxınlaşma meyli əsas götürülməlidir.

Adam başına düşən ÜDM-un müəyyən həddə çatdırılması, əmtəə və xidmət təklifinin həcminin adara başına düşən səviyyəsi və istehlak strukturunun həcmində ərzaq, qeyri- ərzaq və xidmətin payımn proqnozu əsas meyarlar olaraq seçilir və onların ödənilməsi xarakterli tədbirlər kimi tapılır.

## BÖLMƏ 4. ƏHALI İSTEHLAKININ FORMALAŞMASI VƏ İDARƏ OLUNMASI

### 4.1, Əhali istehlakmın formalaşmasınm meylləri və dinamikası

Əhali istehlakı gəlir vo xərc davranışı ilə formalaşan və dinamik inkişaf edən struktur prosesidir. İstehlak makrosəviyə- də istehsal, ümumi daxili məhsul, ayn-ayn vacib məhsulların bazarının tələb və təklifi ilə formalaşdığı kimi alıcılıq qabiliyyəti gəlir və qiymət həmçinin sosial demoqrafik struktur və formalaşmış istehlak davranışı modellərinin sistem halında təsviridir. Struktur model olaraq əhali istehlakı, onun formalaşmasına təsir edən amillərin dəyişməsinə qlobal siyasəti xarakteri və məzmunu ilə müəyyənləşir. Ona görə də istehlak prosesi makro iqtisadi və sosial tədbirləri həyata keçirən sfera kimi bütövlükdə İqtisadi və sosial siyasətin tərkib hissəsi olmaqla, daha çoxiqtisadi İslahatların səmərəsi kimi meydana çıxır. Əhali istehlakmın mövcud vəziyyəti iqtisadi və sosial inkişafın meyarı, olmaqla tənzimləmə meyarı kimi qəbul oluna bilir. Əhali istehlakı amillərinə görə xarici təsirlər vo daxili sosial iqtisadi parametrlərlə idarə olunur.

Əhali istehlakı əhali gəlirləri, əhalinin sosial-demoqrafık tərkibi və həmçinin əmtəə vo xidmət bazarının əhalinin alıcılıq qabiliyyətinə uyğun təşkili formaları və strukturu ilə müəyyənləşir. İstehlak modeli faydalılıq kriteriyası ilə qiymətləndirilir. Belə ki, gəlirlərin vo müəyyən ailə tipləri çərçivəsində istehlak məhsullarının nominal strukturu və onun reallaşması nəticəsində faktiki istehlak davranışı yaranır. İstehlak davranışı hr bir ölkədə ayrı-ayrı sosial demoqrafik və iqtisadi səviyyəsinə görə qütbloşən əhalinin əmtəə vo xidmət bazarından seçim qabiliyyəti ilə müəyyənləşir.

Əhali istehlakın struktur və dinamik inkişaf meylləri ilə cari və perspektiv istiqamətlərdə struktur və artım dəyişmələri ilə qiymətləndirilir. Müasir təhlil və proqnozlaşma metodologiyası şəraitində kompleks və ayrı-ayrı amillər üzrə forma

laşma meyllərini ölçmək mümkündür. Belə ki, ancaq gəlirlərin dinamikası tələbatın ödənilmə dərəcəsi və resursların bir-birini əvəz etməsinin effekti formalaşmış meyllərdə öz əksini tapır. Nəzəri araşdırmalar göstərir ki, tələbatının ödənilmə dərəcəsi yüksək olan əmtəələrin və xidmətlərin istehlakmın artım tempi azalır. Daha çox «fərqsiz əyri» modeli xarakterik xüsusiyyət kəsb edir. Əhali istehlakmın makroiqtisadi artımı və adam başına düşən səviyyəsinin artması halında bəzi məhsullar üzrə azalma, yaxud hər hansı qrup və tip ailə və fərdlər üçün müəyyən üstünlük dinamikası formalaşır.

Əhali istehlakmın makroiqtisadi problemləri iqtisadi artım, bölgü və istehlak stferasma ayrılan vəsaitlər və onların istifadəsi tədbirləri və siyasəti ilə bağlı olduğu halda onun dif- ferensiyas! gəlirlərin və istehlakçıların tipləri onların sosial indikatorları iş yerləri, ailə tərkibi, məhsuldarlıq səviyyəsi və is- tehlakda özünün qabiliyyəti ilə ölçülür. İstehlak meylləri respublikada baş verən bazar tipli transformasiya meyllər və qanunauyğunluqlar ilə bağlıdır. İstehlakm formalaşması, mülkiyyət münasibətləri bazar tələblərinə uyğunlaşması, dövlətin sosial siyasəti və sosial sfera himayəsi həmçinin respublikaya pul miqdarı və onun istifadəsi inhisarçılıq xidmət dəyişməsi, həmçinin sahibkahğın istehsal və istehlakı həcmində və strukturunda rolu ilə müəyyənləşir. Əhali istehlakmın artım modeli iqtisadi artımla tənzimlənir. Transfert gəlirlərin artması ayrı-ayrı sosial iqtisadi qrupların həyat səviyyəsinin maliyyələşdirilməsi imkanlarını artırır. Beləliklə istehlakm yaşayış minimumu səviyyəsinə uyğun tənzimlənməsi transfert gəlirlərin və dövlətin bölgü sistemində transfert imkanlarım proqnozlaşdırır. İstehlak normativ və yaşayış minimumu, istehlak büdcəsinin tərkibinə uyğun gələn gəlir səviyyəsi ilə ölçülür. İqtisadiyyat inkişaf etdikcə dövlətin və gəlir siyasətinin tənzimlənməsi onun istehlak quruluşununu istehlak və büdcəsinə yaxınlaşdırılması yolu ilə tənzimlənilməsi metodları istifadə olunur. Minimum istehlak büdcəsi müəyyən qrup əhalinin normal istehlak tələbatım ödəmək üçün zəruri olan xid

mət məcmuu ib müəyyənləşir.

Əhali istehlakınm makro iqtisadi problemləri onun makro səviyyəli problemləri ilə uzlaşır. Mxmuu tələb və məcmuu təklif qanunauyğunluğu istehlak strukturunu formalaşdırır.

Əhali istehlakınm formalaşmasında makro iqtisadi amillər olaraq iqtisadi artım, əhalinin təbii artım, hər hansı məhsul üzrə daxili bazarda əmtəə dövriyyəsi və həmçinin pul gəlirləri və onun uyğun reallaşmasında bazarın quruluşu təşkil edir. İstehlakın həm istehsal, həm də bölgü motivi, gəlirlər onların formaları, əhalinin alıcıhq qabiliyyətilə müəyyənləşir. Ölkədə ümumi daxili məhsulun artımı ilə gəlirlərin artımı zəruri bir meyl olaraq təkrar istehlsalda tarazlığın saxlanılmasının metodoloji əsasıdır. İqtisadi artımın probleminin həcmində məcmuu istehlakın maksimumlaşdırılması, gəlirlərin artımı onun alıcılıq qabiliyyətin təsiri və həmçinin əmtəə və xidmət bazarında əmtəə xidmət təklifinin tələbata uyğun strukturu ilə müəyyənləşir. İstehlakın makro iqtisadi funksional modeli aşağıdakı məntiqi sxemlə ifadə olunur.




Sxem. Əhali istehlakınm mühütü

Əhali istehlakmın formalaşmasında aparıcı amil olaraq golirlor vo sosial-demoqrafık göloricilər əsas rol oynayır. Sosial demoqrafik amillər və bir başa konkret tələbatın ödənilmə dərəcəsinə təsir etdiyi kimi və uyğun əmtəə və xidmət istehlakı yaratdığı kimi, onların gəlirləri vasitəsi ilə istehlakına da təsir edir. Ona görə də sosial demoqrafik amil olaraq islehlakm strukturu formalaşır. Daha çox sosİal demoqrafik tiplər istehlak seqmentlərini müəyyənləşdirir. Belə ki, əhalinin yaş və cins tərkibi onun məşğulluq sahəsinə səviyyəsi uyğun istehlak vo bazarını və bazarın təşkilinin səmərəli formasında, konkret reallaşmış strukturunu formalaşdırır. Əgər amillərin təsiri ilə istehlakın dəyişməsi arasında əlaqəni riyazi ifadə etmək koreliasiya qanunauyğunluğu ilə bu dəyişməni göstərmək olar.

$$y\text{-}ax_1+a2X2$$

burada, $x_1$-sosial demoqrafik faktorlar məcmusu; $X_2$- gəlirlərin forma və həcminin dəyişmə' məcmusu.

Əhali gəlirlərinin dəyişmə meyli, bir başa istehlakın artım surətinə və onun konkret əvəz edilməsində elastiklik əmsalına təsir edir. Belə ki, gəlirlərin artımı ilə istehlakın artmı baş verirsə, onun konkret əmtəədə, təcəssümü müəyyən forma halında çatdıqda digər istehlak növü ilə ifadə olunur.



**Qraflkdon göründüyü kimi Aı və A2 iki qrup əmtəənin istehlakı arasındakı əvəz etmə gəlirlərin artması ilə istehlak arasında nisbətlərin işlənməsi ilə müəyyənləşir.**

*AA(C,^)*

$$3 = \frac{\mathbf{AA.(C')}}{\mathbf{AAj(G)\ AA(C``)}}$$

**Gəlirlərin istehlaka təsiri ancaq eyni sosial qrup tərkibində determinant rolunu oynayır. Hər bir sosial demoqrafik qrup üçün gəlir və istehlak arasında fərqli dinamika mövcuddur.**

**İstehlakm formalaşmasının keyfiyyət dəyişmələri marketinq planlaşması ilə baş verir. Əhali gəlirləri artdıqca qütbləş- mə səviyyəsi dəyişdikcə ayn-ayrı məhsullarla ehtiyaclar dəyişir. İstehlakm strukturunda konkret məhsula ödəmə dərəcəsi maksimumlaşdıqda, digər tələbatm ödəniş dərəcəsi aşağı olan məhsullara ehtiyaclar artacaq. Beləliklə struktur model olaraq istehlak davranışı konkret ailələr və sosial demoqrafik qruplar üçün fərqlənir. Az təminatlı ailələr üçün ehtiyac prioritet olaraq ərzaq və ucuz qiymətli qeyri ərzaq məhsulianna istiqamətlənir. Yüksək təminath sosial dpmoqrafık qruplar üçün xarakterik mal qrupu olaraq daha çox bahah əmtəələr və faydalılıq dərəcəsi qeyri müəyyən ölkə əmtəələr üzrə artır.**

**İstehlak modeli olaraq faydalılıq ictimai seçim və tələb əyrisi ilə müəyyənləşir. Tələb fizioloji hədlərə qədər proporsional olaraq gəlirlər və əhalinin sosial demoqrafik qruplar üzrə sayına uyğun olaraq dəyişir.**

**Əhali istehlakının dəyişmə meylini müqayisə etmək üçün faktiki istehlak səviyyəsinin ayn-ayrı məhsullar və onların nomativ göstəricilərlə müqayisədə dəyişməsini təhlil etmək olar. Belə ki, həmin normativlər müəyyən mülahizələr və fizioloji parametrlərlə əsaslandırılır. Daha çox qida məhsullarının bu üsullarla müqayisəli təhlili və onlann tələbata yaxınlaşması dinamikasını müəyyən etmək mümkündür.**

*Cədvəl*

Qida məhsullarmın istehlakı adam başına
(il ərzində kq-la)

| Qida məhsullan | 1990 | 1995 | 2000 | 2004 |
|---|---|---|---|---|
| **Ət və ət məhsullan** | **32** | **15** | **22** | **29** |
| **Süd və süd məhsulları** | **295** | **138** | **154** | **277,6** |
| **Yumurta ədədlə** | **144** | **76** | **112** | **124** |
| **Səkər** | **35,0** | **12,2** | **16,8** | **30,9** |
| **Bitki yağı** | **25** | **2,1** | **3.1** | **8,3** |
| **Balıq və balıq məhsullan** | **4,2** | **1.3** | **2.7** | **6,6** |
| **Kartof və bostan məhsullan** | **27** | **23** | **47** | **81,0** |
| **Tərəvəz məhsulları** | **6S** | **89** | **129** | **171** |
| **Meyvə və giləmeyvə** | **33** | **62** | **60** | **47** |
| **Taxıl məhsulları** | **153** | **141** | **158** | **184** |

İslehlakın dinamikasında yüksək artım tempi xarakterik deyil. Ona göbrə do daha çox struktur dəyişmələr iqtisadiyyatda baş verən keyfiyyət dəyişmələrini müəyyənləşdirir. Hətta bazarda ərzağın kifayət qədər bolluğu və qiymətinin aşağı olması şəraitində bəzi məhsulların istehlakınm normadan artıq tələbatı olmaya bilər. Başqa məhsullara tələb artdıqca struktur dəyişmələri baş verir. Belə ki, qeyri ərzaq, mədəni xidmət və səyahətlər üçün ehtiyaclar artır. Ona gÖrə də struktur dəyişmələri baş verir. Belə ki, qeyri ərzaq, mədəni .xidmət və səyahətlər üçün ehtiyaclar artır. Ona görə də struktur təhlil aparmaqla hər hansı xarakterik əmtəə və xidmətin istehlak strukturundakı xüsusi çəkisi qiymətləndirilir.

İstehlakın formalaşmasında sosial demoqrafik faktorun təsirini qiymətləndirmək üçün əhalinin koteqoriyalan və gə irlər səviyyəsinə görə paylanması yoxsulluq və orta təminat səviyyəsində olan əhalinin istehlak strukturu qiymətləndirməyə imkan verir.

burada, X^ -y gəlirləri səviyyəsində yaşayanların sayı; Gy.y-

gəlir səviyyəsində gəlirlərin orta illik səviyyəsi; G- bütövlükdə illik gəlirlər; y,y.y.gəlir səviyyəsində; ı-məhsulun istehlakı; bç- gəlir səviyyəsində yığımın miqdarı.

Əhali gəlirləri və istehlakı arasında tarazlıq və kəmiyyət dəyişmələri istehlakın formalaşma dinamikasında gəlirlər amili nəzrə almaqla proqnozlaşdırılır.

Əhali istehlakının dinamikası, həmçinin xarici amil olaraq bazarın təşkili və marketinq planlaşması ilə müəyyənlə.şir. Marketinq planlaşması bazar seqmentlərinin təhlili, onların qiymətləndirilməsi və həmçinin istehlak tipləri üzrə əhalinin paylanması qanuna uyğunluqlarını müəyyənləşdirir. Əhalinin istehlakının hər bir əmtəə və xidmət üzrə dinamikası həmin əmtəəyə və yaxud funksional vəzifəsinə görə oxşar əmtəələrin bir-birini əvəz edilməsi texnalogiyasını əhatə etməlidir, Belə ki, xarici mübadilə və inteqrasiya genişləndikcə əhalinin gəlirləri və həyat səviyyəsi yüksəldikcə yeni əmtələrə ehtiyaclar artır və əmtəələrin biri-birini əvəz etməsi fəzası genişlənir.

### 4.2. Əhali istehlakının qiymətli və infilyasiya ilə əlaqəsinin təhlili və proqnozlaşdırılması

Əhali istehlakımn formalaşması bütövlükdə qiymət indeksi və hər bir məhsulun qiymətinin dəyişməsi ilə əlaqəlidir. Qiymətin özünün dəyişməsi istehlak sferasından kənarda əmək prosesində məsrəflər və bazarda tələb və təklifin tarazlığı və dəyişməsindən asılı olaraq məcmuu tələbat yaxud ayrı- ayrı məhsullar üzrə dəyişir.

Qiymətin dəyişməsi istehlakın bir məhsuldar digərinə, yaxud eyni marketinq strukturunda nisbətən az keyfiyyətli və qiyməti aşağı olan məhsullar üzrə əvəz edilməsi yolu İlə mümkün olur.

Bazar qiymətinin tənzimlənməsi haqqında müxtəlif fikirlər olsa da biz hesab edirik azad bazar şəraitində və rəqabət

mühülünün təşkili və nəzərə alınması baxımından qiymətlərin sərbəstliyi daha çox stimul yaratmaq və inkişaf üçün xarakterikdir.

Sərbəst qiymətlərin olma.sı istehlakm dəyişməsinə təsir edir. Pul gəlirlərinin sabit və dəyişmə meyli qiymət dəyişməsi ilə eyni artım və azalma meylinə malik olursa onda tarazlıq istehlak strukturunun dəyişməsi, daha çox bahalı və ucuz mallar arasında xərclərin munİpilasiyası prosesi baş verir.

Əhalinin istehlakında qiymət amili, həmçinin onun istehsalçı kimi gəlirlərinin formalaşmasına təsir edir. Əgər bazarda baha qiymətə məhsul satılırsa, onda onun istehsalçı kimi gəlirləri artır. Qiymət dəyişməsi iqtisadi sistemin bir müstəvidən digər müstəvi ilə əvəz olunmasına gətirib çıxarır. Bu zaman dövriyyədə olan pulun miqdarı dəyişir, mübadilə prosesi üçün zəruri olan pulun miqdarı artır. Qiymətlər tələb və təklifdən asılı olaraq formalaşır. Qiymətin yuxarı olması istehsalçılarda stimul yaratmaqla onun təklifini artırır. Bu da istehlakçılar üçün bazarda qiymətin aşağı düşməsinə gətirib çıxarır. Qiymətlərin dəyişmə indeksi, bir sıra xarici iqtisadi proseslərdən, o cümlədən idxal və həmçinin tənzimlənən təbii resursların qiymətlərinin dəyişmə meyllərindən asılı olaraq formalaşır. Daha çox enerji, təbii resurslar və dövlət mülkiyyətində olan məhsulların qiymətlərinin artması uyğun olaraq digər məhsulların da qiymətini artırır.

Qiymət dəyişməsinin təzahürləri, bütövlükdə əmtəə və xidmət sferasına, istehsalçı və istehlakçılar arasında şaxələnir. Həmin məhsulların mübadilə və istehlak dairəsini daha çox əhatə edən subyektlərin gəlirləri və xərcləri baha çox təsirlərə məruz qalır. Ona gÖrə də istehlakçıların qiymət dəyişməsindən əldə etdiyi «effekt» və «zərərin» mümkünlük vəziyyəti qiymətləndirilir ki, infılyasiya nəticəsində böhran halı baş verməsin. Qiymət əmələ gəlmə proses olaraq məhsul və xidmətin istehsalında baş verən məsrəf normalarını və həmçinin tələb və təklifi qiymətləndirməklə proqnozlaşdırmaq metodikası əsas yer tutur.

**Qiymət indeksinin tənzimləmə üçün istifadəsi əhalinin istehlakına təsir etmək məqsədi ilə həyata keçirilir. İndeksləş- dirmə haqqında qanunun yenidən işlənməsi, onun hər il dövlət büdcəsinin təsdiqi və icrasında indeksləşmə ilə bağlı əhalinin real istehlak səviyyəsini saxlamaq üçün istifadə edilməsi, qiymət dəyişməsindən əhalinin ahcılıq qabiliyyətinin kompen- sasiysı vacibdir. Qiymətlərin dəyişməsinə uyğun olaraq sosial müdaHə mexanizmləri, əhalinin transferi gəlirlərinin artırılmasına yönəlməlidir. Belə ki, hər hansı məhsulun qiymətinin dəyişməsi ona aJıcıhq qabiliyyətini azaldır. Gəlirlərin artması ilə infmlyasiyanın baş verilməsi haqqında müəəyən mülahizələr mövcuddur. Gəlirlərin artması dövriyyədə olan pulun kütləsinin və məcmu tələb əyrisinin artımı ilə bağlıdır. Ona görə də qiymətin qalxması nəzəri cəhətdən mümkündür. Ancaq tənzimləmə siyasəti elə aparıla bilər ki, hər hansı alıcılıq qabiliyyəti nəticəsində əmtəənin də artımı olsa, onda kompensasiya mexanizmi işə düşər və eyni məhsulun qiymətinin dəyişməsi baş verə bilər. Dövlətin tənzimlənmə siyasəti məhz ölkədə olan əmtəə təklifinin artımı ilə ümumi gəlir səviyyəsinin yüksəlməsi, əmək haqqı və pensiya islahatları həyata gəlirməklə bazarda tarazlığın qorunmasına şərait yaratmaqdır. Beləliklə qiymətə təsirlə tənzimləmə deyil, qiymətin dəyişməsinə səbəb olan amilləri tənzimləmək yolları və metodları hazırlanmalıdır.**

**İnfİlyasiyanm tənzimlənməsi, iqtisadi iqtisadi yollarla baş verməlidir. Belə ki, Azərbaycan respublikasında infilyasiyamn dəyişməsi 1993-1994-cü illərdə 160%-ə qalxsa da, son illərdə sərbiKt pul kredit siyasəti ilə onun səviyyəsi 2-3%-a qədər enmişdir. 2004-cü ildən infilyasiyamn səviyyəsinin 10%-ə qədər yüksəlməsi meyli baş verir. Respublika ölkə prezidentinin fərmanı ilə antiinfilyasiya tədbirləri həyata keçirmək məqsədi ilə 2005-ci ildə fərman vermişdir. Əsas məqsəd dövriyyədə pul kütləsinin infilyasiyaya təsiri azaltmaq üçün xərclərin səmərəli strukturunu təmin etmək və inkişafa şərait yaratmaqdır. İn- fılyasiyanm iki rəqəmli həddi keçməsi haqqında fikirlər ma**

raqlarda izah oluna bibr və onun qarşısını almaq tədbirləri müxtəlif əsaslandırmalar ilə həllim tapır. Fikrimizcə inkişaf üçün infılyasiya iki rəqəmli həddi keçirsə, onda onun «səmrə- si» iqtisadi artım və sosial «effektlə» müəyyənləşməlidir.

İnfılyasiyanın qarşısını almaq üçün anti inhisar fəaliyyəti, rəqabət mühütü və təşəbbüskarlıq yaratmaq tədlbirləri daha prioritet üsullar olaraq dövlət tərəfindən tənzimlənməlidir. İnfılyasiyanın dəyişmə dinamikası ilə gəlirlərin arasında nisbətlər istehlakının strukturuna təsir edİr, O, cümlədən əhalinin yığıma olan tələbi azalır. Əhalinin əmanətlərinin alıcılıq qabiliyyətinin infılyasiya nəticəsində azalması, son nəticədə cari xərclərin çəkilən daşınmaz xərcləri artırır. Belə ki, mənzil torpaq bazan bir daha əhalinin istehlak bazarında üstünlük təşkil etdikcə və əmanətlərin infılyasiya qorxusu olduğu üçün əhalinin əmanət saxlamağa marağı azalır. Bu da infılyasiya mənbəi olaraq əhalinin yığımının xüsusi çəkisini azaldır. Respublikada pul kütləsinin artması, pulun alıcılıq qabiliyyətində infılyasiya tutumu əmtəələrin daşınmaz əmlakın üstün artması, bütövlükdə istehlakın optimal strukturunun pozulmasına gəlirib çıxarır.

Antiİnfilyasiya tədbirlərinin sosial nəticələri əhalinin yığıma olan stimulunu qaldırmaq, yığımın vəsaitlərinin qorunmasını təmin etmək və həmçinin invistisiya layihələrinin planlaşdırılması maliyyə imkanları çərçivəsində reallaşmasını təmin etməkdir. İnfılyasiyanın olması iqtisadi reallıq baxımından və müəyyən vəsaitlərin xərclənməsi və bank sektorunda dövriyyə surətinin artmasına səbəb olur.

İnfılyasiyanın həddləri hər bir ölkədə islahatlar və transformasiya istiqamətlərinə uyğun olaraq müəyyənləşir. İnfilya- . siyanın optimal ölçüsü daxil etmək yox imitasiya şəraitində tənzimləmək vacibdir.

İnfılyasiyanın sosial iqtisadi nəticələri dövlətin himayəçi- lik, sosial müdafiə və müavinat sistemini hazırlamağa onun mexanizmlərini təkmilləşdirməyə əsas verir. Belə ki, qiymətlərin dəyişməsi məhsullar üzrə differensiallaşır. Elə məhsullar

var ki, həmin məhsullar istehlakçı qruplarının islchlak seqmentində aparıcı rol oynayır. Onda qiymət dəyişməsində sosial müdafiə məruz qalmaq şansı bir qrup əhalidə daha kəskin baş verir. Dövlət məhz bu qrup əhalinin sosial müdafiə nçaq- lan ilə onların həyat səviyyəsinin tənzimlənilməsini bərpa edir. İslehlak bazarında infilyasiya pulun daha çox xərclənməsinə, əhalinin istehlak sabitinin məzmunun dəyişməsinə yığım üçün stimulun azalması ilə nəticələnir. İnfilyasiya nəticəsində bəzi istehsalçılar və biznes fəaliyyəti ilə məşğul olanlar Öz məhsullarının qiymətini artırmaqla mənfəətini azaltmamağa can alırlar. Lakin məhsulun qiymətinin artması hesabına onun məsrəfləri də artır. Beləliklə infilyasiya təsirində iqtisadi sistem başqa nəticə müstəvisində yeni spektr alır. Ona görə do infilyasiya əmələ gətirən səbəblərin süni yolla yaradılması iqtisadi və sosial siyasətin baş verən qeyri səlist dəyişmələri nəzərə alınması ilə bağlıdır. İnfilyasiya həmçinin qloballaşan iqtisadi siyasət sferasında aparılan bir sıra beynəlxalq tədbirlərin həyata keçirilməsi ilə baş verir. Kapital axını ilə ayrı-ayrı əyalətlərin ucuz resruslarından istifadə etməklə dünya qiymətlərinə uyğun məhsul istehsalı və sonradan onu dünya qiymətləri ilə satışı nəticəsində əldə edilən pul vəsaitlərinin kredit resursu kimi yenidən bölgüsü, infilyasiya yükünün kasıb ölkələrdə reallaşmasına səbəb olur. Çirkli pullar kasıb və invistisiya tələb edən ölkələrdə yuyulur. Belə ki, daxili texnalogiyalann dünya standartlarına uyğun olması və həmin standartların yaxınlaş- dınlması marağının həllinə məhdud tənzimlənməsi son nəticədə hazır məhsulların miqrasiyası ilə deyil xammal resrusları- mn daşınması ilə baş verir. Respublika ərazisində pul kütləsinin artımı həmin ərziyə axan vəsaitlər ilə də müəyyənləşir. Azərbaycan respublikasında xarici Ölkələrdən gələn pulun miqdarı bir sıra mənbəələr üzrə formalaşır. Belə ki, infrastruktur bazarının imkanları və onların beynəlxalq layihələr məqsədi ilə istifadəsi, Azərbaycan əhalisinin digər respublikalarda miqrasiyası hesabına əldə olunan gəlirlərin respublikada istifadəsi və həmçinin xarici dövlətlərin banklarında əhali və sahib

karların yığımının azalması son nəticədə pul kütləsinin respublika daxilində istehsal və istehlak yönlü xərclərə yönəldilməsinə gətirib çıxarır. Beləliklə infılyasiya dünya iqtisadi sistemdə xarici təsirlərlə dəyişilən bir prosesdir.

Biz qiymətə iqtisadi mexanizm kimi baxmaqla istehsal və istehlakın tarazlığını, onların dinamikasını və artım sürətlərini müəyyən edirik. Qiymətlə istehlak arasında əlaqə birmənalıdır. Yəni istehlak olunan məhsulların qiymətləri artdıqda onların ümumi dəyəri artır və uyğun olaraq əhalinin gəlirləri, yığım fondu istehlak fondu artırıhr. İstehlaka qiymətin təsiri isə əks təsir xarakteri daşıyır. Qiymət dəyişdikcə istehlakın həcmi azalır, strukturasında aşağı qiymətdə olan məhsulların xüsusi çəkisi artır və istehlakın artırılmasına stimul azalır. Beləliklə qiymətin dəyişməsi tələblə təklif arasında müvazinətin və qarışıqlıqlı təsirin yaranmasında, formalaşmasında ortaq mexanizm rolunu oynayır. Əgər hər hansı məhsulda qiymət artırsa, bu istehsalçı üçün əlavə uduş deməkdir və istehlakçı çox həvəslə qiyməti yuxarı olan məhsulun istehsalını artırır. Bu zaman əlavə kapital qoyuluşuna ehtiyac olur və əlavə resurslar tələb olunur. Qiymət dəyişməsi yığırm azaldır, əlavə bazarlar tələb edir.

Proses o vaxta qədər davam edir ki, bazarda bu əmtəələrin təklifi tələbatla tarazlaşır. Qiymət müəyyən həddə çatır. Sonrakı prosesdə istehsalın artımı qiymətin aşağı düşməsinə səbəb olur. Bazarda həmin əmtəənin təklifi tələbatdan çox olur. İstehlakçının alıcılıq qabiliyyəti artır. İstehsalçı isə qiymətin düşməsindən istehsalını başqa əmtəənin səmtinə yönəldilir. Beləliklə qiymətin tələb və təklifə təsiri bazar iqtisadiyatı şəraitində formalaşır. Bu qanunauyğunluğu dərk edən işində tətbiq edən 2 subyekti olur: alıcı - satıcı, istehsalçı. İstehlakçı özünə uyğun olaraq mənfəət əldə edir, yaxud zərər çəkir. Qiymətin maya dəyərindən yuxarı olması nəticəsində istehsalçı üçün əlavə mənfəət yaradır. İstehsalçı bazar iqtisadiyyatı şəraitində yuxarı qiymət olan bazarları seçir, əsaslandırır və həmin bazarlarda ticarəti təşkil edir. İstehlakçı isə alıcılıq qa-

biliyyotino uyğun olaraq əmtəə təklifinin daxilində bütün mümkün qiymətlərdən onun gəlirinə uyğun olanını seçir. Qiymətlə tələb-təklif və istehlak arasında birbaşa əlaqə var. Bu əlaqələr tələb qanununun mahiyyətindən onun dinamikasında baş verir. Tələb qanunu aşağıdakı formada ifadə olunur. Hər hansı əmtəəyə olan tələb, həmin əmtəənin mövcudluğu şəraitində və həmin əmtəənin tələbatın ödənilməsində rolunun olması şəraitində qiymətin artması ilə tələb azalır. Qiymətin azalması ilə tələb artır. Tələb təklifin müəyyən normal hədləri şəraitində $P_1$ qiymətinə uyğun olaraq $q_1$ tələbi mövcuddursa $P_2$ qiymətinə uyğun olaraq qz tələbi mövcuddur.

Bu qanun qeyd edək ki, son hədlər prinsipi əsasında formalaşır. Yəni qiymətin istənilən qədər yuxarı olmasından həmin əmtəəyə olan tələb qiymətdən asılı olaraq dəyişilir. Qiymətin sonrakı dəyişməsi alıcı üçün mümkün olmayan hesab olunur. Qiymətin çox aşağı olması isə həmin məhsulun təklifinin o qədər çox olmasına gətirir ki, alıcı bu əmtəə ilə tam təmin olunur. Bu əmtəə ilə qiyəmtin arasında isə asılılıq düz mütənasib olub, qiymətin artması ilə əmtəə təklifinin artması müşahidə olunur.



Qiymətin dəyişməsi real gəlirlərin və istehlakın formalaşmasının təminedici amilidir. Bazar iqtisadiyyatı şəraitində qiymətlə istehlak arasında qanunauyğunluğu tənzim elmək üçün qiymət indekslərindən istifadə olunur. İstehlakçı dəyişməsi ilə qiymətin dəyişməsi arasındakı münasibət belə ifadə olunur.

Ay
U., = —;d00% U- istehlak, G- qiymət
" AG

Qiymətin 1 % dəyişməsinin neçə faiz istehlak səviyyəsinə səbəb olunduğu göstərilir. Əgər qiymət indeksi hər hansı i əmtəəsi üzrə vahiddən kİçikdirsə Ii<l, indeks qiymətin 1 % artımı şəraitində istehlakın 1 %-dən aşağı düşməsini göstərir. Qiymət indeksi vaxta görə və ayrı - ayrı əmtəələrin müqayisəli nisbətlərinə görə də müəyyən olunur. Məsələn, at=Gı \ Go, 2 müddətdə qiymətinin dəyişməsini göstərir. Əgər əmtəə təklifi uyğun dövrlərdə Qo, Qı olarsa, onda qiymət indeksi

^ – ^1^^1

şəklində ifadə olunur.

Qiymət indeksinin bazar iqtisadiyyatı şəraitində mütəma- di olaraq təhlili və proqnozu əhalinin həyat səviyyəsini tənzim etməyə istifadə olunur. Bu halda iqtisadi qanun olaraq gəlirlərin indeksasiyası Milli Məclis tərəfindən hazırlanmalıdır. Qanunun reallaşmasa mexanizmi qiymtələrin dəyişməsinə uyğun olaraq gəlkləri tənzim etmək üçün əmək haqqının minimum səviyyəsinin, təqaüd, pensiya və s. gəlirləir qiymətdən asılı olaraq artırılması ilə reallaşdırılır. Bazar iqtisadiyyatı şəraitində qiymətlər liberal (azad) qiymətlərdir. Lakin qiymətlərin inhisar qiymətlərinə çevrilməsinin qarşısını almaq üçün dövlət tənzimlənməsi vacibdir. Bu məqsədlə qiymət komissiyası bəzi ən vacib, zəruri məhsulların qiyməti üzərində nəzarət məqsədi ilə dövlət səviyyəsində güzəştlərdən, müavinətlərdən istifadə edə bilər. Bəzi istehsal sahələri öz məhsullarını qiymətini onun maya dəyərindən aşağı saldıqda, onlar gəlirsiz fəaliyyət göstə

**rirlər. Bəzən həmin müəssisələr əmək haqqı verməyə imkanları olmur. Bu da həmin müəssisələrin aradan çıxmasına səbəb olur. Bu müəssisələrin sosial əhənliyyətinİ və strateji məqsəd' lərdə rolunu nəzərə alaraq dövlət həmin müəssisələrə mərkəzləşmiş fondlardan əlavə vəsait ayıra bilər. Qiymət elə bir iqtisadi mexanizmdir ki, o istehlakm özünü tənzimləmə cəhətlərinə malikdir. Bu zaman istehlakçı tələbatın ödənilməsində funksional (tələbatın) təyinatına görə eyni olan, lakin qiymətləri müxtəlif olan məhsul və xidmətlərdən eləsini seçir ki, ona baha gəlməsin bəzən istehlakçı baha əmtəə və xidmətin (baxmayaraq keyfiyyəti yuxandır) əvəzinə qiyməti aşağı miqdarca çox ucuz əmtəələr seçilir. Hər hansı əmtəə və ya xidmətə zəruri ehtiyac olduğu halda onun qiymətinin nisbətən yuxan olması istehlakçının başqa əmtəəyə üz tutmasına səbəb olur. Beləliklə, qiymət dinamikası əmtəə və xidmətlərin bir-birini əvəz etməsinə gətirir. Bu da son nəticədə istehlak sferasında əhalinin davranış qabiliyyəti onun pul gəliri, ailə tərkibi, təminat səviyyəsi və həyat tərzi ilə bağlıdır.**

## NƏTICƏ

Bazar iqtisadiyyatının formalaşması və inkişafının əsas istiqaməti olaraq gəlirlərin mahiyyətinin, onun mənbəə və dinamikasının, bölgüsü və istifadəsinin sosial-iqtisadi nəticələrini qiymətləndirməklə perspektiv idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi vacib və əsas elmi-nəzəri və praktiki cəhətdən əsaslandırılması vacibdir.

Gəlirlər iqtisadi və sosial inkişafın səmərəli təşkili, idarə edilməsi və tənzimlənməsi kateqoriyası olaraq, dövlətin, təşkilatların, sahibkarların və əhalinin iqtisadi və sosial davranışının maliyyə əsaslarını yaradır. Gəlirlər xarakteri mülkiyyət münasibətləri və formalaşma mənbələrinə görə müxtəlif xüsusiyyətlər kəsb eidiyi kimi, ümumi məqsədlər və idarə etmə baxımından qarşılıqlı əlaqədə olan vahid sistem olaraq, iqtisadi və sosial inkişafda bölgü və yenidən bölgü mexanizmləri ilə formalaşır.

Gəlir sistemində son qapayığı element olaraq əhali gəlirləri, rifahın formalaşması, onun differensiyası, formaları və mənbələrinə görə bütövlükdə dövlət və xüsusi gəlirlərin artımına və onun bölgüsünə təsir edir. Əhali gəlirləri bazar iqtisadiyyatı şəraitində əhalinin alıcılıq qabiliyyətinin və onun rifahının sintetik göstəricisi olmaqla bölgü və yenidən bölgü sistemində tənzimləmə və stimullaşdırma rolunu oynayır. Əhali gəlirləri formalaşma mənbələrinə görə dövlət gəlirlərindən, xüsusi mülkiyyətdən və sahibkarlıqdan gələn gəlirlərə, trans- fert gəlirlərinə və əhali yığımının gəlirlərindən ibarətdir. Gəlirlər formaca və funksional təyinatına görə geniş təkrar istehsalın maliyyə mənbəyi rolunu oynayır. Dövlətin gəlirlərinin əsas mənbəyi olan vergilər, rüsumlar və məqsədli fondlardır ki, məcmuu halında dövlət gəlirlərinin büdcə formasını, onun xərc strukturunu tənzimləyir.

Əhalinin yaşayış səviyyəsini, onun müxtəlif kateqoriyalarının funksional təkrar istehsal qabiliyyətini təmin etmək üçün əmək haqqı gəlirləri, transferi gəlirləri və təminat sisteminə

bölünür, Əmok haqqı gəlirləri dövlət büdcəsindən maliyyələşdirilən əməyin kəmiyyət və keyfiyyətinə görə və onun faydalı- lığına görə ödənilən haqq kimi formalaşır və təsərrüfatın formasında maliyyə mənbələrindən asılı olaraq sahə və ərazi dİfferensiyasına malikdir. Gəlirlər differensiyaya məruz olub, obyektiv amillərə görə sahə və ərazi strukturuna uyğun formalaşır.

Əhali gəlirlərinin dinamikası, onun strukturu, formalaşma mənbələri, differensiyası müasir dünya iqtisadi problemlərin qloballaşma şəraitində yoxsulluğun ləğvi, so.sial müdafiə, aşkarlıq və demokratik islahatların aləti kimi mahiyyətcə açılır. Əhali gəlirlərinin tədqiqində yoxsulluğun mövcud vəziyyəti qiymətləndirilir, azad bazar iqtisadiyyatının liberallaşma səviyyəsi ölçülür, əhalinin gəlirlərin səviyyəsinə görə paylanması dinamikası və qanunauyğunluqları müəyyən edilir. Əhali gəlirlərinin hər formasının dəyişmə dinamikası istehsal və bölgü, həmçinin istehlak xüsusiyyətlərini müəyyən edir. İlkin növbədə, minimal, orta və maksimal gəlirlər səviyyəsi ilə əhalinin və onun sosial-iqtisadi qruplar üzrə paylanması uyğun dövlət, sahə, ərazi-inzibati və təşkilati tədbirlərin yaradılması effektini müəyyən edir.

Əhali gəlirləri dövlət büdcəsi ilə qarşılıqlı öyrənilib, qarşılıqlı əlaqə, təsir və bir-birinə təsir qüvvəsini qiymətləndirməklə onun idarə edilməsinin struktur və mexanizmləri formalaşdırılır.

Əhali gəlirlərinin dinamikası, onun struktur təhlili və formalaşma mənbələri respublikada sahibkarlıqdan gələn gəlirlərin daha üstün artmasım, əmək haqqı gəlirlərinin büdcədən maliyyələşdirilən təşkilatlar üçün aparıcı rol oynamasını və kənd yerlərində natural gəlirlərin, həyat səviyyəsinin və tələbatın ödənilməsində aparıcı və perspektiv rol oynamasını göstərir.

Əhali gəlirlərinin makro və mikrosəviyyəli tədqiqi onun ölkə iqtisadiyyatında dinamizm və iqtisadi artımla yanaşı artımım sahələrin iqtisadi rolu ilə bağlı gəlirlərin sahə üzrə for

malaşmasında baza tələbinə uyğun inkişaf edən təsərrüfat formalarında gəlir səviyyəsinin artmasını göstərir. Hər hansı gəlir formasının mənbəə üzrə həcmi strukturunun və differcn- siyasmm qiymətləndirilməsi üçün metodiki yanaşma sistemi, amillər və kvantal, desil, həmçinin Lorens və Cini əmsalları ilə ölçülür. Respublika əhali qruplarının qütbləşmə dərəcəsi onun az təminatlı hissəsinin gəlirləri ilə maksima' təmin olunmuş ailələrin gəlirləri arasında nisbət kimi qəbul olunur.

Əhali gəlirlərinin dövlət gəlirləri İlə əlaqəsi, ailə büdcəsinin gəlir və xərclərini dövlət büdcəsinin gəlir və xərcləri arasında uyğun təsnifatların əlaqələndirilməsi metodikası ilə mümkündür. Bu metodikada əhali gəlirlərinin respublikada gəlirlərlə əlaqəsini, xərclərin gəlirlərə təsirini və hər bir əhali gəlirlərinin formalaşmasında dövlət xərclərinin səmərəsi və nəticəsi qiymətləndirilir.

Əhali gəlirlərinin formalaşma mənbələri gəlir gətirən obyekt və subyektlərin arasında olan mexanizmlər kimi əmək haqqı, stimullar sistemi bazar rəqabətində davamlı inkişaf və iş qüvvəsinin istehsal və xidmətə cəlb edilməsi təşkil edir. Əhali gəlirlərinin dinamik artımını təmin etmək üçün sahibkarlığın stimullaşdınlması, onun səmərəli inkişafı üçün kiçik və orta sahibkarlığın ərazi və strukturunun təkmtlləşdirilməsi, ayrı-ayn regionların resurs potensialını istehsal dövriyyəsinə cəlb etməklə, gəlirlərin artırılması tövsiyyə olunur.

Region iqtisadi siyasətin əsas amili olan əhalinin məşğulluğu onların sosial müdafiəsi və maksimumlaşmasınm sosial- iqtisadi tədbirlərinin həyata keçirilməsi vacibdir.

Transfert gəlirlərinin təkmilləşdirilməsi, onun əhalinin məcmuu gəlirində rolunu artırmaq məqsədi ilə transferi gəlirlərin mənbəələri olan dövlət büdcəsinin artırılması, onun xərc strukturunda sosial prioritetlərin düzgün əsaslandırılması və sosial sığorta sistemi ilə büdcədən ayrılan sosial müdafiə fondu arasında optimal nisbətlərin tənzimlənməsinin mexanizmləri təkmilləşməlidir. O, cümlədən sosial təminat sistemində əmək pensiyaları ilə sosial pensiyalar arasında nisbətlərin op-

limal əlaqəsi, sosial pensiyaların yaşayış minimumu həddinə yüksəldilməsi istiqamətində tədbirlərin stimullaşdırılması və əmək pensiyaların, orta aylıq əmək haqqı ilə stimullaşdırıl- ması təklif olunur. Pensiya təminatı əhalinin 25%-nin əsas yaşayış tələbatını ödəmək mənbəi olmaqla təkmilləşməlidir. Ölkə iqtisadiyyatı inkişaf etdikcə onun ayn-ayn pensiya təminatı və müavinətlər sisteminin fərdi uçotu, əhalinin əmək fəaliyyətinin səmərəli təşkili üçün maddi stimul təşkili üçün maddi stimul yaradır. Əmək haqqı ilə orta pensiya təminatı, minimum əmək haqqı ilə minimum pensiya səviyyəsi arasında nisbətlər təmin olunanda əhali rifahı üçün maddi zəmin yaradılır.

Pensiya təminatının təkmilləşdirilməsi üçün onun hesablanma qaydasında yaşayış minimumu, istehlak büdcəsinin strukturunun təkmilləşdirilməsi və iqtisadiyyat İnkişaf etdikcə mütərəqqi strukturaya, xidmət və mənəvi nemətlərin yüksək artımına uyğun istehlak büdcəsinə yaxınlaşmaq konsepsiyasına uyğun tənzimlənilməsi qaydası və rrielodikası verilir. Pensiya təminatında əmək və sosial müdafiə tədbirlərinin uzlaşmasının təmin olunması üçün dövlətin əsas vəzifəsi və ayrı- ayrı sahibkarların sosial müdafiə ödəmələri arasında müntəzəm olaraq tənzimləmə mexanizmlərin tətbiqi tövsiyyə olunur.

Əhali gəlirlərinin sosial-iqtisadi qruplar üzrə dominantı onun məşğuliyyəti, sosial-iqtisadi statusu və perspektiv struktur dəyişmələrinə uyğun olaraq gəlirlərin strukturunda domi- nant funksiya rolunu oynayan gəlirlərin dinamikası proqnozlaşdırılır. Minimum əmək haqqı, minimum istehlak büdcəsi, minimum pensiya səviyyəsi kimi sosial-iqtisadi təminatların ölçülməsi, dinamikası və tənzimlənməsində istifadəsinin əsas istiqamətləri əsaslandırılır və konkret kəmiyyə göstəricilərinin dəyişmə meylləri proqnozlaşdırılır.

Tədqiqatlar göstərir ki, əhali gəlirləri artdıqca, onun istehlak strukturu formalaşır. Gəlir və istehlak davranışı arasında əlaqə əhalinin istehlak davranışının əsas istiqamətlərini müəyyən edir. Adam başına düşən gəlirlərin dəyişməsi ilə istehlak

davranışında uyğun artun və struktur dəyişmə əhali gəlirləri və istehlak balansının qurulması və istifadəsinin, həmçinin istehlakdan gəlirlərin tənzimlənilməsi üçün istifadə edilməsi mexanizminin qaydası tövsiyyə olunur.

Tədqiqat göstərir ki, iqtisadi artım, gəlirlər, struktur islahatlar, makroiqtisadi və mikro tənzimləmələr kompleks sistemli və ardıcıl tətbiq olunmalıdır. Makroiqtisadi tənzimləmə ilə mikrosəviyyəli təhlil iqtisadi Və sosial inkişafın bütün sahələrinin tarazlı inkişafını təmin etməyə İmkan verir.

Əhali gəlirləri istehlak strukturu ilə tənzimlənməlidir. Bunun üçün gəlir və istehlakın balansı, onun differensial balansı və gəlirlərin paylanması riyazi və funksional modellə təsvir olunmalıdır.

Əhali gəlirlərinin proqnozlaşdırılması üçün ÜDM-un artım tempi ilə onun bölgüsü və əhalinin istehlak tələbatının normativlərə yaxınlaşması meyli arasında funksional asılılığın emprik materiallar arasında formalaşmış qanunauyğunluqları istifadə olunmalıdır. Əhalinin gəlirləri və istehlakı arasında əlaqə mövcud elastiklik əmsallarını nəzərə almaqla imitasiya, funksional və balans modeli ilə proqnozlaşdu'ila bilər.

Tədqiqat göstərir ki, gəlirlərin artması ilə onun xərc və istehlak strukturuna təsiri hər gəlirlərin sahibinin ailə tərkibi, məşğuliyyət səviyyəsi, peşə və həmçinin məşğuliyyət strukturu ilə müəyyənləşir. Gəlirlərin artması ilə az təminathlıq səviyyəsində istehlakın artması baş verir. İstehlak səviyyəsinin müəyyən normativ səviyyəsində gəlirlərin artması daha çox mənəvi və xidmət istehlakına tələbatı artırır. Funksional tədqiqat metodikasında hər bir istehlak növü ümumi gəlirlərdən asılı olaraq formalaşdırılır və proqnozlaşdırılır.

Əhali gəlirlərinin formalaşma dinamikası və onun mənbələri, büdcə sistemi, tədiyyə balansı, əmtəə və pul təklifini, vergi, maliyyə və kredit sisteminin təkmilləşdirilməsi üçün aparıcı həlqə və dominant rolunu oynayır.

Kitabın nəticələri pensiya təminatı, sosial müdafiə tədbirləri, əhalinin az təminatlı ailələri üçün müavinət sistemini,

yoxsulluq həddini, rifah səviyyəsinin qiymətləndirilməsi, gəlirlərin statistik və proqnoz göstəricilərinin kompleks təsviri üçün əhəmiyyətlidir. Onun proqnoz göstəriciləri və hesablama parametrləri analitik düşüncə və perspektiv tədbirlər üçün tövsiyyə olunur.

Cini əmsalının, desil göstəricisinin az təminatlı ailə üzvlərinin sayının orta təminat və yuxan gəlir səviyyələrinin qiymətləndirilməsi praktiki əhəmiyyət kəsb edir və istifadə üçün təklif olunur.

Kitabın nəticələri Yoxsulluq proqramının reallaşmasında differensial tədbirlər və ərazi marketinq proqnozu üçün istifadə oluna bilər.

Alınan nəticələr əhali gəlirlərinin, beynəlxalq səviyyəli axtarışlar, gəlirlərin ayrı-ayrı sahə və ərazilər üçün şəffaflığını təmin edir.

Kitabın nəticələri əhali gəlirlərinin makroiqtisadi tənzimləmə, bazar strukturunda məcmuu tələb və məcmuu təklifin tarazlığı üçün, icmal maliyyə balansının tərtib edilməsində, iqtisadi və sosial inkişaf proqnozu ilə onun maliyyə-büdcə təminatı arasında ümumi və konkret gəlir və xərclər üzrə balans tədqiqinin genişlənməsi üçün istifadə olunmaq üçün tövsiyə olunur.

Dövlət, bələdiyyə və əhali gəlir və xərc büdcələrinin qarşılıqlı əlaqəsinin vahid büdcə sistemi qanunvericilik bazasının təkmilləşdirilməsi üçün təsnifatlaşdırılmasının metodiki əsaslarını işləmək və inkişaf etdirməkdə istifadə etmək tövsiyyə olunur.

Problemin qoyuluşu, onun nəzəri və metodoloji əsaslandırılması tədris prosesində, elmi-tədqiqat işlərinin daha genişlənməsi istiqamətlərində istifadə oluna bilər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası, **B., 2002, s. 17, 61,116**

2. **Azərbaycan Respublikasının vergi məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Büdcə zərfi materiallan, IV cild, B., 2003**

3. Azərbaycan Respublikasının mülki məcəlləsi, s. **357**

4. **Azərbaycan Respublikasında rəqabətin qorunması və təbii inhisarların tənzimlənməsi.** Qanunlar, normativ sənədlər, analitik materiallar, **B., 2000, s.273**

5. **Azərbaycan Respublikası 1991-2001. Azərbaycanın müstəqilliyinin bərpasının 10 illik yubileyinə həsr olunur, B., XXI-Yeni nəşrlər evi, 2001, s.360**

6. Azərbaycanın Statistik göstəriciləri 2002, **Azərbaycan Dövlət Statistika Komitəsi, B., Səda nəşriyyatı 2002, s.768**

7. Azərbaycanın Statistik göstəriciləri **2003. Azərbaycan Dövlət Statistika Komitəsi, B., Səda nəşriyyatı 2003, s.773**

8. **Azərbaycanda iqtisadi islahatlann həyata keçirilməsi xüsusiyyətləri** və **problemləri.** Elmi əsərlər toplusu, IV **buraxılış. İqtisadi İslahatlar Mərkəzi, B., 2003, s.295**

9. **Azərbaycan Respublikasında sahibkarlığın inkişafı problemləri.** Elmi-praktik konfransın materialları. **Auditorlar Palatası, B., Nağıl evi, 2003, s.334**

10. Abdullayev A. İqtisadiyyat və iqtisadi siyasət, B., Asiya, **2003,s.216**

11. **Axundov Ş., Axundov** M. İqtisadiyyat, sahibkarbq, bazar münasibətləri, marketinq və səmərəlilik, B., **1992, s.272**

12. **Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M.** İqtisadiyy**atın** dövlət tənzimlənməsi, **B., Nasir, 2002, s. 445**

13. Azərbaycan Respublikasında bələdiyyələrin hüquqi bazası, **Bakı, Pedoqoqika, 2002, s.243**

14. **Əhmədov M.Ə.** Qloballaşma **və** milli iqtisadiyyatın formalaşması, **B.jAzoməşr, 2003, s.523**

15. **Əliyev A., Qasımov N.** Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksəldilməsinin aktual problemləri, **B., Səda nəşriyyatı, 2000, S.225**

16. **Əliyev M. N.** Azərbaycan Respublikasında pensiya təminatı

sisteminin təşəkkülü və inkişaf perspektivləri (hüquqi problemləri) , B., Bakı Universiteti, 2003, s.42

17. Əliyev A.Ə, Şəkəreliyev A. Bazar iqtisadiyyatına keçid; düvlətin iqtisadi siyasəti, B., Bakı Universiteti, 2002, s.440

18. Əlirzayev Ə.Q. Azərbaycanın İqtisadi inkişaf konsepsiyası və proqramı, B., Odlar Yurdu nəşriyyatf, 1999, s.l04

19. Əlirzayev Ə.Q. İqtisadiyyat; Düşüncələr. Baxışlar, B., Bakı Universiteti, 2002, s.466

20. Əlirzayev Ə.Q. İqtisadi artım və maddi rifah, B., 1989, s.l 12

21. Əlirzayev Ə.Q. İqtisadi və sosial. idarəetmə; Bazar iqtisadiyyatı, metodoloji prinsiplər, qanunauyğunluqlar, Bakı, Diplomat nəşriyyatı, 1997, s.208

22. Əlirzayev Ə.Q., ƏUrzayeva T.Ə, ^Əhalinin hoyat soviyyəsinin dinamikası, amilləri və tənzimləmə problemləri. Audit jurnalı N-1, Bakı Biznes Universiteti, 2003, s.28-33

23. Əlirzayev Ə.Q, ƏUrzayeva T.Ə. Əhali gəlirlərinin formalaşmasının maliyyə mənbələri, Odlar Yurdu Universitetinin elmi- pedaqoji xəbərləri N6, 2003, s, 94-102

24. ƏUrzayeva T.Ə. Dövlət və əhali gəlirləri arasında əlaqələr. Odlar Yurdu Universitetinin elmi-pedaqoji xəbərləri N9-10, 2003, s.70-71

25. Əlirzayev Ə.Q, Əliızayeva T.Ə. Əhalinin pensiya gəlirləri və onun maliyyə təminatının təkmilləşdirilməsi, Audit jurnalı N4, Bakı Biznes Universiteti 2003, s.35-42

26. Feyzullabəyli İ. Real bazara doğru, B., 1993, s.174

27. Heydər Əliyev İqtisadi idarəetmə məktəbi, **II** buraxılış, B., İqtisad Universiteti, 2003, s.207

28. Xudiyev N.N. Dövlət sığortası və sığorta münasibətlərinin təkmilləşdirilməsi, B., 1993, s.122

29. Quliyev T.Ə. Menecmentin (İdarəetmənin )əsaslan, B., 2001.S.518

30. Quliyev R. Böyük transformasiya: Azərbaycan teşəbbüs- leri, B., Nurlar noşriyyatı, 2002, s.254

31. Məmmədov A.Q. Azərbaycanın keçid iqtisadiyyatmda yeni mülkiyyət münasibətlərinin formalaşması və reallaşması problemləri, B., 1998, S.332

32. «Müstəqil Azərbaycan - 10 il» və BMT-nin illik melumatları

33. Nağıyev Ə., Novruzov.V., Allahverdiyev H., Əlirzayev Ə.Q. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı, B., Azəməşr, 1998,

s.386

34. Nağıyev Ə.T., Quliyev R.M., Abbasova Ş.A., **Tətbiqi iqtisadiyyatın elementləri**, B.,Səda, 2001, s.196

35. Nağıyev Ə.T. **Sosial iqtisadi inkişafın metodoloji aspektləri,** B., Azərnəşr, 2002, s.296

36. Nağıyev Ə.T., Əlirzayev Ə.Q, Quliyev A.O. **Pensiya təminatının inkişaf perspektivləri**, B., BDU, 2001, s.234

37. Nağıyev Ə.T., Mürşüdov R.İ. **Sosial müdafiənin təkmilləşdirilməsinin əsas istiqamətləri,** B., Səda, 2002, s.135

38. **Naxçıvan Muxtar Respublikası 1992-2001 illər ərzində,** Müstəqilliyimizin 10 ili, Naxçıvan, Əcəmi, 2001, s.48

39. Mehbaliyev S., İsgəndərov R. **Əmək bazarı və əhalinin sosial müdafiəsi**, B., Çaşıoğlu, 2002, s.544

40. Piter Droker. **Mənfəət güdməyən təşkilatların idarə edilməsi. Post kapitalist cəmiyyəti**. B., Nurlar nəşriyyat - poliqrafiya mərkəzi, 2003, s.400

41. Rüstəmov A.A.**Yeni iqtisadi münasibətlər şəraitində əhalinin maddi rifahının yüksəldilməsinin iqtisadi problemləri**, B., 2003, s.349

42. Sadıqov M.M., Balayeva E.Ə., Həmişəyeva S.U. **Beynəlxalq maliyyə-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi,** B., İqtisad Universiteti, 2003, s.195

43. Səmədzadə Z.A. **Dünya iqtisadiyyatı. Çin iqtisadi möcüzəsi**, B., 2001, s.317

44. Səfərov S. **İlham Əliyev ümumi milli liderliyə layiq şəxsiyyət,** B., Qismət nəşriyyatı, 2003, s.208

45. Səfərov S. **Müstəqillik və iqtisadiyyat**, B., 1999,2003, s.101

46. Şəkərəliyev A.Ş. **Keçid iqtisadiyyatı və dövlət**, B., BDU, 2000, s.280

47. Vəliyev D.Ə, Balakişiyeva Y.N., Rəfibəyli İ.R., İmanov E.E., Qarabalov E.M., **Vergi hüququ**, Dərslik, Azərbaycan Universiteti, B., 2003,s.482

48. **Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət Proqramı (2003-2005),** Bakı, "Qapp-Poliqraf" korporasiyası, 2003, s.288

49. Авдомеева С., Ястребова О. Государственная поддержка в регионах: состояние и проблемы реорганизации. **Вопросы экономики, №5,** 2001, с.113-127.

50. **Адресная социальная помощь (теория, практика, экс-**

**перимент)/** под ред.акад. РАН Римашевской Н.М.,ИСЭПН, с. 256

51. Алирзаев А.Г. **Взаимосвязь социальных и экономических процессов. Методология планирования и прогнозирования**. Баку, Элм, 1986, 130 с.

52. Алирзаев А.Г. Финансовая налоговая политика Азербайджана, ее социальные последствия, пути совершенствования. **Социально-экономические проблемы переходного общества из практики стран СНГ**, М., Наука, 2002, 312 с.

53. Алиев А.А. **Проблемы личного потребления в условиях социального развития**, Баку, 1982, 224с.

54. **Альтернатива: выбор пути (перестройка управления и горизонты рынка)**, М., Мысль, 1990, с.463

55. Анчишкин А.И.**Наука, техника, экономика**, 1986, 383с.

56. Анчишкин А.И. **Прогнозирование роста социалистической экономики**, М., Экономика, 1973, 294 с.

57. Азербайджан.Экооомический анализ стран. Из кризисного состояния к стабильному развитию. **Документ Всемирного Банка**, 1993 г.,Вашингтон, Округ Колумбия, 1994, 223 с.

58. **Банковское дело**, М., Финансы и статистика, 1995, с.475

59. Вифлемский А. Роль образовательного комплекса в постиндустриальном обществе, **Вопросы экономики №8**, М., 2002, с.115-122

60. **Всемирная история экономической мысли**, том 1, М., Мысль, 1987, с. 606

61. Гусейнов С.К. **Социальная инфраструктура и ее роль в формировании территориально-производственных комплексов**, Свердловск, 1983, 165 с.

62. Джандосов С.У., Байзаков С.Б., Хусаинов Ж.С. **Принципы оптимизации регионального планирования**, Алма-ата, 1981, с.265

63. Джеффри Д.Сакс, Фелипе Ларен Б. **Макроэкономика. Глобальный подход,** М., Дело, 1996, с.848 ( с.106-139)

64. **Дифференцированный баланс доходов и потребление населения и его использование и планирование./** под ред. Маера В.Ф. и Ершова Э.Б., М., НИЭИ при ГосПлане СССР, 1973, с.223

65. **Дифференцированный баланс доходов и потребления населения,** М., 1977, с.222

66. Дыжков Н.И. **О перестройке управления народным хо-**

**зяйством на современном этапе экономического развития страны**, М., Политиздат, 1987, с.267

67. Жуков Е.Ф. **Деньги, кредит, банки**, М., Банки и биръа, Юнити, 1999, с.622

68. Зыкин Б.Н. **Эффективность региональной экономики**, М., Наука, 1981, с.191

69. Иноземцев В.Л. **Социально-экономические проблемы XXI века: попытка нетрадиционной оценки**, М., 1999, 100 с.

70. Купаев Т. Медицина и медицинское страхование в Азербайджане. **Жонсултинэ анд Бусинесс**, июнь 2001, с.52-53

71. Культурная политика в Азербайджанской Республике. **Министерство культуры Азербайджанской Республики**, 2000, 106 с.

72. Киселев А.,Гемонов А., Шейман М. Страховая медицина или новая модель финансирования здравоохранения, **Вопросы экономики,** №11, 1990, с.23-33

73. Кочерга А.И. **Социальная инфраструктура-вопросы теории и практики**, Киев, Наук.Думка, 1982, 335 с.

74. Кочерга А.И. **Сфера обслуживания населения**, Москва, Мысль, 1979, 293с.

75. Кочерга А.И., Мазараки А.А. **Народно-хозяйственный комплекс и социальные проблемы**, М., Мысль, 1981, 271 с.

76. Кошанов А.И и другие. Обновление концепции занятости и рынка труда в условиях устойчивого экономического развития страны. **Материалы международной конференции** (Концептуальные основы, механизмы, результативность), М., 2001

77. **Комплексный план развития сферы обслуживания населения**. /под ред. Рутгайзера, М., Экономика, 1977, 231 с.

78. Ларина Н.И., Кисельников А.А. **Региональная политика в странах рыночной экономики**, М., Экономика, 1998, 172.с

79. Левин А.И., Яркин А.П. **Платежеспособный спрос населения,** М., Наука,1976,380 с.

80. Маер В.Ф. **Уровень жизни населения СССР**, М., Мысль,1977, 442 с.

81. Маер В.Ф. **Доходы населения и рост благосостояния народа,** М., Мысль, 1968, 250 с.

82. **Методологические указания к разработке государственных планов экономического и социального развития**

СССР. Госплан СССР.М., Экономика, 1980, 179 с.

83. Мехбалиев С.С.**Азербайджан сегодня. Проблемы занятости и социального партнерства** , Баку, 1999, 140 с.

84. Можина М.А. Анализ дифференциации доходов населения, **Экономист, №1**,1995, с.33-42

85. Мустафаева Н.М. Проблемы формирования социальной среды при переходе к рыночным отношениям в Азербайджанской Республике. **Сборник научных трудов**, том 2, Баку, Элм, 1999

86. **Население и глобализация**,/ под ред. Римашевской Н.М. М., Наука, 2002, с.322

87. Новрузов В.Т. **Социально-бытовая инфраструктура Азербайджана**, Баку, Азернешр, 1991, 120 с.

88. Некрасов И.Н. **Региональная экономика** (теория, проблемы, методы), М., Экономика, 1978, 344 с.

89. Нуреев Р. Теории развития: новые модели экономического роста (вклад человеческого капитала). **Вопросы экономики, №9**, 2000, (136-157)

90. **Обзор экономического положения Европы в 1996-1997 гг.**, ООН, Нью-Йорк, Женева, 1998, 416 с.

91. **О социально-экономическом развитии Азербайджанской Республики в 1997 г.**, Баку, 1998, 28 с.

92. О коренной перестройке управления экономикой. **Сборник документов**, М., Политиздат, 1987, 254 с.

93. Павлов К. Этноэкономика как научное направление, **Общество и экономика №11,12**, 1998

94. Певзнер А., Совушкин В.Медицинское страхование. **Вопросы экономики №11**, 1991, с. 23-32

95. **Плановый дифференцированный баланс доходов и потребления населения**,/ под ред. Римашевской, М., 1981, 253 с.

96. **Промежуточный документ Государственной Программы в Области Сокращения Бедности**, Баку, 2001, 382.с

97. **Райцин В.Я.** Математические методы и модели планирования уровня жизни, М., Экономика, 1970, 272 с.

98. Римашевская Н.М, Робкина Н.Е.**Основы дифференциальных доходов и заработной платы**, М., 1979, с.288

99. Римашевская Н.М. **Человек и реформы: Секреты выживания**, М., 2003, с. 388

100. Руттайзер В.М. **Ресурсы развития непроизводственной**

**сферы**, М., Мысль, 1975, с.229

101. Серегина С.Ф. **Роль государства в экономике**, М., Де. и сервис, 2002, с.288

102. Симирнова Г.Б. **Менеджмент**, М., с.352

103. Сидорович А.В. **Государственная экономическая пол тика: опыт перехода к рынку**, М., 1998, с.319

104. Система индикаторов уровня бедности в переходный п риод в России. **Научный доклад № 98/04**, с.65

105. Слагода В.Г. **Основы экономики,** М., Форум-инфр 2003, с.210

106. **Современная экономика**. /под ред. Мамедова О.Ю, Ро тов на Дону, с.543

107. Солодков М.В. **Непроизводственная сфера при соци лизме**, М., Мысль, 1978, с.188

108. Соловьев Б.А. **Потребности, рынок, спрос**, М., Эконом ка, 1982, с.286

109. Социально-экономические проблемы развития азерба джанского села. **Материалы конференции,** Баку, Элм, 1988, с.1

110. **Социальная защита населения**. /под ред.Н.М. Римаше ской, М., РИЦ ИСЭПН, 2002, с.288

111. **Социальная инфраструктура: вопросы теорий и пра тики** /под ред. А.И. Кочерги, Киев, Наукова Думка, 1982, с.152

112. **Социальная статистика** /под ред. М.Г. Назарова, М Финансы и статистика, 1988, с.317

113. Столмов Л.Ф. **Изучение и прогнозирование покуп тельского спроса,** М., Экономика, 1972, с.231

114. Тащенко Ж.Т. **Социальная инфраструктура: сущнос и пути развития,** М., Мысль, 1980,с.271

115. Федеренко Н.П. **Оптимизация экономики,** М., 1982, с.

116. **Финансы. Толковый словарь. Англо-русский**, М., И фра-М, 2000, с.496

117. **Финансы и кредит.** Учебное пособие./под ред.проф. К волевой А.М., М., Финансы и статистика, 2002, с.512

118. **Финансы, денежное обращение и кредит**. Учебник, М 2001, С.486

119. Хасбулатов Р. Современная экономика-смешанная экон мика, **Экономика и жизнь,** №22, с 5-10

120. Хоскинг А. **Курс предпринимательства**, М., Междун

родные отношения, 1993, с.352

121. **Художественная культура и развитие личности**, М., 1987

122. Шаталин Е.С. Методологические проблемы анализа народного благосостояния, **Вопросы экономики, №10**, 1980

123. Шевяков А.Ю., Кирута А.Я. **Измерение экономического неравенства**, М., Лето, с.320

124. Шутов И.Н. **Личное потребление при социализме**, М., Мысль, 1972, с.233

125. **Экономика**,/ под ред. А.С. Булатова, М., БЕК, 1997, с.785 (с.335-365)

126. **Экономика:** учебное пособие для вузов / под ред.проф. А.Г. Грязновой и.др., М., Юнити-Дана, 2001, с.822 (с. 491-508)

127. Atkinson A.B., Rainwater L., Smeeding T. Income distribution in European countries. **LIS Working Paper series**, 1995

128. **Jonsumers in Europe - Fajts and Figures**. Data 1996-2000. Theme 3, Population and social conditions, 2001, p.23

129. Lujic Laliberte. Income from Bonds: Treatment in the System of National Accounts 1993. **IMF Working Paper 02/221**, December 2002, p. 29

130. Kenichi Ueda. Implications of Migration on Income and Welfare of Nationals. **IMF Working Paper/02/215**, December 2002 , p. 29

131. Matanuska-Susitna Borough. **Population, employment, earnings and personal income trends.** Sonoran Institute, 2002, p.27